RƏNA ƏLYAR

# ŞƏHİD CEYHUN DASTANI



RƏNA ƏLYAR

Azərbaycan Diplomatik Akademiyası Universitetinin kitabxanasına müəllifdən; Ceyhunu oxuyun, oxuyun ki, xatırlayasınız, xatırlayın ki, unutmayasınız! 30.05.2023.

# ŞƏHİD CEYHUN DASTANI

ESSE

BAKI – 2022

tel: 050.489.77.77.

**Redaktor:** Xan Rəsuloğlu
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
şair, yazıçı

**Rəyçi:** Məmməd Qoca oğlu Qocayev
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi

Kitabda şəhid Ceyhun Şalıyevin anası – Sədaqət Şalıyevanın naləsini, ürək yanğısını qələmə alan şəhidin xalası Rəna Əlyar qızı Məmmədova yeri gəldikcə öz kövrək duyğuları ilə ananın yanan qəlbinin naxışlarını cızmışdır.

Şəhid Ceyhunun – Əfsanəvi Ceyhunun taleyinə vurulan naxışlar haqqında publisistik və poetik yazılarla da kitabda tanış olacaqsınız.

© Rəna Əlyar, 2022

# ŞƏHİD CEYHUN DASTANINA GÖZ YAŞIM

Ceyhun Şalıyev işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda – İkinci Qarabağ müharibəsində Şəhid olan 3000 igid oğlumuzdan – qardaşımızdan biridir. O, torpaqlarımızın işğal altında qalmasına dözməyən minlərlə igidimizdən, səfərbərlik elan edilən günü cəbhəyə yollanan gənclərimizdən biri idi. Müharibəyə gedən ölümü gözünə alıb gedir: "ya Qazi, ya da Şəhid olacam. Namusla, şərəflə vuruşacam" – deyə and içən oğullardan biri olub. Uca Allah onun qismətinə 26 yaşında Şəhidlik taxtı yazdı. Cəbhəyə gedəndən 4 gün sonra (27 sentyabr – 1 oktyabr) Şəhidlik şərbətini başına çəkdi, 44 gün Qarabağ səmasında dolandı və sonra üz tutdu gəldiyi göylərə.

Atası Nüsrət Şalıyev Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. O zaman əliyalın Ordumuz bir şey edə bilmədi və aradan 30 il keçdikdən sonra – İkinci Qarabağ müharibəsində torpaqlarımızı məhz həmin ataların oğulları işğaldan azad etdilər – qanları, canları bahasına.

Haqqınız ödənməz, əziz Ceyhunlar!

Ceyhunun tərcümeyi-halına nəzər salıram: orta məktəbi əla qiymətlərlə bitirib, ali təhsil alıb, gözəl rəssamlıq qabiliyyəti

varmış, bacarıqlı idmançı olub... Bir sözlə, zəkası, biliyi ilə hamının qibtə etdiyi, fərəh duyduğu oğul olub. Bütün ömürlüyü bu kitabda səhifələnib. Tanış olduqca qürurlanacaqsınız ki, bəli, torpaqlarımızı düşmən tapdağında məhz belə oğullar azad edə bilərdi.

Qarşınızdakı bu kitab Ceyhunun Anasının – Sədaqət xanımın dili ilə yazılıb. Xalası Rəna müəllimə yazıb. Başdan-ayağa ağıdır, fəryaddır, hıçqırıqdır, nalədir, göz yaşıdır, dünyaya üsyandır. Ceyhunun keçdiyi həyat yolunu, Vətən məhəbbətini, sevdalı günlərini, dost-yoldaş arasındakı hörmətini, ləyaqətini, etibarını, ata-ana sevgisini, xalaya, dayıya olan mehr-məhəbbətini muncuq kimi sözə düzüb. Düzü, birnəfəsə oxumaq olmur, 220 səhifəlik dərddən naxışlanmış essedir: yaralı, bayatı düzümlü. Mərsiyyənin nəzmlə yazıldığını bilirdim, amma onun nəsrlə yazıldığını ilk dəfə Rəna xanımın bu nakam taleyə həsr etdiyi yazısında – kitabında gördüm. Esse də demək olar, amma yox, ağıdır, mərsiyyədir. Müəllifin – "Bu, yatdım, durdum, ağacdan başıma alma düşdü və qeybdən ağlıma fikir gəldi kimi bir şey deyil... Yazdığım hekayəni yaşadım, sonra yazmaq qərarına gəldim" – bu cümləsinə ağlımın, ürəyimin harasındasa yer etmək istədim, tapa bilmədim: Rəna xanım, sizin böyük qəlbiniz, qoymağa yer tapmadığınız ürəyiniz məni heyrət içində qoyub. Nə ağır karvana sarbanlığı boynunuza çəkmisiniz. Bir ömür boyu sizi tərk etməyəcək bir sızıltının, odun-alovun içinə atmısınız özünüzü. Dərdə bu qədər şəriklik çox ağırdır, 32 ildir mən də belə bir yükün altındayam. O dərd yükünün səndən qopmağına da qıymırsan.

Rəna xanım ailələrinin Ceyhun ağrısını ona görə anasının dili ilə yazıb ki, ana, bəlkə, bir hovur sakitləşə, Ceyhun dərdinin daha dərd yox, tarix olduğuna toxtaqlana, əgər mümkünsə, bəlkə, zaman hər şeyə məlhəmdir.

Ceyhunun tərcümeyi-halından bir hekayət düzüb-qoşub orta məktəb dərsliklərinə salmaq lazımdır. Yeni nəsil öz qəhrəmanını daha yaxından tanısın. Ləyaqəti, igidliyi, Vətəni sevməyi, torpağı qorumağı ondan, onun kimi igidlərdən öyrənsinlər.

Əziz Ceyhun, Ana torpağın qoynunda rahat uyu, sən bu xalqın, türk qövmünün qəlbində, ruhunda əbədi yaşayacaqsan, sən ölməzlərdənsən, And yerimizsən.

Ülvilər sırasındakı ruhun mübarək, ölməz Ceyhun!

**Almaz Ülvi,**
Filologiya elmləri doktoru

# ŞƏHİD CEYHUN DASTANI

*Atalar-analar, övladlarınız sizdən*
*dastan, nağıl istəyəndə;*
*babalar-nənələr, nəvələriniz sizə*
*"Can nənə, bir nağıl danış!" deyəndə*
*ən yeni tarixdə yazılan*
*"Şəhid Ceyhun dastanı"nı danışın.*

*Hər insanın öz taleyi,*
*hər taleyin öz ömür yolu var.*

Həyat nə qəribədir, deyilmi?! Kimin ağlına gələrdi?! Mən qırx il düşünsəm, ağlıma gəlməzdi, heç ağlımın ucundan belə keçməzdi ki, gün gələr, Şəhid haqqında yazı yazmaq üçün əlimə qələm alaram. Özü də bacımın Vətən müharibəsində Şəhid olan balası haqqında. Bu, yatdım, durdum, ağacdan başıma alma düşdü və qeybdən ağlıma fikir gəldi kimi bir şey deyil.

Öz-özümlə baş-başa qaldım, düşündüm. Başımdan keçənləri kağıza köçürmək istədim. Duyğularımı kəlmələrlə anlatmağa imkan yoxdur, ancaq yenə də çalışacağam ki, müəllif təxəyyülümün ağır, gərgin gücü sayəsində demək, danışmaq istədiklərimi sizə qələmin köməyi ilə yazaraq çatdıra bilim.

Bu kiçik əsərimin Böyük qəhrəmanı CEYHUNdur. Söz açmaq istədiyim insan hər hansı bir övlad-oğul deyil. Söz açmaq istədiyim, sözün həqiqi mənasında, insanlığı ilə, övladlığı ilə bənzəri olmayan Ceyhundur!

Ceyhundan yazmaq qərarına gəldim.

İnsanların bəziləri danışmaq istədiklərini, anlatmaq istədiklərini müxtəlif üsullarla kütləyə çatdırırlar. Mən də ürəyimdəkiləri ağ kağıza tökməklə, yazmaqla hələ həyatda bişib bərkiməmiş Ceyhunu həssas oxuculara etibar edərək anlatmaq qərarına gəldim. Ceyhundan yazıram, Ceyhunu anladıram və tanıdıram ki, tanısınlar. Oxucu tanısın ki, Vətənimizin belə fəxr ediləsi Oğlu var. Bir də deyirəm ki, kaş Ceyhunu insanlara belə tanıtmayaydım, kaş insanlar Ceyhunu belə tanımayaydılar. Kaş insanlar Ceyhunu tam əksinə olaraq, tam fərqli rakursdan tanıyaydılar və ya tanıdaydım. Ceyhunu ədaləti müdafiə edən, daha ədalətli, vicdanlı, mərhəmətli, ədalətin üstünə ləkə düşməyə, ədaləti ləkələnməyə qoymayan dürüst və təmiz peşə sahibi kimi tanıyaydılar. Ceyhunu hakim formasında məhkəmə salonunda vicdanının səsini dinləyən, ədalətli hökm çıxardan hakim, ədalət qarşısında da mühakimə edilən, müttəhim kürsüsündə ədalətli hökmü dinləməyə hazır olan müttəhim və ya daha çox istədiyi, arzuladığı və hərdən çox böyük həvəslə hakim otağının interyerini təsvir etdiyi kimi: hakim otağında əyləşən, gözünün qabağında masasının üstündə – sol tərəfində Femida tərəzisi yellənən, bir də sağ tərəfində ədalətə üz tutan





insan talelərindən bəhs edən qalaqlanmış sənədlər, qapıda da, həqiqətən, inandıqları və əmin olduqları ədalətli, adil, vicdanlı hüquqşünasın qəbuluna girmək üçün növbə gözləyən insanlar. Mən peşəsi üzrə işləsəydi, görmək istədiyimiz belə bir ədalətli hüquqşünas şəhiddən – Ceyhundan yazmaq qərarına gəldim. Qələm sahibi olmasam da, yazmaq qərarına gəldim. Deyirlər ki, qələm görən işi qılınc görə bilməz; bir də ki, qələm yazanı qılınc poza bilməz. Bu hekayəni qəhrəmanımın tarixdə, kitablarda, ürəklərdə yaşaması və qalması üçün yazdım. Yazdığım hekayəni yaşadım, sonra yazmaq qərarına gəldim. Və bunu özümə mənəvi borc bildim: həm mənəvi, həm də vəfa borcu. Və qəlbimdən gələn bir səs dedi, yaz! Bir səs dedi, dərdini sözlərinə töküb iti, içi qanla dolu olan qələminlə yaz!

Allah mənə bu işdə kömək olsun!

Yaşadığımız XXI əsrin 20-ci ili fərqliliyi ilə tarixdə iz buraxdı. Və bu ili, bu ildə cərəyan edən hadisələri qələmə almaq da yazarların, tarixçilərin öhdəsinə düşdü. Bu gün yazarlara, onların sənətinə, qabiliyyətinə, qələminin gücünə yaxşı mənada qibtə etdim. Söz sənətinə xidmət etmək, söz xiridarı olmaq, söz əkmək – qələm əhli olmaq, böyük istedad və bacarıq sahibi olmaq, zəngin dili olmaq, geniş dünyagörüşü olmaq deməkdir. Qələm əhli olmaq, özünəməxsus bədii yazı üslubu, təxəyyülü olmaq deməkdir. Qələm əhli olmaq, söz sənətinə xidmət etmək, dərin təfəkkürə, geniş fantaziyaya malik olmaq və zövqlü biri olmaq deməkdir. Söz sənətinə xidmət etmək, hadisələrin içində olmaq, hadisələri duymaq, onları yaşamaq deməkdir. Onda yazdığın mövzu, yaratdığın əsər, əsərdəki obrazlar daha yaradıcı, daha inandırıcı, daha canlı olur. Qələm əhli olmaq, ən vacibi də, heç kəsi təqlid etməməkdir. Təfəkkür əhli olan kəslərin qələminin məhsulu həm də onların özlərini yaşadır. Kaş

mən də bir yazıçı olaydım, kaş məndə də yazmaq qabiliyyəti olaydı... Fikirləşdiklərimi, düşündüklərimi, arzularımı olduğu kimi, nöqtəbənöqtə insanlara – oxuculara çatdıra biləydim. Həyatın, təbiətin sərtlik yükü və gözəlliyini, insanların sevincini və kədərini duymaqda onlara köməklik edəydim... Deyirlər nəsr əsəri yazmaq, şeir yazmaqdan daha çətindir. Bilmirəm... Bir onu bilirəm ki, qələm əhli olmaq, yazmaq yaradıcı bir işdir. Bir də onu bilirəm ki, belə acı və qara taleyin şahidi olmaq və onu qələmə almaq daha çətindir. Elə də yüksək yaradıcı qabiliyyətim olduğunu deyə bilməyəcəyəm. Və buna baxmayaraq yazmaq qərarına gəldim.

Bir göy üzünün, eyni səmanın altında yaşayan insanlar hamısı eyni deyil. İnsanlar kitab kimidir: hərflər eynidir, məzmun fərqlidir. Həyat danılmaz və hikmətli bir kitaba bənzəyir. Və yaşadığımız həyat keşkə kitablardakı kimi olaydı, arzuladığın, görmək və yaşamaq istədiyin kimi gəlib-keçəydi. Bir də axı, kitablar insanların yaşadıqları fərqli talelərin qələmə alınmasından yaranır, elə deyilmi?! İnsanlar dünyaya gələndə taleləri bir-birinə bənzəyir. Müqəddəs məxluq olan ata-analar, doğmalar, yaxınlar onların həyata gəlişinə sevinir. Dünyadan gedəndə isə başqa-başqa talelərlə köçürlər. Təəssüflər, kədərlər, ölümlər də cürbəcür olur... Bəzi həyat hekayələri xoşbəxtlikdən yaranır, yazılır və insanlara nümunə olaraq təqdim olunur, bəziləri isə çox acı, ağır olduğundan yazılır. Bu səbəbdən də insan taleyindən bəhs edən həyat hekayələri insanların özləri kimi fərqli olur, bir-birinə bənzəmir. Həyat hər kəs üçün fərqli yaşanır. Hər kəs həyatı özü bildiyi, anladığı və bacardığı kimi yaşayır. Hər kəs öz fərqliliyi ilə həyatda yaşayır. Bir də ki...

Həyat bəzən adama elə bir dərd verir ki, gözlərin kor, qəlbin qan olur. Kimsədən kömək istəyə bilmirsən. Bu dərd qarşısında





əlacsız qalırsan və sadəcə olanı, o, Gözəgörünməz tərəfindən göndəriləni qəbul edirsən.

– Necə?

– Kədərlə, acıyla, göz yaşlarıyla.

Həyatdır. Həyat davam edir. Səninlə mənim gələcəyimiz nə qədər ümidsiz görünsə də, həyat davam edir. Həyat ancaq bir az laqeyd və soyuqqanlı insanlar üçün, bir də xoşbəxtlər üçün sakit görünə bilər. Həyatın üzü Ayın üzü təki soyuqdur. Di gəl, əl uzat görüm necə uzadırsan. Aya paxıllığım tutur bu axşam. Ay işıq saçır, göydən yerə yol gəlir, deməli, yaşayır. Bax, Ayın yaşamağına belə qibtə edirəm. Bir məna var onun da yaşamağında. Ancaq insan üçün bu keşməkeşli həyatda yaşamaq elə də göründüyü kimi asan deyil. Hər kəs üçün də laylaylı həyat yoxdur. Gələcəyə gedən həyatın yolları çox enişli-yoxuşlu və daşlı-kəsəklidir. Öz dünyasında sakitcə mücadilə apararaq yaşayan ədalətli, qanunpərəst Ceyhun üçün də asan olmadı belə mövqeyə gəlib çatmaq, elə yaşamaq özü də. Bu həyatda qarşımıza çıxan çətinliklər bizə təbii gəlməlidir. Bəzən əl uzatsan çata biləcəyin bir məsafəyə getməkdən ötrü dağı-daşı dolaşmalı oluruq. Bu yolda uçurumlar da olur, qara, borana, çovğuna, leysana, doluya da düşürük. Həyat burulğanında boğulmamaq, ölməmək, yaşamaq üçün var qüvvəmizlə mücadilə edirik. Bu həyatda insan oğlu ən çətin dediyin şəraitə belə alışır və dözür. Müəyyən vaxtdan sonra dilədiyimiz xoş günlərimizə qovuşuruq. Bu həyatda insan istədiyi hər şeyə gec də olsa nail ola bilir. Bunun üçün səy göstərmək, cəhd etmək, zəhmət çəkmək və istədiyinə şəkk etməyərək inanmaq lazımdır. Bu yolda insanlar qabaqlarına çıxan şirinləri də, acıları da dadırlar. İnsanlar, ələlxüsus da gənclər həyatı kimlərinsə sözlərindən və ya kimlərinsə həyatına baxmaqla öyrənmirlər, özləri yaşayaraq öyrənir-

lər və öyrənməlidirlər. Yalnız qəhrəmanlığı müzakirəyə qoymadan örnək olaraq öyrənirlər. Həyat belə deyil məgər?! Həyat bu deyilmi?!

Və insan doğulduğu gündən qundağa deyil, kəfənə bükülür, beləliklə, doğulduğu gündən ölümün növbəsinə dayanır. Və insan yaşadığı müddətcə əldə etmək istədiyi hər şeyə çatmaq üçün getdiyi yolda özü də anlamadan, hiss etmədən, ən ümdəsi də istəmədən günbəgün ölümə yaxınlaşır və bunu heç düşünmür. Ölüm haqqında düşünmək heç kimin ağlına belə gəlmir. Ölüm hər bir insanla həyatın hər anında onunla birgə addımlayan yol yoldaşıdır. İnsan bu cığırla son mənzilə doğru gedir... Ölümün də, görünür, öz yazılmamış qanunları var, vaxtı, icazəsi var. Odur ki yaşamağın son ucu – ölümdür. Bəli, dünya bir körpüdür – hamı keçəcək, ölüm bir badədir – hamı içəcək, tabut bir atdır – hamı minəcək, məzar bir otaqdır – hamı girəcək.

Həyat nə qəribədir, deyilmi?! Bir andaca hər şey bitir, yox olur. İnsanın son heyrəti olan ölüm həqiqət olur. Ölüm isə insana hər şeyi xatırladır...

Mən də bax belə, sizə unutmamaq üçün xatırlatmaq istədiyim həm acı, həm də fərqli taledən yazıram. Siz tanımadığınız bir acı tale yazısı oxumaq, tanımadığınız bir acı tale ilə tanış olmaq istəyirsinizsə, bu hekayəni oxuyun. Sizə xəyal belə etmədiyiniz, gördüyünüz, tanıdığınız, dost, yoldaş olduğunuz insanlardan deyil də, eşitdiyiniz, oxuduğunuz mövzulardan heç deyil, kədərli bir tale, yarımçıq və nakam qalan bir ömür, tamamlanmamış bir həyat hekayəsi anlatmaq istəyirəm, oxunmamış fərqli və canlı bir kitab haqqında danışmaq istəyirəm. Ölülərdən deyil, ölü sözlərlə heç deyil – Rusiya Federasiyasının Voronej şəhərində yaşayan və beş nəfər ailə üzvündən ibarət olan azərbaycanlı Şalıyevlər ailəsinin ortancıl övladı, 2015-ci





ildə Bakı Dövlət Universitetinin məzunu, hüquqşünas CEYHUNUN qara rəngli həyat hekayəsini yazıram. Onun portretini yaradır, tarixdə və yaddaşlarda yaşatmaq üçün ürək yanğısı ilə anladıram və anlatmaq istədiklərimi yazıram. Belə qısa, ancaq çox mənalı və rəngarəng ömür yaşayan igidin həyatını kiçik bir mətndə canlandırmaq çətindir və bu həyatı yazmaqda qələm acizdir. Qəribədir, elə deyilmi?! Bir cavan, bir gənc haqqında belə fikirləşmək, bunları yazmaq və demək nə qədər acıdır?! Bəzən insan həyata gəlir və uzun bir ömür yaşayır, bəzən isə çox qısa bir ömür yaşamaqla əbədi olaraq yaşayır. Belələri dəhşətli və faciəli bir ömür yaşasalar da, könüllərdə əbədi məskən salırlar. Sizcə, bu dünyada yanmadan sönən varmı?!

... Qəribə görünsə də, həqiqətdir: açıq və acı bir həqiqət. Acı və gerçək olan bir həqiqət. Ən böyük övlad acısı olan həqiqət. Çılpaq həqiqətə kəfən geyindirəcək qədər acı həqiqət. İnsanı inandıracaq qədər açıq və acı həqiqət. Bu olmuş, yaşanmış həqiqətdir. Bəlkə, düşünürsünüz ki, nağıl danışıram sizlərə. Yox, bu, nağıl deyil, həqiqətdir. Bu yaşananlar nağılabənzər həyat hekayəsidir, bu, olmuş, yaşanmış nağıldır. Bundan belə, həqiqətən, nağıla, dastana dönəcək həyat hekayəsidir, həqiqətdir! Elə nağılımın özüdür Ceyhun! Nə zaman ki, Ceyhunumuz olmaz oldu, Onu günlərin bir günü itirdik, dodağında gülüşü, üzündə təbəssümü dondu, bax, o andan nağıla döndü bu Oğlan. Nə zaman ki, bir-birimizdən qopduq, bax, o andan nağıla döndü bu Oğlan. Nə zaman ki, Ceyhunumuzun dərd həsrəti sinəmizdə yandı, bizə həsrət donu biçib getdi, bax, o andan nağıla döndü bu Oğlan. Nə zaman ki, dörd tərəfimiz qəm dənizi oldu, Ceyhunumuz bu yurddan uçub əlimiz çatmayan başqa yurda qondu, bizim gözlərimizdən yaşlar axdı, bax, o andan nağıla döndü bu OĞLAN...

Həyatdan və kitablardan oxuduq, öyrəndik və bilirik ki, dünyaya çox mərdlər, çox igidlər gəlib. Gəlir və gedir insanlar. Zaman keçir. İllər payızı qışa, qışı bahara, baharı yaya ötürür. Həyat heç vaxt qocalmır, təzələnir. Gəlir və gedir insanlar, xatirələri isə yaşayır, təzələnir. Biz tanıdığımız bir Oğlan da gəldi və getdi bu gəlimli-gedimli, bir ucu ölümlü dünyadan. Amma...

Biri vardı, biri yoxdu, Şalıyevlər ailəsində bir Oğlan vardı. Bir Oğul, Oğul deyirəm sizə, vardı və var... Adı heç tanınmasa da, kitaba yazılmasa da, igidliyi, qəhrəmanlığı dillərdə dastan oldu, ürəklərdə yurd saldı, əksi əllərdə gəzdi və sevildi. Onun taleyini eşidənin yadından çıxmadı. Hər gün adını çəkəndə gözlərimizdən yaş axır. Ancaq deyirlər ki, belə igidə ağlamazlar, haqqında rəcəz oxuyarlar. Ancaq ağlamamaq da olmur belə igidə...

Nə isə, keçək mətləbə... Mən ilk dəfə özümü, yazı qabiliyyətimi, qələmimi sınayacağam. Təskinliyi yazıda tapdım. Mən də yazmaq qərarına gəldim. Yazarlar kimi bədii ifadələrlə yaza bilməsəm də, güclü fantaziyaya sahib olmasam da, qələmə aldığım və şahidi olduğum acı həqiqətlərlə dolu olan bu hekayəni yaşadım. Ceyhunun Anasının yanında oldum, ağrını, dərdi onunla birlikdə yaşadım və gördüm. Ananın dağdan ağır dərdini, acılardan acı olan acısını yüngülləşdirməyə, ovutmağa çalışdım. Dedim, bəlkə, Ananın acısını bir az xəfifləDərəm. Bacarmadım. Yazmağı qərara aldım. Düşündüm, necə başlayım, nədən başlayım? Necə yazım ki, Ceyhunu olduğu kimi anlada bilim? Özümü topladım. İlk sətirləri yazmağa başladım, başım dumanlandı, gözlərim yaşla doldu, hərfləri unutdum, sözlər yadımdan çıxdı. Fikirləşdim, fikirləşdim, heç nə yadıma düşmədi. Yox, yaza bilmirəm. Əlimdəki qələm belə titrəyir, qələmi barmaqlarımın arasında tuta bilmirəm, sağa-sola fırladıram, fırladıram, yenə də düz saxlaya bilmirəm. Görəsən, niyə mənə belə acı yazı yazmaq qismət oldu?! Görəsən, Ceyhunun taleyini yaza biləcəyəmmi? Görəsən, Ceyhunu olduğu kimi təsvir edə biləcəyəmmi?! Görəsən, günün hansı saatında yazsam, yaza bilərəm?! Suallar məni düşünməyə vadar edir. Nəhayət, bir neçə gündən sonra özümü yenidən toplayıb, fikirlərimi cəmləyib Ceyhunu yaşatmaq naminə masa arxasına keçdim, qələmi əlimə aldım və yazmağa başladım. Ürəyim, qələmim danışmağa başladı. Ceyhunun acısını yaşaya-yaşaya yazmağa başladım. Birnəfəsə deyil, sətir-sətir, cümlə-cümlə, səhifə-səhifə yazdım. Hər gün Ceyhunsuz yaşanan acıları yazdım. Bu hekayəni yazmaqda məqsədim, ilk öncə, olmayan Şəhid Ceyhunu sizlərə tanıtmaq və Şəhid Anası bacımın "Oğul!" deyib çağırışının, "Balam!" deyib səslənməsinin, "Ceyhunum!" deyib nalə çəkməsinin nə qədər acı olduğunu qələmə almaqdır. Bir də, bilirsinizmi, siz heç Oğul dərdindən göz yaşında boğulan ana gördünüzmü? Allah göstərməsin də! Bax, bütün bu acı səhnələr məni Ceyhundan yazmağa məcbur etdi.

Və Ceyhunun nakam qalmış dünyasına səyahət etmək üçün bir yola çıxdım. Çətin, acı və həsrət dolu bir yola çıxdım. Deyirlər, sən yola çıx, yol özü görünəcək, yol özü yolçuya yoldaşlıq edəcək, yol özü səni ünvana aparacaq, yol özü səni dərdin məkanına çatdıracaq. Elə mən də çıxdığım yolda Ceyhun adlı bir igid yeriyirdi. Özü də ölümə sarı gedirdi. Yol gedirəm və bu yolda yolçu nağılımın qəhrəmanı Şəhid Ceyhun Şalıyev, Ceyhun acısını yaşayan Ana və mənəm – müəllif. Bu yola çıxdım və qələmə sarıldım. Qələm əlimdə, Ana yanımda, Ceyhun ürəyimizdə, yox, yox, yanımızda bu yola baş vurdum. İnşallah, Ceyhunu Ananın anlatdığı kimi, Ananın istədiyi kimi və ən üm-

dəsi, ağıllı Ceyhunu olduğu kimi anlada bilərəm. Bütün bunları bacarmasam da, çalışacağam ki, sizə talelərə bənzəməyən bir taledən yazım, bir həyat hekayəsindən danışım, dillərdə nağıla, dastana çevrilən həyat hekayəsindən, tarixə düşən həyat hekayəsindən yazım. Nağıla dönən həyat hekayəsindən danışım. İnsanlar heyrətlə, dönə-dönə bu olmuş, yaşanmış və haqq yolunda vaxtsız sönmüş həyat hekayəsini oxuyacaqlar, ağlı, zəkası ilə bərabər, igidliyi, şücaəti dünyaya əks-səda verən Ceyhundan, Ceyhunun adından, ünvanından, qəhrəmanlığından bir-birilərinə danışacaqlar.

Mən yazıram...

Mən sizə ürəyimdə tutduqlarımı, başımda bişirdiklərimi, gözlərimlə gördüklərimi kağıza köçürməklə ailəsindən uzaq düşmüş bir gəncin acı taleyini göz yaşları içində anladıram və adı gələndə ürəkləri titrədən Ceyhunun insanlığından, şəxsiyyətindən bir-iki kəlmə söz yazmaq istəyirəm. Dünyada hər şey ölçüyə, nizama tabedir, ölümdən və sözdən başqa. Çünki danışdığımız və ya yazdığımız söz hüdudsuz olan insan idrakının bədii ifadəsi deməkdir. Hər şeyin – daş tökülüb yurd salınan yerin, əkilib-becərilən hər torpağın, gedilən hər yolun, atılan hər güllənin, açılan hər top atəşinin müəyyən məsafəsi var. Lakin idrak üçün, söz üçün nə məsafə, nə hüdud, nə də siqlət vardır. Söz insan qüdrətinin böyük sərkərdəsidir. Sözün qüdrəti hüdudsuzdur. Bu mənada mən də hüdudsuz sözlər vasitəsilə sizə qabiliyyəti, bacarığı, mədəniyyəti və zəkası hüdudsuz şəxsiyyət olan Ceyhundan danışmaq istəyirəm. Mən sizə bir igiddən – Ceyhundan danışmaq və yazmaq istəyirəm. Ceyhundan yazmaq istəyirəm, Ceyhundan! Ucalığa yüksələn Ceyhundan yazmaq istəyirəm. Adı və qəhrəmanlığı dünya ilə bir olan Ceyhundan! İkinci Qarabağ müharibəsində müqəddəs bir yola çıxan





və Şəhid olanların siyahısında adı keçən 2783 nəfər Şəhiddən biri, şəhidlər siyahısında yeganə Şəhid-hüquqşünas Ceyhundan yazmaq istəyirəm. Od kimi işıldayan, ulduz kimi parıldayan və tez də sönən Ceyhundan yazmaq istəyirəm. Bu dünyaya "əlvida!", Şəhidliyə – cənnətə "mərhaba!" deyən Ceyhundan yazmaq istəyirəm. Zəfəri qazanan, ancaq zəfər gününün sevincini yaşamayan Ceyhundan yazmaq istəyirəm. Ölümü ilə ölümsüzlüyə yol açan, adını bir millətin tarix salnaməsinə yazdıran ÖLMƏZ CEYHUNDAN yazmaq istəyirəm. Bu düşüncələri mənə yazdıran hər şeydən öncə Ceyhunun varlığı ilə bərabər, yoxluğudur. Ceyhunun həyatında baş verən fırtına və Ceyhuna dəyən fırtınanın silləsi, bir də Ananın çəkdiyi ağrının, sarsıntının, qəmin, kədərin, yanğının böyüklüyü, çoxluğu, yaranın dərinliyi və acısı məni yazmağa vadar etdi.

Mən Ceyhunu anlatmaq istəyirəm, Ceyhundan danışmaq və yazmaq istəyirəm... Əksəriyyət talelər, həyat hekayələri uzaq diyarlara, ölkələrə gedən qatarlarda başlayan və həyatı bu talelərə bənzəyən Ceyhundan yazmaq istəyirəm. Danışmaq istədiyim bu talenin, bu hekayənin baş qəhrəmanı 26 yaşlı gənc, bir cavan Azərbaycanın üzərinə qara bulud kimi qonan və qara gələn bir payız səhərində, 27 sentyabr tarixində ölümə sarı yük qatarı kimi ağır-ağır gedən qatara mindi və Füzuli stansiyasında qatardan düşdü. Və sonu olmayan, bitib-tükənməyən uzun bir hekayə-dastan yazdı Ceyhun. Özü qəhrəmanlıq tarixi yazdı, adı qızıl xətlə tarixə yazıldı.

Ceyhun ən gözəl həyat, xoşbəxt bir ömür yaşamağa layiq insan, övlad və Oğul idi. Ancaq... Deyirlər, Allah bir quluna bir şeyi nəsib etmədisə, ya xeyirli olmağındandır, ya da daha yaxşısını verəcəkdir, ona yaxşı nə isə bir şey nəsib edəcəkdir. Bir də deyirlər, Allah adama ölümün də qürurlusunu nəsib etsin!

Qürurlu ölüm! Bir də deyirlər ki, Allah hər kəsə gözəl bir həyat, yaşamaq qismət etdiyi kimi, gözəl bir ölüm də nəsib etsin. Adı ölüm – özü gözəl! Bu necə olur?! Necə başa düşək?! Heç mən də başa düşmürəm. Və bir də deyirlər ki, hər şərdə, ziyanda bir xeyir var. Şər olan, pis olan və itirilən – yox olan bir şey necə xeyir ola bilər?! Bu necə məntiqdir?! Heç bunu da başa düşmürəm. Ceyhun üçün də belə deyirlər: Allah Ceyhunun bu dünyadan belə yolla getməsini daha məsləhətli bilib. Ona qürurlu və şərəfli ölüm qismət olub. Ölüm – özü də həm qürurlu, həm də şərəfli...

Bu "şərəfli ölüm" nələr elədi?!

– Nələr eləmədi ki!

Bu "şərəfli ölüm" verən dərdə bax! Bax, bu "şərəfli ölüm" gəlib Şalıyevlər ailəsini tapdı. Əllərindən aldı sevinclərini, məhv elədi arzu-diləklərini. Bu "şərəfli ölüm" bir Anaya övlad dərdi çəkməyi, dil açıb ağı deməyi öyrətdi, dərdli-dərdli ağlamağı öyrətdi, gözlərinə qan saldı. Bu "şərəfli ölüm" Ananı Balasından ayırdı. Bu "şərəfli ölüm" Ananın ürəyində heç bir təbib əlac eləyə bilməyəcək qan axan yara açdı, sinəsində hicran dağı yaratdı. Bu "şərəfli ölüm" bir Anaya qəm dəryasına bataraq məzara qədər yol gözləməyi vəd etdi. Allahın bir Ananın ürəyində 26 il övlad sevgisiylə yandırdığı atəşi, odu, parıldayan ulduzunu bu "şərəfli ölüm" 44 günlük Vətən müharibəsinin 4-cü günündə söndürdü. Ən sonunda bu "şərəfli ölüm" gör nəyi öyrətdi Ceyhuna: "Şərəfli ölüm, şərəfsiz həyatda yaşamaqdan, şərəfsiz həyatda şərəfsiz yaşamaqdan və elə şərəfsiz həyatın özündən yaxşıdır. Şərəfli ölüm şərəfsiz həyatdan qat-qat fəzilətdir".

Düşünürəm... Bir uşağın atası və ya anası ölür, ona yetim deyirlər, bir uşağın ata-anası ölür, ona göy yetim deyirlər, bir





ərin arvadı ölür və ya bir arvadın əri ölür, ona dul deyirlər, ancaq övladı ölən ata-anaya deməyə tək bir kəlmə də yoxdur. Düz deyirlər, sözün bitdiyi yerdir...

Mən də sizlərə deyiləcək sözüm olmayan fərqli bir övlad itkisindən və bir Ana yanğısından, Ana naləsindən danışıram... Anaya hər şeydən şirin olan övlad, Anaya hər şeydən acı dərd yaşadarmış. Bunu da gördük.

Hekayəni – Ceyhunun uşaqlığından Şəhidliyinə gedən yolu Ananın dilindən dinləyin. Bilin ki, qələmimdən süzülüb gələn bəzəyi, boyası olmayan sözlər Ananın ürəyinin içindən gələn sözlərdir, Ana ürəyinin göynərtisidir, Ana ürəyinin yanğısıdır, övlad həsrətilə yanan bir Ana yanğısıdır... Ana Ceyhunundan danışır, ağlayır və Ana Oğlundan çox darıxır... Ana özü Oğlundan danışır. Ananın dilindən yazıram. Oxuyun və ya dinləyin...

Deyirlər ki, insanların qədəri doğulduqları gündən doğulduqları evlərdə və ailələrdə yazılır. Bir də deyirlər ki, övlad dünyaya gələndə necə bir ananın qucağına gəlməsi əsas şərtdir. Bu da qədərdir. Bu nə qədər doğrudur – bilmirəm. Bir onu bilirəm ki, Ceyhunum doğulduğu ta ilk gündən, körpəlik çağından üzü bəri həyat Balama qarşı ədalətsiz və amansız davrandı. Ceyhun Nüsrət oğlu Şalıyev 20 may 1994-cü ildə Gəncə şəhərində anadan olub. Atası Nüsrət Həsən oğlu Şalıyev 1992–1993-cü illərdə Birinci Qarabaq müharibəsində gedən ağır döyüşlərdə iştirak edib. Müharibədən sonra bəzi səbəblərdən ailəmiz Rusiya Federasiyasının Voronej şəhərinə köçdü. Həyatımızı Vətəndən, eldən uzaqdakı bu şəhərdə yaşayırıq.

Ceyhunum doğuldu... Ceyhunum böyüdü, bağça yaşına gəlib çatdı. Yaşıdları kimi 4 yaşında bağçaya getdi. Fərqli övlad, fərqli həyatı olan İnsan. Bağça həyatı bir başqa xatirələrlə dolu olan uşaq...

Ceyhunum əvvəlcə Voronej şəhər 100 saylı uşaq bağçasına getdi. Fərqli uşaq olması elə bağça həyatından başlayır. İlk günlər rus dilini yaxşı bilmir, ancaq birinci sırada düz müəllimənin qarşısında otururdu. Həmişə hər bir işdə birinci olmağı, birinci yeri tutmağı xoşlayırdı və bu yeri qazanmaq üçün, bu yerdə oturmaq üçün səy göstərirdi, çalışırdı. Oğlum heç ikinci olmağı istəmirdi. Ədalətli olaraq deyim ki, birincilik onun haqqı idi. Bağçaya getdiyi ilk günlərdə müəllimə deyirdi: "Hər şeyi anlayır, cavablarını əli ilə başa salır, yazıb-oxumağa səy göstərir"... Az müddət sonra Oğlum hər gün bir nağıl öyrənib bağçaya gedirdi. İlk günlər o, nağıl danışır, müəllimə dinləyirdi. Və daha sonra müəllimənin əvəzinə həmyaşıdlarına nağıllar danışırdı mənim Ceyhunum. Hətta müəllimə bir müddət sonra Ceyhunumun stulunu gətirib öz stulunun yanına qoyur, Ceyhunum müəllimə ilə birlikdə yaşıdları olan uşaqların qarşısında oturur. Bağça müəllimələri, tərbiyəçilər təəccüblərini gizlədə bilmirdilər: bu yaşda uşaq olasan, belə bacarıqlı, qabiliyyətli olasan?! Müəllimə mənə deyirdi ki, Ceyhunu bağçadan götürməyə saat dörddə deyil, saat altının yarısında gəl. O mənə uşaqları idarə eləməyə kömək edir. Biz birlikdə uşaqları yola salırıq və mən övladının dalınca bağçaya gələn hər bir valideynə sizin oğlunuzu göstərirəm, onlarla tanış edirəm, bacarığından, qabiliyyətindən danışıram. Hər gün Ceyhunumu bağçadan götürməyə gedəndə müəllimə mənə bir neçə dənə vərəq verib deyirdi: "Ana, al, bax, gör Oğlun necə və nələr yaradır, necə şəkillər çəkir". Ceyhunum hər gün çoxlu sayda cürbəcür şəkillər çəkirdi. Ən çox çəkdiyi şəkil müxtəlif ölkələrin bayraqları və təyyarə şəkli olardı, özü də, bəlkə də, modeli olmayan təyyarələr yaradırdı. Çəkdiyi rəngarəng şəkillərə və yaratdığı əl işlərinə görə müəllimə hər





gün Ceyhunuma bir nağıl kitabı bağışlayırdı, özü öz puluna aldığı nağıl kitabı.

Hələ bağçaya gedən zamandan bütün uşaqlardan fərqlənirdi və məktəb yaşı çatanda o dərəcədə savadlı, hazırlıqlı idi, yazıb-oxumağı səlis bacarırdı, suallara dolğun cavab verirdi ki, bağçada buraxılış olaraq altı yaşlı uşaqlar arasında yeganə mənim Ceyhunum fəxri fərman almışdı. Bu da onun göstəricisidir ki, Ceyhun hələ altı yaşında ikən yaşıdlarından çox fərqlənib: ağlı, savadı, rəvan yazıb-oxuma qabiliyyəti daha yaxşı və daha yüksək olub. Bütün rus uşaqlarının valideynləri narazı qalmışdılar, cırnamışdılar, hətta aralarında Onun fəxri fərman almasına etiraz edən də olmuşdu. Bağçanın direktoru valideynlərə: "Ceyhun özü çalışqanlığıyla, zəkasıyla qazanıb bu fəxri fərmanı" – demişdi.

Ceyhunum uşaq yaşlarında nağıl, şeir yazırdı. Onun yazılarını toplamışdıq. Nəşr etdirmək istəyirdik. Sonra uşaq fantaziyasıdır deyib, elə də əhəmiyyət vermədik, ciddi qəbul etmədik, heç qoruyub saxlamadıq da... On barmağında on mərifət olan Oğul-Balam Ceyhunum belə qabiliyyətli idi!

Ceyhunum böyüyüb boya-başa çatdı. Böyüdü, gəlib məktəb yaşına çatdı. 6 yaşında bütün uşaqlar kimi əlinə çanta alıb məktəbə getdi. Bütün uşaqlar kimi 1-ci sinifə yox, nadir uşaqlar kimi birbaşa 2-ci sinifə getdi.

Beləliklə, Ceyhunum ilk təhsilini Voronej şəhər 73 saylı orta məktəbdə alır. Dünənki gün kimi yadımdadır, ilk dərs günü – sentyabrın 1-də, adətən, hər ilin bu günü keçirilən məktəb tədbirində məktəbin direktoru:

– Şalıyevin anası kimdir? – deyə soruşdu və Anaya, yəni mənə:

– Sizin yeriniz buradır – Keçin başa! – deyərək, mənə oturmaq üçün məclisin yuxarı tərəfində yer göstərdi.

Həmin o gün bütün məktəb – müəllimlər, valideynlər, şagirdlər – bütün ruslar Oğluma və mənə qibtə etdilər. Baxın, "nerusskiy" – adı fəxrlə, qürurla çəkilən, bütün məktəblilərə nümunə göstərilən, yaşıdlarından fərqlənən altı yaşlı şagird budur – mənim Ceyhunum! (Kaş onda da bu günkü kimi texnika olaydı, hər günümüzü yaddaşlara köçürə biləydik və həmin günlərin yazısı əlimdə olaydı)...

Hələ 6 yaşında ikən Ceyhunum mənə–Anaya qürur, fəxr yaşatmışdı. Özü ilə bərabər məni də bir valideyn-ana kimi bütün valideynlərdən fərqləndirmiş, xüsusi hörmət və məhəbbət qazandırmışdı. Həmin gündən mən Oğlumla bax, belə fəxr etməyə başladım. Həmin gün yaşadığım sevinc dünyaya sığmamışdı. Elə bil bütün dünyanı mənə vermişdilər. Fərəhdən ürəyim dağa dönmüşdü, bircə uçmağa qanadım yox idi. Həmin gün çox sevinmişdim, qürurlanmışdım, sevincdən gözlərim yaşarmışdı. Balamı bərk-bərk bağrıma basıb gözlərindən, alnından öpdükcə öpmüşdüm. Bu anlarda qəlbimi dolduran Ana məhəbbətinin hamısını bütün varlığımla Oğluma vermişdim. O gündən Oğlum mənim gözlərimdə böyüdü, böyüdü, altında yüzlərlə insan kölgələnəcək qədər qollu-budaqlı böyük bir çinar ağacı oldu.

Məktəb illəri... Sevinclə, uğurlarla, nailiyyətlərlə və sərgüzəştlərlə bol olan məktəb illəri... Məktəbdə qazandığı elm, bilik, savad və unutmadığı səsli-küylü sinif yoldaşları, hər bir mənada örnək aldığı, dərs aldığı sevimli müəllimləri, hələ zəhimli və tələbkar, ancaq nizam-intizamlı məktəb direktoru, bir də səliqə ilə divarlara düzülmüş müxtəlif cədvəl və şəkillərlə, portretlərlə dolu olan, pəncərələri canlı – təbii dibçəklərlə gözəllik yaradan dərs keçdiyi sinif otaqları, fənn kabinetləri, idman zalı, hətta yeməkxanası belə Ceyhunumun həyatında bəhrələndiyi doğma elm ocağı kimi qalmışdı. Tez-tez məktəbi xatırlayırdı. Heç ağ təbaşirlə yazdığı qara sinif lövhəsini də unutmurdu Ceyhunum. Və hər gün ulduzlu "5" qiymətlərinin sayı-hesabı olmayan, böyük sevinclə valideynlərinə təqdim etdiyi dərs gündəliyini də heç unutmurdu zəkalı Ceyhunum... Rusiya Federasiyası Voronej şəhər 73 saylı orta məktəb Ceyhunumun ömründə yalnız təhsil ocağı kimi deyil, həm də həyat məktəbi kimi dərin və silinməz iz buraxdı. Deyirdi ki, tez-tez yuxularımda görürəm məktəbi (özü gündəliyində yazıb).

Ceyhun məktəb illərində 4–7-ci siniflərdə oxuyarkən məktəb daxilində siniflərarası, Voronej şəhər məktəblərarası və müxtəlif şəhərlərdə fənlər üzrə keçirilən olimpiadalarda uğur və nailiyyətlər qazanmışdır. Ceyhunumun məktəb illərində elminin, zəkasının, zəhmətinin bəhrəsi və göstəricisi olaraq Rusiya Federasiyasının müxtəlif şəhərlərində keçirilən fənn yarışmalarında, fənn olimpiadalarında iştirakı zamanı qazandığı çoxlu sayda fəxri fərmanlar və təltifləri bu gün əlimizdədir, evimizdə ən toxunulmaz guşədə saxlayırıq.

Ceyhunum həm zəkalıydı, həm də qoldan güclü idi. Hələ orta məktəbdə oxuyanda Ceyhunum "əlbəyaxa döyüş" idman növü ilə də məşğul olurdu. Bu mənada orta məktəb illərində idmana getdiyi müddətdə həmişə, hər yarışdan qələbəylə evə dönürdü. O, Rusiya Federasiyasının müxtəlif şəhərlərində keçirilən idman yarışlarında iştirak etmiş, iştirak etdiyi idman meydançalarında qol gücüylə qazandığı saysız-hesabsız qələbələri olmuşdur.

...Və 2007-ci il. Ailəmiz Azərbaycana qayıtmağa məcbur oldu. Ceyhunum həyatına Azərbaycanda davam edir. Ceyhunumun atası avtomobil qəzasına düşdü və biz bu səbəbdən Vətənə döndük. Orada qalmağımız ailəmiz üçün çətin olacağından Azərbaycana gəldik. Yola çıxmağa hazırlaşırdıq. Övladlarımın

– Arzunun və Ceyhunumun sənədlərini almaq üçün məktəbə getdim. Məktəb direktoru və dərs hissə müdiri mənə:

– Ceyhunu verin bizə, yəni burada qoyun qalsın, aparmayın. Qoyun bir il burada qalsın, oxusun, təhsilini burda davam etdirsin, özümüz saxlayacağıq, hər bir ehtiyacını ödəyəcəyik. Biz sizin əmanətinizə – övladınıza gözümüz kimi baxacağıq. Biz Onu yağ içində böyrək kimi saxlayacağıq. Və biz Ceyhunu gələn il – 2008-ci ilin oktyabr ayında öz məktəbimiz və Voronej şəhər məktəbləri adından Moskvada ORT-1 televiziya kanalında yayımlanan uşaq intellektual verilişi olan «Умники и умницы» verilişinə aparaq, yarışda iştirak etsin, sonra özümüz Ceyhunu sizə gətirərik. Məktəbin direktoru davam edir: bu zamana kimi məktəblərimizdə belə savadlı, hazırlıqlı və dünyagörüşlü şagirdimiz olmayıb və hazırkı dövrə kimi o verilişdə şagirdimiz iştirak etməyib. Ceyhun bir şagird kimi verilişin tələb etdiyi bütün kriteriyalara sözsüz cavab verir və həmin verilişdə iştirak etməsi bizim üçün ən münasib namizəddir. Ceyhun həmin verilişdə iştirak etməyə layiqdir. Və inanıram ki, Ceyhun həmin verilişdən də uğurla, qələbə ilə dönəcək məktəbimizə.

Mən belə təklifə nə deyəcəyimi bilirdim:

– Sağ olun, Oğluma belə dəyər verdiyiniz üçün, qiymətləndirdiyiniz üçün, həm də Oğlumu sevdiyiniz üçün. Sizə təşəkkür edirəm... Düzdür, siz mənim Balamın hər bir ehtiyacını ödəyə bilərsiniz, ancaq Ana sevgisini, Ana məhəbbətini, Ana qayğısını, Ana şəfqətini, tərbiyəsini, nəfəsini, Ana istiliyini, doğma ailə mühitini, Ata-qardaş münasibətini Oğluma verə bilməzsiniz, – dedim.

Əlbəttə, Oğlumun saçının telini belə dünyaya dəyişməzdim və dəyişmərəm də. Canımdan da çox sevdiyim, bir anlığa da olsun gözümdən qırağa qoymadığım zəkalı, ağıllı Balamı Rusiyada – qərib eldə, hələ ki, kiməsə etibar edib bir il qoyub necə gələrdim? Gələ bilməzdim, gəlməzdim də, gəlmədim də. Balamı qərib yurdda qoymadım, Balamı heç kimə vermədim. Oğlumu özümüzlə birlikdə Azərbaycana – Bakıya gətirdik.

...2007-ci il. Azərbaycana qayıtdıq. Bakıya gəldik. Ceyhunum 7-ci sinifdən Bakı şəhəri 132-134 saylı məktəb-təhsil kompleksində oxudu, şəhadətnaməsini bu məktəbdə aldı, sonra (məlum səbəbdən: məktəb təmir olunmaq üçün bir müddət fəaliyyətini dayandırır) isə Sabunçu rayon Baxıxanov qəsəbəsi 94 saylı məktəbə gəldi və orta təhsilini bu məktəbdə bitirdi.

Müəllimləri Ceyhunum haqqında danışırlar:

Tarix müəlliməsi deyir ki, Ceyhunla tək məşğul oluram. Biz Ceyhunla çay süfrəsi arxasında otururuq və söhbət edirik. Biz test tapşırıqları həll etmirik, heç buna ehtiyac da qalmır. Biz Ceyhunla tarixi şəxsiyyətlərdən, tarixdə adı qalan cahangirlərdən, tarix yaradan igidlərdən danışırıq. Mübahisə doğuran suallara birlikdə cavab tapırıq. Mən Ceyhunla oturmaqdan ilham alırdım. Fərqli uşaq deməzdim, fərqli insandır, – dedi.

«Память о любимом ученике

Бывших учеников не бывает. Каждый из тех, кого мы учим, уходя во взрослую жизнь, оставляет след в нашей памяти. Джейхун учился в классе, где я вела историю с 7 по 9 класс. Хорошо помню его пытливый взгляд, собранность, любознательность. Он одинаково хорошо учился по всем школьным предметам, но история его интересовала всегда. Отсюда– стремление узнать больше, сверх программы, найти что-то новое, прочесть, поделиться и обсудить прочитанное. У него, ещё подростка, был дар убеждения... Одноклассники его любили за то, что Джейхун никогда никого не обидит, будет стоять всегда за слабого, за его принципиальность.

При всем этом Джейхун рос большим патриотом. Как-то раз мы обсуждали вопрос кто кем хотел бы стать, и я в шутку сказала, что Джейхун – прирождённый юрист, на что он ответил, что хотел бы стать полезным народу человеком.

Джейхун шагнул в вечность, отдав свою жизнь, как тысячи молодых ребят за Правду, за Родину.

Аллах рехмет елясин!»

*Шихамирова Елена Львовна*
*образовательный комплекс 132-134*
*01.02.2022*

Ceyhunumun biologiya müəlliməsi bir neçə dəfə məni məktəbə dəvət etdi: "Ana, məktəbə gəl, gəl sənin üzünü görək", ancaq mən Ceyhunun kiçik qardaşını evdə tək qoyub gedə bilmədim. Bizim görüşümüz baş tutmadı. Nəhayət, bir gün müəllimə evimizə zəng vurdu və mənimlə Ceyhunum haqqında danışdı: əvvəlcə Ceyhunumu çox təriflədi, ağızdolusu təmtəraqlı sözlər dedi ünvanına, hərgah Oğlum haqqında belə tərifli sözləri çox eşitmişdim. Oğlumun tərbiyəsindən, ədəb-ərkanından və ən çox da savadlı, hazırlıqlı olmasından danışdı. Dinlədim sakitcə, bunlar hamısı çağırılmış bayatıdır. Mənim Oğlum onsuz da tərifli Oğlandır. Sonra çox ciddi bir şəkildə məndən soruşdu:

– Ana, mənə deyə bilərsənmi, sən Ceyhununu nə ilə qidalandırırsan, necə bəsləyirsən, hansı dildə danışırsan Oğlunla? Necə olub ki, bu qədər ağıllı, tərbiyəli, əxlaqlı Oğul böyüdə bilmisən?

Düşündüm ki, müəllimə özü Ceyhunumu daha yaxşı tanıyır. Bəs, Ceyhunumu məndən soruşmaqda məqsədi nədir? Ceyhunum haqqında nəyi eşitmək və ya nə öyrənmək istəyir?





Doğrusu, əvvəlcə duruxdum qaldım, boğazım qurudu, mən bilmədim, nə deyim, nə cavab verim. Müəllimənin telefonun o biri tərəfindən gələn nəfəsini eşidirdim, mənim cavabımı gözləyirdi.

– Ceyhunumu bütün analar uşaqlarını necə bəsləyirlərsə, mən də elə bəsləyirəm: əzizləyirəm, saçını-başını tumarlayıram, onu sevdiyimi deyirəm, məhəbbətimi bildirirəm, bəzən qucaqlayıb öpürəm, canla-başla qulluğunda dururam, yeməyinə, səliqə-səhmanına diqqət edirəm, çağıranda yanında oluram, sual verəndə, təhsilim olmasa da, bacardığım, bildiyim qədər sualına cavab verməyə çalışıram. Heç bir sualını cavabsız qoymuram. Kiçik də olsa, imkanımız çatdığı qədər, ehtiyaclarını ödəməyə çalışıram. Əgər istədiyi bir şeyi ala bilmirəmsə, ikinci dəfə həmin şeyi təkrar nə istəmir, nə də üzə vurmurdu mənim anlaqlı və düşüncəli Oğlum. Mən də ona izah eləmirdim ki, niyə ala bilmirəm, niyə yoxdur, heç soruşmurdu da. Sadəcə, bu qədər. Ancaq nə məktəbdə oxuduğu illərdə, nə də universitetdə təhsil aldığı müddətdə bir dəfə də olsun Oğluma "dərs oxu", "dərslərini hazırla" – kimi sözlər deməmişəm. Ceyhunuma belə sözlər demək artıq idi, heç ehtiyac da yox idi. O, kitabla yatırdı, kitabla da dururdu. Onun istirahəti də kitab oxumaq idi. Oğlum deyirdi ki, dünya gözəl bir rəsm əsəridir. Kitab oxumayanlar qısılıb dünyanın bir küncünə baxıb qalırlar. Bu fikri kimdən əxz eləmişdi bilmirəm. Özü isə daima kitab oxuyurdu. Kitablarla birlikdə dünyanı qarış-qarış gəzib-dolanırdı. Elmlə bərabər ədəb-ərkanı da, tərbiyəni də oxuduğu kitablardan öyrənmişdi mənim bilikli intelligent Oğlum. Kitab adamı idi mənim Oğlum.

Müəllimə cavabıma heç bir şərh və ya sual vermədən mənimlə sağollaşdı. Deyəsən, sözlərim onu düşünməyə vadar etmişdi...

«Шехид – звучит гордо!!! Но в тоже время трепетно, нежно.

Я, педагог Джейхуна по биологии – Алиева Л.А. Когда услышала что ОН стал ШЕХИДОМ, я не заплакала, нет. Я сразу вспомнила его лучезарную улыбку, наши шутки с ним, его старания, в том, чтобы убедить меня, что он готов к уроку. Я всегда знала, как он старается и меня это очень радовало.

На моих уроках, ДЖЕЙХУН сидел за второй партой, в среднем ряду, слева от окна. Обратите внимание, как точно всплыла вся картина нашего класса. Всегда аккуратно одетый, внимательный, уважительно относящийся к взрослым и своим одноклассникам. Но чаще всех я вспоминаю его фразу: «Лала Алиевна, я это знаю, я читал». И его счастливую и довольную улыбку, когда я ему говорила: ДА. МОЛОДЕЦ!!!!! ТЫ ПРАВ!!!!!

ДЖЕЙХУН – ТЫ МОЛОДЕЦ!!!!! ТЫ ПРАВ!!!! ТЫ ВСЕМ ЭТО ДОКАЗАЛ!!!! Я НИКОГДА НЕ ЗАБУДУ ТВОИХ БЛЕСТЯЩИХ, КАК ЗВЕЗДОЧКИ, ГЛАЗ!!!! Я ГОРЖУСЬ ТОБОЙ!!!!!»

*Алиева Лала Алиевна*
*образовательный комплекс 132-134*
*05.02.2022.*

İngilis dilini tədris edən müəllimə doluxsunaraq xatırlayır ki: "Ceyhun oxumaqdan, öyrənməkdən dayanmırdı, yorulmurdu, elə hey elmini, bilik səviyyəsini artırmaq üçün hazırlaşırdı. Ceyhun utancaq və mədəni Oğlan idi. Yüksək intellektli Ceyhun bizə gələndə qayınanam və həyat yoldaşım yan otağın qapısını açıq saxlayıb Ceyhunun səsinə, danışığına, cavabına





qulaq asırdılar. Ceyhuna vurğun idilər. Qayınanam tez-tez bizə çay gətirirdi və özü bişirdiyi şirniyyata qonaq edirdi. İlk dərs gününü heç unutmuram. Mənimlə tanşlığa gələndə sual-cavab elədim, cavabları məni qane etdi deməzdim, cavabları məni heyrətləndirdi. Yenə də gedəndə bir mətn verdim ki, tərcümə edib, sabah təyin etdiyim saatda gələrsən. Səhəri günü Ceyhun əlində böyük dəftərxana dəftərində çox səliqə ilə yazdığı tərcümə edilmiş mətni mənə uzatdı. Gözlərini gözlərimə dikmişdi. Mən mətnə baxdım, bir az hirsləndim və Ona ciddi nəzər salıb dedim: – Nədi, məni aldatmaq istəyirsən, gedib mətnin tərcüməsini internetdən köçürüb gəlmisən. Düşünürsən ki, anlamaram. Ceyhun çaşqınlıqla üzümə baxdı, deyəsən, nə dediyimi anlamadı. Sonra:

– Müəllimə, mətni özüm tərcümə eləmişəm, evimizdə də ingilis dilini bilən ikinci bir adam yoxdur və heç bir internet qaynaqlarından, kitabdan, hətta lüğətdən belə istifadə eləməmişəm.

Mən elə həmin dəqiqə Ceyhuna başqa bir mətn verdim, dedim: buyur, tərcümə elə, bu meydan, bu da şeytan! Mən Ceyhunu sezdirmədən müşahidə eləməyə başladım. Ceyhun mətni əlinə aldı, heç bir söz demədən, sual belə vermədən, bir dəfə də olsun başını yuxarı qaldırmadan on beş dəqiqə ərzində tərcümə edib masanın üstünə qoydu. Mətni qrammatik və stilistik yazı qaydalarına uyğun çox dəqiqliklə, səhvsiz tərcümə etmişdi. Düşündüm ki, bu gəncin ingilis dilini öyrənmək üçün müəllimə ehtiyacı varmı? Axı, O bu dili mükəmməl, heç bir qüsursuz bilir və dilin daşıyıcıları kimi sərbəst danışır, hətta dilin daşıyıcılarını belə təəccübləndirə bilir.

Biz Ceyhunla belə tanış olduq. Bizim dostluğumuz belə başladı. Biz Ceyhunla müəllim-şagird yox, həmkar olduq.

Ceyhunla bir dəfə də olsun rus dilində danışmadıq. Ağzımızı açan dəqiqədən ingilis dilində söhbət edirdik, bəzən, çox nadir vaxtlarda, qrammatik qaydaları izah edirdim, tapşırıq eləmirdik. Əksinə, Ceyhun fərdi hazırladığım şagirdlər üçün test tapşırıqları hazırlamaqda mənə köməklik edirdi, testlərin cavablarını da özü yazıb gətirirdi. Ceyhunla xarici qəzet materiallarını oxuyurduq, cavab istənilən yazıya birlikdə cavab yazırdıq, krossvordlar tərtib edirdik və elmlə bağlı krossvord əlimizə keçirdisə, onu birlikdə həll edirdik. Maraqlı və nəşə dolu felyetonlar oxuyurduq və təkrar danışırdıq. Bütün bunlarla birlikdə mətnlər üzərində şifahi və ya yazılı nitqdə qarşımıza çıxan qrammatik qaydaları da öyrənirdik, təkrarlayırdıq. Xarici ədəbiyyatdan danışırdıq. Bilirsinizmi, əsərlərdən yadında qalan obrazların monoloqlarını əzbərdən söyləyirdi. Ona müəlliflərin və əsərlərin adlarını deyirdim. Oxuyurdu, gəlirdi. Mən unutduğum epizodları yadıma salırdı. Çox güclü zehni, iti yaddaşı vardı. Mən Ona fenomen Ceyhun deyərdim. Çox maraqlı insan idi. Ceyhunla danışanda bütün yorğunluğum çıxırdı".

...Uşaq kimi uşaqlığını yaşamırdı. Uşaqlar kimi oyuncaqlara deyil, kitablara meylini salırdı. Gəzmək bilməyən, küçələrdə, parklarda vaxt keçirmək nə olduğunu bilməyən Ceyhunum... Dünyada ən qiymətli amil olan vaxt üçün deyirdi: boş vaxt yoxdur, boşa gedən vaxt var və bu qiymətli, dəyərli vaxtını heç boşa sərf etmədi. Ceyhunum ərklə yaşadığı ömründəki vaxtı kül üfürməklə keçirmədi. Ceyhunum vaxtı öldürmürdü, əksinə, vaxta böyük dəyər verirdi.

Ceyhunum 2011-ci ildə 16 yaşında ən yüksək balla Bakı Dövlət Universitetinin hüquq fakültəsinin rus bölməsinə qəbul olundu (2011–2015-ci illər). Bilirsinizmi, qəbulda yüksək bal topladığı üçün seçim zamanı təkcə hüquq fakültəsinin kodunu





göstərmişdi. Oxuduğu müddətdə də özünü savadlı, bacarıqlı və qabiliyyətli tələbə kimi tanıdır. Təhsil illəri boyunca Ceyhunum ən böyük dəyəri müəllimlərinə verirdi, həyatının hər bir anında onların hörmətini saxlayırdı. Universitet həyatı, hüquq fakültəsi Ceyhun üçün daha doğma, daha əziz bir məkan oldu. Tələbəlik həyatı, tələbəlik illəri – Ceyhunun ömrünün ən şirin və qayğısız çağları idi. Çox böyük uğurla, müvəffəqiyyətlə universiteti bitirir. Hüquqşünas olacaqdı. Hakim peşəsini çox sevirdi. Vəkil olmağı da istəyirdi: ədalətin, hüququn gücünə inanmaq, haqqı, hüququ müdafiə etmək, vəzifə və borclarımızın keşiyində durmaq. Qanunların qanun kimi işləməsinin təminatçısı olacaqdı. Qanundan don geyinən, xəmiri qanundan yoğrulan hüquqşünasın hüquqlarını tapdaladılar. Qanun keşiyində duran, qanunla yaşamağı həyat fəlsəfəsi kimi qəbul edən, qanun dilində danışan, başdan-ayağa qanun olan Ceyhunumu qanun qoruya bilmədi. Bu arzusu da yolda qaldı. Həyat, həyatın qanunları Balamla ədalətli davranmadı...

Uşaqlıq illərində olduğu kimi, tələbəlik illərində də gecə-gündüz kitab oxuyurdu. O qədər çox kitab oxuyurdu ki, Balamın gözlərinə qan gəlirdi. Yalvarırdım ki, bir az az oxu, dincəl, istirahət elə. – "Anacan, mən istirahəti kitab oxumaqda tapıram" – deyirdi. Görürdüm ki, yola gəlmir, dilə tuturdum: "sabah sənə kitab alacağam, işığı söndür, yat!" Nəhayət, yeni bir "kitab alacağam" sözündən sonra Balam yatırdı. Məktəb illərində olduğu kimi, universitet illərində də Ceyhunum həmişə birinci partada otururdu, arxada oturmağı heç sevməzdi və bütün fənlərdən verilən tapşırıqlara hazır olardı. Dərslərdə müəllimlərin hər bir sualına düzgün və dolğun cavabı olurdu, daima sağ əli göydə qalırdı. Əgər müəllimlər onu dərsə cavab vermək üçün qaldırmasaydılar, ondan dərs soruşmasaydılar, inciyirdi,

bəzən də hirslənirdi: mən daha dəqiq cavab bilirdim, mən daha yaxşı danışardım, – deyirdi. Bəzən isə yoldaşlarının verdikləri cavablara əlavələri olurdu...

...Hərdən Bakıya qar yağırdı. Adətən, belə günlərdə qar üzünə həsrət qalan Bakı uşaqlarının şən hay-küyləri səhər-axşam küçələrdən kəsilməyən vaxtlarda, uşaqlar qartopu oynayan, qarın içində yuvarlanan zamanlarda da Ceyhunumun əlində kitab olurdu. Bütün uşaqlar həyət-bacada oynayan zaman o, masanın arxasında oturub əlində qələm kitab oxuyurdu. Nəyisə əzbərləyir, yazır, qeyd edir, işarələyirdi. Kitab oxuyur, gələcəyi haqqında düşünürdü. Hərdən, çox yorulanda, gəlib dururdu pəncərənin qabağında, bir az həyətə – uşaqlara baxır və sonra əl işarəsi ilə mənə bir pürrəngi çay (təzə dəmlənmiş çay içməyi çox xoşlayırdı) gətir, Anacan, deyirdi. Mən Oğluma qulluq eləməkdən heç yorulmurdum, bezmirdim. Əksinə, böyük zövq və ləzzət alırdım. Bəzən də xarici musiqi dinləyirdi. Hansı musiqini sevir, bax, onu bilmirəm, heç soruşmamışam da.

Bir neçə il sonra Ana-Bala həyatda yaşadığımız nostalji günlərimizi yada salaraq, dost, yoldaş kimi həlim söhbət edirdik: lətifələr danışırdı mənə, yaşadığı sərgüzəştlərindən danışırdı, qəhərlənirdik, gülürdük. Bir dəfə yenə kefimizin kök vaxtında tələbəlik illərini xatırladıq, yaşadığımız günləri kino lenti kimi gözlərimizin qabağına gətirdik. Bəzən Ceyhunum tamamilə başqalaşırdı, çox şən olurdu. Ceyhunumla söhbət edəndə nə var tökürdüm, danışırdım, şikayətlərimi də ona edirdim, həm də özüm ürəyimin düymələrini açırdım, qulaqlarım onda olurdu. Bütün varlığımla Oğlumu dinləyirdim. Söhbətlərimiz çox şirin olurdu. Söhbət o yerə çatırdı ki, Ceyhunum auditoriyada baş verən maraqlı hadisələrdən, tələbə yoldaşlarının və özünün başına gələn maraqlı əhvalatlardan danışırdı. Belə söhbətlərimiz





nadir hallarda baş tuturdu. Və yenə həmin xoş günlərimizdən biri idi. Yaxşı yadımdadır, mən: "Tələbəlik illəri Sənin üçün nə deməkdir? Tələbəlik illərini necə yaşamısan? Tələbəlik illərini Sən necə xatırlayırsan, Ceyhunum? – deyə soruşdum, cavabında görün tələbəlik illərini mənə birnəfəsə necə tərif etdi: "Mənim üçün tələbəlik illəri ömrümün ən gözəl çağı olan əziz və sevimli, şirindilli, məlulbaxışlı; səmimi, mehriban, istiqanlı, etibarlı, sədaqətli, səbirli, dözümlü; istedadlı, qabiliyyətli, məharətli; həyat eşqli, səadət arzulu, elmə həvəsli, poeziyaya, şeirə, ədəbiyyata, incəsənətə bağlı, böyük ürəkli-diləkli, susmayan, səngiməyən nəğməli, həzin, məlahətli, şən, səsli-küylü, qayğılı-qayğısız, qaynar həyatlı, sirli-sehirli, bir-birindən maraqlı, qiymətli, dəyərli, sevincli-qəhərli xoş günlü-xoş xatirəli günlər yaşayan; əzablı-əziyyətli, enişli-yoxuşlu zəhmət yollu, gecə-gündüz rahatlıq bilməyən, yazıb-yaradan, bir gecədə yüz səhifə oxuyan; müəllimli-tələbəli, imtahan həyəcanlı; ümmanlar içində üzən arzulu-istəkli; bəzən gözləri sulu, bəzən təbəssümlü; duzlu-məzəli sözlü-söhbətli, deyimli-kəlamlı, davalı-dalaşlı, küsülü, incikli; bəzən dar, bəzən geniş cığırlı-yollu yollar yorğunu; həmişə ehtiyaclı, kasıb, xəsis, bəzən ac, bəzən tox, bəzən əliaçıq, səxavətli olan; dərya qədər dərin, sular kimi sərin, qar kimi bəyaz, təmiz, sərin mehli sabahlı-axşamlı, payızlı-yaylı, qışlı-baharlı, aylı-ulduzlu gecəli, qanunlara tabeli, ədalətli hökümlü; insani keyfiyyətli: nəcib, təvazökar ülvi məhəbbətli, əhdli-peymanlı, əbədi vəfalı, tərlan könüllü, incə ruhlu, ən yaxşı duyğulu-hissli, hərdən həyatdan narazı, eldən narazı, müəllimdən narazı, yoldaşdan narazı, bəzi müəllimə əvəzsiz məhəbbətli, duz-çörək qədər unudulmaz, həyat qədər təkrarsız, ömür qədər mənalı, ürəklərdə, yaddaşlarda sönməz günəş kimi nuru qalan, insana ruh verən, qanad verən, ömürlərdə

izi qalan, saralıb-solmayan, ömrü çiçək kimi təravətli, rayihəli, ətirli, həm güclü, həm də zərif, zəif vücudlu, uca boylu, sərv qamətli, ala gözlü, qara qaşlı, uzun saçlı, gözəl-göyçək və yaraşıqlı, hörmətli, izzətli, nüfuzlu, ağıllı-kamallı, təlim-tərbiyəli, ədəb-ərkanlı, müxtəlif xasiyyətli, müxtəlif təbiətli, parlaq və bəxtiyar gələcəkli, böyük amallı, böyük xəyallı; mənəviyyatca zəngin olan, həyatın özü qədər anlaşılmaz və öz oxşarsızlığı ilə bənzəri olmayan gənclikdir. Ən nəhayət, sonu ayrılıq olan və əbədiyyətə qovuşan tələbəlik illəri!" – dedi və gözlərində özünəməxsus şirin bir təbəssümlə məni süzdü. Ceyhunum belə Ceyhun idi.

Mübaliğəsiz deyirəm, Ceyhunum elə bir tələbə olub ki, bu gün də həmin gün kimi fakültə professor-müəllim heyətinin, qrup və "potok" yoldaşlarının yaddaşında qalıb. Təsəvvür edə bilirsinizmi, Ceyhunum 5 ildir universiteti bitirib. Fakültənin professor-müəllim heyəti Ceyhunumu necə fəxrlə, qürurla xatırlayır; Onun yoxluğuna necə təəssüflənir, məyus olur, necə qəmlənir, kədərlənir; necə gözlərindən qan-yaş tökür?! Bir bilsəniz! Yeri gəlmişkən, fakültənin dekanı professor Əmir müəllim, fakültənin dekan müavini dosent Cabir müəllim, Ceyhunuma dərs deyən professor Şəhla xanım və adlarını çəkmədiyim başqa müəllimləri, qrup və "potok" yoldaşları televiziya kanallarına müsahibə verdilər və Ceyhunum haqqında necə danışdılar: çox böyük qürurla savadından, elmindən, tərbiyəsindən... Və biz Ceyhunla fəxr edirik söylədilər. Ceyhunumun xatirəsini yaşatmaq və gənclərə qəhrəmanlıq nümunəsi olaraq göstərmək adına Ceyhunumun unudulmaz xatirəsinə fakültənin foyesində guşə yaradılıb – "Şəhid Ceyhun Şalıyev guşəsi".

...Ər məktəbi keçməyin zamanı yetişdi. Ceyhunum uğurla ali məktəbi bitirdikdən sonra Vətənə kişi borcunu vermək, ər





borcunu yerinə yetirmək üçün 2015-ci ilin iyul ayında həqiqi hərbi xidmətə yollandı. Bir ay karantin müddətində Lənkəran şəhərində xidmətdə oldu (yeri gəlmişkən, Ceyhunum müddəti hərbi xidmətdə olduğu zaman əsgər yoldaşları ona "Prokuror" deyə, müraciət edərdilər) və sonra Ağdam-Xocavənd zonalarında xidməti borcunu yerinə yetirməyə davam etdi. Bu müddət ərzində Ağdam-Xocavənd ərazisində gedən canlı və qanlı müharibənin şahidi oldu. Və Aprel döyüşləri zamanı 4 gün Ağdam istiqamətində gedən ağır döyüşlərdə iştirak etdi. Həqiqi hərbi xidmətdə olduğu müddətdə bir dəfə mən ölmüş Ana, bir neçə dəfə isə dayısı Ceyhunumun yanına getmişdik. Həmişə həvəslə danışırdı, heç kimdən və heç nədən narazılıq bildirmirdi. Bizə təsəlli verirdi, deyirdi: "Darıxmayın hər şey yaxşı olacaq. Bütün bunlar gəlib-keçəcək. Hələ qabaqda bizi ən xoş, ən gözəl günlər gözləyir. Mən qayıdandan sonra hamımızın həyatı dəyişəcək". Əsgərlik müddətində özündən zəifləri müdafiə edib, kimsənin onların xətrinə dəyməsinə, alçaldılmasına yol verməyib. Hər kəsə hüququnu başa salıb, vəzifəsini anladıb və izah edib ki, bunları bilməyiniz vacibdir. Əgər hüquq və vəzifələrinizi yaxşı bilsəniz gələcək həyatda da özünüzü müdafiə edə bilərsiniz, tələblərinizə və haqlarınıza da nail ola bilərsiniz. Burada hamı eynidir, kimsə kimsədən nə üstün, nə artıq, nə də əskikdir. Heç kim heç kimi incitməyəcək. Hər kəs öz yerini və işini bilməlidir. Heç kim heç kimdən qorxmamalıdır. Kimsə kimsənin haqqına girməməlidir. Bu Vətən hamımızındır. Hər kəs Vətənə öz borcunu özü verməlidir, özü də kişi kimi, ər kimi, ləyaqətlə. Xidmət etdiyi hərbi hissədə əsgərlər arasında ciddi qanun yaradıb, qanunların işləməsinin təminatçısı olub, başdan-ayağa qanun olan Oğlum. Elə hərbi hissədə hər kəs Ceyhunumu çox sevib, hörmət edib və özlərinə arxa, dayaq biliblər...

Ceyhunum müddəti hərbi xidmətini bitirib sağ-salamat evə döndü. Aprel döyüşlərindən heç bir zərərsiz qurtardı, nə yaralandı, nə də öldü Ceyhunum. Allah öldürməsə heç kim öldürə bilməz, – deyirlər. Bu deyim doğruymuş. Bəli, Allah Ceyhunumu o ağır günlərdə qorudu, ölməsinə rəvac vermədi ki, Sən İkinci Qarabağ müharibəsində lazımsan və o müharibədə Şəhid olacaqsan. Alın yazın ürəyində böyütdüyün Vətəni azad etmək olacaq. Allah özü Ceyhunumu həmin məşəqqətli və dəhşətli günlərdə seçdi, qorudu və sağ-salamat saxladı. Allah Ceyhunuma izn verdi ki, gələcək həyatını özü seçsin və seçilmiş olsun! Vətən boyda ürəyi olan Ceyhunum özü ölümünə imza atdı, qismətinə Şəhid olmaq düşdü və qeyrətli Ceyhunum Şəhidlik zirvəsinə yüksəlməyi seçdi və Seçilmiş oldu! Ceyhunum zamanın, dövrün fövqünə yüksəldi. Seçmiş olduğu bu yolda Şəhidliyi, ölümsüzlüyü qazandı! Ceyhunum Şəhidliyə gedən uzaq yolun əbədi yolçularından biri oldu. Ceyhunum Ulu Tanrının və özünün istəyi ilə layiq olduğu ucalığın zirvəsini fəth etdi. Ceyhunum Şəhidlik zirvəsinə yüksəldi. Şəhidlik ən yüksək – son rütbədir. Ondan o yana yüksəklik yoxdur!

2016-cı ilin bir yay səhərində əsgəri xidmətini bitirib evimizə döndü Ceyhun. Neçə-neçə qurbanlar kəsib payladıq, Allaha şükürlər elədik, Ceyhunum bu sınaqdan üzüağ çıxdı, Vətənə borcunu ləyaqətlə verdi, evimizə döndü. Ceyhunum belə ağır sınaqlardan çıxdı. Daha Ceyhunuma ölüm yoxdur, – dedim. Anan Sənə qurban, ay Ceyhunum, bundan sonra həyatını yaşayacaqsan – özün istədiyin kimi. Sən saydığını say, gör fələk nə sayır – deyimini heç bilmirdim də. Sən demə, hər çıxdığın çətin, əziyyətli sınaq addım-addım Səni ölümə aparırmış. Bu dünyaya, insanlara bel bağlayan Ceyhunumu yarı yolda qoydun, fələk, məni də yaman dərdə saldın, fələk. Bundan sonra kim inansın, kim güvənsin sənə, a zalım fələk?!

Sən demə, hələ qabaqda Ceyhunumu ən qara günlər gözləyirmiş. Heç bilməzdim daşın belə ağır, baxtın belə biçarədi, Oğlum. Mən haradan biləbilərdim ki, irəlidə belə qara tale Oğlumu gözləyir?! Mən haradan biləbilərdim ki, bu dünyanın sakinləri olan Oğlumla məni bu dünyada nə gözləyirdi?! Çəkiləcək çiləm varmış mənim. Mən həyatın belə bir üzü olduğunu bilməmişdim. Olmaz dediyin hər şey – nə varsa, hamısı ola bilərmiş, olurmuş. Yıxılmaram deyərsən, yıxılarsan, çaşmaram deyərsən, çaşarsan, ölmərəm deyərsən, ölərsən! Bəli, doğrudur: kimiləri oxuyur öyrənir, kimiləri yaşayır öyrənir. Mən yaşadım, gördüm və öyrəndim.

Ceyhunum həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra əvvəlcə xarici ölkələrin birində magistratura oxumaq fikrinə düşdü, proqram üzrə onlayn (internet üzərindən) imtahan verdi və iki ölkədə: Almaniyada və Kanadada magistraturaya qəbul olundu. Sonra nə düşündüsə, magistraturada oxumaq fikrindən daşındı.

Ceyhunum azad, sərbəst, müstəqil, maneəsiz yaşamaq, yaratmaq istəyirdi. Ancaq və ancaq qəlbindən keçənləri, gözləri gördüklərini, ruhuna uyğun olanları həyatdan seçirdi. Öz zəhməti ilə əldə etdiyindən artığını istəməyə, kimdənsə almağa, havayı nəyəsə nail olmağa adət eləməmişdi. Və zəhmət çəkmədən heç nəyin də daha artığını, daha çoxunu tələb eləmirdi. Zəhmət çəkməkdən də yorulmurdu. Olana qane olurdu. Bir insan kimi diktə ilə yaşamağı qəbahət sayırdı, əskiklik kimi düşünürdü. Hər gününü fərqli və mənalı yaşayırdı. Ceyhunum mənəvi azadlığını ən böyük ideyalarına belə heç bir vəchlə güzəştə getmək istəmirdi. Həyatda öz dünyasının qəribəlikləri vardı, onlarla yaşayırdı. Ceyhunumun yaşadığı dünyanın tava-

nı və döşəməsi yoxuydu. Onun yalnız möhkəm özülü və geniş işıqlı pəncərələri vardı. Həyatın hər üzündən – həm sevincindən, həm də əziyyətlərindən zövq alırdı. Daxilində hissləri çalxalanır, bulanır və yenidən durulurdu. Hüquqşünas peşəsini çox sevirdi. Ancaq özünün istədiyi kimi bu peşədən yararlana bilmədi və peşəsi üzrə işləmək Balama qismət olmadı, özünü peşəsində sübut edə bilmədi. Amma axtarırdı, axtarışlarından bir an belə qalmırdı. Əgər müharibə olmasaydı, Ceyhunumun həyatı necə keçərdi? – deyə təsəvvür etməyə çalışıram. Əlində silah tutmaq əvəzinə bütün bacarığını, istedadını cəmiyyətə, insanlara xeyir verə biləcək işlərə sərf etsəydi, bəlkə də, tanınmış hüquqşünas kimi dəyərli insan, peşə adamı olardı. Öz işinin, sənətinin, peşəsinin peşəkarı idi Ceyhunum. Müdriklərimiz düz deyiblər: həyat kimsəni yarımçıq buraxmaz: kimini acıyla, kimini səbrlə tamamlayır. Mənim Ceyhunumun həyatı çox acı və şərəfli bir şəkildə tamamlandı. Bu həyat tamamlandı, ancaq necə?! Bəzi dərdlər yarım qalmaz, yara qalar, qan sızan yara açar, yaralı qalar. Bax, mənim Ceyhunum kimi: ürəyimdə çox, çox dərin və sağalmaz bir yara açdı, ürəyimi yaraladı...

Ceyhunum daima öz üzərində çalışırdı. Ədəbiyyata sönməz həvəsi vardı. Mütaliəni çox sevirdi. Avropa ədəbiyyatını, xarici müəlliflərin əsərlərini orijinaldan oxuyurdu. Ceyhunumun yol yoldaşı kitablar idi. Həyatının mənasını elmdə, kitablarda, kəlmələrdə tapırdı. Həyatının mənasını oxumaqda, yalnız elmli olmaqda görürdü. Həyatın mənasını həyatda axtarırdı, həyatın mənasını elə həyatın özündə görürdü və Özü də maraqlı həyat yaşayırdı. Bir gününü, bir saatını da olsun boş yerə sərf eləmirdi. Heç bir günü hədər yaşamadı Ceyhunum. Ancaq həmişə nəyəsə, harasa tələsirdi: "Kainatın mənası insanda təzahür olunur" aforizmindən bir vasitə kimi istifadə edirdi. Elmli insan





güclü olur və bunun üçün elmini, savadını artırmaq üçün daima oxuyur, özəl kurslarda müxtəlif kompyuter proqramları öyrənib bitirirdi. Hər dəfə bitirdiyi kursların sertifikatlarını alanda, göstərişləri sevməsə də, çox böyük həvəslə bizlərə göstərirdi. İki dəfə dövlət qulluğunun müsabiqəsindən keçmək üçün imtahan verib və imtahanlardan yüzdə-yüz keçib. Ancaq...

İlk zamanlar iş tapmaq Oğlum üçün çətin olur. Bir neçə fərqli yerlərdə – "Kontakthome" şirkətində və ictimaiyyətlə əlaqə cəmiyyətində işləyir. Son iki il idi ki, "Azercell Telekom" MMC şirkətində işləyirdi. İşlədiyi təşkilatlarda da hörmət qazanmış, uğurları ona yoldaş olmuşdur.

Bu dövrdə biz onun Rusiyaya – Voronej şəhərinə gəlməsini istəmişdik. Gəl, yanımızda qal və burada işlə. Hər yerdə Sənə iş olacaq. Nə qədər dil tökdüksə də, Ceyhunum gəlmədi. Bəlkə də, Allah bilərəkdən bizi həyatda var olarkən ayrı salmışdı ki, sonra biz Ceyhunumun yoxluğuna alışaq və bu ayrılığa, yoxluğa dözə bilək... Deyirdi ki, mən ikinci, üçüncü dərəcəli adam olmaq istəmirəm. Mən Vətənimdə – Bakıda qalacağam. Bakı çox xoşuma gəlir. Bakı çox dəyişib. Bakı gözəl şəhərdir, elə burada da işləyəcəyəm. Mən insanımızı sevirəm. Mən bu torpaqları sevirəm. Mən Vətənimi sevirəm. Mən Vətənimə aid nə varsa, hamısını, hər şeyi sevirəm. Mənim başqa seçəcək və gedəcək bir yerim yoxdur. Mən Vətənimə lazımam və bəlkə də, yaxın zamanlarda çox lazım olacağam... Mənim Vətənimin nə qədər əsrarəngiz guşələri varmış! Mən cunquli – cəngəllik qəhrəmanlarının yaşadığı meşələri cənnət guşəsi sanırdım, xəyalən o ölkələrdə olurdum. Bəzən xəyalımla birgə ürəyim də uçub o yerlərə gedirdi. Ancaq yox. Bu vaxtadək gözübağlı olmuşam, heç Vətənimdən xəbərim olmayıb. İndi başa düşürəm ki, şəninə kitablar yazılan, musiqilər bəstələnən, nəğmələr oxunan

həmin füsunkar gözəllikləri, əvəzsiz təbiəti və on bir iqlimdən doqquzuna mənsub olan, özündə yaşayan, yer mənim Vətənimdir. Mənim Vətənimdən yoxdur!

Ceyhunum, doğulan gündən fərqli insan idi və bu gün də fərqlidir! Ceyhunum hər kəs kimi deyildi. Ceyhunum bir möcüzə idi, Allah tərəfindən göndərilmiş bir möcüzə! Ceyhunum nadir tapıntı idi: həm ailəmiz üçün, həm də hər kəs üçün. O, qeyri-adi övlad – insan idi. Mənim gerçək Oğlum! Ceyhunumu anlatmağa kəlmələr belə yetmir. Deyirlər, Allah da hər şeyi sevgisindən və sevərək yaradır. Allah Ceyhunumu elə böyük sevgi ilə, ürəkdən sevərək yaşamaq üçün yaratmışdı ki... Allah onu tam, bütöv yaratmışdı. Allahın sevimli qullarından idi Ceyhunum! Hər şeydə bütöv olmağa çalışırdı. Bəzən də deyirlər ki, Allah ağıl verdiyi insanlara istedad vermir, istedad verdiyi insanı ağıldan məhrum edir. Ancaq Allah mənim Ceyhunuma hər şey – ən vacib və yüksək insani keyfiyyətləri vermişdi: ağıl, bilik, istedad, təmiz vicdan, mədəniyyət, ədəb-ərkan, abır-həya. Çox savadlı idi, elmli idi, zəkalı idi Ceyhunum. Başı lüğət, ya da belə deyim, ensiklopediya idi. Kim tərəfindən verilməyindən asılı olmayaraq, hər kəsin suallarını qane edəcək şəkildə cavablandırırdı. Ceyhunum çox adil bir insan idi. Sadə insan idi. Ceyhunum yüksək intellektə malik idi. Uzun ömür yaşamaq istəyən, lakin həyat payı qısa olan Ceyhunum rəngini, xasiyyətini və ritmini dəyişməyən musiqi kimi idi. Ceyhunum, ruhumu oxşayan, ruhuma yatan tək musiqi idi. Sağlam və dəyişməz əqidəsi, özünəməxsus xasiyyəti və mövqeyi vardı. Güclü məntiq sahibi idi. Bizim üçün, sevdikləri üçün hər şey edə biləcək böyük ürək sahibi idi Ceyhunum. Ürəyi sevgi ilə, məhəbbətlə doluydu. Gözlərindən sevgi axırdı. Çox mehriban və səmimi idi. Ceyhunum mərhəmətli və anlayışlı idi.





Böyük-kiçik yeri bilən idi. Hər sözünə, hər hərəkətinə diqqət yetirirdi. Maraqlı həmsöhbət idi. Yüksək dinləmə mədəniyyətinə malik idi. Müsahibini çox böyük səbrlə, təmkinlə sona qədər dinləyirdi və sonda öz fikrini deyirdi. Eşitdiklərini, dinlədiklərini və oxuduqlarını – həyatda yaxşı nə vardısa, ürəyinə yatan, könlündə taxt quran əməlləri, fikirləri kompüter kimi başına yığırdı. Səliqəli olmağı sevirdi və buna riayət eləməyə çalışırdı. Ceyhunum qəşəng, həm də zövqlə geyinirdi. Mən onu uşaqlıqdan belə geyindirirdim. Balalarıma, arada, kefimin duru vaxtında məsləhətlər də verirdim. İndi sizin geyinib-keçinən vaxtınızdır. Deyirdim ki, sözünüzə, hərəkətinizə, oturuşunuza-duruşunuza, üst-başınıza fikir verin. Tanış var, biliş var, dost var, düşmən var. Şəhər yeridir, bəzən mənim fikrim min bir işin yanına qaçır. Siz özünüz diqqətli olun, səliqənizi unutmayın. Sizdən söz-söhbət eşitmək istəmirəm. Oğlum heç vaxt ürəyimi sındırmırdı. Oğlumun zövqünə və səliqəsinə söz ola bilməzdi...

Əxlaqlı olmaq onun üçün çox vacib idi və əxlaqi nüfuza səcdə edirdi. Ceyhunumda fitri ədəb-ərkan var idi. Tanıdığı hər kəs onu çox sevirdi. Hamı onun xətrini istəyirdi. Özünə hörmət edirdi və ətrafındakı insanlara da hörmətlə yanaşırdı. Hər kəsin də ona xüsusi hörməti və məhəbbəti vardı. Ona hörmət eləməmək olmurdu. Özündən çox-çox yaşlı adamlar belə Oğlumun hörmətini saxlayırdılar. Ceyhunum həmişə, hər yerdə, hər kəs tərəfindən seçilib və sevilib. Heç vaxt hiylə bilmədi və heç kəsə qarşı hiylə işlətmədi. Riyadan, məkrdən çox uzaq idi. Ceyhunum etibarlı idi, sirr saxlamağı bacarırdı, sirr dağarcığı idi. Ceyhunum şəxsiyyət idi. Yaşı yaşıdlarının yaşında olan, başı yaşlıların başında olan Ceyhunum yaşından böyük kimi ağıllı idi. Onun böyüklüyü qarşısında kiçiklik eləmək olmur-

du. Ceyhunumun başının, elminin dəyəri yoxuydu. Ceyhunum üç dildə – Azərbaycan, rus və ingilis dillərində mükəmməl danışırdı, alman dilini kafi bilirdi, ərəb əlifbasını öyrənmişdi, təzə-təzə yazıb-oxuyurdu ərəbcə. Ceyhunum tarixi hüquqdan, hüququ (qanunları) tarixdən yaxşı bilirdi. Dili zəngin və axıcı idi, təmiz idi. At çapmağı da məharətlə bacarırdı. Ceyhunum yaşamaq həvəsi ilə çırpınırdı. Həyatda hər şeyi: hörməti, məhəbbəti, işi, pulu – dişiylə-dırnağıyla özü təkbaşına qazanmışdı. Özü həyatla mücadilə edərək təkbaşına ayaqüstə durmağı bacardı və durdu. Ceyhunum başdan-ayağa qanun idi. Yaşadığı dünyada heç bir qanun, qüdrət, güc, söz Ceyhunumu öz dünyasından ayırmağa qadir deyildi. Ceyhunum öz dünyasına canla ürək kimi, dillə söz kimi, gözlə işıq kimi bağlı idi. O, dünyasını heç kəsə açmağa, başa salmağa çalışmırdı. Bu zəngin mənəvi dünya yalnız Onun özünə aid və aydın idi. Daima öz ağlının hökmü ilə hərəkət edirdi. Bu illərdə Ceyhunum çox xöşbəxt idi və onun xoşbəxtliyi tək özünə yox, ətrafındakı yaxın insanların hamısına sirayət edirdi. Onun sevincində də yaxınlarının sevinci vardı və hiss olunurdu. Ceyhunum atın üstündə çapmırdı, hər yerə, hər şeyə çatmaq üçün asta-asta gedirdi, irəli gedirdi. Hər səhəri, hər axşamı qrafiklə, planla dəqiq işləyirdi. Bir anını belə boş yerə sərf eləmirdi, itirmirdi vaxtını. Evlənmək üçün həyatının doğru insanını – ağlı ağlına, boyu boyuna uyan xanımını tapmışdı, ancaq doğru zaman, doğru məkan axtarırdı, nə o zamanı, nə də o məkanı tapa bildi. Bu istəyi də gözündə qaldı Balamın...

Ceyhunum möhkəm, müqəddəs və sarsılmaz dostluğun ən bariz nümunəsi idi. Ceyhunum əsil dost idi. Ceyhunum harada olurdusa, hara gəlirdisə, gəlişiylə, sözüylə, ədəbiylə oralara yaraşıq verirdi, oraları işıqlandırırdı. Ceyhunum kamil insan





idi. Ceyhunum mükəmməl bir insan idi. Ceyhunum hər kəsin qarşısında başı yuxarı, dik dururdu, hər kəsin yanında alnıaçıq idi. Ceyhunum yağışdan sonra çıxan Günəş kimi soyuq ürəkləri isidirdi, daş asılan ürəkləri yumşaldırdı. Saymaqla qurtararmı?! – Sən beləydin, Oğlum! Mövlanə deyirdi ki, ya olduğun kimi görün, ya göründüyün kimi ol. Mənim Ceyhunum olduğu və göründüyü kimi idi. Ceyhunum sabit insan idi. Həmişə özü kimi idi. Həmişə özü olub. Həyatda hər kəs, hətta ən məsum adam belə, səhv edə, xəta törədə bilər. Bir də bilin ki, qul xətasız olmaz. Adam oğlu qüsursuz, illətsiz olmaz. Xəta insanda baş verər. Yanılmayan adam yoxdur. Yanılmayan, düşüb-qalxmayan yalnız başımız üstündəki Xudadır. Şübhəsiz ki, Ceyhunumun da qəbahətləri, səhvləri olub. Ancaq kimsəyə zərər verəcək qədər yox. Hamı səhv edər: nə qocası, nə cavanı. Doğruları səhvlərindən, xətalarından daha çox olan Ceyhunum! Oğlum ta gənc yaşlarından üzü bəri insanlar arasında qəbul eləmədiyi sərhədləri keçdi və yaxşı insan olmağı seçdi. Hər şeyin yaxşısına layiq idi Ceyhunum! Özü də yaxşıların yaxşısıydı. Yaxşı insanlar elədikləri yaxşı əməllərə görə Allah tərəfindən mükafatlandırılırlar. Bir də, deyirlər ki, yaxşı insansan deyənə, başına pis bir iş gəlməyəcək kimi bir zəmanət də yoxdur, zəmanət verən də. İnsan heç nədən sığortalanmayıb. Allahın insanlara qəti vədi budur: iman edənlərin və saleh əməl edənlərin bir-birilərinə haqqı və səbri tövsiyə etmələri müstəsnadır. Ceyhunum bambaşqaydı. Ceyhunumun tərifi yoxdur. "Gör analar necə oğullar doğub" – deyimi məhz mənim Ceyhunum üçün deyilibmiş. Ceyhunum, Analar Sənin kimi oğulları tək-tək doğar, o da mənə nəsib oldu. Səndən bir də dünyaya gələrmi? – onu bilmirəm. Analar belə oğulları doğmaz bir daha. Yox, sənin kimi övladdan bir də olmaz, ol-

maz! Ya da sənin kimi oğullar yüz ildə bir dəfə dünyaya gəlir, əsrdə bir yaranır.

Mən – Ana yorulmadan deyirəm, danışıram, Ceyhunumu anladıram: Ceyhunum, Sən ailəmizin başbiləni idin. Sən ailəmizin məsləhət yeri idin. Sən ailəmizin ümid çırağıydın, ailəmizin məşəliydin. Sən ailəmizin qüruruydun. Sən ailəmiz üçün hər kəs, hər şey idin, Ceyhunum mənim! Sən Ananın çəkdiyi zəhmətin, əməyin bəhrəsiydin, ay ağıllı Ceyhunum! Sən mənim vuran ürəyim, gələn nəfəsim, danışan dilim; Sən düşünən beynim, ağlım, görən gözüm, yanan işığım, evimin çırağı, evimin dirəyi, Ceyhunum! Baldan da şirin sözüm, ağzımın şirin tikəsi, gülən, güldürən üzümüydün, Ceyhunum mənim! Bal Balam, gül Balam, gülüm, gülabım mənim. Sən inci çiçəyim, bahar çiçəyimiydin, Ceyhunum! Cənnət çiçəyim mənim. Balaların başı, xalıların naxışı, çiçəklərin qoxusu, güllərin ən gözəl ətriydin, Ceyhunum! Şah balam, Şahbaz balam, Sultan Süleymanım mənim, taxtda padşahım mənim, Everest zirvəm mənim, dağlardan uca dağ Balam, dağım mənim. Ceyhunum mənim rəngli dünyamıydın: Cəvahir ürəkli Ceyhunum, Sən mənim gizli, sirli bir dünyamıydın. Mən yaşadığım dünyanın dəyərini Səninlə birlikdə anladım. Sən bu dünyada olduğun üçün mən dünyanın ən xoşbəxt anasıydım, Ceyhunum. Səninlə dəyərli idim, Sən yaşadığın müddətcə mən özümü dəyərli hiss edirdim. Sənin anan olduğum üçün hörmətli Ana idim, ay mənim nüfuzlu Balam! Səninlə güvəndə idim. Mən ətrafımda, ailəmizdə, həyatda görə bilmədiyim, tapmadığım bütün dəyərləri Sənin gözlərində görürdüm və oxuyurdum, ay mənim dünyam, Ceyhunum! Səndən nəyi isə soruşmağa heç ehtiyac qalmırdı, hər şeyi gözlərin anladırdı mənə, ay gözləri ilə danışan Ceyhunum! Mən Sənin mənə dolu gözlərinlə





dünyaya baxırdım. Mən dünyanın dəyərini Sənin gözlərində gördüm və anladım, Ceyhunum! Ən ümdəsi isə mən Ceyhunumun gözlərinə baxanda yaşama səbəbimi görürdüm. Məni bu dünyaya bağlayan, məni bu dünyada həvəslə yaşadan Sən idin, Ceyhunum! Sən məni yaşadan canımıydın, canım Oğlum! Doğulduğun gündən bu günə Sən mənim həyatda qalma və yaşama səbəbimiydin, dillərə dastan olan Ceyhunum! Sən mənim var olma səbəbimiydin. Sən məndə mən kimiydin. Övladım, mənim canımdan da ötə, övladım. Biz bir-birimizə çox qüvvətli qırılmaz tellərlə bağlıydıq. Varlığınla var olduğum, öyündüyüm, Balam. Mənim gizli bağçamıydın, ay yaraşıqlı Ceyhunum! Sənin adını çəkəndə ürəyimdəki təlatümü görə bilməzsən. Sənin adın gələndə, vallah, dörd yerdən dodağım çatlayırdı. Sən həyatımın mənasıydın. Yox, elə həyatımın özü idin, həyatımıydın! Nə yaxşı ki, həyatımda var olmusan və varsan, ay ağıllı Ceyhunum! Səninlə birlikdə dil açdım, qəlbim Səninlə döyünməyə başladı, Ceyhunum! Sevə-sevə sevdiyim Balam, əzizlədiyim əziz Balam! Sevə-sevə sevdiyim şirin Balam, dediyim sözlər Sənin yanında az belə. Səni nə çox sevdiyimi söyləsəm də, bilməzsən. Desəm, Səni sellər, sular, güllər qədər sevirəm, bəlkə də, azdır, buna inan. Ceyhunum, Səni dünyalar qədər sevirəm! Yox, yox, dünyalar da azdır; göylər qədər, dibi görünməyən fəzalar qədər sevirəm! Dünyaya sığmayan bir sevgim var Sənə, Oğlum! Sən mənim məhəbbətim, sevgim idin. Bax, Sənə olan bu sevgimə, məhəbbətimə inan. Mən sevməyi də, məhəbbəti də Səndən öyrəndim. Sən mənim dağılmayan məhəbbət dünyamıydın. Mən indi bildim ki, məhəbbət nədir, necə sevmək olar övladı. Deyirlər, belə Ana-Bala sevgisini yalnız şairlər şeirlərində vəsf edir. Belə sevgi nağıllarda, filmlərdə olur. Soruşsalar, necə bö-

yük məhəbbətlə biz bir-birimizi sevirik, yəqin ki, nə Sən, nə də mən bu suala cavab verə bilərik. Biz bir-birimizə aşiq idik. Bizim bir-birimizə olan sevgimizin, məhəbbətimizin, vurğunluğumuzun həddi-hüdudu yoxdur. Ana-Bala sevgisimi daha güclüdür, yoxsa Leyli-Məcnun sevgisi?! Bilmirəm, ancaq biz bir-birimizi Leyli-Məcnun kimi sevirdik, bizim sevgimiz Məcnun sevgisi idi, bizim bir-birimizə vurğunluğumuz aşiqlərin bir-birinə vurğunluğundan daha güclü idi. Elə deyilmi, Oğlum?! Məncə, Sən mənim Səni nə qədər çox sevdiyimi bilirsən və görürsən. Bu mənə yetər, bəsimdi. Nə keçmişdə, nə də bundan sonra Ceyhunumla mənim aramızda olan belə sevgi tapılmaz və olmaz. Bir-birimizi bu qədər sevirdiksə, bəs niyə bir yerdə ola bilmədik, hə?! Allah bu sevgini də, məhəbbəti də bizə çox gördü, Oğlum.

Mən Səninlə birlikdə gülürdüm, Səninlə birlikdə də ağlayırdım. Xoş, xoşbəxt günlərimin adı, bəxtəvər günlərimin ünvanı, Ceyhunum mənim! Sən mənə çox bənzəyirsən, Oğlum. Biz bir-birimizin əksiydik. Bilirsinizmi, bir dəfə də olsun biz bir-birimizdən incimədik, küsmədik. Ümumiyyətlə, belə xüsusiyyətlər bizə çox yad olan terminlər idi. Biz bir-birimizin əllərini eyni zamanda sıxırdıq və buraxırdıq. Doğrunu, yanlışı – hər şeyi Səninlə və Səndən öyrənirdim, ay ağıllı Ceyhunum! Gözəl baxmağı, yaxşı düşünməyi Səndən öyrənirdim. Başıma bir fikir gələndə Sənə danışırdım, Səndən soruşurdum. Həyatda ayaq üstə necə qalmağı, işləməyi Səndən öyrənirdim, yaşamaq üçün Səndən güc alırdım, ay ağıllı Ceyhunum! Sənə tutuna-tutuna dərələrdən dağlara qalxırdım, qaranlıqlardan çıxırdım, ay mənim işığım – Ceyhunum! Bütün arzularımı, xəyallarımı Səninlə birlikdə qururdum. Mənim arzu qalam, dilək qalam, Ceyhunum! Bəxtəvər günlərim, ay Ceyhunum! Haqq səsim, Ceyhunum! Qarşısında baş əydiyim müqəddəs məbədim mənim, ağıllı Ceyhunum!

...Biz ailəliklə Rusiyada idik, Ceyhunum Bakıda. Ceyhunum hər gün bir dəfə Mən – Anayla skayp vasitəsilə danışırdı. Danışırdıq, görüş bitən kimi, Ceyhunumun həsrəti başlayırdı. Ancaq bu həsrət tez qurtarırdı, qısa bir müddətdən sonra yenə görüşürdük. İstirahət günləri (həftənin müxtəlif günləri olurdu) isə biz 4-5 saat söhbət edirdik. Kompüteri açan kimi bir işarəylə ona bildirirdim ki, hər kəs evdədir və ya kimsə yoxdur, təkəm. Mənə göz vururdu, gülümsəyirdi, anladığını bildirirdi. Ceyhunum bilirdi ki, onun ac qalmasından çox narahat oluram, ona görə də kompüteri açan kimi: bax, Anacan, yemişəm, içmişəm, toxam, – deyirdi. Oğlumu görən kimi, gözlərimi gözlərinə dikirdim; deməsə də, sezdirməməyə çalışsa da, əhvalının necəliyini başa düşürdüm: ya acdır, ya nasazdır, ya xəstələnib, ya iş yerində nə isə problemi var və ya kimdənsə inciyib, düşünür, mütəəssir olub, kim isə kefinə soğan doğrayıb, kefi yoxdur. Belə pəjmürdə hallarda olanda mən də mütəəssir olurdum. O, susurdu. Yayınmazdı gözlərimdən nə sevinci, nə qəmi. Qayğılanırdım, soruşurdum: niyə belə kefsizsən, qurbanın olum? Bəzən açıqlayırdı məsələni, bəzən də Anacan, boş ver, hər şey düzələcək, deyirdi. Onu da deyim ki, mən Oğluma bir sualı iki dəfə vermirdim. Həvəsi olanda, danışmaq istəyəndə danışırdı, yox, nəyi isə demək istəmirdisə, danışmırdı. Ceyhunum mənə işindən, gəzməyindən danışırdı. Bəzən çox ciddi olurdu, bəzən də uşaq kimi olurdu: deyirdi, gülürdü, həyatda, iş yerində, həyatdə baş verən gülməli sərgüzəştlərdən danışırdı və məni də güldürürdü. Söhbət əsnasında: Anan Sənə qurban, Ceyhunum! – deyirdim. İmkan vermirdi ki, ikinci dəfə bu cümləni təkrar edim. Deyirdi ki, mən sənə qurban olum, Anacan! (Mənə belə

müraciət edirdi). Deyirdim ki, Oğlum, bala anaya qurban olum deməz, ana balaya qurban olum deyər. Ona görə də həmişə kompüteri bağlayandan sonra: Anan Sənə qurban, qurban, qurban ..., – deyə yazmağa davam edirdim. Bilirdim ki, kompüteri açanda oxuyacaq, xoşuna gələcək...

Ana-Bala bizim sirlərimiz vardı – yalnız ikimizin arasında olan sirlər. Və onu da heç kimin yanında müzakirə etmirdik. Bəzi məsələləri mənimlə məsləhətləşdiyi üçün hələlik bunların sirr kimi qalmasını istəyirdik. Ceyhunumla söhbətə başlayırdıq və mən hər şeyi unudurdum. O günü göylərdə uçurdum, sonsuz fəzalara qanad çalırdım, həyatımda, ətrafımda yaxşı, pis nə vardısa, unudurdum. Bütün varlığımla Ceyhunuma kilidlənirdim, ürəyimin düymələrini açıb Ceyhunumu dinləyirdim. Əgər qaz sobasının üstündə ailəmiz üçün nahara və ya şam yeməyinə nəsə hazırlayırdımsa, bir dəqiqə belə vaxt itirməyim deyənə, durub onu söndürməyə getmirdim. Qoy, Ceyhunumla danışım, – deyə düşünürdüm. Bir neçə dəfə qazanımı, çaynikimi yandırmışam. Danışdığımız müddətdə bir an olsun, gözümü Balamdan çəkmirdim. Söbətləşirdik, həyatı bölüşürdük, nəyimiz varsa, bir-birimizə deyirdik. Vaxtın bitməsini heç xoşlamırdım. Oğlumla danışdığım müddətdə özümü dünyanın ən xoşbəxt, bəxtəvər Anası hesab edirdim. Doğrudan da beləymiş. Sən demə mən onda ən xoşbəxt günlərimi yaşayırammış. Eh, nə gözəl günlər idi. Elə bil yuxuda yaşamışam, yuxuda görmüşəm bütün bunları... Bir haşiyə çıxmaq istəyirəm: bu neçə ildə biz kompüterlə danışdığımız zamanlarda Oğlum bir dəfə də olsun mənim qarşımda səliqəsiz, hazırlıqsız olmayıb, yəni qolsuz paltarda və ya yatağın içində oturmayıb...

Ana-Bala məsləhətləşirdik, planlar qururduq. Son zamanlar ən xoş günlərimizin birində maşın almaq istəyini bildirəndə,





düzü razı olmadım. Çünki mən maşından yaman qorxuram. (Yoldaşım avtomobil qəzasına düşəndən sonra heç maşın istəmədim). Gördüm çox həvəslənib, qoy həvəsi qursağında qalmasın, – dedim, yaxşı al, amma əvvəlcə şəhərin kənarında sür, ancaq çox ehtiyatlı ol, Oğlum! Baş üstə, Anacan! – deyib sağ əlini başının üstə qaldırırdı. Bilirdim ki, hərcayi hisslərə qapılan deyil, mənim Oğlum. Deyirdim ki, hər atdığın addım üçün düşün, yaxşı-yaxşı fikirləş, yüz ölç, bir biç, sonra hərəkət elə. Sənin açdığın izlərlə gələnlər var. Son nəfəsinə qədər yadında saxla, bunun üçün Sən cavabdehsən, Oğlum! Bu sözləri deməkdə, məqsədim Kamalım idi. Kamalı düşünsün, Kamala örnək olsun – deyə fikirləşirdim. Ceyhunum mənə deyirdi ki, Anacan, darıxma hər şey yaxşı olacaq: Mənə bir il möhlət ver. Kamalın oxumağını, əsgərliyini, işini fikirləşmə, dərd eləmə. Kamal üçün mənim xüsusi planım var. Onun gələcəyini mən quracağam, mən onun hər şeyinə kömək edəcəyəm. Əsgərliyini də fikirləşmişəm. Onu istədiyi işə də düzəldəcəyəm. Anacan, Mərdəkanda saray kimi bir ev tikəcəyəm (Mərdəkandan çox xoşu gəlirdi), ailəlikcə orada yaşayacağıq. Hamımız bir yerdə, bir evdə. Deyirdi ki, Anacan bizim uşaqlarımızı da sən böyüdəcəksən, nəvələrini sən tərbiyə edəcəksən, onlara bizə verdiyin tərbiyədən verəcəksən. Onda görərəm, sən bizə qulluq eləməkdən yorulacaqsanmı, ya yox? Yoxsa bu günkü həvəsin, enerjin, gücün onda azalacaq...

Qədər deyilən bir şey var. Qul qurar, qədər pozar – bax buna deyiblər. Dağ olsan belə, qədərin önünə keçə bilməzsən. Qədər insanın önünə bir yol açınca, özündən asılı olmayaraq, məcburən o yolla gedirsən. Qədər Oğlumu istədiyi və bildiyi yola göndərdi. Bəli, qələmin yazdığını silə bilərsən, qədərin yazdığını silmək olmaz, bax buna deyiblər. Mən qədərin önünə keçə

bilmədim və belə Oğul itirdim – istiqanlı, ailəcanlı bir Oğul, seviləcək bir Oğul! Qədərin yazdığı və yönləndirdiyi yolda övladımı itirdim. Təkcə Ceyhunumu–Oğlumu itirmədim, mən həm də özümü, həyatımı, Ceyhunlu dünyamı itirdim. Sizcə, bu qədərin adı nədir?! Belə qədəri kor olsun! – deyirəm.

Ceyhunum dünyanı, özünü anlayandan deyirdi: "Sənə, ailəmizə istədiyiniz həyatı yaşadacağam. Anacan, sən istədiyin, dediyin, məsləhət bildiyin üç imkansız, kasıb ailəyə kömək edəcəyəm. Onların insan kimi yaşamasını təmin edəcəyəm. Sən darıxma, Anacan!" Ən böyük arzusu bu idi Balamın.

Bir dəfə yenə də söhbət etdiyimiz zaman danışdı ki, günlərin xoş bir günü dostu ilə metrodan çıxanda metronun qabağında arıq, sısqa, çəlimsiz bir cavan oğlanın yıxıldığını görürlər. İnsanlar çox laqeyd halda oğlanın yanından ötüb-keçirlər. Heç kim ona əhəmiyyət vermir, hətta görmürlər belə. Əvvəlcə Oğlumla dostu da onun yanından ötüb-keçirlər və bir az getdikdən sonra addımlarını saxlayırlar, yox, gəl qayıdaq, görək ona nə olub, bəlkə, bir ehtiyacı var, bəlkə, cibində pulu yoxdur, bəlkə, xəstəxanaya aparmaq lazımdır və s. deyə çox uzaqlaşmadan geri dönürlər. Çatıb, yerdə halsız halda yatan tanımadıqları oğlanı ayağa qaldırırlar və soruşurlar:

– Sənə nə olub?

– Üç gündür acam, yemək almağa da pulum yoxdur, mənə kömək edin, – deyir.

Oğlumla dostu onu yaxınlıqdakı bir yeməkxanaya aparırlar: əvvəlcə yedizdirib-içirirlər, sonra da hərəsi cib xərcliyi olaraq ona pul verir və yola salırlar. Özü boyda ürəyi olan Ceyhunum! Bax, mən belə bir Oğul itirdim – mərd, əliaçıq, yardımsevər, bir qismət çörəyini bölə biləcək bir Oğul!

Mən – Ana, ailəmiz Oğlumla – Ceyhunumla 2019-cu ilin





dekabr ayında görüşmüşdük. Keçən ilin dekabr ayında Ceyhunum məzuniyyət alıb 15 günlük Rusiyaya – Voronej şəhərinə bizim yanımıza gəlmişdi və orada qalmışdı. İşlədiyi dörd il ərzində ilk dəfə idi ki, istirahət – məzuniyyət almışdı. Bu vaxta qədər heç istirahət etməmişdi Oğlum. Özümüz də bilmirdik ki, bu görüş bizim son görüşümüzdü. Sən demə, Oğlum bizimlə vidalaşmağa gəlibmiş, biz heç nə anlamamışıq... O, burada, yanımda olanda bir gün divanda oturmuşdum, Ceyhunum gəlib başını Mən – Ananın dizi üstünə qoydu, bir saat deyim, iki saat deyim, tam yadımda deyil, sakit-səssiz uzandı. Mən Oğlumun başını sinəmə bərk-bərk sıxıb sığalladım, tumarladım, doyunca, yox, əslində, heç doymadım, öpdüm onu, öpdükcə öpdüm, başını, saçını yaladım, qoxladım Balamı. Ürəyini ürəyimə söykəmişdim və sevinc göz yaşlarımı gizlətmək üçün başımı göylərə dikmişdim, nəfəsimi içimə çəkmişdim. Yanımda olduğuna da çox sevinirdim. Əslində, belə hərəkətlərimdən xoşlanmazdı, nə vaxtsa onu öpmək istəyəndə hirslənirdi, başını bulayırdı. Bəzən elə vaxtlar olurdu ki, özü gəlib məni qucaqlayıb öpürdü, boynuma sarılırdı. Bu dəfə tam əksinə bir davranış sezdim Oğlumdan. Mənim hərəkətimə sakit qaldı, etirazı olmadı, bir söz demədi. Mən də öz növbəmdə hərəkətimi belə sakit və razılıqla qarşılamağına təəccübüm olsa da, dinmədim. Ancaq indi isə Ceyhunum nə dinir, nə də danışırdı. Heç nə də demirdi. Heç hirslənmirdi də. Bir müddət sonra Ceyhunum birdən ayağa qalxıb: "Daha bəsdir məni qoxladın. İndi gedirəm dostlarımla görüşməyə. Mən buraya gəzməyə gəlmişəm". Anlamamışdım, deməli, mən Balamı axırıncı dəfə bağrıma basırammış, sonuncu dəfə yanımda görürəmmiş. Allah, necə xoşbəxtiydim onda. Mən çox gec də olsa, hələ indi anladım ki, bir Ananın Oğlunun saçını oxşaması, başını sinəsinə yasdılaması necə xoşbəxt anlar imiş...

Bu dəfə – axırıncı dəfə skaypla görüşümüzdə mənə çox ciddi şəkildə: "Saçın çox ağarıb, Anacan! Niyə saçına rəng qoymursan?" – deyə soruşdu. Mən səni belə görmək istəmirəm, qayğılarının çoxluğundan sən özünü yaddan çıxarırsan, vaxt tapıb özünə də qulluq etməyi unutma, – dedi. Mən də hətta aldığım rəngi belə Oğluma göstərdim və bu gün-sabah qoyacağam, Anan Sənə qurban, – dedim. Ancaq Allah imkan vermədi, başıma rəng qoymağa belə macal tapmadım. Saçımı rəngləmək, beləcə mənə qismət olmadı. Mən Ceyhunumdan gələn qara xəbərlə qaraldım qaldım. Saçlarımı boyamaq üçün aldığım rəng də evdə qalıb çürüyür. Saçlarımsa ağarmaqda davam edir.

Oğlum, bilirsənmi, skaypla o son görüşdüyümüz gün – 19 sentyabr 2020-ci il – həmin o baxdığım, gördüyüm o gözlər, o gözlərdəki baxışlar ağlımda o günkü kimi qalıb. Üzün gözümdən getmir. Sözlərin hələ də qulaqlarımda cingildəyir, Ceyhunum!!!

Bir cavan Oğlan vardı. Ana şəfqətindən, Ana qayğısından uzaq qalan, həyatda təkbaşına həyatın özü ilə mücadilə edən Oğlan, çoxlu xəyalları və həyata keçirməyə çalışdığı arzuları olan Oğlan. Uzaq, çox uzaq bir diyara səfərə səyahətə çıxdı. 26 yaşında düşünmədən bu yola rəvan oldu. Vətən, torpaq uğrunda ailəsindən, sevgisindən, canından, həyatından keçdi – hər kəsi geridə qoydu, hər şeydən vaz keçdi, bu yola rəvan oldu. Bu yolda ya boynuna medal, ya da başından güllə alacaqdı. Qürurlu, mətin, cəsur Ceyhunum könüllü kimi cəbhəyə yazıldı. Bir zəngə Sabunçu rayonu Hərbi Komissarlığına getdi. Bu yolun sonunda ölüm olduğunu bilə-bilə, yenə də getdi. Dayısına, xalasına zəng elədi. Dostlarıyla, qonşularla halallaşıb, sağollaşdı. 21 sentyabr tarixində, Beynəlxalq Sülh günündə İkinci Qarabağ müharibəsinə hazırlıq məqsədilə səfərbərlik elan edildi. Əksər





cavanlar kimi təşkil olunan təlimlərin çağırışına qoşuldu. İlk gündən təlimə getdi. 21–26 sentyabr tarixlərində təlimdə oldu. Yeri gəlmişkən, burada da bir haşiyə çıxım, əsgərlikdə olduğu kimi, hərbi təlimdə olduğu müddətdə də, hələ 26 yaşında çağırışçılar Ceyhunuma "Alim" deyə müraciət edirdilər. Görün, Ceyhunum bir həftə ərzində insanlar – komandir və zabitlər, həmçinin, çağırışçılar arasında münasibəti ilə, davranışı, ünsiyyəti, söhbətləri, fikir və məsləhətləri ilə necə fərqlənmişdi ki, çağırışçılar Oğlumu belə dəyərləndirmişlər. Sonralar bunu onunla birlikdə təlimdə olan və məzarlığa Ceyhunumu ziyarətə gələn bir çağırışçı yoldaşı danışırdı.

Bu dəfə – son dəfə görüş günümüz – bazar ertəsinə düşdü. Ceyhunumun istirahət günü idi. Mən–Ana skayp-kompüter qarşısında çox gözlədim, ancaq Oğlumla əlaqə açılmadı, əlaqəyə girə bilmədim. Bu gün bizim – Ana ilə Balanın – son görüşü olacaqdı, ancaq bu son görüşümüz baş tutmadı. Sonra mən qardaşımla danışdım və mənə agah oldu ki, Ceyhunum təlimdədir. Bu xəbər məni sarsıtdı. Getməz dedim. Ceyhunum mənsiz heç yerə getməz, Ceyhunum mənə demədəm heç bir yerə getməz. Oğlum mənə xəbər vermədən, mənə bildirmədən nə bir iş görər, nə də bir yerə gedər. Biz bir-birimizə söz vermişdik ki, aramızda gizlin heç nə olmayacaq, bir-birimizdən xəbərsiz bir iş görməyəcəyik. Ancaq bu dəfə Ceyhunum məndən xəbərsiz bu yola getdi. Ceyhunum, heç düşünmədinmi ki, Ana sizinlə telefonla da olsa, danışım? Heç düşünmədinmi ki, anamdan soruşum, görüm anam nə deyir, görüm, "dünya bir yana, Ceyhunum bir yana", dediyi Oğlunun bu yola getməyinə necə baxır, məni əlindən buraxmaq istəyirmi, hə? Təlim olsa da, sonu müharibəyə gedir. Təlimdir, müharibədir, nə bilmək olar. Bəlkə, mənə deməyə sözün olardı...

Bu xəbər mənim üçün ölüm qədər dəhşətli idi. Belə xəbər eşidən Ana neyləsin? – Neyləməliydim?!

Ana olmaq necə də çətin və məsuliyyətli şeydir. Ana olmaq övladla birgə böyümək və yaşamaq deməkdir. Ana olmaq, övladla birlikdə ölmək deməkdir. Dünyanın sonu gəlmişdi mənim üçün. Əllərimi canım ağrıyacaq gücdə şappıltı ilə dizlərimə vurdum. Pəncərəni açıb dizi üstə yerə çöküb, üzümü O Böyük Yaradana tutub, gözlərimi göylərə dikib, əllərimi Allahıma sarı havaya qaldırıb – əllərimi Haqqa uzadıb yalvarmağa başladım:

– Allahım, özün şahidsən ki, mən Ceyhunumu çox böyük əziyyətlə, dişimlə, dırnağımla, ancaq sevə-sevə, əzizləyə-əzizləyə, püfləyə-püfləyə göyərtdim, cücərtdim, əllərimdə böyütdüm, çiçəyini hər gün suladım və bitirdim. Övladımın, yəni Ceyhunumun, müqəddəs övlad borcunu yerinə yetirməyinin vaxtı gəlib çatmışdı. Qoy yaşasın, özü də yaşasın, bizi də yaşatsın! Ceyhunum hələ qönçəsi açılmayan çiçəkdi. Allahım, Sən özün bizə bir işıq yolu göstər, Ceyhunum oradan qurtarsın! İlahi, Sən Ceyhunum üçün yox yerdən bir qapı aç, sağ-salamat gətir, çıxart! Ey yeri-göyü, cahanı, bütün canlı məxluqları yaradan Allah, mənim Balama Sən özün kömək ol! Acılar qarşılaşdırılmaz, əlbəttə. Allahım, Sənə yalvarıram, mənə övlad acısı yaşatma! Allahım, Balamı Sənə tapşırıram, Balam cavandır, qıyma! Balama dəymə, qıyma, qıyma mənim Balama, mənim Ceyhunuma! Allahım, öz canımı Sənə mən ananın ağ südü kimi halal eyləyirəm, canımı al, Balama qıyma, qıyma Ceyhunuma! Məni həyata bağlayan, gözlərimə işıq verən övladıma qıyma! Sığınacaq tək yelkənim olan Ceyhunuma qıyma, qıyma, Allahım! Doya-doya baxmağa, danışmağa qıymadığım Balama, əl vurma, qıyma! Allahım, Oğlumu əvvəlcə növcavanlığına, sonra da mənə bağışla, sevdiklərinə bağışla! Sən özün yaratdığın,





verdiyin cavan canı – Oğlumu bağışla! Allahım, halıma acı, mənə yazığın gəlsin, qarşıma çıxartdığın, mənə verdiyin paya, cavan Oğluma, cavan Oğlumun cavan canına dəymə, qıyma! Allahım, Sən mənim göydəki Allahımsan, Ceyhunum isə mənim yerdəki Allahımdır, qıyma Balama, qıyma yerdəki Allahıma! O mənim Tanrımdır, Tanrıma qıyma, can almaq lazımdırsa, mənim canımı al! Allahım, Sən istəsən Ceyhunumun qədərini dəyişdirərsən, ona qıymazsan. Ceyhunuma həyat ver, öldürmə! Allahım, Balamla məni ayırma! Allahım, ayırma bizi! Allahım məni şirin Balamdan ayırma! Bu ayrılığa dözə bilmərəm. Mən bu ayrılığa tab gətirə bilmərəm. Allahım, bizi ölüm qədər böyük bir qorxu olan ayrılıqla sınama, bizi bir-birimizin yoxluğu ilə sınama! Allahım, məni çarəsiz, gümansız buraxma! Allahım, belə cavan yaşında cavan Oğlumu itirmək istəmirəm, ondan ayrı düşmək istəmirəm. Mən Ana ölmüş bu yaşımda belə bir yara almağa hazır deyiləm. Oğlumdan ayrılmağı düşünmək kimi bir düşüncə məni qəhr edir. Allahım, Sən hər kəsin duasını eşidirsən və duası qarşılığında yardım edirsən. Eşit mən biçarə ananın dualarını, Allahım, qıyma Ceyhunuma!

Ancaq Allahım məni ən çox sevdiyim Oğlumla sınadı. Mən Ceyhunumun yanından yel əsməyə, rüzgar keçməyə belə qıymadığım halda, Allahım Oğluma "ölüm" qıymış. Bəzən acıların ən acısı adamın ən şirin yaşına düşür, mənim payıma, taleyimə düşən kimi. Bəzi acılar, ələlxüsus da övlad acısı, dilsizdir, ancaq adamı elə yandırıb-yaxır ki...

Mənim Ceyhunum ölmək üçün hələ çox gənc idi. Övladımın ölümü... Oğlumla birlikdə öldüm mən də... Ölüm var ölüm kimi, ölüm var, zülüm kimi. Allahım, necə zülüm oldu mənə? Deyirəm, bəlkə, həyat bizə oyun oynayır, hə, Ceyhunum? Bəs, Sən necə düşünürsən, Oğlum?

Mən Ana ölmüş Ceyhunum üçün ölümün haradan və haçan gələcəyini belə bilmədən, anlamadan Allahıma yalvarırdım ki, Ceyhunumu qorusun. Bizi ancaq ölüm ayıra bilərdi. Elə də oldu. Oğlumla məni ölüm ayırdı. Xəyal etdiklərim nə idi, necə şirin röyalardaydım, gör, həyatda yaşadığım, həyatın mənə yaşatdığı nə oldu. Mən dərin və qaranlıq bir boşluğa düşdüm. Heç düşünməzdim. Hər şey ağlıma gələ bilərdi, hər şey ağlımdan keçə bilərdi, yalnız Ceyhunumun belə qara taleyini heç, amma heç düşünə bilməzdim. Düz deyirlər, insan yaşadığı müddətdə heç ölümünü və ya ölüm haqqında düşünməz ki! O gün qoca dünya yıxıldı, altında qaldım. Canım dediyim Balam canımı yandırdı. Canım dediyim Balam məni ürəyimdən vurub üzüüstə yerə buraxdı.

...O gün həyatımın ən qaranlıq və qara günü oldu. O günü necə yaşamışam heç düşünə bilmirəm. O müdhiş gecə ən uzun gecə oldu. Səhər açılacağına ümidim yox idi. O gecədən göylərdə uçduğum qanadlarım qırıldı. O gecədən, o andan mənim sifətimə zamanın qara izləri düşdü. O gecə ailəmizdə ağlamaqdan başqa səs eşidilmədi. Ağlaşma səsindən başqa bir səs eşidildi, mən bədbəxt Ananın fəryad səsi...

O gecə də ay doğdu, o gecə də göy üzünə saysız-hesabsız ulduz səpələndi. O səhər də günəş çıxdı, şəfəq saçdı. O səhər də ağaclarda quşlar səs-səsə verib cəh-cəh vuraraq oxumağa başladılar. O səhər də hamı üçün adi səhərlərdən biri oldu, mənim üçün, ailəmiz üçün isə qara səhər kimi qaldı. O səhər mənim yaş dolu gözlərim baxa-baxa açıldı. O səhərə mənim gözlərimin yaşı axdı. Evimizə, başımıza toplaşan hər kəs tutqun görünürdü, hamının üzündə kədər görünürdü. Qadınlar mənə qoşulub ağlayırdılar. Hamı bir-birinə baxıb gözləyirdi. Kimi, nəyi bilmirəm. Bir onu bilirəm ki, həmin gün Mən – Ana ömrümün ən ağır gününü yaşadım. Bu təkcə ağır gün deyildi, həm də ağrılı gün idi. Mən gözümün nurunu itirdim. Mən ağlımı itirdim. Balamın dodaqlarımda ismini deyən xoşbəxtliklə dolu dünyam qaraldı. Düz deyiblər: can ağrısına dözmək olurmuş, ürək ağrısına dözmək olmurmuş. Bax, o gecə Mən – Ana yaşana biləcək ən ağır acıların ən acısını – ürək ağrısını yaşadım, ürək yanğısını yaşadım və yaşamağa davam edirəm. İndi siz deyin, acı çəkməyə öyrəşmək olurmu, acını sevmək olurmu?! Mən Ceyhunumun acısını çəkirəm, özü də necə? Ürəyimin acısının ağırlığını, yanğısını tərif edə bilmirəm. Necə deyərlər, mən yaşadım... ayrılıq, ölüm kimi sözlər yox olsun, analar eşitməsin, heç yaşamasınlar!

*Bütün ata-analar*
*Balaya qurban deyər.*
*Qoçdan-quzudan olan*
*Qurbanı mən az bilib*
*Özümü qurban dedim.*

Ancaq, nələr, nələr oldu...

2020-ci il çox əcaib il oldu. Bitməyən qəribəliklərlə dolu bir il oldu. Qorxu, ölüm dolu bir il oldu. Heç həyəcansız, qorxusuz bir gün belə yaşamadıq. Ağıllara gəlməyən, xəyal belə etmədiyimiz şəraitlə üz-üzə qaldıq. Episentri Çin olan COVİD-19 koronovirusunun gəlişi ilə dünyada pandemiya elan edildi. Bu kiçik virusun gücünün qüdrətinə bax ki, bütün dünyanı lərzəyə salıb. Cəmiyyətdən, insanlardan təcrid olunmuş vəziyyətdə yaşadıq. İndi dünyada tüğyan edən bu xəstəlik ciddi fəsadlarıyla həyatımıza sirayət etdi. Bu xəstəlik o qədər dəhşətlidir ki, qarşısına kimin çıxmasının – nə rütbəyə, nə vəzifəyə,

nə mövqeyə – fərqinə varmır. Bu xəstəlik o qədər dəhşətlidir ki, öləndə belə tək, tənha ölməli olduq. İndi bütün bəşəriyyət üçün, işçi qüvvələr üçün "Böyük tənəffüs" elan edilib, günümüz, həftəmiz, ayımız, iş günləri olmadan, şənbəsiz yaşamaqla keçir. Həyatımızı kabusa çevirən bu virus qarşısında aciz qalan hökumətlər təhlükənin qarşısını almaq üçün qabaqlayıcı, önləndirici tədbirlər görürlər və biz də bir vətəndaş olaraq öz vətəndaşlıq borcumuzu yerinə yetirmək üçün bu tələblərə uymalı, qoyulan məhdudiyyətlərə əməl eləməli olduq. İndi bütün dünya – istəmədən və bilmədən həyatımıza qəflətən xəbərsiz və kosmik sürətlə gələn, həyatımızın içinə, məişətimizə daxil olan – bir kiçik gözlə görünməyən, əllə toxunula bilinməyən, dadı-duzu olmayan, rəngi də bilinməyən, haradan, necə, kimin və ya nəyin vasitəsilə çox, özü də lap çox gücü olan, bütün bəşəriyyəti ağuşuna, cənginə alan, insanlığı qorxu, təlaş-təşviş içində saxlayan, insanların gümanını qıran, yaşamaq ümidini kəsən, insanları (insanlar arasında milliyyətindən, dinindən, dilindən və rəngindən asılı olmayaraq varlı-kasıb, savadlı-savadsız, şəhərli-kəndçi, qoçaq-tənbəl, qoca-cavan – heç bir ayrı-seçkilik qoymayan) – yaşlıları, qocaları, gəncləri, körpə uşaqları evlərə həbs edilməyə məcbur edən, şirin yuxularımızı ərşə çəkən, insanların bir-biri ilə yaxın məsafədən ünsiyyətinin, münasibətinin kəsilməsinə səbəb olan, ictimai tədbirlərin dayandırılmasına və ya təxirə salınmasına, işləmək hüququmuza, toy mərasimlərinə qadağa, yas mərasimləri kimi milli adətlərimizə və dəyərlərimizə məhdudiyyət qoyulmasına, Novruz-Bahar bayram kimi milli bayramımızı adətincə qeyd edə bilməyimizi əlimizdən alan bu virus qarşısında aciz qalmışıq. Bütün İnsanlıq, bütün dünya bu virusla vuruşur. Birlikdə mücadilə etmək üçün hökumətimizdən, televiziyadan, radiodan,





mətbuatdan, sosial şəbəkələrdən gələn, ən ümdəsi isə gecə və gündüz yorulmadan, öz sağlamlıqlarını böyük risk altına alan, bu virusa qalib gəlməyimiz üçün əllərindən gələni əsirgəməyən peşəkar həkimlərimizin, asayişimizi, təhlükəsizliyimizi qoruyan polis orqanlarında çalışan fədakar insanların – "Evdə qal!", "Evdə qal – Salamat qal!", "Evdə qal – Sağlam qal!", "Evdə qal – Sağlam ol!", "Evdə qal – Həyat yaşat!", "Evdə qal – Həyat evə sığar!", "Evdə qal – Ölümlərə səbəb olma!", "Evdə qal, Azərbaycan!", "Masqa tax!" – "Özünü qoru!" – çağırışlarına, dövlət tərəfindən qoyulan məhdudlaşdırıcı tədbirlərə, tələb və tövsiyyələrə bir vətəndaş kimi əməl eləməyə çalışaq ki, virusun başqa insanlara, əzizlərimizə yoluxma riski azalsın! Dünyanın baş bəlasına çevrilən, ölkələrin, şəhərlərin, küçələrin qulaq batıran səssizliyə çevrilməsinə səbəb olan bu epidemiyaya qarşı güclü olmağa çalışaq, bir olduğumuzu, birlikdə olduğumuzu, milli həmrəyliyimizi nümayiş etdirək! Sosial hərəkətliliyi azaldaq! Həkimlərə, polislərə dəstək olaq! Həyat evdən başlayır. Çarə özümüzü təcrid etməklə qorumaqdır. Zərurət olmadığı halda çölə çıxmayaq, sağlam qalaq! Ancaq sağlam qalmaq Sənin qismətində deyilmiş, Oğlum! Dünyanın taleyini sual qarşısında qoyan xəstəlik, bu qlobal bəla üzündən super güclər, böyük və kiçik dövlətlər bir-birindən təcrid olundu. Yollar: – hava yolu, dəniz yolu, dağ yolu, maşın yolu bağlandı, ölkələr arasında gediş-gəlişə məhdudiyyət qoyuldu. Bu da Allahın işidir. Ay Ceyhunum, belə bir həyat yaşamaq qismətimizə düşdü və bu həyatı yaşamaq məcburiyyətində olduq. Sən də bilirsən, Sənə də qismət oldu belə təcrid olunmuş həyatda yaşamaq. Bu səbəbdən Azərbaycana gəlmək çox müşkül oldu. Sən təlimdə olanda nə qədər çalışdıqsa da, hansı qapıya üz tutduqsa, hansı qapını çaldıqsa da, bir yol tapa bilmədik, Azərbaycana – Ba-

kıya gələ bilmədik. Gəlsəydim, nə yolla olur-olsun Səni buraxmazdım, Səni ordan qaytarardım. Kimlərəsə yalvarardım, ayaqlarına düşərdim, rica edərdim. Bəlkə də, belə oldu ki...

2020-ci il qara günləri, qara ayları bol olan il oldu.

MÜHARİBƏ! Lənətə gəlsin bu sözü! Bu sözün nə qədər ağır, dəhşətli və qorxunc olduğunu bilmirdim. Bilirdimsə də, yaşamadığım üçün belə acı olduğunu, belə yandırdığını hiss etməmişdim. Mətbuatdan, sosial şəbəkələrdən müharibə haqqında yazılar oxuyurdum, düşünürdüm. Bütün günü bu fikirlər içində evdən bayıra çıxmırdım, gecəni də yata bilmirdim. Başımın üstündə ulduzlar şöləl覺nirdi. Elə bil çoxdan bunu gözləyirdi, bu sözü deməyə hazırlaşırdı, ancaq dilinə gətirə bilmirdi, dilindən elə bil daş asılmışdı.

Müharibə... Minlərlə fəlakətə səbəb olan müharibə! Torpağın altını üstünə çevirən, talelərlə oynamaq adəti olan müharibə! Vətənimizdə Vətənimizin olum və ya ölüm məsələsini həll edən müharibə. Bu müharibədə arxa cəbhə də var, ön cəbhə də var. Müharibədə döyüş var, həyat var – ölümlə döyüşə girmiş həyat. Bir də ön cəbhədə döyüşən əsgərlərlə birlikdə döyüş zamanı yaralanmış əsgərlər – qazilər var. Müharibədə ölüm də var, yarımçıq qalan həyat da. Və ən sonunda əbədi ayrılıq olan sonsuz həyat da var. Belə həyatları müharibədə, torpaq uğrunda yanan ömürlər üçün əbəs deməyiblər: "İçinizdəki azadlıq duyğuları Sizləri rahat buraxmadı. Sən və Sənin kimi igidlər güllə qorxusundan, ölüm xofundan qormadınız. Və Vətən uğrunda, müqəddəs amal uğrunda mübarizəyə atıldınız. Axı, Siz həyat üçün, yaşamaq üçün doğulmuşdunuz, ancaq Vətən, Torpaq üçün öldünüz. Siz elə bu torpaqda da əbədiləşdiniz".

Müharibə... Ağıllı Ceyhunumun nakam həyat hekayəsini dillərdə dastan eyləyən, ölümünə və qara xəbərinin gəlməsinə





bais olan müharibə... Müharibə başladı: bu sözü eşidəndə neylədin, necə həyəcan keçirdin, nə düşündün, Ceyhunum?! Ceyhunum, hələ bu sözün mənasını bütün aydınlığı və ağırlığı ilə dərk etməmişdin. Əstəğfurullah, unutmamışam, Ceyhunum əsgərlik dövründə müharibəni 2016-cı ildə dörd gün yaşamışdı. 27 sentyabr tarixində tarixi müharibə – XXI əsrin ən ağır müharibəsi başladı. Və indi də müharibə başlayan gün – 27 sentyabr tarixində müharibəyə getdi. Oğlum, üzü müharibəyə gedən yolda heç düşündünmü, aprel döyüşlərindən Allaha şükür, sağ-salamat çıxdım, ölmədim. İndi bu müharibədə düşmən gülləsinə hədəf olub ölməsəm, heç ölməyəcəyəm?! Ancaq müharibənin qanlı fırçası ailəmizin ağlına gəlməyən acının rəsmini bizə göstərdi. Bu il ailəmiz üçün həyat çox acımasız və amansız oldu. Allah ailəmizə elə həyat qismət elədi ki, görən yanır, eşidən ağlayır. Bax, bu qara taledir. Bu qara tale ailəmizin üzündə görünür, ailəmizin üzündə nəqşə bağlayıb.

Müharibə başladı! Bu xəbər elə bil öz ağır və qorxunc nəfəsi ilə hamının üstünə çökdü. Bir anın içində həyat məhvərindən tamam dəyişdi. Qəfildən başlanan müharibə hamını çaşdırmışdı. Həyatın şənliyi, nəşəsi itdi. Həyat heç vaxt belə gərgin olmamışdı. Müharibənin ilk günləri çox, amma çox ağır oldu. O günün əzab-əziyyətini hamı çəkib, hərə bir cür çəksə də, fərqi nə imiş, hamı üçün ağrısı, acısı eyni olub. Mənim üçün isə daha acı oldu o gün, kaş yaşamaz olaydım həmin günü, Səndən əvvəl öləydim, Oğlum!

2020-ci ilin 27 sentyabr günü olmasaydı... Gəlməz, olmaz olaydı o günü! Müharibə! 2020-ci ilin sentyabrında, müharibənin evlərə yas payladığı, televiziyanın, medianın, mətbuatın, qəzetlərin, sosial şəbəkələrin bəd xəbərlər yazdığı və yaydığı vaxtda, Mən – Ananın ürəyinə nə isə dammışdı. Müharibənin

ilk günündən başlayaraq, hətta ilk saatlarından belə hər gün rayonlarımıza, şəhərimizə – ailələrə ön cəbhələrdən qara xəbərlər gəlirdi; düşmənin ağır artilleriyası ilə atəşə tutulan, snayperləri ilə vurulan, mərmi qəlpələrindən ölən, tank əleyhinə minaya düşən, tankların içində yanan şəhidlər və yaralılar gəlirdi. Ellərə, evlərə müsibət ayaq açmışdı. Ana oğlunu, uşaq atasını, sevgililər yarını, arvadlar ərini deyib ağlayırdılar. Camaat, xalq igid övladlarını ağlayırdı. Mən də Ceyhunumu ağlayırdım. Hər yerdə, hər kəsin ağzından bu kəlmələr eşidilirdi: "Kaş bu axırıncı itki olaydı!", "Analar bir də övlad nəşi qarşılamayaydı!"

2020-ci il ailəmizin alnında, ürəyində, ömründə, taleyində qara hərflərlə yazıldı. Bu ilin soyuq havalı bir payız səhəri məni hövlnak, ürəyim ağzımda yuxudan oyatdı.

– Nə belə dərin yatmısan, a bədbəxt Ana, qalx, oyan qəflət yuxusundan! Qalx, oyan, oyan, deyəsən, dünyanın havası çirklənib, göylərin səması qara buludlara bürünüb, havadan barıt qoxusu gəlir. Şərqin Qapısı olan Azərbaycana – Oğlunun yaşadığı torpağa, Oğlunun sevdiyi Vətənə, bilirsənmi necə kədərli fəsli-xəzan – payız gəlir, özü boyda dərd gəlir. Azərbaycana – Oğlunun yaşadığı torpağa qara günəş doğur. Yaman acı-acı ulayan, nərə çəkərək pəncərəmizə çırpılan sərt küləklər əsir, yaman daşqın sellər gəlir, çaylar coşub-daşır qudurmuş canavar kimi. Qana bələnmiş qarlı-çovğunlu günlər gəlir qabaqda. Bu torpağın qəlbi dağlarını çən bürüyüb, bəlkə də, sabahı günlərdə bu cahanın solacaq çiçəkləri, donacaq, qaralıb qalacaq ocaqları. Vətənin özü, təbiəti, cavan igidləri ağ kəfənə sarılacaq, insanları, ələlxüsus da anaları qara geyinib, qara bağlayacaq. Yaşayan həyat məhv olacaq, quru bir məmləkətə dönəcək. Elə bil qiyamətdir, dünya batacaq. Dünyanın, insanlığın səadətini, nəşəsini əlindən alan, dünyanı dəhşətlər içində saxlayan, qorxu





içində saxlayan, dünyanı matəmə bürüyən kabus müharibə gəlir. Göylər "müharibə" sözündən səksənib, ulduzlar çəkilib, səmada mavilikdən əsər-ələmət yoxdur. Eşidirsənmi səsləri? Gələn səslər bütün qəmdir, kədərdir, bütün bunlar insanlara qüssə, dərd gətirir. Faciə, ölüm gətirir.

Doğrudan da, bu gün nə günəş o günəş idi, nə torpaq o torpaq idi, nə də su o su idi. Hər şey qaralmışdı. Üşüyən ürəyim əsdi, yanaqlarımda muncuq-muncuq yaş gilələndi. Ürəyimə xal düşdü. Bu xal ürəyim öləndə onunla birlikdə öləcək. Naməlum bir hiss vücuduma hakim kəsildi. Damarıma sanki qor doldurdular. Həm yandırırdı, həm də göynədirdi. İki qolum iki budaq kimi sınıb düşdü. Dırnağımdan təpəmə kimi bədənim sızıldamağa başladı. Fikirlərim yolunu, rizini itirdi. Heç nə fikirləşə bilmədim. Deyəsən, yalnız inildəyirdim, yox, həm də ağlayırdım... Günəşin qara xəbər verməsi ilə müharibənin başlanması bir oldu.

Müharibə həmin gün qara bulud kimi ailəmizin üstünə çökdü. Ölüm qapımızı müharibədə çaldı. Ailəmizin bir gecədə yıxılmasının memarı müharibə – ölüm oldu. Ölüm dişlərini qıcayıb ailəmizə gəldi, bəxtimizi tərsinə çevirdi. Cəmi 44 gün davam edən müharibə – ən böyük övlad qatili kimi tarixdə qaldı. Elə mənim övladımın da qatili oldu. Mənə ən böyük övlad acısını müharibə yaşatdı. Müharibə məni Oğlumdan məhrum etdi. Ceyhunumun qara rəngli hekayəsi müharibədə başladı və beləliklə, ailəmizin qara həyat müqəddəratı müharibədə yazıldı. Müharibə ailəmizin yanan ocağını qaraltdı, işıq saçaraq yanan çırağını söndürdü. Müharibə ailəmizin başı, əli, ayağı, evimizin dirəyi olan vuran ürəyimizi dayandırdı. Müharibə işıqlı dünyamızı qaranlığa qərq etdi. Müharibə Mən – Ananın ürəyindəki al-əlvan rəngləri qaraltdı. Müharibə Mən – Ananın ürə-

yini dəlik-deşik etdi. Müharibə Mən – Ananın ürəyini yandırdı, sadəcə yandırmadı, yandırıb-yaxdı. Müharibə Mən – Ananın ürəyinin tellərini qopartdı. Müharibə Mən – Ananın sinəsinə dərin və çalın-çarpaz dağ çəkdi. Müharibə ağıllı Oğlumu ən xoşbəxt olduğu zamanda əlimdə aldı. Müharibə Ceyhunumun bu gününü və gələcəyini məhv elədi, yerini, ağırlığını və dəyərini bilmədən, əsirgəmədən qara pul kimi gəncliyini xərclədi. Zalım müharibə Ceyhunumun arzularını ürəyində qoydu, mənim xəyallarımı əlimdən aldı. Müharibə Ceyhunumun kamına çatmadan bu dünyadan getməsinə səbəb oldu, həyatına son qoydu. Müharibə gəlişi ilə Ceyhunumun dünyasını dəyişdirdi. Bu amansız müharibə Mən – Ananın xoşbəxt dünyasını yıxdı, xoşbəxtliklə dopdolu dünyasını qaraltdı. Bu müharibədə Ceyhunum Haqqın dərgahına qovuşdu, həyatına qara nöqtə qoyuldu. Taleyi yarımçıq qaldı. Müharibə muradına çatmayan Ceyhunumun ömrünü çaldı. Ömrünün 26-cı payızında bu dünyaya əlvida dedi, Ceyhunum. Ceyhunum müharibənin rüzgarına qarışdı getdi. Bu müharibədə ürəyimdən xəbərsiz itirdim Ceyhunumu! Allah Ceyhunumu məndən, ailəmizdən çox tez aldı. Müharibə mənim əzizimi, könlümün sevincini, qaranlıqdakı işığım olan Ceyhunumu – övladımı qollarımın arasından çəkib apardı. Müharibə bir can aldı. Bir can yox, minlərlə can aldı. Müharibə canımdan bir canı qoparıb aldı, apardı. Müharibə Ceyhunumun qısa və nakam yazılmış həyatını Füzulidə söndürdü. Ceyhunum Füzulidə ölümün qara və ağır yumruğunun ağırlığını hiss etdi, ölümün ağırlığı altında qaldı. Təzə başlayan, hələ qönçəsi çiçək açmayan həyat yolu burada bitdi. Fələk Füzulidə Mən – Ananı can evindən vurdu. Burada fələk verdi Ceyhunumun ölüm fərmanını. Fələk də yaxşıya gözünü dikdi, səltənəti dağılmış fələk... Günəş kimi işıq saçan, od-alov





kimi parıldayan, ancaq həqiqət olan Ceyhunumun ulduzu düşdü, işığı söndü Füzulidə. İşıq saçan Oğlum qaranlıqlara qərq oldu. Göylərə uçmaq istəyən Ceyhunumun güclü qanadlarını Füzulidə qırdılar. Uçub göylərə çatmamış üzüüstə yerə yıxıldı. Yox, yox, Ceyhunum Füzulidə quş oldu uçdu göylərə. Müharibə fırtına kimi gəldi, Oğlumu əlimdən aldı apardı. Deyirəm, qanı qanım-qanım qaynayan ölümün də gözü bu müharibədə cavan Balama düşdü, aldı apardı. Aldı çox, çox uzaqlara apardı. Allah Oğlumu mənə çox gördü. Oğlum, Sən doğulanda Allaha dua etdim: "Səni verənə qurban olum!, Səni verənə şükür!, Səni verənə çox şükür, min şükür!, Bundan sonra Allahım Sənsiz mənə ömür yazmasın!" – dedim. Bəs, bu gün, həm Sənin bu yaşında, həm də mənim bu yaşımda Səni əlimdən alana, məni Sənsiz qoyana, nə deyim, Ceyhunum?! İndi nəyə şükür edim, ay mənim şükür etdiyim Balam! Bəs, görəsən, canla dolu olan bu dünyada Allah Ceyhunumu niyə belə tez aldı, apardı?! Bilirsənmi, Allah dedi ki, Ceyhun, Sən bu dünyanın adamı deyilsən, bu torpağın gücü çatmaz Səni qoynunda uyutmağa. Sənin yerin lap yüksəkliklərdir, uca zirvələrdir. Allah Səni oralara – göylərə apardı, Allah Səni öz yanına çağırdı. Ceyhunum Yer üzündə gəzən, heç də belə gəzməyə alışıq olmayan Göy adamı idi. Axı, uçmaq üçün yaranan sürünə bilməz. Ona görə də Ceyhunum Allahdan aşağıda dirəksiz dayanan ucalığa – göylərə – ömrünün sonuncu dayanacağına uçdu. Uçub getdi əlimdən sevdiyim Balam, getdi cənnətin yeddinci qatına qalxdı. Göylərin sonsuz əbədiyyətinə uçdu və əbədi olaraq əbədiyyətə qovuşdu Ceyhunum!

Heç arzulamadığım, heç istəmədiyim, xəyalımdan belə keçirmədiyim, Səninlə məni ayıran belə acı və sonsuz ayrılığın üzü dönsün, ay ayrılığı dadan və yaşayan Oğlum!

Ayrılığın üzü dönsün, ay ayrılığı mənə daddıran və yaşatdıran Oğlum!

26 İL 4 AY 10 GÜN 4 SAAT təmiz, dürüst və şərəfli ömür yaşayan gül qoxulu, gül ətirli Ceyhunum ömrünün 14 ilini Azərbaycanda – Bakıda – Sabunçu rayonu Bakıxanov qəsəbəsi, Hacınski 2/12 ünvanında yaşadı. Və bu millətin, xalqın Oğlu oldu, Azərbaycanın qəhrəman Oğlu oldu, Vətənin Oğlu oldu, Vətənə Oğul oldu. Hamının Oğlu oldu! Ata-ananın, qardaşlarının əziziydi, indi isə hamının doğmasına, dostuna və qəhrəmanına çevrildi Ceyhunum!

Bu illərin 4 ilini əksər gənclərin arzuladığı, həsədlə baxdığı və bəzilərinin əli çatmadığı ən pristijli unuversitetimiz olan Bakı Dövlət Universitetinin sanballı və nüfuzlu fakültəsində – hüquq fakültəsində tələbəlik həyatı yaşadı. Həqiqi hərbi xidməti dövründə aprel ayında 4 gün Ağdam-Xocavənd istiqamətlərində gedən ağır döyüşlərin, canlı müharibənin şahidi və iştirakçısı oldu (2016-cı il). Həqiqi hərbi xidmət keçdikdən sonra həyatının 4 ilini böyük həvəslə, coşquyla Bakı şəhərində yaşadı. Ölümə – şəhidliyə gedən yolun son 6 gününü öz mənzilində, otağında deyil də, müharibə sözü belə ağlına gəlmədən, müharibəyə hazırlıq məqsədilə hərbi təlimə çağırılan çağırışçılarla birlikdə keçirdi, onlarla yaşadı və ən nəhayət, həyatının son 4 gününü 44 günlük Vətən müharibəsində (877-ci hərbi hissə, 8-ci bölük) Füzuli cəbhəsində gedən ağır döyüşlərdə yaşadı, 4 gün Füzuli cəbhəsində gedən ağır döyüşlərdə vuruşdu və 2020-ci il oktyabr ayının 1-də səhər saat 4-də elə döyüş meydanında fədakarlıq göstərərək həlak oldu (Hərdən mənə elə gəlir ki, 4 rəqəmi son 4 ildə Balamın həyatında Oğlumla birlikdə addımlayırmış). O lənət olmuş gündən bəri dəyişdi həyatımız. Mən də Ceyhunumla birlikdə öldüm.





Və nəhayətin sonunda, Ceyhunumun 26 illik ömrünün son 4 günlük həyat yolu, ömür xatirəsi Füzuli torpağında qırmızı qanla tarixə yazıldı. Vətənpərvər Oğlumun ölüm fərmanı Füzulidə verildi. Ceyhunumun həyatı Füzulidə bitdi. Füzuli Ceyhunumun məzar yeri oldu. Ceyhunum üfüqdə batan günəş kimi burada – Füzulidə söndü. Ceyhunum işıqlı dünyaya burada vida etdi, burada günləri tükəndi, payızı çox erkən düşdü, yolun sonu göründü, yaşadığı həyat yolunun sonuna gəldi. Əzrail dağ kimi igidimə qıydı, söndürdü çırağımı. Əli aşa çatanda, başı daşa çatdı və Əzrail müharibədə aldı apardı Ceyhunumu. Fələk Mən – Ananın gözünün qara giləsindən vurdu. Mən – Anadan, bu torpaq, bu müharibə alacağını aldı. Ceyhunum Anasının gözündən gözünün yaşı kimi çıxdı getdi. Hər şey olacağına varar, – deyirlər. Mən – Ana ölmüş, hardan bilərdim ki, qara qədər Ceyhunumu Füzulidə gözləyirmiş! Qədər, ölüm Mən – Anayla Balamı müharibədə – Füzulidə ayırdı. Gözləmədiyim bir anda ayırdılar bizi. Bizim qismətimiz ayrılıq oldu. Ay, Ceyhunum, indi biz – Sənlə Anan olduq illər ayrısı. Nə Anan Sən – Balasından doydu, nə də Sən – Bala Anasından! Oğlum, bu dünyada Sənin ayrılığından betər, hər bir dərddən yaman olan ayrılığından daha acı nə ola bilər mənim üçün?!

Ceyhunumun həyatı 2020-ci il oktyabr ayının 1-də İkinci Qarabağ müharibəsində Füzuli cəbhəsində bitdi. Ceyhunum İkinci Qarabağ müharibəsinin canlı şahidi, qorxmaz, fəal iştirakçısı, cəsur döyüşçüsü və Şəhidi oldu.

27 sentyabr – Müharibə başlayan günü səhər-səhər çağırışçılarla birlikdə Bakıdan çıxıb üzü Qarabağa tərəf hərəkətdə olan və çağırışçıları müharibəyə aparan avtobusla gedən zaman Füzuli yolunda üç nəfər əsgər yoldaşı ilə video çəkiblər. Ceyhunumun son sözü bu olub: "Döyüşə gedirik".

Oğlumla bir səngərdə olan əsgər yoldaşı danışır ki, bizə dinclik vermirdi: "İrəli!, İrəli!" – deyə Ceyhun özü qabağa gedir və bizi də ardınca çağırırdı. Bu sözlər yalnız ürəyi Vətənlə döyünən Vətən övladının dilindən qopa bilərdi. Əlbəttə, cəbhədə, döyüş meydanında odun-alovun içində olmaq çətindir, çox çətindir. Qabaqdan tank gəlir, göydən bombalar yağır, güllələr vıyıldayır, mərmilər səpələnir. Belə döyüşdə gərək mərd olasan. Əsgərlərdən çox şey asılıdır. Qələbəni, torpaqlarımızın azad olunmasını təmin etmək ordumuzun borcudur. Belə cəsur, qoçaq və qorxmaz oğlanlarımızın boynunun borcudur, anlayırıq. Deyirlər ki, bu müharibədə əsgərlərimizin əksəriyyətində yüksək Vətən sevgisi və Vətənə olan insani keyfiyyətlər çox aşkarlanıb, çox müşahidə olunub. Gənclərimizin erkən yaşlarında bu qədər qeyrətli, vətənpərvər olmaları ilə fəxr etmək olar. Onlara duyduğumuz iftixar hissi ilə bərabər, cəsur qəhrəmanlarımızın dünyadan tez və nakam getmələri üçün də yanıb-yaxılırıq, göynəyirik. Ancaq kaş bütün bu uğurların, sevinclərin sonunda ölüm olmaya...

Döyüş zamanı yanlarına mina düşəndə əsgərlər qadın boynundan qırılıb ətrafa səpələnən mirvari kimi düzə-dərəyə səpələnirlər. Ceyhunum düşmən tərəfindən atılan minadan mərmi yarası alan yaralı əsgər yoldaşına kömək etmək, onu xilas etmək üçün yenilməz mərdlik göstərərək tərəddüd etmədən həyatını təhlükədən qorumayaraq özünü göydən yağış kimi yağan güllələrin altına atır (yaralının köməyinə qaçan ilk Ceyhunum olub – bunu sonralar onunla birlikdə olan əsgər yoldaşı danışır) yaralı əsgəri güllələrin altından çıxarmaq istəyir və həmin andaca özü də gicgahından mərmi yarası alır, Bar ağacım yerindəcə quruyub qalır. Ceyhunum müharibənin ilk günlərində Vətənə borcunu bitirmiş olur. Tək, tək bir mərmi ilə döyüş





meydanında həyatına əlvida deyir. O andaca hər şey yox olur, torpaq olur. Ceyhunum son nəfəsini verir. Bu döyüşdə həmin hərbi hissədən Ceyhunumla birlikdə doqquz nəfər əsgər həyatını itirir, Şəhid olurlar, canlarını torpağa, Vətənə qurban verirlər.

...Ceyhunum, düşünürəm, hətta mənfur düşmənlər də elə bil bilirlərmiş ki, Sən çox ağıllı və lazımlı adamsan, Sənin böyük gələcəyin var. Sən "Böyük Adam" olacaqsan. Təmiz olmayan bu dünyada adi insanlardan biri deyilsən. Sənin yolun oradır – ucalığa. Hə, mənfur düşmən də Sənin başının dəyərini bilirmiş. Ona görə də qolu qurumuş mənfur düşmənlər Səni nişan alıb başından – gicgahından vurdular. Bəs, deyirlər, haqq yolunda gedənə güllə dəyməz. Necə oldu, güllə Səni tutdu?! Deyirlər ki, insanlar ölmək üçün doğulurlar, ancaq heç kim silahla ölməyə layiq deyil. Sən də həmçinin. Sən də həm belə tez, həm də düşmən gülləsi ilə vurulmağa layiq deyildin, bunu qazanmamışdın həyatda, Oğlum. Səni vuran düşmən də gülləyə tuş gəlsin, düşməninin də ömrü gödək olsun, qapısı bağlansın, Oğlum! Düşmənin qolu qırılsın. O, vəhşi heyvandan da pisdir, Sənin bu yaşında, mənim bu vaxtımda ürəyimə övlad dağı çəkdi. Ay düşmən, məni övladımın acısıyla sınadın, səni də mənim kimi sınan! Allah, düşmənin dünyasını tərsinə döndərsin, necə ki, dünyamızı tərsinə döndərdi! Sən görmədiyin günəşi, işığı onlar da görməsinlər, Oğlum! düşmənin də çırağı sönsün! Daha nə deyim...

Axı mən ölmüş Anan hardan biləydim ki, belə haqq işi üçün ölümə gedən Oğlum, nahaq bir mərmiyə tuş gələcəksən və belə gənc öləcəksən?! Belə qəfil gülləyə tuş gələn canına, o torpaqlara tökülən qanına qurban olum, Oğlum! Mənim sinəm nə qədər darmış, nə qədər cılızmış. Bu günə kimi həyatın nə demək olduğunu bilmirdim. Ailəmizin yaşaması üçün səhərdən

axşama kimi ora-bura qaçır, ev işləri ilə məşğul olurdun. Ancaq həyat nə demək olduğunu anlamırdım. Sən demə, həyat sənsənmiş, həyatın özü sənsənmiş, Ceyhunum, bilməmişəm.

İnsanlar Səninlə müsahib olanda belə narahat olurdular. Axı Sən orta məktəb partası arxasında oturanda da, tələbəlik dövründə universitet auditoriyalarında müəllimlər qarşısında oturanda da, işlədiyin müəssisə və idarə kreslolarında oturanda da, Vətənə ər borcunu verəndə də heç bir zaman səhv etməmisən, utanmamısan, uduzmamısam; verilən suallar qarşısında susub qalmamısan, heç cavabsız da olmamısan, təslim də olmamısan. Həmişə dik durmusan, duruşun özü belə bir cavab olub. Bəs, niyə düşmən gülləsinə təslim oldun, Oğlum?! Bəs, niyə susdun, Oğlum?!

Hələ təlimə çağırılanda belə hər kəsə deyirdi ki, bir Anama deməyin, Anam bilməsin, O, narahat olmasın. Hətta iş yerində də tapşırmışdı ki, Anam zəng eləsə, ona bildirməyin. Sözü: "evdəkilərə deməyin" olmuşdu. Sonradan məlum olur ki, hətta Şəhid olduğu gündən bir gün əvvəl dostuna deyibmiş ki, bu yoldan dönüş yoxdur. Anama de, məni ağlamasın, mənim üçün ağlamasın. O odun-alovun içində belə, yenə mən ölmüş Ananı düşünür, mənim ağlamağımı istəmir, ancaq...

Ceyhunum həm təlimdə olduğu müddətdə, həm də müharibə zamanı hər gün Gəray dayısıyla danışırdı, bir yolla əlaqə saxlayırdı. (Dayı özü də 1992–2000-ci illərdə, sözün həqiqi mənasında, 8 il əsil müharibə həyatı yaşayıb, Füzulu, Laçın, Qubadlı cəbhələrində qızğın döyüşlərdə iştirak edib – Qubadlıda 36 gün mühasirədə qalıb – müharibə veteranıdır. Dayı Ceyhunumu özünə arxa bilirdi, Ceyhunum da deyirdi ki, mənim arxam, dayağım, sirr yoldaşım, fikirlərimin tərcümanı dayımdır. Mən ondan öyrənirəm. Aralarında qızğın mübahisə və müzakirələri də olurdu. Bax, "bu səhvdir, bu düzdür" qərarına birlikdə gəlirdilər. Hər ikisi də haqqın, ədalətin carçısı idi. Xidməti müddətində ehtiyac duyduğu bir şey olurdusa və ya çətinliyə düşən zaman olanları bizə demirdi, dayısıyla bölüşürdü. Ondan kömək, məsləhət və ya imdad istəyirdi. Onlar həm də sıx tellərlə bir-birinə bağlı olan dost idilər: bir-birini sevən, bir-birinə hörmət edən, təsadüfün bir zəmanəyə atdığı ayrı-ayrı vaxtlarda müharibə-cəbhə həyatı yaşayan, Vətən, torpaq müdafiəsinə aparan bir yolun iki yolçusu idilər. Hətta oxuduqları kitabları belə bölüşürdülər, biri oxuduğu kitabı o birinə göndərirdi. Ən çox oxuduqları kitab – müasir ədəbiyyatı deyirəm – stolüstü kitabları xalq yazıçısı Çingiz Abdullayevin kitabları idi). 30 sentyabr tarixində Ceyhunumla əlaqə olmadığı üçün dayısı oktyabrın 1-də səhər tezdən Oğlumun yanına – cəbhəyə – Füzuliyə yola düşür. Gedib Daşburuna çatanda dayıya bir zəng gəlir. Dayıya elə gəlir ki, bu zəng adi zəng deyil, telefonun səsi də fərqli gəlir, deyəsən, nəsə yanğına, bədbəxtliyə, faciəyə bənzər bir hadisəni xəbər verəcəkdir. Elə də olur: Bakı şəhəri Sabunçu rayonu Hərbi Komissarlığından gəlir bu zəng. Ona zəng edib, əvvəlcə:

– Şalıyev Ceyhunun dayısı Gəray, sizsiniz? – deyə soruşurlar.

– Bəli, mən Ceyhunun dayısıyam.

Dayının səsi titrəyir, gözləri sulanır, boğazını tutan qəhəri uda bilmir. Dinləmək istəyir, duymaq istəyir ki, görəsən ona Ceyhunumdan nə xəbər verəcəklər, nə deyəcəklər?

Xəttin o biri ucundakı titrəyərək qırıq-qırıq çıxan həyəcanlı, eyni zamanda təşvişli səs yenidən eşidilir.

– Ceyhun ağır yaralanıbdır, Bakıya gətirirlər.

Dayı özünü toplayır və ciddi şəkildə:

– Mən özüm də hərbçi olmuşam. Müharibə şəraitində döyüş

meydanında vuruşan əsgər haqqında ailəsinə, yaxınlarına məlumat vermək və ya almaq nə deməkdir, bilirəm. Mənimlə açıq danışın. Mənə sözün düzünü – həqiqəti deyin. Telefonun o biri başından gələn son cümləni dayı ömrü boyu unutmayacaq:

– Başınız sağ olsun!

Xətt kəsilir.

Bax, Ceyhunumun Şəhid olması xəbərini dayısına belə verirlər.

Dayı hər şeyi anlayır. Anlayır ki, Ceyhun artıq yoxdur. Dayı nə hala düşür? Dayının vəziyyətini təsəvvür edə bilərsinizmi?! O səhnəni gözlərinizin qarşısında canlandıra bilərsinizmi?! Dayının əlində telefon titrəyir, kiçik telefon ona ağırlıq edir və əlindən yerə düşür. Dayının nəfəsi darıxır, dizləri boşalır, ağ saçlı başı həyəcanla döyünən sinəsinə düşür, gözlərindən yaş axır. Dayı səsi yetdiyi qədər ucadan, nərə çəkərək qorxunc bir səslə "Ceyhun!" – deyərək qışqırır.

Dayı danışır: mənə elə gəlir ki, o bir az günəşli, bir az sərin olan oktyabr gününü ömrüm boyu unutmayacağam, çünki haqqında danışılan, yazılan həyatın, itkinin izahı məhz həmin gündən başlandı. O gün bircə şey başa düşdüm: Ceyhun daha yoxdur! Ayağımın altından yer qaçdı, dodaqlarım titrədi və ağladım. Necə yəni, həmişə mənimlə görüşən, üzümə dikilən o təbəssümlü baxışları bir də görməyəcəyəmmi?!

Ölüm xəbəri almaq ən dəhşətli, ən ağır xəbərdir. Ceyhunumun Şəhid olmasını (adamın dili də gəlmir belə deməyə) – bu müdhiş, qorxunc qara xəbəri eşidəndə hər kəs ağladı – yaxınları, qohumları, məhəllə dostları, qonşular, orta və ali məktəb müəllimləri, tələbə yoldaşları, iş yoldaşları, hakim və həkim yoldaşları. Ceyhunumun vəfatından xəbər tutanlar axışıb başsağlığına gəldilər, onu son mənzilə yola salmağa gəldilər. Adam qalmadı bu Oğlana heyifsilənməsin. Ceyhunum üçün hər kəs göz yaşı tökdü. Deyirlər, Sənə çox təmtəraqlı dəfn mərasimi (belə təzadlı sözlər) təşkil olunub. Dəfn mərasiminə gələn adamların sayı-hesabı olmayıb. Mərasimin kütləvi şəkil alması heç də heyrət doğurmurdu. İnsanlar öz mənəvi borclarını yerinə yetirirdilər: Vətənin Şəhid övladını son mənzilinə yola salırdılar. Səni getdiyin bu son məzilinə canın qədər sevdiyin, hər kəlmənin başında adını qürurla, fəxrlə dilinə gətirdiyin, hər şeyini bölüşdüyün dayın, ana yarısı olan xalaların, qohumlar, qonşular, Sabunçu rayon İcra Hakimiyyətinin kollektivi, Sabunçu rayon Hərbi Komissarlığı heyəti, polis işçiləri, bütün Bakıxanov qəsəbə sakinləri yola salıblar, Sənin dəfnində iştirak ediblər. Dəfnin elə Şəhid olduğun gün oktyabr ayının birində baş tutub. Məzarlıqda Ananın olmadığını bilən polislər, bütün insanlar Səni həm də Anasız son mənzilə getdiyin üçün daha ürəkdən, daha yana-yana ağlayıblar.

Can bala, Anan öləydi! Öləydim-itəydim, madar Balamın bu gününü nə eşidəydim, nə görəydim, nə də yaşayaydım. Vay Bala, vay Ceyhunum! Bu gününü yaşamağı da Allah mənə qismət eləmədi, Oğlum! Bu günü yanında olmasam da, bir Allah bilir ki, mən ölmüş Anan nələr yaşadım, necə yaşadım, Ceyhunum! Mən ölüm, mən də həmin gün özümü Sənə çatdırmaq üçün çabalayırdım. Ceyhunum, həmin günü mən də Səninlə birlikdə öldüm. Həmin gün mənim üçün yer yerindən oynadı. Həmin gün saat da durdu. Zaman da dayandı...

Ceyhunumun getməyilə bizim ailənin işığı söndü, ailəmizin həyatı qaranlığa qərq oldu. Ceyhunumun çox böyük arzuları vardı. Arzuları, ümidləri şaxta vurmuş meyvə kimi töküldü, kamına yetmədi. Ceyhunumun arzuları Füzulidə qaralıb qaldı. Mənim də Oğlumla bağlı xəyallarım suya düşdü. Dünya mən

bədbəxt Ananın başına yıxıldı. Ceyhunum, Anan bircə gecədə saat-saat qocaldı. Anan qocaldı, 100 yaşındakı qadın sinninə düşdü (saçlarına düşən dən Ananın nələr çəkdiyinin, necə yandığının nişanəsidir). Ceyhunum, Anan qanlar içində boğulur, Ananın qəlbi alışıb-yanır, Anan necə yanır, necə yanır: tüstüsü ərşə qalxır. Bu acıya səbəb qürurlu, mətin, cəsur və ağıllı Ceyhunumun yoxluğudur. Yoxluğundan ürəyim ölür, Ceyhunum! İnsan başına belə bir şey gələndə düşünür: İnsanlar belə həyatı yaşamağı necə oldu qazandılar?! Necə oldu, bütün bunlar ailəmizin başına gəldi?! Necə oldu, həyat Sənin üçün, ailəmiz üçün bu qədər dəyişdi; çox sərt və amansız oldu? Niyə belə oldu?! Niyə fələyin çərxi belə tərsinə, qaraya sarı döndü?! Mən bundan sonra beş, on il də yaşasam, Tanrıynan, bu dünyaynan, havaynan-suynan barışmaram. Allah məni ən çox sevdiyim Balamla – Ceyhunumla sınağa, ağır imtahana çəkdi. Allahım məni yaşatmaq əvəzinə, məni yaralamağı, özü də sevimli Balamla, ürəyimi qanatmağı seçdi, həm də necə: məni ən çox ağrıyacaq, acıdacaq yerimdən vurdu. Allahım məni Ceyhunumla vurdu. Ceyhunumun dırnağına daş dəysəydi, mənim ürəyimdə fırtınalar qopardı; yanından yel keçsəydi, başı ağrısaydı, əhvalı pozulsaydı, mənim ürəyim sancardı. Düşünürəm: Allahım, yoxsa, Sənə Ceyhunum üçün azmı yalvardım, azmı dua etdim?!

Allahım, bu necə sitəm, bu necə zülümdür?! Hər işi haça dünya! Tale də ikiüzlüdür – biri ağ, biri qara. Bəzi insanlar qaranlıq bir qədərlə doğular, – deyirlər. Mənim Ceyhunum kimi. Ceyhunumu ürəyimdə elə qırmızı rəngə boyamışdım ki, ancaq Ceyhunuma "qara" rəng qismət oldu. Ceyhunumun taleyinə düşən qara və ağır taleyi məni yandırır. Düşünürəm: həyatda hər şey ağ və qaradan ibarətdir. İnsanlar bu həyatı yarıbayarı





yaşayırlar. Bəs Ceyhunumun həyatında niyə hər şey qaradan ibarət oldu? Ceyhunumun həyatında heçmi ağ rəngli gün, ağ rəngdə naxış olmayıb? Həyatında bəyaz deyilən heç nə yoxmuş. Deməli, belə çıxır ki, "ağ rəng" Ceyhunum üçün yad rəng olub, işıq, sevinc qismətinə yazılmayıb. Bəyaz rəngli, nur topu kimi nur sifətli Oğluma "bəyaz" adda deyilən qismət – işıqlı, xoş və uzun ömür yazılmayıbmış. Allahın da əlindəki qələm qaraymış. Alın yazısı deyilən bir yazı var, insan doğulanda yazılır alnına. Ceyhunumun alnına belə qara yazı yazılıbmış. Bəxti qara yazılıbmış. Ceyhunumun ömrü qara rənglə rənglənibmiş, rəsmi qara fırçayla çəkilibmiş, portreti qara boyayla boyanıbmış. Ceyhunumla birlikdə mənim həyatıma da qara qələm çəkildi. Balam, mənim də ürəyim ürəyimə düşən oddan yanıb qapqara qaraldı. Qaradan artıq rəng olmaz ki?! Sənin, mənim günahımız nə idi ki, belə qaraya boyandıq, bəxtimizə qara yazı yazıldı?! Bizə yazılan qədərə bax. Qul neyləsin qədərin belə acı, dözülməz və qara verilməsinə? Qədəri Sən yazmadığın kimi, Sən də dəyişdirə bilməzsən. Biz də qədərin bizə biçdiyi ömrü dəyişdirmək iqtidarında deyilik. Bizə yazılan qədəri üstələyə bilmədik. Qədər bizə belə oyun oynadı. Belə qədəri olmaz olsun, ay Ceyhunum! Deyirlər ki, olan qədər, olmayan kədərdi. Belə qədərə, belə yazıya lənət olsun! Bu necə bir qədərdir? Kimdir günahkar? – Talemi?! Müharibəmi?! Yoxsa Sənə fələkmi qarğadı, ay ağıllı Ceyhunum?!

İlahi ədalət budurmu?!

Mən – Ana Ceyhunumu təlimə yola sala bilmədiyim kimi, mənə Ceyhunumu son mənzilə yola salmaq, başqa şəhid balaların – oğulların anaları kimi Ceyhunumun tabutunu qucaqlayıb ağlamaq, son sözümü heç olmasa tabutun içində qanlara qərq olaraq səssizcə yatan Ceyhunumun qulağına pıçıldamaq

da nəsib olmadı. Ceyhunum, Səni ağlayan səsləri dinlədikcə, dedinmi ki: “yad ağlar, yalan ağlar, yad ağlar, üzdən ağlar, öz Anam gerçək ağlar”. Qoy məni ağlasın öz anam! Oğlum, inanıram ki, xalaların da, qohumlar da, yadlar da – bütün insanlar Səni çox, amma çox ürəkdən yana-yana ağladılar, Sənə dil dedilər, təmtəraqla son mənzilinə yola saldılar. Ananın yerini verməsələr də, insanlıq borclarını yerinə yetirdilər. Oğlum, Anan qurban Sənə, onda mən çox uzaqlardaydım. Əbədiyyən ayrıldıq Səninlə Ceyhunum. Heç vaxt ağlıma gətirə bilməzdim ki, belə bir gün gələcək ki, Balamdan, əzizimdən, iki gözümdən, dünyada hamıdan çox istədiyim, dərdini, qayğısını çəkdiyim adamdan – övladımdan – Ceyhunumdan ayrılacağam. Ayrılarkən nə Səni ürəyimə sıxa bildim, nə Sənin son sözünü eşitdim, nə son arzunu bildim, nə də mən bədbəxt Ana Sənə son sözümü deyə bildim, soruşmaq istədiklərimi soruşa bilmədim. Bilmədim ki, mərmi yarası alanda hansı tərəfə döndün, gözlərinlə kimi axtardın, kimi səslədin, kimi köməyinə çağırdın, kimdən nə istədin, ay Ceyhunum?! Heç “Anacan!” deyə səslənməyə dodaqların açıldımı, Anana söz göndərməyə məqamın oldumu, su istəməyə zamanın oldumu, kimdənsə imdad istəməyə vaxtın oldumu, Oğlum?! Heç Sənə baxan oldumu, səsini eşidən oldumu, harayına, imdadına qaçan oldumu, Oğlum?! Yoxsa, hərə öz başının hayında olub? Yox, mən bilirəm, mən hiss edirəm, son nəfəsini vermədən əvvəl Ananı çağırmısan, məni səsləmisən. Elədirmi, Oğlum?!

Od düşdüyü yeri yandırar, deyiblər. Ceyhunum, Ananın ürəyinə od düşdü. Ananın ürəyi yanğın yeri oldu. Anan odsuz-ocaqsız yanır, Ceyhunum. Ananın ürəyinin bir yanı boşaldı, ay ağıllı Ceyhunum! Çox, çox qiymətli və dəyərli, daha doğrusu, dəyəri malla, mülklə, pulla ölçülə bilməyən bir insan itirdim – Ceyhunumu itirdim. Ceyhunum, Mən – Anan deyirəm, danışıram və nalə çəkirəm:

*Balam deyib hayqıran*
*Analardan olaydım.*
*Dizin-dizin sürünüb*
*Nəşini qarşılayaydım,*
*Sənə ağı deyəydim.*

Səni ağlayıram, səni oxşayıram, ancaq səni sən olduğun kimi deyə, anlada, tanıda bilmirəm. Mən Səni tərif edə bilmirəm, Səni sözlə deyə bilmirəm, Ceyhunum! Sən mənim şah əsərimiydin. Ceyhunum, Sən həm də möhtəşəm bir sənət əsəri idin. Ceyhunum, Sən dünyanın ən gözəl rəsmiydin! Bir rəssama desəm, Ceyhunumun rəsmini çək, çəkə bilməz. Şairə desəm, Ceyhunumu vəsf elə, vəsf edə bilməz. Sən elə bir meyvəydin ki, Sənin rəngini də, dadını da, ətrini də tək mən bilirəm. O, meyvənin dadını yalnız mən dadmışam, rəngini yalnız mən görmüşəm. Onun ətrini yalnız və yalnız mən qoxlamışam, mənim burnumdadır o ətir, o qoxu. O meyvənin adı Ceyhundur! Səndən yoxdur, Səndən bir də olmaz! Ceyhunum yaşayan və yaradan, yaşadığı həyatın hər dəqiqəsini xatırladan bir əsər idin. Bu əsəri oxuduqca, vərəqlədikcə dərd, kədər, qəm-qüssə, göz yaşları həmdəmim olur. Bütün yaradıcı insanlar hər hansı üsullasa, Ceyhunu yaratmaq istəsələr belə, yaratdıqları hər bir əsər Ceyhunumdan danışar, Ceyhunuma oxşayar, Ceyhunuma bənzəyər, Ceyhunumun eyni olar. Bu əsərlərdə rəngli Ceyhunumu hiss edərəm, görərəm. Ancaq o Ceyhunum olmaz, orada Ceyhunum olmaz. Adından çox olan, özündən olmayan Ceyhunum! Adı da özü kimi, özü də adı kimi anlamlı, dərin mənalı

Ceyhunum! Üzdə, göz qabağında olmağı sevməyən, xoşlamayan, indi aləmdə ismi, qazandığı adı, namı, igidliyi, qəhrəmanlığı, şöhrəti qalan; divarda rəsmi, uşaqlıqdan bu günə qədər gələn şəkilləri dünyaynan bir olan, dünyada qalan Ceyhunum mənim! Atalardan qalma belə bir məsəl var: İgid ölər, adı qalar. Bir də deyirlər ki, İgid ölər, adı qalar: – Kim istər ki, igid ölə, igid ölsün? Özü də Sənin kimi igid? Heç kim istəməz! Axı, hər igid bir cavan candır, hər igidin əhdi ürəyində anası var, gözü yolda istəklisi var...

*Əzizim, laçın dağlar,*
*Göydə göyərçin ağlar.*
*Ceyhun ölər, anası*
*Çəngələr saçın, ağlar...*

Ceyhunum, gözümün nuru, gözümün qara giləsiydin mənim, yollarımı işıqlandıran işığıydın, indi gözümün yaşısan, ay Ceyhunum! İndi göz yaşlarımdan "Ceyhun" adlı mirvari muncuq düzəltmişəm, ay ağıllı Ceyhunum! Sevincim, şadlığımıydın, indi qəmim-kədərimsən, ay Ceyhunum! Ceyhunum, ürəyimə, qəlbimə dərman idin, indi yara oldun. Ay Ceyhunum, yaşadığın müddətdə Sən mənim dilimdə şirin nağılıydın, hekayəydin, Ananın məhəbbət şeiriydin. İndi dilimdə bayatıya, ağıya çevrilmisən, ay ağıllı Ceyhunum, ay dilimin sözü-söhbəti! Səninlə yaşadığım həyat indi bir nağıla dönüb, nağıllaşıb. Səsimi qaldırmağa, söz deməyə qıymadığım; gül kimi, təzə-tər rahiyəli çiçək kimi qoxlamağa qıymadığım; simasına tərs, hirsli baxmağa qıymadığım; arxasınca dolu-dolu doyunca baxmağa qıymadığım; əlimlə toxunmağa qıymadığım Ceyhunum mənim, indi yanımda yoxsan. Soldu gülüm mənim. Soldu gülüm





kimi bütün ümidlərim mənim. İndi boş qalmışam, yerimdə daş qalmışam. Sevə-sevə böyütdüyüm, əzizlədiyim Balam, indi sevə-sevə ağlayıram Səni. Səni o qədər çox sevirdim ki, indi Sənsiz yaşadığım hər anı əskik yaşayıram. Səninlə birlikdə gecənin ən qaranlığında belə günəşin doğacağına ümidlənirdim, inanırdım. O günəş bir də bizim üçün doğacaqmı, Ceyhunum? Səninlə birlikdə bu kiçik dünyamda böyük adam idim, hörmətli Ana idim. İndi, gəl, bax, gör, Ceyhunum, kiməm mən, necə adam olmuşam, necə Ana qalmışam. Sənsiz çox kiçilmişəm, büzüşüb yumağa dönmüşəm...

Nə deyirsən, Ceyhunum, indi bizim bir-birimizə olan sevgimiz, məhəbbətimiz bitdimi?! Ceyhunum, Sən mənim arxamda bənzərdin bir dağa. Sənin ölümünlə o dağ qopdu, dağıldı, yıxıldı. O dağ indi dərd oldu mənə. Uzun sakit gecələrdə dərd ortağım, dərd yoldaşım idin. İndi elə böyük dərd olmusan ki, heç deyə də bilmirəm. Deyirlər ki, övlad var – varlığı dərddir, övlad da var – yoxluğu dərddir. Sənin yoxluğun özün boyda dərddir. Bir də deyirlər ki, elə dərdlər var ki, vallah, dərdimi deməyə, olan dərdimi dərd eləməyə utanıram. Bax, Oğlum mən Ana üçün Sənin dərdindən böyük, ağır və acı dərd yoxdur. Sənin dərdin elə ən böyük və çəkisi ağır olan dərddir mənim üçün. Mən bu dərdin altında qalmışam. İndi dağ boyda dərdimlə baş-başa qalmışam.

Mən Sənə çox bağlıydım, Ceyhunum! Ceyhunum, Sən doğulduğun gündən mənim fəxrim, qürurum, sevincim olmusan. Sən doğulanda da Mən – Anan göz yaşları tökdüm. Onda bu sevinc göz yaşları idi, başqa cür axırdı, parıldaya-parıldaya axırdı. İndi Sənin üçün axıtdığım göz yaşları yanaqlarımı, ürəyimi yandırır, çox acıdı. Gözlərimə qan damır. Bilirsənmi, Oğlum, insan sevdiyi ulduzu əlində tutur, ulduz onun əlində elə

parıldayır, elə işıq saçır ki, insan sevincindən ağlayır, şadlanır. Mən əlimdə elə yanan parıldayan, işıq saçan ulduzumu əlimdən uçurtdum. İndi əlimdəki ulduzum sönüb, onunla bərabər gözümdə dünyalar söndü, qaraldı. Allahım, heç bir Ananı övladı üçün göz yaşı tökəcək qədər əlacsız, naçar buraxma!

Həyatda, evimizdə, ətrafimda hər şey Səndən danışır, Səni anır, Səni xatırladır. Sənin heç girmək istəmədiyin, oturmadığın otağımız indi Sənin otağın olub, Ceyhunum. Divarlardan Ceyhunum boylanır, baxır, düşünür və bizləri də düşündürür, ağladır, sızladır və səssizliyi, yoxluğuyla yandırır, özü də elə yandırır ki... Şəkillərin də danışır, Səndən danışır. Gözlərimi şəkillərinə möhürləmişəm. Şəkillərinə baxıram: şux qamətin, duruşun, baxışın – Allahım, gözlərə bax, gözlərə, nə gözəl, necə mənalı baxır! – deyirəm, elə bu mənim canlı Ceyhunumdur ki, durub qarşımda.

İndi Səni tanıyan da, tanımayan da, görən də, görməyən də – rəssamlar təsvir edir, şəklini çəkir, portretini yaradır, şairlər Sənə şeirlər vəsf edir, ta müqəddəs Kərbəla şəhərində İmam Hüseyn və Həzrəti Abbas məscidləri arasında Beynənhərəmi adlı məkanda üstüörtülü qalereyada baş tutan Vətən müharibəsi şəhidlərinə həsr olunmuş tədbirdə Nəcəf şəhərində təhsil alan azərbaycanlı tələbələrin təşəbbüsü və təşkilatçılığı ilə 200 nəfər İkinci Qarabağ müharibəsi şəhidinin şəklinin fotosərgisində Sənin də şəklini lövhəyə qoyub insanlara təqdim edirlər, Almaniyada Sənin rəsmini suyun içində yaradıblar. “525-ci qəzet”in 23 oktyabr 2021-ci il tarixli sayında jurnalist Kəmalə Xəlilqızı Sənin haqqında Səni insanlara tanıtmaq adına “Sönmüş çıraq” adlı məqalə yazıb. Kim nə bacarırsa, kimin fantaziyası nəyə qadirdirsə, kimin istedadı nəyə çatırsa, Səni yaşatmaq üçün, yaşamağın naminə əllərindən gələni edirlər.





Tanımadığım rəssam kağızda yüngül ağ rəngli yay paltarında qara qələmlə (yenə “qara”) portretini çəkib. Bu portretə baxdıqca, deyirəm, bu Ceyhunumun özüdür. Səni tanıyan, Səninlə ünsiyyətdə olan hər kəs təsdiq edər sözlərimi. Üzündəki cizgilərdə əvvəllər görmədiyim bir çox şeyləri görürəm. Elə bil bu portreti işləyən rəssam Səni yaxından tanıyırmış, üzünün, ürəyinin cizgilərini tam tamıyla verib, daxili aləmindəki daha dərin hissləri aça bilib. Keçirəm başqa şəklinin qabağına. Baxıram: yenə kətan üzərində həmin rəssam tərəfindən rəngli boya ilə işlənmiş portretin. Ay Oğlum, kostyumda da bir başqasan. Gözlərindən yağan sualları oxuyuram, ancaq cavab verə bilmirəm. At üstündəki şəklin mənə daha başqa məqamları anladır. Sənin hakim formasında diplomun içində olan rəsmin daha məntiqli, daha fərqli və qeyri-adi materialda qanun nişanı üzərində hazırlanıb. Sənin bir şəklin də elə müharibə həyəcanında olan vəziyyətinin rəsmi də, əksini tapmağa səy göstərən rəssamın fırçasının məhsulu da bir başqa əhval yaradır məndə. Mən baxıram əksinə, İlahi bir lövhənin seyrinə dalıram və köksümü ötürürəm. Xalça toxuyan xanımlar Səni daha fərqli yaradıblar, ilmələri çox incə işləyiblər, naxışları çox zövqlə vurublar. Bir də ən çox sevdiyin yaşıllar içində: qollarını açıb dünyanı tutmaq istəyirsən, nədi?! Burdan hara və kimə belə təbəssümlə, sual dolu nəzərlə baxırsan, Ceyhunum?! Daşdan da fərqli – çox qürurla baxırsan, ay ağıllı Ceyhunum! Sənə qapılıram, qulaqlarım heç nə eşitmir, hansı tərəfə çevrilirəmsə, hara baxıramsa, hansı sözü eşidirəmsə, nəyə əl vururamsa – hər yan xatirədir – CEYHUN xatirəsi. Xatirəndən başqa bir şey qalmadı. Səndən geridə bir xatirən qaldı. Xatirələrinlə yaşamaq məcburiyyətindəyəm. Ceyhunumun xatirələri unudulmaz. Xatirələrin mənə ağrı gətirir, yalnız ağrı, Oğlum! Kim deyibsə,

düz deyib: ölüm insanı yaraladığı kimi, ölən insan haqqında olan xatirələr də adamı yandırır, dağlayır. Bax, Sənin xatirən kimi, Ceyhunum! Xatirələrin yaddaşımda qorunub saxlanılan kino lentidir. Sənin xatirələrin birlikdə yaşadıqlarımızın arxividir. Sənin xatirələrin deyəndə evimizdə, ailəmizdə birlikdə yaşadıqlarımız və gördüyüm sevincli, şad günlərdir. Baxıram, xatırlayıram və o günlərimizə gedirəm.

Buraxdığın hər kəs, hər şey Sənsiz və səssiz qalıb. Hər kəs Sənsiz yetim qalıb. Bilirsənmi, əvvəlki bizdən əsər yoxdur, Ceyhunum! Sən yoxsan, nə gecə var, nə də gündüz, nə ay var, nə də ulduz. Hər yer qaranlıq və zülmət içində qalıb.

Ceyhunum, ay ev yiyəsi, Sən evdən, eldən, dünyadan köçüb gedəndən, Sənin səsin gəlməyəndən bəri ürəyimin həvəsi də sönüb, yalnız şəkillərin xatirə kimi divarlarda qalıb. Mənə xatirələrdən də heç imdad olmur. Bu xatirələrin, xalı olub divardan asılan; bəzəkli, toxunulmaz, bahalı və dəyərli qablar əvəzinə şkafa düzülən şəkillərdən baxan ciddi və təbəssüm dolu baxışın Səni əvəz eləmir, ay ağıllı Ceyhunum! Sən mənim əvəzsiz Balamsan, Anan qurban Sənə! Belə həsrətli, hicran dolu xatirələr Səni əvəz eləmir. Kimsəni Sənin yerinə qoya bilmirəm. Yerin dolmur, ay Ceyhunum! Evimizin hər küncündə görünür yerin. Sənin yerin görünür çətin günümüzdə də. Ay ağıllı Ceyhunum, nəfəsin hələ evimizdədir, yanımızdadır. Deyəcəyəm, qəribədir, arabir canlı səsin gəlir evimizdə. Hər yerdə, hər şeydə Sən varsan, səsin var, Ceyhunum! Sənsiz olmur, Oğlum! Dərdimi – Ceyhunumu düşündükcə, dəli-dəli ağlayıram, hayqırıram. Ağlayıram, ağlaya bildiyim qədər. Ağlamaqdan göz yaşlarımdan yaranan dəryanın içində boğuluram. Dünya, dərdim sən dünyadan böyükdür. Bilirsənmi, quş qanadı qələm olsa belə, dərdimi yazmaqla tükənməz. Fələyin üzü qara olsun, heç bilmir ki,





məni necə qara günlərə qoydu, həyatın necə qara bataqlığına saldı!

Mövzu Ceyhunum – övladım olunca Mən – Ananın ürəyi titrəyir. Ceyhunsuzluq çox ağırdı. Mən – Ana Ceyhunsuzluqdan ölürəm, Ceyhunsuzluğun içində yox oluram. Mən – Ana içimdəki səsi, acını, dərdi susdura – dindirə bilmirəm! Bu dərdin adı yoxdur. Övladım – Ceyhunumun acısı çox acıdır. Övlad acısıyla yanmaq – oddan-atəşdən köynək geyinmək deməkdir. Belə olsa da, yenə bu acının tərifi yoxdur. Ceyhunumun dərdi çox ağır dərddir. Bu dərdin rəngi çox qaradır, dadı da çox, lap çox acıdır. Bu dərd başqa dərdlərə bənzəməz. Oğul dərdi çəkən Mən – Ananın bağrı qana dönübdür. Mən – Ana bu dərdlə necə yaşayacağam?! Bu əbədi ayrılıq, həsrət kədəri qəlbimi qanadır, odlu kipriklərim arasında damla-damla yuvarlanan göz yaşlarım qəlbimin içinə axır. Mən – Ananın ürəyi qan ağlayır. Mən – Ananın ürəyi göyüm-göyüm göynəyir, sızım-sızım sızıldayır, qovurğa kimi qovruluram, ciyərim parçalanır, yanıram, sinəm acıyır. Elə yanıram, elə yanıram ki, buza basdırsalar, odum soyumaz. Səsim-ünüm Allaha çatır. Mən – Ananın acısı acının ən acısıdır. Oğlumdan – Ceyhunumdan danışıram, danışdıqca ürəyim yanır, gözlərimdən yaş göylərin leysanlı yağışları kimi, yerlərin sel-suları kimi sərasər axır. Mən elə ağlayıram ki, göz yaşlarımdan quruyan otlar göyərir, bitir. Mən – Ananın dərdi ürəyimdən gözümə qan olub axır. Acıların, ağrıların ən acısını dadan Mən – Ananın qəlbinin ağlamadığı, gözündən yaş axıtmadığı bir gün belə yoxdur. Dirigözlü yanıram, yandıqca da daha çox ağlayıram. Allahım, bütün bunlara Mən – Ana necə sinə gərim, necə dözüm, necə dayanım bu dərdə?! Deyirlər ki, bəzi acılar var, səssiz qalırsan, bəzi acılar da var, çarəsiz qalırsan. Mən bilmirəm bu acıma necə səssiz və çarəsiz qalmışam.

Bu yaranın çarəsi varmı?! Mən – Ananın yarasına necə məlhəm olar? Ey insanlar, Mən – Ananın dərdinə, acısına məlhəm kim və nə ola bilər, deyə bilərsinizmi?! Sən söylə, Allahım! Bu yaranı necə sağaldacağımı bilmirəm. Bir onu bilirəm ki, dərdimə dərman da, yarama məlhəm də Sənsən, Ceyhunum, başqa hər şey yalandır. Allahım, Sən özün Mən – Anaya yarasına məlhəm olan dərmanını tapmaq üçün yol göstər, Ceyhunumu gətir!

Ceyhunum çox gənciydi, cəmi 26 yaş yaşadı. Bu yaşda "nə yatdı ki, nə də yuxu görsün" Balam? Həyatı çox qısa oldu. Dörd fəsli cəmi 26 dəfə yaşamış oldu və ömrü cavan qaldı. Ancaq düşünürəm ki, bu qısa həyatda çox uzun ömür yaşamış oldu və sonra da göylərə uçdu, ulduz kimi söndü. 26 yaşında ölümə "xoş gəldin!" dedi Ceyhunum. Mən – Ana göz yaşlarımı sıxıram və deyirəm ki, Allah Səni mənə əmanət veribmiş, Bala! Allahın sevdiyi Balanı mən də sevdim, ancaq, deyəsən, Allah qədər yox. Mən O əmanəti çox və çox dərindən sevdim, qoruya bilmədim. İndi mən özüm öz əlimlə Ceyhunumu Allaha əmanət edirəm! Ceyhunum mənim muradımıydı. Heç demə, Allah mənim muradımı – Ceyhunumu məndən daha çox sevirmiş. Ona görə də Böyük Allahım, Rəbbim Ceyhunumu mərhəməti, ürəyi olmayan bu dünyadan qoparıb apardı öz yanına. Belə görünür ki, Allahım Ceyhunumu bu dünyanın adamı olmasına layiq bilmədi. Onu daha ədalətli, daha saf, təmiz bir dünyaya apardı. Bilirəm, Oğlum, Sən Allahını məndən çox istədin, ona görə də onun yanına getdin. Aydındır ki, hər bir həyatın əvvəli olduğu kimi, bir sonu da vardır. Bir gün doğulan, bir gün də gedəcək. Ancaq bu gediş, bu son çox tez oldu. Allahım, bu həyatı Sən bəxş etmişdin, Sən də aldın. Allahım, necə olur, Balanı aparırsan, Ana yaşayır, Ana qalır: yaşamaq yox, közərə-közərə qalır, quruyub qalır, yalnız nəfəsi gəlir?! Bəs, onda bu tez açılıb, tez





də solan həyatın adını necə, nə qoymaq olar?! Bəlkə, belə şərəfli, dolu, mənalı ömür yaşamaq üçün heç ömrün uzunluğu şərt deyilmiş?! Bəlkə, Ceyhunum yaşadığı illərin içində hər şeyi yaşayıb?! Bəlkə, deyilənlər doğrudur: nə qədər uzun ömür yaşayarıqsa, ömrümüzün ilk 20 ili ən uzun ömürdür. Bəlkə, Ceyhunum belə uzun ömrü yaşadı. Ceyhunum talelərə bənzəməyən tale yaşadı. Həyat insana bir dəfə verilir. Ceyhunum bu həyatı bitməyən, tükənməyən xatirələrlə dolu-dolu yaşadı. O, yaşadığı müddətdə də həmişə, hər daima yüksəklərdə olub, indi də daha yüksəyə ucaldı. O, tək özü deyil, ailəmizə də həmişə belə ucalığı yaşadıb. Ceyhunumun uşaq və yeniyetmə vaxtlarında – məktəb illərində həmişə şəkli şərəf lövhəsində olub. İndi də dünyaynan bir olan şəkli ən şərəfli güşələrdə qürurla boylanır, səsi ən uca yerdən gəlir. O, elə həmin o yüksəklikdən, ucalıqdan da bizə baxır. Səmadan bizləri seyr edir...

Yox, ölüm yalandır. Sən ölə bilməzsən! Sən bu işıqlı dünyadan ayrılıb getməzsən! Anlamıram, necə olar ki, Sən olmaz olarsan! Necə olar ki, Sənin nəfəsin gəlməz, səsin eşidilməz, o gülüş, təbəssüm dolu sifətin görünməz, telefonun çalmaz, qapını açıb içəri girməzsən, ay ağıllı Ceyhunum?! Sən dünyaya artıqlıqmı elədin: hava çatmadımı Sənə, su yetmədimi Sənə?! Çörəyin – nemətinmi qurtardı, qismətinmi kəsildi, vaxtınmı çatdı? Niyə?! Bu dünyanın insanı olmaqdanmı yoruldun, bezdin, torpağın altına getdin?! 26 il yaşamaq Sənə yetdimi? Elə bu yaşda – 26 yaşında qalmaq Sənə bəs elədimi?! Bu yaşda həyatın bitdi, ümidin bitdi, xəyalların bitdi. Bu qədər sevmək, sevilmək, bu qədər yaşamaq Sənə yetdimi, yaşamaq üçün çabalayan Oğlum? Mən Səndən heç doymadım. Səndən doymaq olarmı?! Bəs, Sən belə şirin həyatdan nə tez doydun? Böyümək istəmədinmi?! İncidinmi, küsdünmü bu dünyadan?! Darıxdın-

mı bu dünyada?! Bu etibarsız, fani dünyaya nə tez əlvida dedin? Qaçdın bu işıqlı dünyadan, gedib qaranlıq məzarda məskən saldın. Bu əbədilik səfərdən qabaq mənimlə, atanla, qardaşlarınla danışmaq üçün qüvvətli bir ehtiyac duymadınmı, ürəyin bizi istəmədimi? Ancaq mən Sənin son sözünü eşitmək, son arzularını dinləmək, son hərəkətlərini, gününü görmək istəyərdim, Ceyhunum. Elə günü bu gün də həmin istəklərlə yaşayıram. Bu neçə ilin ərzində hər şeyə vaxt tapdın, hətta vacib sözün olanda belə vaxt tapdın, belə bir ciddi, həyati məsələ üçün vaxt tapa bilmədin. Əslində, istəsəydin, vaxt tapardın və məni məsələdən agah edərdin.

Oğlum, yoxsa mən Sənin çiyninə ağır yük qoydum?! Dünyadı, bilmək olmaz: tərsi də var, avandı da. Elə ona görə də əvvəldən vəsiyyətimi eləmişdim Sənə. Sənə demişdim ki, bir istəyim var, Oğlum. Qəflətən ölərəm, sözümü deyə bilmərəm, qoy sözümü indidən Sənə deyim. Mən öləndə məni son mənzilə təmtəraqla yola salarsan, ağlına və adına layiq şəkildə dəfn edərsən. Sən mənim tabutumu çiynində aparmalıydın... Mən Səni dünyaya gətirdim, Sən məni məzara sallamalıydın. Bütün oğullar kimi Sənin də haqqın idi ana tabutundan tutmaq. (Bax, onda mən xoşbəxt analardan olardım). Ceyhunum, bax ha, Arzu Səndən böyükdür, yerinizi bilin, O mənim tabutumun sağ tərəfində durar, Sən isə sol tərəfində... Sən isə gör nə etdin, kəfənimi əlimdən aldın. Övladın haqqı yoxdur ata-ana qabağında belə tez dünyadan getməyə. Bu yaşda ölməyə haqqın yoxdur, Oğlum! Haqqın qanunu belədir: valideyn övladın çiynində gedər o dünyaya. Sən belə ağır yükü çəkə bilməyəcəyindən qorxdunmu, Ceyhunum?

Axı Sən qorxaq deyildin, niyə bəs məni qoyub getdin? Elmin, idrakın niyə Sənə kömək eləmədi? İlahi iradəmi Səni çəkib





apardı? Həyatımızda, ailəmizdə olmaq istəmədinmi?! Nə idi Səni sıxan, darıxdıran, Ceyhunum? Yaşamalı, gözəl ömür sürməli dövranı qoyub hara getdin?! Hələ Sənin yaşayacağın çox şey vardı, Ceyhunum! Xoşbəxtliyə gedən yolun içində bədbəxt oldun, yolun qaranlıqmı oldu, qaranlığamı düşdü?! Niyə? Niyə uzaqlaşdın özündən, niyə? Niyə özünə qıydın, niyə? Sən necə qıydın özünə, cavan canına, sonra da Anana?! Canın qədər sevdiyin məni Sənsiz qalmağa niyə qıydın, niyə? Hayıf oldu cavan canın. Bir də, olan mənə oldu, yazıq oldum. Dünya Sənə sözün həqiqi mənasında beşgünlük oldu, bu yalan dünyada bax mənə olana! Mən acı həqiqətlə üz-üzə qalmışam.

Getdin, Sən niyə getdin, ay Ceyhunum?! Sən bu yolun hara getdiyini, yəqin ki, yaxşı bilirdin, bəs niyə bu yola getdin, bəs niyə həyatın ən uzun yolunu seçdin, getdin, ay ağıllı Ceyhunum? Düşünmədinmi ki, bu yola çıxdığına peşiman olarsan? Sənin qabağına çıxan, yolunu kəsən, bu yoldan döndərən kimsə olmadımı?! Şeytanmı Səni yoldan çıxartdı?! Axı, Sən şeytana uyan Oğul deyildin, ay ağıllı Ceyhunum! Getdin, vüsalı güman olan bir səfərə. Getdin, özünü apardın, həsrətli yollar qaldı mənə. Getdin, məni öz aləmindən, öz dünyandan qopartdın. Getdin özünü apardın, məni saxladın. Getdin, saçlarımın qarası da Səninlə getdi, bir gözlərimdə yaş qaldı. Getdin, təzədən ayrı düşdük biz, ay ağıllı Ceyhunum! Getdin, Sənsiz qaldı bu dünya bu gün. Getdin, arxada ürəyi parampərça olan bir ailə buraxdın. Sevdiyin, seçdiyin gözəlindəmi Səni saxlaya bilmədi? Niyə hər şeyi yarımçıq qoydun? Ailə qurmaq niyyətin də ürəyində qaldı. Bir xanım gözələ yazdığın məktubun yolda qaldı, verdiyin sözləri tutmadın. Bilirdin ki, yolunu gözləyən var, onun yanında olmalısan, onun pənahısan. O, təkcə qəlbini Sənə verib. Necə oldu, heç onu da düşünmədinmi?! Getdin, gözün gözəllərdə,

gözəlin Səni gözləyə-gözləyə evdə qaldı, ay Ceyhunum! Sən bir gözələ yar olmadın. İndi qara torpağamı yar oldun, ay Ceyhunum?! Getdin, evimiz, bu otaqlar Sənsiz qalıb, iş yerində masan boş qalıb, ay işində məsuliyyətli olan Ceyhunum! Maşının sürücüsüz qaldı; telefon nömrəni bəzi insanlar unudub, bəzilərinin də cib dəftərçəsində qalıb, ay Ceyhunum! Sən bu dünyadan gedəni saatının əqrəbləri elə bil illərin yorğunluğunu almaq üçün yuxuya gedib, ürəyin kimi saatın da dayanıb. Saatın da etibarsız oldu. Bəlkə də, Sənə vəfasızlıq etmək istəmədi, vəfalı dost kimi Səninlə birlikdə dayandı.

Heç özünüdəmi düşünmədin, getdin?! Ceyhunum, həyatın şirinini, duzunu dadmadan getdin. Bu mərhəməti, ürəyi olmayan etibarsız, əzəl gündən yalan dünyadan, arzuları yarım qoyan dünyadan baş götürüb getdin. Anana, ailənə arxanı döndərdin, getdin. İnsafsızcasına, arxana baxmadan, düşünmədən çəkib getdin. Selin burulğanınamı düşdün, fırtınayamı, borana-tufanamı düşdün, bilmirəm, getdin. Tərki-dünya oldun, ölümə getdin! Hansı ağıl Səni bu yola apardı? Sən hər bir çətin işdən, hər bir qaranlıqdan həmişə yol tapmağı bacarırdın, bəs indi bu qaranlıq yoldan çıxmaq Sənin üçün beləmi çətin oldu, heçmi yol tapa bilmədin? Niyə başını işlətmədin? İstənilən çıxış yolundan çıxmaq üçün iki çıxış yolu var, deyirlər. Bəs Sən bu yollardan birini seçə bilmədinmi? Sən bu yola getdin, ürəyimi al-qan etdin. Heç getməyin vaxtı deyildi, Oğlum! Sənin getməyin çox zamansız oldu. Ceyhunum, bu dünyadan belə erkən getməyin nə zamanı, nə də vaxtı deyildi. Həyatda qalmağı bacarmadın, Oğlum. Hürriyyət libasını geyindin və başında yara məzara getdin, ay yaralı Ceyhunum mənim! Getdin və məni Ceyhunsuz qoydun. Sənli dünyada Sənsiz qalmışam. Məni Ceyhunsuz qoyub hara getdin, niyə getdin?! Sən heç bir şeydə görünməsən





də, mənim üçün hər şeyin içindəsən, canımın içindəsən, özəyindəsən. Heç uzağa getmədin; canımdan gəldin dünyaya, canıma da geri döndün, Oğlum! Yox, yox, Sən uzaqlarda deyil, şah damarımda qanımsan. Getdin və çox uzağa yox, mənim yaslı könlümə köçdün, ay mənim aslan Oğlum. Sənin başqa yerə, başqa yurda, başqa dünyaya getməyinə lüzum yoxuydu, ay ağıllı Oğlum mənim! Sənin yerin mənim ÜRƏYİM! İnsanın ürəyi yerin, göyün qatlarından dərindir. Bax, Səni ürəyimin qatlarında gizləmişəm. Biz bir-birimizdən əllərimizi üzüb cismən ayrılsaq da, ruhən bir-birimizin ürəyindəyik, Oğlum! Sən ürəyimdəsən əzəmətinlə. Mən Səni görünməz yazı ilə qəlbimə yazmışam, iki gözüm, ay ürəyim mənim Ceyhunum! Mən Səni torpağa deyil, qəlbimə qoymuşam, Oğlum! Sən soyuq torpaqda yatsan da, ürəyimin ən isti guşəsindəsən. Mən Səni ürəyimə bükmüşəm. Mən Səni ürəyimdə nübar bahar çiçəklərinin ətrinə qərq etmişəm. Mən hamıdan gizlin Səni, Sənə olan məhəbbətimi kimsənin girə bilməyəcəyi yerə – ürəyimdə gizləmişəm, saxlamışam və qəlbimdə gəzdirirəm. Bu guşəyə – Sən olduğun yerə heç kimi ala bilmərəm, Ceyhunum! Və Sən həmişə varsan ürəyimdə. Səni heç kim ürəyimdən çıxara bilməz, Ceyhunum! Bilirsənmi, Oğlum, mənim ürəyim dayanıb, sinəmdə vuran, döyünən Sənin ürəyindir. Mən Sənin döyünən ürəyinlə yaşayıram. Ceyhunum, məni özündə həbs elətdirmisən. Səndən başqa kimsəni görmürəm, düşünmürəm. Hər kəs bir yana, Sən bir yana. Allah Səni könlümə elə dərin nəqş edib ki, bilirsənmi, ağlımdan, xatirəmdən, xəyalımdan istəsən də silə bilməzsən.

Capcanlı qarşımdasan, var olan Ceyhunum!

İnsan təkcə var olanı sevməz; xatirələri sevər, keçmişini sevər, sevgisini sevər, ilklərini, sonlarını sevər. Mən də Səni bundan sonra yanımda olmasan da, belə sevəcəyəm, Ceyhu-

num. Mən Sənin yaxınlığında deyildim, ancaq biz bir-birimizi sevdik. İndi bu sevgini sevməyi mən təkcə sevəcəyəm. Mən Səni sevməkdən dayanmayacağam. Niyə də sevməyim, axı?! Bizim üçün heç bir şey dəyişməyib. Mən Səni solub getməyə qoymayacağam. Bu yaranı sağalmağa, qaysaq bağlamağa da qoymayacağam. Heç istəsəm də, sağalmayacaq yaram, yaralı Ceyhunum. Heç bir həkimə göstərə bilməyəcəyim YARAMSAN, Ceyhunum. Qəlbimdə yarasan bundan belə, yaralı gedən Ceyhunum. Elə qanayırsan ki, bir bilsən! Sən yaram Səni görəndən sonra sağalacaq...

Daim varsan, Ceyhunum.

Getdin, elə bil Sənə olan məhəbbətim də xəyal imiş, o da Səninlə getdi. Əsla! Məhəbbətin də ürəyimdə əbədi yurd salıb, özün kimi, Ceyhunum! Getdin, olan Sənə oldu, Ceyhunum. O qədər haqsızlıqlarla qarşılaşdın, çətinliklərə sinə gərdin, mücadilə etdin, dözdün, bir mərmiyə necə təslim oldun, Oğlum? Anana necə qıydın, belə ağır dərdi yüklədin onun ürəyinə? Sənin dərdin qor kimi Ananın ürəyinə çökdü. Ananın ürəyində qanla dolu dərin və sağalmaz bir dəlik açdın. Ceyhunum, Ananı elə yaraladın ki, bu yara heç bağlanmaz, qaysaq tutmaz. Ananın ürəyində, ruhunda, ağlında və bədənində için-için qanayan elə dərin yara açdın ki, bu yara heç sağalmaz. Bu dəhşətli bir ağrıdır, dərddir, asılıb Ananın ürəyinin başından, heç bir zaman da keçib getməyəcək. Bu dərdə heç bir loğman şəfa tapmaz, təbib gəlsə, dərman yazmaz. Bilirsənmi, Ceyhunum, ağır dərdimin dərmanı, mənə Səndən daha yaxşı dərman yoxdur, heç olmaz da!

Ceyhun həyatının hansı səhifəsini açsaq, oxusaq, qarşımızda hər biri ayrı-ayrılıqda bir başqa rəngli, anlamlı və canlı həyat xatırlanacaq. Kitaba sığmayan həyat yolu keçdin və bitməz-tükənməz xatirələrlə dopdolu ömür yaşadın. Sən gedəndən bəri mən də heç xəyal qurmadım. Sən, Sənin yoxluğun mənə Səninlə bağlı xəyal qurmağıma icazə vermədi. Bunu mənə necə qıydın, Oğlum? Ceyhunum, otururam dururam, dururam oturuam, ağlayıram, sızıldayıram, dayanıram, insanları dinləyirəm, yenə və yenidən yalnız və yalnız Səni xəyal edirəm, Sənin xəyalınla yaşayıram. Xəyalın belə gözəldir, Oğlum! Çox şey bilən, ancaq bildiklərinin çox azını yaşayan Oğlum – Ceyhunum, belə tez bu dünyadan getməyini bilsəydin özünü, bu qədər sevdirərdinmi anana, özünü bu qədər istədərdinmi yaxınlarına, dostlarına?! Belə yüksək mədəniyyətə, nəzakətə sahib olan Oğlum, başdan-ayağa mədəniyyət olan Oğlum, heyif Səndən! Heyif Səndən, mənim alicənab Oğlum! Ədalət camiyəsində çalışan insanların arasından, qanun keşiyində duranların xəzinəsindən itib-gedən, seçilən Oğlum, çox heyif Səndən! Ceyhunum, getmək üçün zamansız zaman seçdin və getdin. Heyif Səndən! Çox, çox heyif Səndən, mənim ağıllı Ceyhunum! Heyif, çox heyif Səndən, tərifi olmayan Ceyhunum! Heyif Səndən belə Oğlan!!!

Ceyhunum, Sən bu dünyaya gələndə gəlişinlə dünyamı işıqlandırdın, ailəmizi, evimizi işıqlandırdın, evimizə, ailəmizə işıq gətirdin. Bala, gedişinlə də bu işıqlı dünyamı qaraltdın, ailəmizin dünyasını qaraltdın, ailəmizi qaranlıq günlərə qoydun, evimizin işığını söndürdün. Getdin, evimizin dadı, duzu, bərəkəti də Səninlə getdi. Getdin, ailənin sevincini, nəşəsini, xoşbəxtliyini əlindən aldın, özünlə apardın. Sən getdin, gedişinlə ailəyə acı günlər bəxş etdin. Sən gedişinlə ailəmizin üzünə açdığın bütün qapıları bağladın, getdin. Ailəmizin həyatında olan gerçəkləri, doğruları yalanladın, getdin. Getdin, köksünə sığındığım, arxamı söykədiyim dağım yaman çökdü.

Evim başıma yıxıldı. Getdin, Ananın qəlbini qırdın. Getdin, Ananın canının canı, nəfəsi, səsi Səninlə getdi. Sevdiyimi, sevincimi, gülüşümü, nəşəmi, itirdim. Getdin, məni də bitirdin. Getdin, böyük məqsədinə çatmadan getdin. Getdin, ürəyimdə odun qaldı, kiməsə, nə vaxtsa deyəcəyin sözün qaldı, göndərmədiyin məktubun masanın üstündə qaldı, kiminsə şəkli cibində qaldı, özün isə ağaclarda dərilməyən meyvə kimi qaldın, bir cavabsız sual kimi baxışlarda qaldın. Ananın hər şeyini Sən özünlə apardın, ay ağıllı Ceyhunum! Anana da, sevdiyinə də qovuşmadan getdin. Nə özün xoşbəxt ola bildin, nə də sevdiyini xoşbəxt edə bildin. Sevgi yumağı olan, könlü sevgiylə dolu olan Balam, seçdiyin gözələ olan sevgin, bir də bizim Ana-Bala sevgisi, məhəbbəti belə tezmi bitdi?! Ananı belə Ceyhunsuz buraxıb getmək olardımı? Heç düşünmədinmi Ananı, Sənsiz necə yaşayar?! Ceyhunum, Ananı buraxıb getmək nə deməkdir, anlamıram. Ananın ürəyi tab gətirəcəkmi bu acıdan acı olan acıya, bu dərdə?! Ay Ceyhunum, ailəni, Ananı, həyatı, insanları, əzizlərini, doğmalarını, sevdiklərini, Səni sevənləri tərk edib getmək, əbədiyyətə qovuşmaq beləmi asanmış?! Sən Ananı, ailəmizi yaşatmaq istəyirdin. Beləmi yaşadırsan: ağlaya-ağlaya qoymaq, yaşatmaqdırmı? Axı Sən Ananın əskiklərini, boşluqlarını dolduracaqdın? Bəs nə oldu? Yaşamaq üçün umudun da olmadımı? Yoxsa ölümə yaxın olduğunu hiss etmişdinmi? Cəsarət edib bunları həyata keçirə bilməyəcəyindənmi qorxdun? Sənə verilən şansı əlindən buraxdın. Bəs, yarım buraxdıqların?! Oğlum, heç xəyalların, düşündüklərin ağlına gəlmədimi?! Niyə fikrindən, istəyindən, sözündən, verdiyin vədəndən döndün, verdiyin sözləri tutmadın?!

Sən gedəndən sonra Ananın dünyaya baxan gözləri qaraldı. O gözlər yazıqdı, axı. Səninlə birlikdə dünyanın ən gözəl şəkli, rəsmi də getdi; insanlığın ən lətif, həzin, məlahətli səsi də getdi; ən gözəl baxışlarda işıqlar söndü; ən gözəl simada təbəssümlər yox oldu; ən gözəl sözlər deyən dillər də səssiz qaldı. Getdin, bütün dünyamı yıxdın. Mən Ceyhunumsuz yanıram. Ürəyim cızz eləyir, heç kim eşitmir. Siz mənim necə yandığımı haradan biləcəksiniz?! Siz mənim nələr çəkdiyimi haradan biləcəksiniz?! Heç bilə də bilməzsiniz!

Ancaq... Ceyhunum, Mən – Ananın qəhər boğazında düyünlənir, qəhər məni boğur. Ceyhunum, evim yıxılıb, altında qalmışam. Sən məni ən yüksək zirvədən lap dərənin dibinə saldın, belimi qırdın. Mən bir daha necə ayağa qalxaram, necə dikələrəm, hə?! Bir də ayağa qalxa bilərəmmi, bilmirəm, belimi düzəldə bilərəmmi, bilmirəm, bir normal insan kimi həyat yaşaya bilərəmmi, onu da bilmirəm, bilmirəm! Səndən sonra Anan bu dünyanın ədalətsizliyinə, vəfasızlığına necə dözər?!

Oğlum, Sənin "Anacan, gəl bir az da mənim Anam ol" (deyən dilinə qurban olum)! – çağırışın, rican, həsrətin bitdi. Sən çağırdın, mən də gəldim. İndi mən gəlmişəm, burada, yanındayam, bəs Sən haradasan, ay Ceyhunum? Əvvəllər görürdüm, eşidirdim, texnikanın köməyi ilə də olsa, görüşürdük Səninlə, alırdım Sənin ətrini, Oğlum. Həsrətim çox tez bitirdi, ancaq bilirdim ki, sabah yenə görüşəcəyik. İndi dağ boydadır təpə həsrətim. İndi həsrətimə tapşırdın məni. İndi həsrətin yaxındır, Sən özün uzaq. Həsrətin Səndən vəfalıymış, Oğlum. Bu həsrət bitsin istəyirəm. Anan qurban Sənə, həsrətinlə yerinizi dəyişin, nolar?! Bu həsrətin danışır olub-keçənləri, ovundurur məni. İndi Sənin Anana, ailəmizə, sevdana, məhəbbətinə olan həsrətin bitdi, mənim Ceyhunuma olan həsrətim başladı. Mənim Sənin üzünə, gözünə, sözünə, gələcək olan yollarına baxan həsrətim başladı. O gün ki, həsrətin qondu

mənim yaşlı gözlərimə, o gündən uçdu gözlərimin Səninlə bağlı şirin yuxuları.

Bilirsənmi, ürəyimdə söz həsrəti, söz yarası var. Bilirsənmi, Ceyhunum, xatirən şirindir, həsrətin ağır. Sənin həsrətin sinəmdə yurd saldıqca, mən də qaldım yollar ayrıcında. Hara getdim, həsrətin çıxdı önümə, harayıma, ünümə bir həsrətin cavab verdi. Gəl ki, həsrətin bitsin, xatirədə qalmayaq. Gəl, həsrətim, gəl! Ananın Səni görməyə, duymağa, eşitməyə, sevməyə ehtiyacı var, ay ağıllı Ceyhunum! Mən bir Səninlə göz-gözə, üz-üzə oturub danışdığımız günləri istəyirəm, o günlərin həsrətindəyəm. Bilirsənmi nə istəyirəm: Sən hər gün evimizə gəlməyə, mənimlə söhbət etməyə davam et! Bir Səni düşünürəm. Gəl, qayıt evimizə! Gəl Oğlum, evimizə, süfrəmizə qonaq ol! Sənsiz heç nəyin dadı, duzu yoxdur, çörəyimizin, yeməyimizin dadı-duzu qaçıb, Oğlum, dön, gəl evimizə! Sənsiz evimiz heç isinmir, otaqlar buz kimidir. Sənsiz üşüyürük biz, gəl Oğlum, dön gəl, ocağımızın istisini qaytar bizə! Gəl, Oğlum, bu kiçik yuvamızı-evimizi işığınla bir də işıqlandır. Sənsiz yaşamağa daha gücüm çatmır, daha gücüm qalmayıb, dön gəl, ay mənim gücüm, qüvvətim olan Oğlum! Səni çağırıram, gəl, gəl Oğlum, evimizə, yuvamıza, yaşadığın ünvana qayıt, gəl! Oğlum, aid olduğun dünyaya, evimizə geri dön, Sənin yerin buradır. Qayıt bu yoldan, gəl! Gəl evimizə, ailəmizə, ürəyimizə, Ceyhunum!

Məzarının qarşısında, ayaqlarına düşüb yalvarıram, Ceyhunum, dön, gəl, Oğlum! Ay Oğul, əlini uzat, tutum əlindən, gedək evimizə. Dur gedək evimizə, mənim ağıllı Oğlum! Ay Oğlum, dur gedək! Gözlərim yollarda qalıb, Oğlum. Heç Sənin kimi Oğul da anasının gözünü yolda qoyarmı? Gəl, gözlərim yollardan yığılsın! Gəl, qapımızı döy, qapını açım üzünə,





Oğlum! Gəl evimizə, evimiz şənlənsin, ay mənim yollarımın qonağı!

Ceyhunum, o gözəl baxışlarını sağda-solda axtarıram, onları görmək istəyirəm; gözündəki sualları oxumaq istəyirəm. Mən kompüterdə Səni gözlədiyim saatlar, günlər üçün darıxmışam. Gəl, otur, kompüterin qabağında, Oğlum! Ceyhunum, sözün olan zaman, Anacan, sənə sözüm var dediyin dodaqları, dilləri istəyirəm; xəlvət, gizli söz demək istəyəndə göz vurduğun işarəni, mimikanı istəyirəm, ay ağıllı Ceyhunum! Səni orda yox, dizimin dibində, gözümün önündə istəyirəm, Ceyhunum! Yanımda olmağını, nəfəsini duymaq, ətrini qoxulamaq, səsini eşitmək, əlindən tutmaq, başını sığallamaq, boynunu qucaqlamaq, dilindən qopan "Anacan" sözünü eşitmək istəyirəm. Əlini boynuma dolayıb üzümdən öpməyini istəyirəm. Gəl, bir də sarıl boynuma! Ayaq səslərini eşitmək istəyirəm. O yumrusifətli, iri gözlü, açıq, geniş alınlı Oğlumu istəyirəm. Tez-tez əlini saçlarına çəkən, telini sığallayan Ceyhunumu istəyirəm. Saçını sığallaya-sığallaya deyirdin ki, Anacan, saçlarım yaman tökülür, deyəsən, cavan yaşımda keçəl qalacağam. Mən də: bala alimlər ya dəli olurlar, ya da saçları tökülür, – deyirdim. Dəli olmaqdansa, saçlarının tökülməyi daha yaxşıdır, daha əfzəldir, qoy tökülsün.

Ceyhunum, Səninlə olduğum, yaşadığım tək bir günü istəyirəm. Mən əvvəlki Bizi istəyirəm. Bütün bunların həsrətini çəkirəm. Mənə Sən lazımsan, Səndən başqa heç nə istəmirəm. Ceyhunlu dünyamın həsrətindəyəm. O, şirin Balamın həsrətindəyəm. Günəş kimi işıq saçan, od-alov kimi parıldayan, yanan Ceyhunum! Günəş bildim Səni, Günəşim dedim, indi Günəşim öz həsrətində yandırır məni. Mən təkcə Ceyhunumu istəyirəm. Ceyhunlu günlərimi elə gözəl xatirələrlə anıram,

xatırlayıram ki... Oğlum, Sənsiz gələcəyimi düşünə bilmirəm. Mən bu günü, sabahı deyil, keçmişimizi, dünənimizi axtarıram, o günləri istəyirəm. Ötən günlərimiz çox şirin günlər idi. Ona görə ki o günlərdə Sən vardın, Sənin arzuların vardı və biz birlikdə Sənin diləklərinə çatmaq üçün yollar axtarırdıq, Ceyhunum! Ona görə ki o günlərdə belə acılar yox idi, acı xatirələr anılmırdı. Ona görə ki o günlərin səhifələrində acı xatirələrə yer yoxuydu, ay mənim xatirə olan Oğlum! Qaytar məni Sənli günlərimə! Ceyhunlu günlərimə dönmək istəyirəm və ürəyimdə o günlərə qayıdıram: nə olaydı, qayıdaydı o günlərin bircə anı, heç olmasa bircə anı. Ay Ceyhunum, Sənli yaşanan və gedən günlərimi qaytarmaq üçün gələn və yaşanacaq günlərimi qurban verərdim, ay mənim həyatım! Ancaq o itən günlər, ötən günlər, deyəsən, çox uzaqlarda qaldı. Ceyhunla yaşadığım, xatirələrlə dolu olan ötən günlərimin ən adisi belə geri dönməz, qayıtmaz, yaşanmaz. Nə Sən gəldin, nə mən susdum...

Allahım, insanlardan heç nə istəmirəm, Səndən mənə verdiyin şirin payı istəyirəm. Ceyhunumu yanımda istəyirəm! Bircə dəfə, tək bircə dəfə ətrini içimə çəkmək istəyirəm. Mən Ceyhunumun həsrətindən yanıram, indi qəribsəmiş tək qalan sünbüldən betərəm. Bax, mən Sənə, Səninlə yaşadığım hər şeyə qovuşmaq istəyirəm, Oğlum! Ən böyük həsrətimə qovuşmaq istəyirəm. Bir də düşünürəm ki, yox, Oğlum var. Ağlımda, beynimdə, ürəyimdə təkcə Sən varsan, Ceyhunum! Səni istəyirəm, Oğlum! Allahım, Səndən çoxmu şey istəyirəm? Mən təkcə ağıllı Ceyhunumu istəyirəm! Ceyhunumu istəyirəm... Ceyhunumu... Eşidirsinizmi, mən Ceyhunumu istəyirəm! Deyəsən, imkansız olan bir imkanı istəyirəm, eləmi?! Ona görə məni heç kim eşitmir...

Ceyhunum, Səninlə olanlar, yaşananlar: bölüşdüyümüz hər





gün, hər şey xatirimdədir. Ceyhunum nə istəyirdinsə, nəyi sevirdinsə, nəyin xəyalı ilə yaşayırdınsa da, Mən – Ana Səninlə birgə yaşayırdım bu hissləri. Hər yeni işinə ürəkdən sevinirdim, Ceyhunum! Sən də ən çox məni sevindirirdin. İlkim olmasan da, bütün ilkləri Səninlə yaşadım, Oğlum! Çox xoşbəxt idim. Bu həyatımın xoşbəxtliyi uzun sürmədi. Mən yaşama səbəbimi itirdim. Mənim içim donub. Fələk o günlərimizi əlimdən aldı apardı. Ancaq mən hələ Sənli günlərimdə yaşayıram. Mən Ceyhunlu günlərimdə yaşayıram. Mənim Ceyhunlu dünyam – gözəl dünyam davam edir. Səni ağlımdan keçirmədiyim, dilimə gətirmədiyim bir günüm, bircə anım belə yoxdur, bundan sonra heç olmaz da.

İnanmıram ki, Ceyhunumu sonsuza qədər itirmişəm. Ceyhunum, onu bil ki, Sən ailəmizdən, evimizdən getmisən, qəlbimizdən yox. Yox, Sən getməmisən. Bilirəm, yaxınımdasan, yaxınlıqdasan, çox uzaqlara getməmisən. Hər an Sənin qapını açıb, içəri girməyini gözləyirəm. Həyatda hər şeyin dəyişməsi an məsələsidir. Həyat budur: bir baxanda görürsən ki, hər şey bircə anda sona çatır, olmaz olur, yox olur; bir də baxıb görürsən ki, hər şey yenidən canlanır. Allahdan bir ricam var: o qədər istərdim ki, ölümdən dönənlərdən biri də Sən olaydın, ay Ceyhunum! Həzrəti Yusifi həyata, valideynlərinə qaytaran Allahım, Ceyhunumu da mənə qaytar! Ölümü də, doğumu da yazan Allahım, ömrü də, ölümü də Sənin qələmin yazır, – deyirlər. Sən qələmdən çox pozan işlədirsən. – Nə olar, Sənə yalvarıram, Allahım, Ceyhunumun ömrünə təzədən qələm çək, yazısını poz, təzədən yaz, tərsinə yaz – ölümünü, ömrü ilə əvəz elə, dünyanın çıxış qapısından Oğlumu geri qaytar mənə! Bir möcüzə olsun deyə gözləyirəm. Allahım, belə bir möcüzə ola bilərmi, hər şey tərsinə ola bilərmi, bu yaşadığımız gerçəklər yalan ola bilərmi?!

Bunlar Sənin əlindədir, Allahım! Allahım, Sənə yalvarıram, Ceyhunumun "ad gününə" Ceyhunumu mənə qaytar, mənə hədiyyə et! Dünyada ondan başqa heç nə istəmirəm. İnsan elə bir varlıqdır ki, hər şeydən vaz keçər, bir ümid etməkdən vaz keçməz, ümid etməkdən yorulmaz, qalmaz, əlini üzməz. Son anda da olsa, bir ümid olduğunu bilmək istər. Mən həm böyük ümidlə, bil ki, ümidlərimə qıfıl vurmayacağam, həm də, deməyə belə dilim gəlmir, ümidsizcəsinə Səni gözləyəcəyəm, ay ağıllı Ceyhunum, ay mənim ümidim! Dünya dağılsa da, canımda son nəfəs, ürəyimdə son döyüntü qalana kimi, gözlərimdə son işıq, son parıltı və gözlərimdən son yaş damlası axana kimi Səni gözləyəcəyəm, ay mənim son ümidim!

Deyirəm ki, bəlkə, Oğlum gələr indi, bəxtim yenə gülər. Bəlkə, bir səhər sübh açılanda, yer üzü işıqlaşanda evimizin qapısı çalınacaq, Sən qapımızdan içəri girəcəksən, mən də Sənə "Xoş gəldin, Oğlum", "Xoş gəldin, ömrüm-günüm", deyəcəyəm. Deyirəm, bəlkə, bir gün geyindiyin qara tuncdan, bu qara mərmərdən tikilən qalandan silkələnib çıxasan. Bəlkə, bir gün saysız qəbahətləri, günahları olan bu yalan dünyada hər şey tərsinə dönəcək, Sənsiz yaşadığım hər şey yalan olacaq, qara ümidli günlərim parlayacaq, hə?! Bəlkə, bir gün mənə acı, qəm-kədər yaşadan bu dünyada qədər üzümə güləcək! Onda mən də bu qaranlıq röyadan səksənib oyanacağam, hə?! Və Sənin yoxluğunun acısı bitəcək...

Oğlum, bunları düşündüyüm günlərin birində, birdən qəfil zəng səsindən diksindim. Qeyri-ixtiyari əlimi ev telefonuna uzatdım. Telefon deyil, qapının zəngi imiş. Görən yenə gələn kimdir? Elə düz Sənin evə gəldiyin saat idi. Birdən sevincək oldum, ayağa qalxdım, qapıya qaçdım. Əlimi dəstəyə uzatdım, qapını açdım, qapıda heç kim yox idi. Yerimdəcə boşaldım, əllərim yanıma düşdü. Demə, Səni elə ürəkdən, havaya, suya, çörəyə aclıq hiss edən kimi, elə övlad aclığıyla istəmişəm və bunların hamısını Səni fikirləşdiyim üçün yaşamışam, Sənə həddindən ziyadə ehtiyac duyduğum üçün yaşamışam. Düşündüm, bəlkə, Allahtaala məni sınayır, dözümümü yoxlayır. Buna da razıyam. Ümid edirəm ki, bir gün gələcək, bax belə bu anı yenə və yenidən yaşayacağam və Sən qapıda olcaqsan. Oğlum, mən hər yerdə, hər kəsdə Ceyhunumu axtarıram. Sən mənim üçün sonsuz bir işıq idin, sonsuz bir aydınlıq idin. Mənim həyatımda 26 günəş olsa da, bu günəşlər qaranlığımı aydınlaşdırsalar da, işıqlandırsalar da, Sən gəlməsən, Sən şölə saçmasan olmur, ay ağıllı Ceyhunum! Deyirəm, görəsən, mənim yer günəşim sönüb, yoxdu daha, bir də işıq salmayacaq?! Birdən də deyirəm: bəlkə, Ceyhunum mənimlə zarafat eləyir. Bunu da qəbul eləyirəm, Oğlum. O gündən çox uzun vaxt keçməyib, dön, gəl evimizə. Gedən yolum Sən idin, qalan yuvam Sən idin. İndi bir boşluğun içində gedirəm, hara gedirəm, bilmirəm. Gözlərim Ceyhunum gedən yola baxır. Səni çağırıram: Gəl yanıma! Gəl, adına qurban olum, Ceyhunum! Gəl, uzaqları yaxın elə. Sən yoxkən heç bir şey bitmir, gəl, Ceyhunum, gəl hər şeyin – qara günlərimizin sonu olsun! Qayıt, Oğlum, göz yaşlarımı silim, gözlərimi yollardan yığım, Səni ürəyimdə yox, yanımda bilim, görüm. Qəlbimdəki buzu, qarı birdəfəlik ərit, bitsin, su olsun, axıb getsin. Orada tək qalmısan, qoy təkliyin də yalan olsun.

Sən mənə ayrılıq nə demək olduğunu öyrətdin. Biz ayrıldıq. Bu ayrılıq dağ, duman kimi uzaqdır. İndi yeddi köynək aralıyıq biz bir-birimizdən. Bu sonsuzluğa gedən ayrılığın yuxu olduğunu söylə, Oğlum? Yuxudan ayılt məni. Qayıt gəl, eşidirsənmi? 26 il bundan əvvəl Səni çağırdığım səs yadındadırmı? Bax, o səslə çağırıram, Oğlum gəl, gəl evimizə, gəl ailəmizə! Sənsiz

yaman darıxmışam, Oğlum! Hər an Sənin gələ bilmə ehtimalın ilə yaşayıram, ay ağıllı Ceyhunum! Düşünürəm, hansı yola baxım?! Sən haradan gələ bilərsən?! Mən Səni kimdən soruşum, Ceyhunum?! Ceyhunum, ümidsiz yaşamaq olmaz ki...

Aylar keçir, il dolanır, əzizini itirmiş Mən – Anan yenə də zəif işığı andıran bir ümidlə yol gözləyirəm. Gecələr tək qaldıqda, bu ümidin işığı daha da güclənir. Doqquz ay canımda gəzdirdiyim canı, 26 il qulluğunda durduğum Balamı – Səni düşünmək və gözləmək mənim həyatımda indi ən gözəl şeydir. Ürəyimdə qara qəmli bir nisgilim var – Ceyhun nisgili. Ağzımda Ceyhun dadından başqa dad yoxdur, Ceyhunum! Gözlərim sözümə baxmır, üzümü divara sarı çevirirəm və hıçqırtılarım saatın çıqqıltısına qarışır və bu çıqqıltılar içində əriyib gedir. Bir onu bilirəm ki, bütün həsrətlər bir gün sona çatır. Bizim həsrətimizin də sonu gəlib çatacaq, Oğlum! Zamanı, vaxtı bizə göstərən cansız saatın cansız iki əqrəbi də bir sutka ərzində iki dəfə bir-birilərinə qovuşurlar, bəs biz niyə qovuşmayaq, Oğlum? Gəl, həsrətimiz bitsin, biz də qovuşaq bir-birimizə!

Bu qədər deyirəm, gözlərim göynəyənə qədər ağlayıram. Kimsə mənim ağladığımı görmür və bilmir ki, göz yaşlarım çay olub axır. Hətta bəzən yanımda oturanlar belə bunu görmürlər, heç sezdirmək də istəmirəm. Onlar məni danlayırlar ki, bu qədər ağlamaq olmaz, bu qədər ağlama, Ceyhununu rahat burax, bu qədər ağlamaqla sən Ceyhununa dinclik vermirsən, onun yatdığı yeri göz yaşlarınla isladırsan. Yenə də dayanmıram, dinmirəm, ağlayıram, heç kəs ağlamayan qədər ağlayıram, heç kəs ağlamayan vaxtda ağlayıram. Gecələr elə bil divarlar da ayaq açıb üstümə gəlir və belə gecələrdə ulduzlarla birgə Səni ağlayıram. O sərt küləklər əsən zaman Səni





ağlayıram. Yağış yağanda yağışla birlikdə ağlayıram. Göz yaşlarım yağış sularına qarışıb gedir. Göydən qar səpələnəndə qarla birlikdə ağlayıram. Qar yağanda gözümdən axan yaş qar dənəciklərinə dönür, donub torpağa düşür. Mən ağlayıram. Göz yaşlarımı heç kəs görmür. İnsanlar bilmirlər ki, mən çox vaxt bax, beləcə, gecələr ağlayıram, bunu bilmirlər. Ağlayıram, ağladıqca da gözlərim göynəyir, yenə də ağlayıram. Sonra Mən – Anana elə gəlir ki, gecə keçib, bütün şəhər yatıb və hələ də gəlib çıxmayan Balama qarşı ürəyimdə elə bir küskünlük baş qaldırır ki, kövrəlirəm və səssizcə ağlamağa başlayıram. (Allahım, bir canda – bir Ananın gözlərində bu qədər yaş-su olarmı? Hardandır, çay kimi axan bu qədər göz yaşı? Həm aşkara, həm də gizlin-gizlin ağlayan bu Ananın göz yaşlarını bir yerə yığmaq mümkün olsaydı, böyük göl yaranardı – müəllif)

Mən səsli ağlayanda binamızın ön tərəfində, arxa tərəfində yaşayan insanlar mənim səsimi eşidir: bəziləri mənimlə birlikdə Səni ağlayır; bəziləri sakitcə durub məni dinləyir, bəziləri mənə acıyır, bəlkə də, lənətləyir, bilmirəm. Bildiyim odur ki, Sən yoxsan, mən Sənsizliyi bax, belə yaşayıram.

Bir gün qonşuluqda yaşayan ağbirçək qadın mənə yaxınlaşıb dedi ki, altı yaşında olan nəvəm də bizimlə birlikdə Sənin səsinə qulaq asır. Və bir gün yenə biz pəncərədən bayatı deyən zaman Səni dinləyəndə nəvəm məndən soruşdu:

– Ay nənə, o qonşuluqda yaşayan nənə niyə belə çox ağlayır? Onun Oğlu hardadır ki, nənə onu çağırır? Oğlu niyə gəlmir evlərinə? Mən cavabımda:

– O nənənin Oğlu çox uzaqlara uçub gedib. Nənənin Oğlunu Allah öz yanına – göylərə aparıb. Nənə Oğlundan darıxıb, nənə çoxdandır Oğlunu görmür, onu görmək istəyir, nənə Oğ-

lunu çağırır. Ona görə nənə belə çox ağlayır, nənə çox sevdiyi Oğlu üçün ağlayır.

Nənə söhbətinə davam edir. Bir gün yenə nəvəmlə mən sizin binanızın yanından keçəndə, yenə Sənin səsini eşitdik. Nəvəm əlini mənim əlimdən çəkib, qaçıb sizin qapıya yaxınlaşdı, başını yuxarı qaldırıb, balaca yumru əllərini göyə uzatdı:

– Allah Baba, Sənə yalvarıram, bu nənənin Oğlunu özünə qaytar. O, çox ağlayır. Oğlunu qaytar ki, bir də belə acı-acı ağlamasın...

Ürəyim doludur, mən öz könlümdən keçənləri söyləyirəm, Ceyhunum, dərd məni üzür, axı daha dözə bilmirəm. Oğlum, bəlkə, dönüb gələsən dünyanın o üzündən?! Sənin danışan dilini, baxan gözlərini axtarıram, Oğlum, gəl! Belə etibarsız, vəfasiz olma; belə inad etmə! Ürəyim çox sızıldayır, qəm-qüssə içərisində inləyirəm, özümü kimsəsiz, yalnız hiss edirəm, Ceyhunum, gəl mənə məlhəm ol! "Ana" kəlməsinə həsrət qalan sonsuz qadın uşaq gözləyən, uşaq istəyən kimi Səni istəyirəm, Səni gözləyirəm, Ceyhunum! Xəstə gözlərin işığa necə ehtiyacı varsa, mən də Sənə elə ehtiyac duyuram, Ceyhunum! Oğlum, göz işıq istəyən kimi, dodaq su istəyən kimi, baxımsız qalıb suyun həsrətindən yanan çiçəklər kimi mən Səni istəyirəm, ay mənim gözümün işığı! Sən "Sən" olduğun üçün Səni istəyirəm, Səni gözləyirəm...

Sən gedəndən bəri hər şey mənasını itirib, anlamsız olub, Ceyhunum! Çox qısılmışam, kiçilmişəm, ürəyimin qışqırtısını heç kim eşitmir. Çox düşünürəm Sənsizliyi. Allahım, neyləyim, necə eləyim? Günlərdir, aylardır neyləyim, necə eləyim, başıma haranın daşını salım, hansı qapıya gedim, kimə yalvarım, kimin ayaqlarının altına düşüm, kimdən Səni istəyim? – deyə-deyə qalmışam. Oğlum, bəzən belə dar boğaz zamanlarda özüm





özümdən cavabı olmayan suallar soruşuram. Boşa qoyuram dolmur, doluya qoyuram olmur. Sən olaydın, yaşayaydın, mən də belə əlacsız qalaydım?! İnanmıram. İlk dəfə məni yalnız və çarəsiz buraxdın, Ceyhunum!

Ceyhunum, Sənsiz olmur Oğlum, neyləsəm də, nə düşünsəm də, olmur ki, olmur! Gəl, yanımıza! Ceyhunum! Qaranlıq bir otağa qapılıb qaralıb qalmışam. Mənim Səndən yaxın dostum, sirdaşım yoxdur, Ceyhunum! Səndən sonrası yoxdur, Oğlum, bir Sən varsan! Səninlə olan sirlərim, Sənə söylənilləcək sözlərim elə içimdə də qalıb, dolub-daşır. Gəl, mənə məsləhət ver, kömək ol, düşdüyüm girdabdan qurtar, Oğlum! Səni dinləmək istəyirən, Ceyhunum!

İllər üstə il gəlir. İllər nə tez gəlib-keçir... yuxu kimi, külək kimi. Bu qədər zaman keçdi Səninlə görüşmədiyimiz vaxtdan. Gör, nə vaxtdır Səni görmürük, Səninlə görüşmürük, Ceyhunum! Gör, və vaxtdır, Səndən əsər-əlamət, səs-səmir yoxdur. Mən Səndən çox darıxmışam, bəs, Sən məndən darıxmırsanmı? Daha bəsdir bizi intizarda saxladın. Vaxtdır, gəl, gəl Oğlum, gəl, mənim əzizim!

Sənsiz darıxır ürəyim. Mən həyatda darıxmaq nədir, bilməzdim. İndi Sənsiz Səndən Sənin üçün darıxmağı öyrəndim. Sənsiz yaman çox darıxıram, ay ağıllı Ceyhunum! "Darıxıram" sözü indi mənim üçün böyük anlam daşıyır... Kim mənə "darıxma, Anacan, az qalıb, hər şey düzələcək, hər şey yoluna düşəcək" – deyəcək? Adam, hələ də Ana olan kəs hər kəs üçün darıxmaz. Darıxmaq – darıxdığın O adamın, şəxsin necə insan olması, Sənin üçün nə anlam daşıması, kim olması, ən vacibi də necə övlad olması üçündür. O insandan Sənə nə qaldığı üçündür. Gəl, məni darıxmaq hissindən azad elə, Oğlum!

Gəl, gəl, məni könül yanğısından, ürək yanğısından, naxış-

naxış tökdüyüm qanlı göz yaşlarından xilas elə, Ceyhunum! Gəl, gəl Bala, qurtar məni bu müsibətdən! Gəl, Ceyhunum, gəl əlimdən tut, qayıdaq keçmişimizə, Sənli günlərimizə! Gəl, qayıt, qoy bu göz yaşlarım bomboz bozarıb qalan divarlara, hasarlara hörülsün. Sən bilirsən, Oğlum, bu bozartının içində təmtək, gücsüz, səssiz, köməksiz qalmışam. Oğlum, ürəyimdən dəli bir istək keçir, gəl yaşıl bir cığır aç, bu bozluq gözümü kor eləməsin. Gəl dünyanı gəzək birlikdə, gəl, birlikdə yaşa dolaq, gəl bir-birimizə ümid olaq, çıraq olaq. Gəl, Ceyhunum, dünyaya ikinci dəfə gəl! Anan qurban Sənə, gəl, sözümü yerə salma! Bircə gəl, sonra otur danla məni Səni tək qoyduğum üçün, Sənin yanında olmadığım üçün. İstəyirsən məni tufanla qarşıla, istəsən külək ol, istəsən zülmət ol, çök üstümə, Mən hər şeyə razıyam. Oğlum, hər çiçəyin öz ətri, hər gülün öz rəngi var. Sənin ətrindən, rəngindən yoxdur. Sən yadıma düşürsən, Sənsiz darıxıram. Ömrün gedər-gəlməz yollarında mən Səni axtarıram. Ceyhunum, indi Sən mənə həm uzaqsan, həm yaxınsan, həm yalansan, həm gerçəksən, Sən iztirabsan. Sən həm dərdim, həm də mənə dərmansan. İndi heç olmasa, ömrünün bir gününü mənə bağışla, mənimlə ol! Gəl ki, qəlbim sıxılır SƏNSİZLİKDƏN.

Səhərlərim ahla açılır, axşamlarım vayla qovuşur. Gündüzlər özümü yorur, birtəhər günümü keçirirəm, nəyləsə məşğul olanda oluram və mütləq Sənin yanına qaçıram, gecələr Sən yadıma düşürsən. Gözlərimi yumuram: Səninlə sonuncu dəfə danışdığımız sözlər qulaqlarımda təkrar-təkrar səslənir, eşidirəm. Səndən eşitdiyim, dediyin, söylədiyin sözlərin hamısını yazmışam ürəyimə, Ceyhunum! Hər gün ürəyimdə dinləyirəm Səni, Oğlum! Elə gecəm, elə gündüzüm, elə anım yoxdur ki, yadıma Sən düşməyəsən, yadımda olmayasan, Ceyhunum! Ürəyimdə yaşayan, ancaq əlimdən gedən Oğlum, dünyanı dəyişsən də, mənim Səninlə münasibət qurmaq, ünsiyyət yaratmaq üsulum dəyişsə də, Səninlə olmağım bitməz, bitməyəcək də. Belə dərin yuxuya getmisən, oyan, Oğlum! Sənsizlik yamandır. Sən gedəcəyimiz yolların və girəcəyimiz qapıların açarıydın. Sənsiz hər yol bizə bağlıdır. Gəl, gəl bu qapıları aç üzümüzə! Sənsiz əlsiz-ayaqsız qalmışam. Əlsiz-ayaqsız necə yaşamaq olar?! Gəl, məni qurtar belə yarım adam olmaqdan! Gəl, gəl məni qurtar bu yalqızlıqdan, bu yanğıdan! Ölmüşəm, yerdən götürənim yoxdur, Balam! Gəl, Sən mənim gözlərimi bağla, Sən məni məzara salla, Sən məzarıma torpaq tök! Sən, Sən, Sən! Qayıt, qayıt, gəl, gözümün işığı! Nə olar, Balam, yolun düşsə, bu dünyaya bir də gəl! Gəl, Oğlum, bu dünyaya bir də gəl! Səndən bircə təvəqqəm var: lütfən, heç olmasa, yuxularıma gəl, heç olmasa, yuxularda görüşək, heç olmasa, bir söz de, ay ağıllı Ceyhunum! Kim mənə "Anacan" deyib səslənəcək? Kim mənə yaşamaq üçün qol-qanad verəcək? İçimdə yanan odu kim söndürəcək? Oğlum, dön gəl, gəl Sənə çox, çox ehtiyacım var. Gəl, Balam, məni bu qaranlıqdan çıxart! Oğlum, mənə dünyaları versələr, Sənin yerini verməz.

Həyatda yollar çoxdur: məktəb yolu, iş yolu, şəhər yolu, kənd yolu, aran yolu, dağ yolu. Yollar saysız, yollar sonsuz... Haqq evinə gedər sonda bu dünyadan ötən yollar. Həqiqətən, bütün bu yollar gedib çıxır ömrümüzün axırına, həyatımızın son dayanacağına. Hər kənddə, hər şəhərdə bir yol da var. Bu yol həyatda heç bir yola bənzəməyən, bəzən çox darıxanda, qüssələnəndə, kimisə ananda, bəzən bayram günlərində əlimizə qərənfil alıb az-az getdiyimiz çox uzun və ağır olan, qarşılarında sükutla baş əydiyimiz məzar daşlarının məskəni – məzarlıq yoludur. Əvvəllər ata-anamın məzarını ziyarətə gedərdim bu yolla. İndi Mən – Ana daha bir yol tanıdım – Şəhidlər xiyabanı yolu. Bu

yol Ceyhunuma gedir. İndi evdən hansı yola çıxıramsa, o yol Sənə gəlir, o yol məni Sənə gətirir. O Böyük insan – Oğlum burada dəfn olunub – bu xiyabanda. Vətən torpağı üçün canını verən, əbədiyyəti qazanan Oğlum burdadır, bu məkanda – bu xiyabanda! Burada Oğlum, Şəhidlik zirvəsinə yüksələn Ceyhunum uyuyur. İndi Mən – Ana üçün dünyanın ən gözəl yeri bura oldu – Ceyhunum uyuyan Şəhidlər xiyabanı. Görüşümüz ziyarətə çevrildi, Oğlum. Deməli, mən yaşayıram ki, hər gün qəbrinin üstə gəlim. Buna görə dözürəm bu acıya, bu yanğıya?!

Bir haşiyə çıxım: keçmişdə Oğlumdan qalan o xoşbəxt günlərimizdə Oğlumla söhbət zamanı bəzən soruşurdum, hara getmişdin, hardan gəlirsən? Danışırdı. Əksərən cavab verirdi ki, Sabunçu dağına getmişdik, Sabunçu dağından gəlirik. Boş vaxtlarımda tez-tez dostlarımla birlikdə gəzməyə çıxırıq, xüsusilə Sabunçu dağına gedirik, ordan göz işlədikcə qarşımızda görünən mənzərəni seyr edirik. Bu tərəflərdə də asfalt küçələr, yollar salınıb, uca, yaraşıqlı əzəmətli binalar tikilib. Axşamlar buradan ulduzlar təzəcə yuyulmuş daş-qaşlar kimi parıldayıb sayrışırlar. Sonsuz səma isə bir başqa zövq verir adama. Bu mənzərəni seyr etməyi çox xoşlayıram. Elə bil burada dünyaya səyahətə çıxıram. Bəzən çox darıxanda, yorulanda da bura gəlirəm. Dincəlirəm, xatirələrə dalıram, yorğunluğum burda çıxır... Həmişə də deyirdim ki, ay Oğlum, Anan qurban Sənə, Sabunçuda dağmı var? O dağ hardadır, məni də ora apar. Cavabında: Anacan, sənin orada nə işin var, deyə ötüb-keçirdi. İndi Sənə sual edirəm: Bəs, Sənin burada nə işin var, Oğlum?! Ceyhunum, heç xəyal edirdinmi ki, bir gün gələcək, mən burada Sabunçu dağının ətəyində 1993-cü ildə Birinci Qarabağ müharibəsində qəhrəmancasına həlak olan igidlər üçün salınan Şəhidlər xiyabanında uyuyacağam. Həmişə gəldiyin yeri elə





çoxmu bəyəndin, çoxmu sevdin ki, özünə əbədi məskən seçdin, bura əbədi yaşayacaq məskənin oldu? Hansı kitabdasa oxumuşam ki, fillərdə güclü hissiyyat var, onlar öləcəkləri günü əvvəlcədən hiss edirlər, bilirlər. Bəlkə, deyirəm, bir çox insanlarda olduğu kimi Səndə də belə güclü hissiyyat olub və Sən bu gününü görmüsən?! Əvvəlcədən əbədi uyuyacağın məkanı da bilmisən, hə? Deyirəm, həyatdan vaxtsız köçəcəyin ürəyinə dammışdımı? Görəsən, qismətinə yazılan kor və qara taledən xəbərin vardımı? Görəsən, necə duymuşdun ölümü?

Ceyhunum, Sənin həmişə darıxanda, yaxud istirahət eləmək üçün gəlib üstünə çıxdığın sirli və sehirli Sabunçu dağında, düşüncələrə dalıb göz işlədikcə seyr etdiyin mənzərədə indi böyük bir portretini asıblar. Həmin Sən – PORTRETİN dağın ətəyində yerləşən Şəhidlər xiyabanında uyuyan, böyük ev tikmək arzusuyla yaşayan və sonda özünə yaşamaq üçün bu kiçik və qaranlıq evi əbədi məskən seçən Ceyhunumun məzarını yerindən tərpənmədən, isti və soyuq havada göz qırpmadan gecə-gündüz seyr edir və yəqin ki, Səni qoruyur. Fələyin Səninlə oynadığı oyuna bax! Əvvəl məkanı Sənə göstərir və sevdirir, sonra Səni orada əbədi uyudur!

Ay mənim fərəh yerim, ay mənim cəsarətli Oğlum, ay mənim yoxluğu belə var olanlardan dəyərli Oğlum, yenə Səndən danışan, Səni Sən olduğun kimi anladan bir VİDEO-ya baxdım. Sənin səsin gəldi, səsini eşitdim. Hansısa dostunla, qardaşınla, sirdaşınla bilmirəm, söhbət edirsiniz və söhbət əsnasında Sən deyirsən ki, bu gün İNSTAQRAMda yenə gördüm ki, haradasa bağça açıblar, nə isə yeni bir kompleks açıblar və sosial mediada həmin məsələ barədə geniş danışırlar. Ancaq Sən demişkən, vətənimizin o qədər fəxr ediləsi övladları var ki. Belə igid oğlanlar torpaq uğrunda şəhid olublar. Media biz-

də belə şəhidləri yaymır, onlar haqqında mütəmadi danışmır, onları insanlara, xalqa tanıtmaqda zəif işləyir. O şəhidləri xatırlamaq lazımdır ki, tanınsınlar, xatırlansınlar və xatırlansınlar ki, unudulmasınlar. Bax, Sən şəhidlərimizi unutmamaq üçün qayğılanmısan, xatırlanmaları üçün xatırlamaq lazım olduğunu dilinə gətirmisən, öz səsinlə aləmə səslənmisən. Oğlum, bu necə bir hissdir ki, Sən yaşamısan? Sən hiss eləmişdinmi, Sənə əyan olmuşdumu ki, nə vaxtsa özün də Vətən, Torpaq uğrunda Şəhid olacaqsan???

Yollara düşmüşəm, xəbərin varmı, Oğlum?! Bəli, indi Mən – Ana ev-eşiyi səliqə-səhmana salmaq, biş-düşlə məşğul olmaq, paltar yumaq, bazara-dükana getmək, Kamalın dərsləri ilə məşğul olmaq, həyətdə qonşularla söhbət etmək və ya maraqlı bir bədii kitab oxumaq, xəyallara qapılmaq əvəzinə özümə həmsöhbət olmaq üçün dost axtaranda bir yol tanıyıram və bu yolu alıram əlimə, bu yola üz tuturam, yolumu salıram Sabunçu dağının ətəyində otuz il bundan əvvəl salınan müqəddəs qəbiristanlığa, payı-piyada əzizim dəfn olunan xiyabana – məzarlığa Ceyhunumu ziyarətə gedirəm. Hər gün də belə... Sənə gəlirəm, Sənə baxmağa, baş çəkməyə, Səninlə dərdləşməyə gəlirəm. Hər gün də gələndə: Mənim Oğlum, eşidirsənmi səsimi, mən gəldim?! Oğlum, hiss edirsənmi məni, mən gəldim?! – deyirəm. Mən torpaqla Sənin arana pərdə kimi çəkilib üstünə qoyulan sinə daşını qucaqlayıram, Səni səsləyirəm. Mənə dərd çəkməyi öyrədən Ceyhunum, özün dərdsiz-qəmsiz, sakit-səssiz yatırsan, çağırıram da oyanmırsan. Elə bilirəm ki, gözümün önündəsən, üzünü görürəm. Səndən xahiş edirəm, mənə belə qəmgin baxma, Oğlum! Mən Səni mübariz, möhkəm, ürəkli bir Oğul bilirəm. Belə qəmgin durmaq Sənə yaraşmır...

Hər gün məzarlığa gəlirəm, ürəyim boşalınca ağlayıb, Səninlə danışıram kimi öz-özümə danışa-danışa geri dönürəm. "Sağ ol, Oğlum!" – deyib, Sənin daşını qucaqlayıb başdaşından öpürəm, əlimlə daşına sığal çəkirəm və sağollaşıb yola düzəlirəm, evə gedirəm. Ancaq ürəyimi Sənin yanında buraxıb gedirəm, Ceyhunum! Həyatda ən çox sevdiyin insanı – canından bir parça olan övladını – Oğlunu torpağın altında qoyub evə getmək necə bir duyğudur, necə bir yaşamaqdır, necə bir cəzadır, necə bir acıdır, Allahım?! Bəzən evə getməyə bir ayağım gedir, biri yox. İçəri girib evdə Səni görməyəndə sudan kənara düşmüş balıq kimi ağzımı səssiz yumub-açıram, havam çatmır. Belə vaxtlarda hövsələm daralır, nə illah edirəm özümə yer tapa bilmirəm. Getməyə də bilmirəm. Axı, evdə də Kamal məni gözləyir. Adam-adama alqış eləyir, mənə isə qarğış ediblər. İndi məni insanlar yox, fələk qarğıyıb, Bala. İndi mən, bax beləcə iki yolun ayrıcında qalmışam. Qalmışam belə: neyləyim, necə doğru yol tapım, Ceyhunum?! İndi mən neynim-necə eləyim deyə-deyə qalmışam, ay ağıllı Ceyhunum! İndi Sənə çox ehtiyacım var, ay mənim yol göstərənim!

Hər dəfə də yaramın gözü acışır, sızıltısına dözə bilmirəm... Mən o müdhiş gündən – Səni itirdiyim gündən bu günə çox dəyişmişəm. Birçəklərimə düşən dən çəkdiyim bütün ağrıların nişanəsi olub. Xüsusilə, o qara xəbəri eşidəndən bəri bizim ailənin, əlalxüsus da mənim, gözümün yaşı dayanmaz olub. Bura hər gələndə bir az çiyinlərim sallanır, ağ saçlarım bir az da çoxalır, dodaqlarım daha çox titrəyir, göyərir, üzümün qırışları, ləkələri bir az da artır. Hər gələndə məzarlığa sığınmış əzizim söylədiklərimə cavab verməyəndə üstümə düşən ağırlığı daha artıq hiss etməyə başlayıram. Bu məzarlıqda Mən – Ana Oğlumun məzarı üstündə Ceyhunumun buz kimi soyuq olan başdaşını qucaqlayıram. Başdaşına övladıma – Ceyhunu-

ma sarılan kimi sarılıram. Ceyhunumun şəklinə baxmağı, şəkli ilə danışmağı sevməyən, istəməyən, barışmayan Mən – Ana indi bir soyuq, qara daşa sığınıb, daşla danışıram, yanan yaralı ürəyim dilə gəlir. Ayrıla bilmirəm başdaşından. Ağını-ağıya qoşuram. Başdaşına yapışıb ağı deməkdən, Səni çağırmaqdan, Ceyhunum deməkdən dilim qabar olub. Ceyhunum, düşünürəm, yəqin, körpəlikdə beşiyinin başında az layla çalmışam. Yadımdan heç çıxmaz: Səni yatırmaq üçün beşiyə qoymazdan əvvəl yerdə otururdum, ayaqlarımın üstündə uzadıb, ayaqlarımı yellədə-yellədə Sənə laylay deyirdim. Oğlum, indi ölüm üçün, əbədi yatırmaq üçün Sənin məzarın başında layla çalıram, bayatı çağırıram. Əlimdən başqa da bir şey gəlmir. Ovunmaq üçün bir şey düşünə bilmirəm. Heç nə məni ovundurmaz. Oğlum, mən Sənin üçün ancaq ölə bilərəm, elə ölürəm də. Atan isə havadarının, arxasının uçduğundan bozardı, çökdü, qardaşların güvəndikləri dağa qar yağdığından haray qopardı, qohum-qardaş, dost-tanış, qonum-qonşu sirdaş, həyan itirdiklərindən nisgil elədi.





*Özünü oda atan,*
*Ailədən gizlin gedən,*
*Daşlara qanını tökən,*
*Canım, Ceyhun balam!*

*Aprel döyüşlərində,*
*Şücaətlə döyüşən,*
*Düşmənə sinə gərən,*
*İgidim, Ceyhun balam!*

*Müharibə sözünü,*
*Tarixdən əzbər bilən,*
*Vətənə qurban gedən –*
*Şəhidim, Ceyhun balam!*

*Vətən deyib hayqıran,*
*Bayrağı göyə qaldıran,*
*Qanıyla tarix yazan –*
*Qeyrətli Ceyhun balam!*

*Başımın tacı olan,*
*Ürəyimin sevgisi olan,*
*Fəxrim, fərmanım olan,*
*Şərəfim, Ceyhun balam!*

*Adından çox olan,*
*Özündən tək olan,*
*Hər bir yerdə seçilən,*
*Zəkalı Ceyhun balam!*

*Dağları gəzdim gəldim,*
*Daşları düzdüm gəldim.*
*Ceyhunumu tapa bilmədim,*
*Əlimi üzdüm gəldim.*

*Eləmi tikan gülə,*
*Sarmaşıb tikan gülə.*
*Fələk də göz tikibmiş*
*Gözümü tikdiyim Ceyhun gülə.*

*Qızılgül həşəm oldu,*
*Dərmədim həşəm oldu.*
*Ceyhunumdan ayrı düşəli,*
*Ağlamaq peşəm oldu.*

*Əziziyəm dəryada,*
*Ceyhunum qaldı dəryada.*
*Ağladım göz yaşımdan*
*Doldu, daşdı, dərya da.*

*Gəmim gedib, yan gedib,*
*İçində Ceyhunum gedib.*
*Mən nə cür ağlamayım,*
*Əldən xanimanım gedib.*

*Yerin de, əkim dərdi,*
*Doğrayım töküm dərdi.*
*Ceyhun dərdindən gücüm qalmayıb,*
*Mən nə cür çəkim dərdi?*





*El köç eylər bu dağa,*
*Quşlar qonmaz budağa.*
*Elə ki mən dözürəm,*
*Heç ana dözməz Ceyhun dağına.*

*Gecə uzun – ay batmaz,*
*Dərdlilər yuxu yatmaz.*
*Sənin dərdli ananı –*
*Fələk bir də yaratmaz.*

*Əzizim bu dağ ilə,*
*Dərə ilə, dağ ilə.*
*Necə qəbrə qoyarlar –*
*Ölsəm, Ceyhun dağı ilə?*

Pandemiya səbəbindən insanlar COVID-19 virusuna yoluxmasın deyə şəhərimizdə şənbə və bazar günləri ictimai nəqliyyat işləmir. Buna baxmayaraq mən ara küçələrlə piyada Sənin yanına gəlirəm. Bu küçələrdə bir-birinə dirənib tıxanıb, yola düyün salmış maşınlara baxıram, düşünürəm. Sən gedəndən sonra şəhər çox dəyişilib. İnsanlar çox dəyişib, münasibətlər çox dəyişilib. Bütün bunlar ürəyimin yarasına toxunur, nəfəsim dayanır, çiyinlərim titrəyir, ayaqlarım sözümə baxmır, kövrəlirəm, gözlərimə dolan yaşı insanlardan gizlədim deyə üzümü divarlara tərəf tuturam. Bilmirəm, niyə belə olub... Başımı aşağı salıb bütün bunları düşündükcə Səni bircə dəfə görməyi arzulayıram. Başımı sinən üstə qoyaydım və sonra öləydim, heç "uf" da deməzdim. Heç bilmirəm belə düşünməyə mənə haqq verirsən, ya yox, Ceyhunum? Gözlərim nəmli-nəmli hər gün, bəzən gündə iki dəfə: səhər və axşam Sənin görüşünə gəlirəm,

Ceyhunum. Qoruyucu maskanı taxmağı da unutmuram. Ancaq gəlirəm. Gündüzlər Sənin məzarından ayrılmıram. Sənin yanına gəlmək, Səni ziyarət etmək mənim üçün nəfəs almaq, su içmək kimi mütləq oldu. Başdaşının arxa tərəfinə boyunla bərabər hakim formasında qara qranitdən hazırlanan şəklini qucaqlayıb ağlayıram. Bəzən qəbrin üstə sərilib səslə ağlayıram, bəzən də xısın-xısın ağlayıram. Oğlum – Ceyhunum, şəkildə belə qəmli dayanmısan, elə bil ki, əvvəlcədən belə tale yaşayacağını bilirdin. Bilirdinmi, Ceyhunum?

Belə anlarda mən özümü yollara düşüb qalmış səfil bir Ana kimi hiss edirəm. Ancaq mən yenə də Səni ağlayıram saatlarla, günlərlə, aylarla. Sonra yorulub otururam. Oturduğum yerdə yandığımdan, için-için odlandığımdan yay kimi əyilib-qalxıram. Bir müddət sonra Sənə baxıram, özümdən utanıram, yenə başlayıram Səni oxumağa, Səninlə dərdləşməyə. Ceyhunumun məzarı başında ağlayıram, sızlayıram, danışıram, soruşuram, ürəyimi boşaldıram. Ceyhunum eşidir, duyur, bilirəm, ancaq Mən – Ana onunla dialoq qura bilmirəm. Mən – Ana burada hər gün gilə-gilə ölürəm, dirilirəm; elə buradaca hər gün addım-addım, pillə-pillə ölümə yaxınlaşıram. Mən – Ana hər gün ölürəm, ölə bilmirəm. Allahım, bir insan neçə dəfə ölər?! Allahım, bir insan nə qədər ağlayar, nə qədər soyuq daşla danışar, nə qədər daşdan sorğu-sual edər? Bunun sonu olacaqmı? Sinəsinə vura-vura ölən varmı mən bədbəxt Ana kimi?

Ancaq bir həqiqət də var: burada – Ceyhunumun məzarı yanında bir az rahatlayıram. Şəhidlər xiyabanı mənim üçün həm ziyarət, həm istirahət, həm də Balamı görmək, Balamla söhbətləşmək və Balama qulluq eləmək üçün ən müqəddəs yer oldu.

Hər gün olduğu kimi, bu səhər də səma işıqlandıqca ucu-bucağı görünməyən göydəki ulduzlar bir-bir yox olur, yenə göy üzünə yayılmış bənövşəyi və qurğuşun rəngində olan buludlar görünür. Ayın qabağını tutan buludlar dolub boşalır. Yağış çisələyir. Xırda, sıx damlalar üstümə, başıma tökülür. Asfalt küçələrdə yaranan navalçalara ayağım düşür, heç islandığımı da hiss etmirəm. Hərdən yanımdan insanlar otərəf-butərəfə keçirlər. Diqqətləri cəlb etmədən, ayaq saxlamadan irəli gedirəm. Mən də bu yolu irəlilədikcə, Sənə yaxınlaşana kimi yol boyunca, bax, o göydəki buludlar kimi gözlərim dolub-boşalır. Mən Sənin yanına – məzarlığa səhər tezdən gəlirəm. Bəzən səhər çağlarında Bakıxanovun küçələri kimi məzarlıq da tamamən boş olur, tam sakitlik olur: kimsə olmur, yalnız ağaclarda cəh-cəh vuraraq nəğmə oxuyan quşların səsi eşidilir, ağaclarda sərçələr civildəşir, səhər yeli ağacların yarpaqlarını oxşayır, yarpaqlar tərpəndikcə xışıltı səsləri eşidilir...

Bu gün yenə səhər çağı məzarlığa gələndə gördüm ki, qaranquşlar məzarının üstünə qonub, Səni ağlayır, Ceyhunum. Göydəki quşlar da qanad saxlayıb Səni ağlayırdı. Mənim dərdimə şərik olurdu quşlar. Elə bil ayaqlarıma daş bağlandı, yerimdən tərpənə bilmədim. Bir müddət onları seyr etdim, sonra məzarına yaxınlaşdım, quşlar uçub getdi. Bəzən, görürəm, quşlar başının üstündəki çinar ağacına qonurlar, sıx yarpaqlar arasında görünməz olur və səslərini içlərinə çəkib, səssizcə mənim naləmə qulaq asırlar. Quşlar belə Səni ağlayır, Ceyhunum. Hiss eləyirəm, hətta ətrafında torpağa əkilən güllər, həmişəyaşıl ağaclar, məzarının üstündəki canlı güllər, güldana qoyulan çiçəklər belə Sənə baş əyirlər, Səni ağlayırlar. Onlar da hiss edir ki, biz Ana-Bala böyük bəlaya düçar olmuşuq. Balamı əlimdən alıblar, arzularımı puça çıxardıblar, məni yana-yana qoyublar. Onda bəs, mən ölmüş Ana, neyləyim, necə ağlamayım Sənin kimi qızıl Balamı?!

Başqa bir gün gələndə gördüm ki, məzarının üstündə bir qız kitablardan birini əlinə götürüb baxır və ağlayırdı, gözlərinin yaşını siləndə gördüm. Ağlayır, danışır, yalqız ağlayırdı Səni. Qıza özümü göstərməmək üçün məzarına yaxın gəlmədim, dedim, bəlkə, Sənə sözü var. Oğlum, Səni uzaqdan ağlamağa başladım. Qız gedəndən sonra məzarına – Oğluma yaxınlaşdım, dərdimin üstünə daha ağır dərd gəldi. Düşündüm, düşündüm, bir yola çıxa bilmədim...

Səhərlər çox qalıram Sənin yanında. Ceyhunum, burada başqa şəhid oğlanların anaları da mənim kimi tez-tez balalarını ziyarətə gəlir. Həm onlar, həm də ziyarətə gələn başqa insanlar elə öyrəşiblər ki, bir gün məni Xiyabanda, Sənin yanında görməyəndə təəccüblənirlər, görəsən, Ceyhunun Anası niyə yoxdur? Ziyarətə gələn insanlar da mənim burada olmağıma alışıb, adət ediblər. Uzaqdan, yol kənarından – məzarlığın yanından keçənlər, Xiyabanda Ana səsi, Ana laylası, Ana naləsi, Ana bayatısı, Ana fəryadı eşidirlərsə, bir-birilərinə deyirlər: bu Ceyhunun Anasının səsidir. Hər gün bura – Xiyabana insanlar ziyarətə gəlir (bu Ananı görən hər kəsin ürəyi soğan qabığı kimi soyulur, ancaq onun dərdinə heç kim əlac ola bilmir. Bəlkə də, heç eşitməmisiniz və heç görməmisiniz. Desəm inanacaqsınız, bilmirəm, yoxsa inanmayacaqsınız: hər gün axşam saat 9-10-a, hətta 11-ə kimi məzarlıqda oturub ağlayan bir Ana gördünüzmü? – müəllif). Bəzən ziyarətçilər arasında dərdli analar – övlad dərdli analar mənə yaxınlaşır, mənimlə birlikdə bayatı çağırır, oğul fəryadı edirlər: dərdinə qurban olaq, sənin dərdin bizim dərdimiz, sənin Ceyhunun hamımızın balasıdır, – deyirlər və göz yaşı tökürlər.

Oğlum! Xiyabanın darvazası açılandan içəri girən hər kəs mənə sarı gəlir, Səni salama gəlirlər. Bəzi cavanlar və məktəb yaşlı uşaqlar gəlib məzarının qarşısında sükutla baş əyirlər.



ŞƏHİD CEYHUN DASTANI

Hə, Sənə kimdən deyim, Oğlum. Bu gün həmkarlarından biri mənə yaxınlaşıb əlimdən öpdü və: belə igid Oğlan üçün həm yanarlar, həm də ağlayarlar. Ana, mən heç ağlamaq nədir bilmirəm, heç ağlayan deyiləm, əgər ağlayası olsam belə, gözlərimdən heç yaş gəlməz. İnanın, Ceyhunun adını sosial şəbəkə səhifəsində gördüm, anlamadım, gözlərimə inanmadım, doğru olmaz dedim. Zəng çalıb başqa bir yoldaşımdan soruşdum. O, bu xəbərin doğruluğunu təsdiqlədi. Onun cavabını eşidəndə elə bil məni ildırım vurdu, hönkürüb ağladım. Bir neçə gün dayanmadan ağladım... Oğlum, bax, Sənin üçün tək mən ağlamıram, Səni tanıyan və tanımayan hər kəs ağlayır, Sənin cəsurluğun qarşısında baş əyirlər...

İnsanlar Sənin şəklinə baxıb başlarını bulayır, heyifsilənirlər. Bəziləri: göz yaşı tökməkdən yorulmadınmı, ay Ana? – deyə soruşur. Belə getsə, xəstələnərsən, yatağa düşərsən. Bəs, evdə olan o iki balana kim baxar? Sən xəstələnsən, Ceyhununu ziyarətə gələ bilməsən, neyləyərsən? – deyirlər. Mən susuram. Bilmirəm, nə cavab verim. Bəziləri gəlib məni qolumdan tutub güclə ayağa qaldırır, xəstə adamlara məxsus yanaqlarımdan süzülən göz yaşlarımı silirlər, dayan, sakitləş, döz, deyirlər. İnsanlara təşəkkür edirəm: "Çox sağ olun!" – deyirəm. Bəzən yanımda duranlar mənimlə bərabər Səni ağlayır, göz yaşı tökürlər. Bəzən diksinən kimi oluram, insanların mənə yaxınlaşdığını hiss eləmirəm, nə zamandan gəldiklərini belə bilmirəm. Mənə toxunanda, mənə təsəlli üçün söz deyəndə, kiminsə yanımda olduğunu duyuram. Kim isə gəlib, yanımda durur, dərdli-dərdli hıçqırıb ağlayır, göz yaşlarını əllərinin arxası ilə silir, məni qucaqlayır. Bəzən mənə yaxınlaşan bir başqa ziyarətçi yana-yana tozunu alır qəbir daşının. Bir başqa ziyarətçi məzarına yaxınlaşıb Sənin üçün də, burada yatan şəhidlər üçün də ağlayır, şəhidlərimiz üçün göz yaşı axıdır....

Xiyabana gələn bəzi ziyarətçilər yanımdan keçəndə: "Allah rəhmət eləsin!, Nur içində yatsın!, Qəbri nurla dolsun!", – deyirlər. Mənə də, Can Ana!: – "Allah Sənə səbir versin, Ana!", "Allah öz səbrindən Sənə versin!!", "Sən anaya dünyanın ən böyük səbrini diləyirik!" – deyib keçirlər. Onların yanında çətin də olsa, bəzən səbrimi basıram, özümü saxlayıram. Ancaq bu sözlərin heç birini qəbul etmək istəmirəm. Sən olmayan gün mənim səbrim, dözümüm yox oldu. Neynirəm bu dözümü, səbri Sənsiz? Bilmirəm, insanlara necə cavab verim ki, Ceyhunumun yoxluğuna dözmək olmaz. Demək istəyirəm: bir Ananın oğlu həbsxanada olarsa, insanlar ona səbr et, Allah qoysa, cəzasını çəkib gələcək, – deyərlər. Bir Ananın oğlu xəstə olub xəstəxanada yatarsa, insanlar Anaya "Səbr et! Dərd verən Allah dərmanını da verəcək, Allah şəfasını verəcək. Allah qoysa, sağalıb evinizə dönəcək!", – deyərlər. Bəs, Ceyhunum belə günləri yaşamırsa, Mən – Ana hansı günümə səbr edim? Bir bilirəm ki, məhbusdakı, əsgərlikdəki və xəstəxanadakı adam – oğul üçün ayrılıq olmaz. Ceyhun ayrılığının da səbri olmaz. Ceyhunumun, Ceyhunsuzluğun səbri yoxdur. Bir də ki, ən ağırı nədir, bilirsinizmi, Ceyhunum da başqa oğullar kimi müharibə bilib evdən yola çıxarkən başqa oğullar kimi ailəsini, oğul-uşağını ata-anasına, qardaşlarına əmanət edərdisə, ailəsi ilə vidalaşardısa, müharibə günlərində telefonla danışardısa, səsini eşitmiş olardıqsa, hardasa, bəlkə də, "səbr et!" kəlməsini başa düşərdim Mən – Ana. Bir oğul bu yola çıxarkən Anasına son sözünü deyərdisə, ürəyini boşaldardısa, yenə də "səbr et" kəlməsini anlamaq olardı. Ceyhunumun səbri yoxdur! Ceyhunumun ürəyi yüklü getdi. Ceyhunumun səbri yoxdur və olmaz da! Heç Ceyhun hicranının səbri olarmı? Ceyhunsuz Ceyhunumun səbri olarmı?! Fikirləşirəm ki, adam lap fil səbirli olsa belə, bu





dərdə dözməz. Dərdi verən Rəbbim, səbrini də versin! İnsanların böyük əksəriyyəti: "Ceyhunun Anası dözməyi, səbr etməyi bacarmalıdır. Ceyhunun Anası Ceyhununu yaşatmaq üçün yaşamalıdır", deyirlər. Sən yaşamalısan. Mən yaşamıram ki... Yaşamayan biri nə xəstə olar, nə də ölər, – cavab verirəm.

Xiyabana ziyarətə gələnlərdən bəzi insanlar deyir ki, bu Ana səcdəyə layiqdir. Layiqdir ona görə ki, ilk öncə belə övlad böyüdüb, sonra da belə övladın acısına, belə dözülməz dərdə dözür. Bu sözləri heç eşitmək istəmirəm...

Heç Səni tanımayanlar, Səni bilməyənlər Sənin ölümünə təəssüflənirlər, cavan olmağına heyifsilənirlər; bəzən mənə təsəlli üçün ürəkdən gələn sözlərini deyirlər. Sənin şəklini öpürlər, şəklinə sığal çəkirlər və elələri də olur ki, Səninlə danışır, Sənə suallar verirlər. Bəziləri təskinlik üçün söz tapmırlar, sadəcə: "Sözün bitdiyi yerdir" – deyib sakitcə göz yaşı tökürlər. Ziyarətçilər arasında bəzi yaşlı, dünya görmüş insanlar mənə: "Ana, elə dərdlər var ki, onları ancaq çəkmək lazımdır, ürəyindən qoparıb atmaq istəsən, qəlbinin bir parçası da onunla gedəcək, məhv olacaq. Görürük ki, Sən bu dərdlə məhv olursan. Belə olmaz. Sən yaşa ki, qəhrəman Oğlunu da yaşada biləsən" – deyib, yanımda oturur, Ceyhunu soruşurlar. Başa düşürəm, Oğlum, mənə yazıqları gəlir, mənim nəfəs almağımı, dayanmağımı istəyirlər. Bura ayaq basan insanlar neçə dəfə gəlməklərindən asılı olmayaraq buradan çıxıb getməyə tələsmir, məzar daşlarına nəzər salırlar: dayanır, baxır, düşünürlər...

Ayaq ucunda uyuyan Şəhid Əkbərin atası hər gün oğlunu ziyarətə gəlir və dil deyib ağlayır balasını. Hər dəfə bura gələndə məzarına yaxınlaşıb Səninlə salamlaşır, "Heyif Səndən, Ceyhun!" deyib ağlayır. Sonra da "Fatihə" surəsini oxuyub Sənə tapşırır. Sənə müraciətlə: "Oxumaq, təhsilli olmaq nə demək

olduğunu yaxşı bilirəm. Ceyhun, orada bu cavanlara qanunları başa sal, onlara dərs keç, öyrət! Öyrət ki, oxumaq, təhsil almaq nə deməkdir bilsinlər. Orda ədaləti bərqərar eylə, Ceyhun bala!"

Bəzən başqa şəhidlərin üstünə gələn mollalar da Sənin məzarından yan keçmirlər, yaxınlaşıb dua verirlər, salavat çevirirlər. Ziyarətə gələn bəzi insanlar mənə deyir ki, Ana, sənin yanıqlı səsin adamların ürəyini soyur, az qala şır-şır axan bulaqları qurudur. Elə bil bütün dünya, insanlarla birlikdə göydəki quşlar, yerdəki ağaclar sən Ananın yanıqlı səsində yanır. Ziyarətçilərdən bəziləri məzarının üstündəki çox səliqəynən şüşəyə salınmış öz kitabxanana məxsus şəxsi kitablarına – "Azərbaycan Respublikasının cinayət məsəlləsi" və "Гражданский кодекс Азербайджанской Республики» – baxıb Sənin hüquqşünas olduğunu anlayırlar və mənə suallar verirlər. Mən də çox böyük ürəklə, fəxrlə, qürurla, ağızdolusu Səndən – Ceyhunumdan danışıram, unuduram ki, Sən həyatda – yanımda yoxsan, ancaq Sən varsan, yaşayırsan kimi danışıram.

Adətdəndir, ziyarətçilər məzarlığa gələndə əllərində təzə-tər qərənfil gətirirlər, bəzən həmkarların, iş yoldaşların əklillər gətirirlər, Sənin ruhunu şad etmək üçün. Səni incitməmək üçün həmin qərənfilləri, əklilləri çox ehtiyatla məzar daşının üstünə qoyurlar. Bəzən insanlar məzarının üstündəki bağrı şan-şan olan çiçəklərin tozunu silirlər; bəzən məzarının yanında əkilən güllərini sulayır, onlara qulluq edirlər, yəqin, düşünürlər ki, bu qulluqdan Sənə də pay düşür, Ceyhunum!

Axşama tərəf qəbiristanlıq bomboş boşalır. Hava da qaralır. Məzarlıqda olan insanlar get-gedə azalır. Yenə Səninlə tək qalıram. İnsan şəhərin qulaqbatıran, adamı yoran səsindən qaçıb dəniz kənarında ləpələrin səsinə qulaq asaraq dərin düşündüyü





kimi, qəbirisanlıqda, əzizinin məzarı yanında da dərin-dərin düşünə bilir. Mən də Sənin məzarının başında oturub düşünürəm... Burda – Sənin məzarının yanında Sənə olan sevgimi duymaq, hiss etmək üçün bir göz yaşım görünür, bir də güllərin, çiçəklərin rayihəli ətri gəlir, başqa da heç nə...

Ceyhunum, məzarının sol tərəfində qollu-budaqlı böyük, qocaman bir çinar ağacı var. Üstünə, daşına-torpağına, məzarının yanında əkdiyimiz gül-çiçəyə kölgə salır. Bəzən düşünürəm ki, bu ağac Səni sərt küləklərdən, üstünə düşəcək olan hər hansı bir zərbədən qoruyur. Oğlum, adət eləmədiyin şərait məni sıxır. Qeyrətli Oğlum, qaranlıq və rütubət içində belə kiçik otaqda necə yaşayırsan?! Ay yazıq Balam! Ay Ceyhunum, Sənin bu gününə ölmüşəm, məni yerdən götürən yoxdur, Oğlum!

... Bəzi günlərdə səxavətli günəş çox parlaq olur, yer üzündə yaşayan insanlara şüalarından işıq və istilik paylayır. Kainatda olan canlı və cansız hər şey: torpaq, ağaclar, daşlar və nələr, nələr isinir. Müşahidə edirəm, qüssələnirəm: günəş də Sənə can atır, günəş sünbülü şəfəqlərini Sənin məzarının üstünə salır, günəş elə hey Sənin üstünə düşür. Görəsən, günəşin işığı Sənin otağını işıqlandırmasa da, heç olmasa, torpağın altında günəşin payladığı istilikdən Sənə pay düşürmü, canın isinirmi, ay mənim tozu, küləyi, soyuğu sevməyən Oğlum?! Ceyhunum, havalar yavaş-yavaş soyuyur. Göyün üzü gah tutulur, gah açılır. Qara buludlar məzarlığın üstünə sarı gələndə mənim dərdim birə-beş artır. Küləklər əsib, yağışlar tökdükcə mənim dərdim artır. Havalar soyuq olanda: külək əsəndə, yağış, qar yağanda Səni göz yaşlarımın istisiylə isidirəm, deyə düşünürəm. Üzü qışa gedir. Sənin üstünə qar yağacağından qorxuram. Qışda Sənin vəziyyətin necə olacaq, ay igid Oğlum? – deyə düşünürəm.

Hər gün torpaqda yatdığın məzara, başdaşındakı qara şəklinə baş qoyub üzümü sürtürəm. Sən mənim ən acı sınağım oldun, ay ağıllı Ceyhunum! Sən haqq düyadasan, Oğlum! Məni bağışla. Sənin yanında ola bilmədiyim üçün məni bağışla! Mən elə bilirdim Sən olmayan dünyada mən də olmaram, Sənsiz ölərəm. Mən Sənsiz ölmədim, ay bağışlamağı bacaran Oğlum, məni bağışla! Mən haqqımı halal eləyirəm Sənə, Sən də haqqını halal elə mənə, ay haqq dünyasında olan Ceyhunum! Qoy uğrunda fəda olduğun bu torpaq da haqqını halal eləsin Sənə!

Gözlərimi də yollara dikmişəm, Sənin gələcəyin günü gözləyirəm. Sən gələcəksən deyənə, bax, sağ yanımı boş saxlayıram. Mən Səni yanımda görürəm, Oğlum! Qıyıb qopartmadığım, yaşıl kolundan dərmədiyim ətirli gül kimi yanımda hiss edirəm. Toxuna biləcək qədər yaxınsan mənə, ancaq toxuna bilmirəm Sənə. Hardasan, Sən?

İnanmıram, necə yox olurmuş bir anda İnsan? Necə olur, duyulan nəfəs, bir andaca daşa dönür? Necə olur, gülən üz, gülməz olur? Necə olur, danışan dillər, dodaqlar susur? Bir il bundan əvvəl hardaydın, indi hardasan, ay ağıllı Ceyhunum?! Gecələr gözlərimi yumanda Səni görürəm, gözlərimi açıram, Sən yoxsan, gözlərimdə yaşla dolu hüzn, bir də əlimdə Sənin şəklin var. Şəklinə dönə-dönə baxıram: Allahı xatırladırsan mənə, həm hər yerdə varsan, həm də heç yerdə yoxsan. Bəs, Sən hardasan, ay mənim Allahım? Ey Tanrım mənim, hardasan? Hardasan, varlığını sübut edən Oğlum? Bəs, Sən hardasan?! Hardasan, mənim Ceyhun adlı Oğlum, ağıllım mənim, Ceyhunum, hardasan? Hər şeyimi paylaşdığım, ancaq özünü heç kimlə paylaşa bilmədiyim Oğlum, hardasan?

Sən yoxsan, sevincim, şənliyim də evimdən, üzümdən, ürəyimdən silinib, elə bil onlar da xəstələnib və ya ağır bir qəzaya düşüblər. Hər gün gecələrdən, gündüzlərdən, şəkillərindən Səni soruşuram. Sən yoxsan, o gəzdiyin yollar da qəribsəyib Sənin üçün. O yollardan, o küçələrdən bir də gəl, keç, Oğlum! Sənli günlərimizdə Səninlə yaşadığımız gecələr gündüzlərdən daha işıqlı idi. Sən yoxsan, indi o işıqlar da sönüb, indi Səninlə yaşadığımız gecələr gündüzlərdən daha uzun oldu. İndi belə gecələri, gündüzləri mənə vay xəbəri gətirən üzüqara gecələr kimi Sənsiz yaşayıram. Sən bu gündüzlərdə, gecələrdə yoxsan, hardasan, ay aylı-ulduzlu gecəm, Ceyhunum mənim? Ceyhunum, biz Sənin işığına qanadlanırdıq. Hardasan, qaranlığa, zülmətə işıq salan Oğlum, hardasan? Qaranlıq gecələrimin işığı, işıq ömürlü İnsan, hardasan? Günəş kimi işıq saçan Oğlum, hardasan? Hardasan, mənim Günəş Oğlum? Ceyhunum, Sənsiz yayın ortasında o şöləsindən adamı yandırıb cıbrıx çıxardan istidə belə üşüyürəm, donuram, soyuq iliyimə qədər işləyir. Bədənim buza dönür. Sənsiz içimə qar yağır. Sənsiz dörd fəslin dördündə də mənim ürəyimə qar yağır. Hardasan, ay günəşim, ay işığım, ay istilik verən nəfəsim?

Ay bala deyib, Balamı – Ceyhunumu yana-yana səsləyirəm: hardasan, Balam, hardasan? Yaşamaq həvəsim, hardasan? Hardasan ciyərparəm?! Ürəyimi duyan ürək hardasan? İgidim, qəhrəmanım, həmdəmim, sirdaşım, sözüm-söhbətim, atam-anam, qardaşım-bacım, dostum, hardasan?! Mənə təsəlli verirdin, indi hardasan, ay mənim təsəllim? Dərs aldığım müəllimim, hardasan? Sevdiyim və sevəcəyim Oğlum, hardasan? Hardasan, ay insaf, vicdan, ədalət etalonu olan Oğlum, hardasan? Hardasan, ay təmiz və gerçək İnsan, hardasan? Ətrindən, qoxusundan olmayan Ceyhunum, hardasan? Hardasan, ay mənim rayihəm? Ən şirin meyvəm, hardasan? Kölgəsində kölgələndiyimiz böyük çinarım, hardasan? Barı üstündə quruyub kal-kal tökülən

bar ağacım, hardasan? Dilək ağacım, murad quşum, muradım mənim, hardasan?!

Uşaqlıqdan bu günə, bu yaşına gələn ömür yolu boyunca böyük həvəslə, hərarətlə ürəyimdə dəmlədiyim, zədə dəyməsin deyənə, ürəyimdə bəslədiyim xəyallarımın, arzularımın Ceyhun adlı ünvanı, hardasan? Son dəfə son arzun nə oldu, Ceyhunum?! Son arzusunu bilmədiyim Oğlum, hardasan? Arzularım mənim, indi özü arzu olan Oğlum, hardasan? Hardasan, ay xəyallarımın memarı?! Bəs, Sən hardasan, ay mənim göz bəbəyim, iki gözüm, hardasan? Ay ümid sarayım, Sən hardasan? Güvəndiyim dağım, lövbər saldığı limanım, hardasan?

Ürəyim ünvanı Sən olan suallarla dolub-daşır. Bax, bu cavabsız suallarla qarşı-qarşıya qalmışam. Sənə sorulacaq, cavabları Səndə olan çoxlu suallarım var. Suallarıma məntiqli, dolğun cavab istəyirəm. Ürəyimdə Sənə yazdığım məktublarıma cavab istəyirəm. Hardasan, ay mənim suallarımın məzmunlu cavabı, soyuq axşamlarda yazdığım məktublarımın cavabı? Hardasan ay mənim ağıllı, hazırcavab Oğlum? Danış mənimlə, bir söz söylə, Oğlum! Ceyhunum, yalanmı oldu, bunlar hamısı?!

Ağıllı başı puç olan, yaraşığı heç olan, arzuları yarım qalan, şəkilləri divarda-daşda qalan, şəkil olan Oğlum, hardasan? Adına pay çəkilməyən, payı palçığa dönən, özündən pay qalmayan Oğlum, hardasan? Planları pozulan, diləkləri qırılan, ümidləri heç olan, xəyalları puç olan, özü torpaq olan Oğlum, hardasan? Yaşamaq həvəsiylə çırpınan, ancaq yaşamağın yolunu tapmayan Ceyhunum, hardasan?

Çox sevdiyin, özündən xəbərsiz Səni içinə çəkən bu şəhər də gözəlliyini, yaraşığını itirib, Sənsiz qalıb, bəs Sən hardasan, ay Bakıya vurğun olan, Bakının hüsnünə heyran olan Oğlum?! Oğlum, yersiz də olsa, bir söz soruşum Səndən: – Ölüm Sənə





yaxınlaşanda: “Ölüm, gözlərimi bağlama! Mən son nəfəsimi bu dünyaya, bu dünyadakı Odlar yurduna, çox sevdiyim doğma Bakıya baxa-baxa ölmək istəyirəm, son dəfə Anamı görmək istəyirəm!” – dedinmi heç?!

Gecələr Bakının küçələrində gəzməyi sevməyən, vaxtında evə gələn, şam yeməyinə gecikməyən Oğlum, indi hardasan, niyə gəlmirsən evimizə? Heç kimi narahat eləməyən, nigaran qoymayan, evə gəlmək üçün zəng gözləməyən Ceyhunum, hardasan? Bu günə kimi məni xəbərsiz qoymayan, indi heç kimdən, heç yerdən xəbərini ala bilmədiyim Oğlum, hardasan? Bir bilsən, Səni necə gözləyirəm, Səni gözləyə-gözləyə nələr çəkirəm, Oğlum!? Sən mənim bu günümdə yoxsan, bəs, hardasan?

Ağlayan gözüm, gülən gözüm, hardasan? Hardasan, gözüm mənim, Ceyhunum mənim? Şən təranəsi hüznə, kədərə, nisgilə dönən Oğlum, hardasan? Acım, kədərim, nisgilim olan Oğlum, hardasan? Hardasan, qan axan yaram mənim? Yanan, göynəyən ürəyimin məlhəmi, qan axan yaramın dərmanı, hardasan? Hardasan, dərdim mənim? Hardasan, dərdini çəkdiyim dərdim mənim? Bu yalan dünyada mənə dərd, çilə çəkməyi öyrədən Oğlum, hardasan? Sadəcə Oğlum deyilsən, həm dərd ortağım, həm də mənə dərd verən dərdim, hardasan? Səndən başqa dərdim yoxdur, Oğlum! Gəl, dərdimə çarə ol! Sən ailəmiz üçün torpaq kimisən, hamımızın kökü Səndədir. Torpağımız, kökümüz olan Ceyhunum, hardasan? Heyranı olduğum Oğlum, heyranına səs ver! Ceyhunum, hər gün pəncərədən boynumu büküb Səni gözləyirəm, Səni çağırıram. Yalvarıram, Oğlum, səsimə səs ver, bircə dəfə səslən, səsini eşidim! Gəl, dön gəl həyatımıza, gəl, torpağımız, kökümüz, gəl, bizi cücərt, böyüt, ay Ceyhunum! Hardasan, bizi ayaq üstə saxlayan bel sütunum mənim?

Deyirlər ki, “İlan sürünsün, balası da dalınca”. Mən də sağı-

ma baxıram, soluma baxıram hamının balası yanındadır, ətrafımdakı anaların da balaları yanındadır. Bir mənim Ceyhunum yanımda yoxdur, mənimlə birlikdə yerimir. Üzümü göylərə tutub deyirəm: Ay Gözəgörünməz, nədir günahım?! Nə günahın sahibiyəm mən?! Neyləmişəm? Qoyunun quzusu yanında, toyuğun cücəsi, inəyin buzovu, dəvənin köşəyi yanında, atın dayçası yanında. Meşələrdə ağaclar da tək deyil, yanlarında pöhrələri var. Bəs, mənim şirin Balam hanı?! Bəs, mənim Ceyhunum hanı? Deyirlər ki, çiçəyi budaqdan, quşu yuvadan aralı görəndə səma da onların halına ağlayır. Bir də deyirlər ki, bir Ana Oğlundan ayrı düşəndə dünya da onun halına, dərdinə ağlayır. Dünya, insanlar ölümünə ağlayan Oğlum, hardasan? Anasından aralı düşən Ceyhunum mənim, harda qalmısan?

Həyat bəzən çox yorucu olur. Belə zamanlarda insan kiməsə ehtiyac duyur, kiməsə sığınmaq istəyir, kiminləsə bölüşmək istəyir. Həyat məni belə yoranda, darıxdıranda yanımda olmasan da, ürəyimdə danışdığım, gileyləndiyim Ceyhunum, hardasan? Ürəyim qan olub, ürəyim yorulub, bitab düşmüşəm. Ürəyimi ağladan, yoran Oğlum, hardasan? Bu necə asan ayrılıq oldu. Hər gün – hər səhər, hər axşam Səni gözləyirəm. Gəlməz olan Oğlum, hardasan? Bilirəm, yaraşığından əsər-əlamət qalmayıb. Görəsən, indi halın necədir, ay yaraşığını itirən Oğlum? Bilirəm, varsan, ancaq hardasan? Həm bilirəm, həm də bilmirəm necəsən, hardasan, hardasansa səsimə səs ver, yox, özün gəl! Ayaqlarınmı Səni belə uzaqlara apardı, yoxsa qeyrətinmi? Nağıl kimi dillərə düşən Oğlum, hardasan? Bəs Sən hardasan, ay mənim Nağıl Oğlum?

Səni bu dünyaya döndərə bilən, qayıtmağına səbəb nə ola bilər, Ceyhunum?! Ceyhunum, necə söz deyim ki, hansı sözlə Sənə müraciət edim ki, səsimə səs verəsən? Səndən necə imdad





diləyim ki, bəlkə, mənə yazığın gələ, kömək üçün səsimə səs verəsən? Hansı sözünü deyim ki, xoşun gəlsin, gülümsünüb səs verəsən? Necə sözlər deyim ki, bəlkə, hirslənəsən, titrəyəsən, kükrəyəsən, səsimə səs verəsən? Hansı sözlə Səni yatdığın yerdə diksindirim ki, silkinib oyanasan, qalxasan, səsimə səs verəsən? Hansı günümə hansı sözlərlə Allaha şükr edim, dua edim ki, bəlkə, səsimə səs verəsən? Hansı söz Sənə təsir edə bilər, Oğlum? Hansı söz Səni danışmağa məcbur edə bilər, ay səssiz qalan Oğlum? Hardasan, səs ver?!

Hardasan, Oğlum, gəl ovundur qəlbimi, gəl sevindir evimizi. Ünvanında yoxsan, evində yoxsan, bəs, hardasan, ay evini, ünvanını dəyişdirən qəhrəmanım?! Hardasan, ay evimin əvəzolunmaz qonağı, ay gözümün qonağı, hardasan? Səndən bir təvəqqəm budur, gəl, geri gəl ki, bir də soruşmayım: harda yatmısan, harda qalmısan? Özün gələ bilmirsənsə, heç olmasa, səsini göndər, səsini eşidim, ay mənim həlim səsli Oğlum! O mənə şirin sözlər deyən şirin dillər, hardasan? Özün gələ bilmirsənsə, heç olmasa, o gözləri göndər, baxım, Səni anlayım. O mənə uzanan əllər, hardasan? Özün gələ bilmirsənsə, heç olmasa, əllərini göndər, qoy tutum əllərindən, əvvəllər tumarladığım kimi onları tumarlayım, dırnaqlarını tutum, axı Sən uzun dırnaq saxlamağı heç sevməzdin. Yox, sonra da düşünürəm: mən Ceyhunumu diri istəyirəm, canlı istəyirəm, Ceyhunumu istəyirəm.

Üzünə öyrəşdiyim Oğlum, üzünü çoxdandır görmürəm. Özünə, üzünə, sözünə öyrəşdiyim Balam, hardasan? Acın ürəyimdə, qoxun burnumdadır. Bəs, özün hardasan, ay mənim Ceyhunum?!

Heç yağışı bol olan payızda da qar yağarmı? Bax, payızda evimizə, ailəmizin başına qar yağdı. Heç insanın da ürəyi üşüyərmi, Oğlum? Bax, Səndən uzaq olalı, Səndən uzaq qalalı elə

bil ki, yağan qar, yağış üstümə yağır, ürəyim üşüyür, ürəyim buz bağlayıb, canım donub. Gəl, Oğlum, gəl ürəyimin buzunu ərit, canımın donu açılsın! Gəl, ay mənim ürəyimin hərarəti!

Hicranın məhv edir məni, Oğlum, hardasan? Hardasan hicranım mənim? Ceyhun həsrəti üzümdə naxış salıb, iz salıb; evimin əzizi qara saçımı bəyazıdıb. Ay qara saçımın ağı, bəyazı, Sən hardasan? Mənim həsrətimin sonu hanı bəs?! Hardasan, həsrətim, hardasan? Bəs, Sən hardasan? Hardasan, ay mənim igid Balam?! Alışdığım, inandığım həqiqəti yıxıb, yalan olan Oğlum, hardasan? "Anacan" sözünə həsrət qalmışam. Hardasan, mənim anasının canı olan Oğlum? Mən Sən oldum, Sən mən olan Oğlum, hardasan? Ən çox sevdiyin ananı ən çox da Sən ağlatdın, Ceyhunum. Hardasan, məni ağladan, ağlar qoyan Oğlum? Hardasan, ay gözümün yaşı? Məni bitirən, söndürən Oğlum, hardasan? Qaranlığımı işıqlandıran, özü işıq kimi sönən Oğlum, hardasan? Hardasan, Ceyhunum, hardasan? Ceyhun deməkdən dilim qabar oldu. Dilimin həm şirin, həm də acı kəlməsi "CEYHUN"um, hardasan? Hanı o Sən?!

Allahım, nədi günahım, mən Ceyhunsuz qalmışam? Mənə bu həyatda cənnəti, daha doğrusu, cənnət kimi bir həyat yaşatmaq istəyən, bu həyatı vəd edən Ceyhunum indi özü cənnətdə səssizcə uyuyur, Mən – Ana cəhənnəm odunda çırthaçırtla yanıram. İndi Ceyhunum torpağın altında Anasız qalıb, Mən – Ana qara torpağın üstündə Ceyhunsuz qalmışam. Ceyhunum torpağın altında yatır, Mən – Ana torpağın üstündə dil deyirəm: Bala, Sənsiz mən qala bilmirəm, Sənsiz mən nəfəs ala bilmirəm, Sənsiz mən yaşaya bilmirəm. Gül susuz qalıb necə saralırsa, mən də Sənsiz saralıram, Ceyhunum. Sənsiz mənə həyat olmaz! Sənsiz ömür yaşamaqdansa, ölmək gözəldir. Məni belə zülmdə buraxma, ay Ceyhunum, mənim Sənə ehtiyacım var! İndi mən





də Sənin kimi qaranlıqda qalmışam. Qaranlıqda yaman çarəsiz, naçar, əli qoynunda, boynubükük qalmışam. Gözlərimin işığı azalıb, kirpiklərimdən qızılı yaşlar asılıb. Əlim boşda qalıb, ayaqlarım yeriməz olub. Daşa dönmüşəm, günəş kimi yanıb, kömür kimi qaralmışam. Ceyhunum, Səni axtarıb tapmamaq, səsləyib eşitməmək, cavab almamaq, bilirsənmi, necə ağırdır, necə acıdır, necə çətindir?! Allahım, necə məni Oğulsuz həyat yaşamağa məhkum elədin?! Necə, Ceyhunumu torpağın altında yatmağa məhkum elədin, məni də belə acı həyatı yaşamağa məcbur elədin?!

Ancaq onu da deyim ki, gedənlər bilməz qalanlar necə dərd çəkir! Ölüm ölüb gedənlər üçün deyil, sağ qalanlar, yaşayanlar üçündür, onlar üçün bədbəxtlikdir. Bax, Sən məni bədbəxt elədin, yazıq elədin! Analardan seçildim, yazıq oldum. Analar televizor və ya kompyuter qarşısında oturub övladlarının nişan-toy məclislərinin çəkilişlərinə sevinclə baxır, fərəhlənirlər. Allaha şükr edirlər ki, oğul-qız toyunu görmək və yaşamaq onlara qismət olub. Valideyn borclarını qismən də olsa, yerinə yetiriblər, arzularına çatıblar. Mən isə Ceyhunumun dəfn mərasiminə, tabutuna ağlaya-ağlaya, yana-yana baxıram. Sənin həyatla dolu olan canlı və Səni son mənzilinə yola saldıqları vida mərasiminin video və şəkillərinə baxıram, ağlayıram. Bu kadrlara baxanda mənə elə gəlir ki, Ceyhunum mənə canlı-canlı baxır, danışır və dinləyir. Oradan mənə baxan gözləri görürəm, oradan mənə ünvanladığın sözləri eşidirəm, o sözləri həm ağlımda, həm də ürəyimdə saxlayıram.

Qulaqlarım kar olaydı. Qulaqlarım eşitməz olaydı. Qulaqlarımla eşidirəm ki, bəzi Analara gözaydınlığı verirlər, "Mübarək olsun!" – deyirlər. Mən Anaya isə "Allah rəhmət eləsin!" – deyirlər...

Elə oğlanlar böyütmüşdüm ki... Ömrümün elə çağındaydım ki, əkdiyim ağacın meyvəsini yemək – oğlanlarımı evləndirib nənə olmaq arzusunda idim. Vaxt yetişmişdi. Mən də Səninlə, gəlinimlə birlikdə toyunda oynamaq istəyirdim, Səninlə toy şəkillərim olsun istəyirdim; uşaqlarını – nəvələrimi böyütmək istəyirdim. Mən də nəvə qayğısı çəkmək istəyirdim. Əllərim nəvə qundağı bələmədi, qulağım nəvə qığıltısı eşitmədi. Anana belə qayğıları yaşamaq nəsib olmadı, bu arzularım gözümdə qaldı, yarımçıq qaldı, yorulub yolda qaldı, suya düşdü. Xınan havaya sovruldu, islanmadı, xonçaların bağlı qaldı, bəzənmədi, gəlin maşının bəzənmədi, bəy hamamına getmədin, sevgilinin nazını çəkmədin, Ceyhunum! Evlənmədin, bir gözəllə diz-dizə oturub gələcək həyatınız üçün planlar qurmadın, xanımınla birlikdə geyinib-kecinib, qol-qola verib gəzintiyə çıxmadın. Xanımın nələr tələb edəcəkdi, Oğlum, bunları eşitmədin! Ən ümdəsi, "Ata" sözü ilə Səni çağıran, qaçıb qucağına atılan olmadı, belə şirin qayğıları yaşamadın, Ceyhunum! Toy aynan alınmamış çiliklənibmiş, Bala, bilməmişik. Sən də bütün cavanlar kimi toy çaldırıb oynamadın bəy-gəlin havasına. Deyirlər, axı, analar bircə toy günündə ağlayaydı kaş. Bax, anana bütün analar kimi Oğul toyunda "Vağzalı" çalınanda, Oğluna gəlin gətirəndə ağlamaq qismət olmadı, tam tərsi, anana məzarın üstə göz yaşı tökmək, nalə çəkmək qismət oldu. Sənə toy çalınmaq əvəzinə dəfn mərasimi təşkil olundu, müğənnin molla oldu, nəğmələrin "Yasin" oldu. Nə Sənə o xoşbəxt günləri yaşamaq qismət oldu, nə də mən bədbəxt Anaya. Allah başımdan elə vurdu ki, elə bilirəm ki, dünyanın axırıdır və bundan belə mənə həyat yoxdur və olmaz da.

Oğlum, bayramlar gəlir. Bayramlar bir-birini əvəz edir. Mən bu bayramların gəlməyini heç istəmirəm. Bayramlar gələndə bizim üçün – Oğlu ölən atalar-analar üçün "qara bayram", "qara matəm" gəlir. Bu 1 il 6 ayda hər bayram gələndə ürəyim paralanır, gözlərimdən qanlı yaşlar süzülür. Bu müddətdə bizim ailə bir süfrə başına yığılmağı unudub. Biz ailəlikdən çıxmışıq. Biz ailə necə olur unutmuşuq. Biz əvvəlki biz – ailəni unutmuşuq. Ailələr bayramları deyə-gülə qarşılayır, bir bayram süfrəsi başında şirin söhbətlər edir, sevinir, şadlanırlar. Biz isə yalnız Səni düşünürük, Səndən danışırıq, Sənin üçün ağlayırıq, göz yaşı tökürük. Sənsiz bizə nə bayram?! Mən Anan ölmüş yemək bişirməyi də unutmuşam. Mən heç nə anlamıram, vaxt necə keçir, Sənsiz günləri necə yaşayıram. Bilmirəm...

Bu gün "Qadınlar bayramı"dır. Bu gün Anaların günüdür. Analar oğullarından şirin təbriklər eşidir, hədiyyələr alır. Analar onlara əllərində çiçək gətirən oğullarını sevinə-sevinə qapıda qarşılayırlar. Mən. Mən isə... Mən ölmüş Ana Sənin məzarının yanında başdaşını qucaqlayıb öpə-öpə qalmışam, Səni çağırmaqdan dilim qabar olub, Ceyhunum! Səni istəyirəm. Bayramlarda: "Anacan, bayramın mübarək!", "Bu gün Sənin günündür, Anacan!" – deyirdin. Bax, ürəkdən dediyin, dilindən eşitdiyim o sözləri bir də eşitmək istəyirəm, həmin anlarda çöhrəndə yaranan təbəssüm dolu gözlərini bir də görmək istəyirəm. Ay Ceyhunum, məni analardan seçkin elədin, məni belə xoşbəxt günlər yaşamaqdan məhrum elədin. Özünə də qıymadın, heç özün də yaşamadın bu günləri, Oğlum.

Ceyhunum, kaş keçmişi dəyişdirə biləydim, kaş zamanı geri qaytara biləydim... Əgər zamanı qaytarmaq mümkün olsaydı, ta Sənin uşaqlığına kimi gedərdim, eləmədiklərimi eləyərdim. Kaş ki, möcüzə baş verə, gözümdən xəyal yuxusu çəkilə. Kaş bu yaşadığım, gördüyüm kabus yalan ola, kaş... Kaş zamanı geri döndərə biləydim, kaş... Bəlkə... Oğlum, deyirəm, görəsən,

Sənli günlərimiz bir röyaydımı? Yaşadıq və bitdi! Röyama deyirəm, sən Ceyhunumu geri qaytar! Kaş gün olaydı: qulaqlarımı bağlayaydım, gözlərimi yumaydım, səssizlik içində olaydım və birdən gözlərimi açanda qarşımda Səni görəydim, ay mənim sürprizləri çox sevən Oğlum! Mənə sürprizin bu olaydı, kaş...

Kaş Sən başqa dünyada yaşayaydın... Kaş bu qədər fərqli insan olmayaydın... Kaş belə olmayaydı... Kaş belə taleyi heç yaşamayaydın. Kaş bu yola heç baş vurmayaydın, Ceyhunum! Ölümün gözünə dik baxan Oğlum. Bəxtin Səndən küsübmüş. Kaş Sən də ölümdən küsə biləydin. Onda ÖLÜM Sənə yaxın gələ bilməzdi, Səni danışdırmazdı. Onda ÖLÜM Səni ölümə məhkum etməzdi. Ax, bəxti, taleyi qara olan, qara gələn, Ceyhunum!

Kaş... kaş... Kaş ki, itirdiyim dəyərli və Sənli zamanı geri qaytara biləydim. Kaş Sənin yanında olaydım... Kaş, Sən çağıranda gələ biləydim. Əsla Səni əlimdən verməzdim, Ceyhunum! Kaş Səni heç yalnız qoymayaydım. Kaş Sənin sözünü dinləyib o xaraba qalmış Rusiyaya getməyəydim. Bu yolu getməyi də Sən mənə məcbur etdin. İncisən də, ürəyinə salıb fikirləşsən də, deyəcəyəm: kaş o zaman Səni dinləməyəydim, kaş buradan getməyəydim! Bəlkə, elə ondaca, özümüzdən xəbərsiz, Rusiyaya gedən gündən məni də, Səni də öldürmüşük, bilməmişik, Oğlum. Bəlkə, elə səhvin ən böyüyünü onda etdim. Sən mənim ən böyük peşimanlığımsan. Mən peşimanlığımın ən böyüyünü yaşayıram. Mənim bu gecikmiş peşimanlığım da Səni qaytara bilmir. Bəlkə, bütün bunlar mənim günahımdır. Bəlkə, Sənin bu yola getməyin mənim günahımdır? Bax, görürsənmi, insan oğlu, özünü günahlandırmadan, nə ilsə suçlamadan yaşaya bilmir. Niyə? Onu da bilmirəm. Bir onu bilirəm ki, "kaş ki" deyərək yaşamaq, insanın özünə verdiyi ən böyük





cəzadır. Eləmədiklərimin acısı yandırır məni, Oğlum! Halal, hamar, düz yolumuzu dəyişmişik, ayrı-ayrı yollara düşmüşük. Bəlkə, Allah-taala yazı yazanda səhv edib və biz də bir səhvin qurbanı olmuşuq. Yox, Allah özü bizi bir sapanda qoyub ayrı-ayrı ölkələrə atdı. Eyni dünyanın adamları idik, məcburən, özümüz istəmədən ayrı-ayrı dünyanın sakinləri olduq. Getməsəydim, bəlkə də, nə Sən indi uyuduğun məzarda olardın, nə də mən Sənin üçün belə qaralıb qalardım, belə yanıb-yaxılardım. Ayrılmazdıq, ağlımızı əlimizdən alan şeytanı da sevindirməzdik. Bəzən də öz-özümə deyirəm, axı, bizsiz yazılıb Oğlumla mənim taleyim, bizim baxtımız, bizsiz yazılıb bizə bəhs edilməyən, bizdən soruşulmayan bizim qədərimiz. Günahımın ağırlığından ölürəm. Doğru deyirlər ki, biz səhvlərimizi əlimizdəki qiymətli, dəyərli olan nə varsa itirdikdən sonra başa düşürük. Mən Ceyhunumu əlimdən buraxdım. Bəzi xətaları, səhvləri düzəltmək olmur. Deyəsən, mən də xətalarımı daha düzəldə bilməyəcəyəm. Deyirəm, kaş ötən illər dadıma çataydı ömrümün son anında, Səni mənə gətirəydi. Və bu ayrılığın sonu olaydı, kaş... Onu da düz deyirlər ki, həyatda gülərkən itirdiyimizi, ağlayaraq qaytarmaq olmur. Bax, mən də Səni qaytara bilmədim. Anan ağlar qaldı, Ceyhunum! Anan göz yaşının dadı nədir bildi; daddı və bildi. Səni bu bədbəxtlikdən qoruya bilmədiyim üçün yanıram. Yanında olmadığım, ola bilmədiyim hər gün üçün Səndən üzr istəyirəm, Ceyhunum! Kaş Sənin xatirəni yaşatmaq əvəzinə ÖZÜNÜ yaşada biləydim, ay mənim dilimin əzbəri Ceyhunum! Kaş ki, "kaş ki" demək məcburiyyətində qalmayaydım. Bunu da bir özüm bilirəm: Sənə, Sənə layiq Ana ola bilmədim, məni bağışla, ay ağıllı Ceyhunum!

İlahi, bu nə idi, bu nə deməkdir? İlahi, Balamsız olan dünya?! Dünya bu imişsə, bu dünyaya lənət! Deyirdim, Ceyhunsuz

ölərəm. Bəlkə də, mən Sənsiz ölmüşəm, özü də necə: kəfənsiz, qəbirsiz ölmüşəm elə. Ceyhunum, Sənsiz yaşayıram, ölmədim, məni bağışla! Mən elə bilirdim, Sənsiz ölərəm, ancaq O Böyük Yaradan bu dəfə Arzu və Kamal üçün mənim yaşamağımı istəyir. Ürəyimdə ağır Ceyhun dağıyla həyatda, çətin də olsa, Arzu və Kamal üçün yaşayıram. Sənsiz mənə həyat olmaz, bir onu bilirəm. Özündən sonra mənə buraxdığın həyatın dəyəri yoxdur artıq. Sənsiz yaşamaq mənə lənət kimi gəlir. Sənsiz yaşadığım hər günə, hər ana lənət, Ceyhunum! Səndən artıq yaşamağa haqqım yoxdur, Ceyhunum! Səndən sonra açılan səhərlərin işığını görmürəm, günəşin istisini hiss etmirəm, yağan yağışı, əsən küləyi duymuram. Ancaq hər şey, hər şey mənim üçün sönübdür. Sənsiz işığa baxan gözlərim kor olsun, baxdığım bu işığa, günəşə lənət, ay ağıllı Ceyhunum! Sənsiz içdiyim suya, yediyim yeməyə lənət! Söz deyəndə də, çörək yeyəndə də, çay içəndə də adını anıram, özümə lənət oxuyuram. Lənət olsun bu müharibəyə səbəb olan düşmənə, gör nə qədər uşaqlarımız əlimizdən, evimizdən getdi...

Ay ağıllı Ceyhunum, deyirsənmi, mən Azərbaycanın ikinci ən böyük şəhəri – Göygölün ətəyində yerləşən İmam Hüseyn şəhərində, 880 il bundan əvvəl XII əsrdə yaşamış ədəbiyyatımızda fəlsəfi fikir, söz nəhəngi İlyas Yusif oğlu Nizaminin, Məhsəti xanım Gəncəvinin vətənində, Cavad xanın xanlığı dövründə xanlığın paytaxtı olan gözəl Gəncə şəhərində, güllü-çiçəkli, həlim havalı, sakit bir may səhərində, uğurlu bir gündə, bir xoş məqamda – səhər saat 4-də doğulmuşam, amma XXI əsrin faciələrlə dolu olan 2020-ci ilinin oktyabrında, həftənin bazar günündə dan üzü ağarar-ağarmaz, göydən başımıza dəhşət yağan, güllə dolu kimi yağan, vahiməli səslər içində cavan canları qan içində boğan, qan su yerinə axan, ölüm ağzını əjdaha kimi açıb qabağına çıxanı ağına-bozuna baxmadan aparan soyuq bir payız səhərində otuz ilə yaxındır ki, mənfur düşmənlərimizin işğalı altında olan Qarabağ diyarında, böyük Füzulinin adını daşıyan torpaqda səhər saat 4-də qədəm qoyduğum bu dünyadan getdim, ömrümün sonuncu sahilinə çatdım, bu torpağa – Vətənə Oğul oldum, Vətənin Oğlu oldum və Şəhadətə yüksəldim.





Anacan, həyat, yaşamaq ödəniləcək qısa müddətli bir borcdur. Allah insanlara borc verdiyi həyatı yaşamalısan. Mən də bu həyatı yaşadım və Allahıma can borcumu vermək üçün çox, lap çox uzaqlara getdim. Anacan, alın yazımda nə yazılmışdısa, nə vardısa, hamısını yaşadım və ömrümün sonuna gəldim, ölümə çatdım. Ölüm – hər şeyin sonu, qaçılmaz son. Və bahar ömrüm xəzan oldu, qış oldu, boran oldu, qar oldu!

Bu da mənim sonum!

Deyirsənmi, Oğlum, Anacan, səndən uzaq düşdüyüm gün, ən dəhşətli bir gün oldu...

Ürəyini, ağlını oxuyuram: deyirsənmi, Anacan, bu yola gedəndə vaxtım olub, istəmişəm deyəm, amma söz məndən ağıllı olub, niyyətimə başını bulayıb, qaçıb ürəyimin dərinliklərində gizlənib. Sözümü deməmişəm. Bilirdim ki, Sən bu söhbəti eşidəndə, tələm-tələsik, başılovlu özünü mənə çatdırmaq istəyəcəksən. Mən Sənin belə təlaşla bu qədər uzaq yolu gəlməyini istəmədiyimdən, əziyyət çəkməyəsən deyənə, Sənə heç nə anlatmadım. Sözlərimi ürəyimin ən dərin guşəsinə tulladım. Sənə heç nə demədim. Anacan, heç özüm də elə dərindən düşünmədim: hansı yol yaxşıdır? Hansı yolun yolçusu olmaq səadət gətirər? Bu yola düşəndə, bilmirdim ki, qarşıda məni nələr, nələr gözləyir...

Ceyhunum, deyirsənmi, Anacan, son nəfəsimdə son sözümü deyə bilmədim. İndi Sənə ürəyimdə qalan, dilimə yapışan qan-

la yazılası sözüm var. Onu da bil ki, ürəyimdə Sənin ayrılığına da dözüm var məndə. Səni yaşatmaq üçün dözürəm. Bilirəm ki, mənim laxtalanmış qanlı sözümü Səndən başqa kimsə oxumayacaq, kimsə anlamayacaq və kimsə yadda saxlamayacaq.

Anacan, sənə bir gileyim var: bilirsən ki, göylərdə uçmaq istədim – endirdilər, parlayıb yanmaq istədim – söndürdülər, qanunla danışmaq, dinmək istədim – susdurdular. Keşməkeşli bu həyatda bilirəm ki, çıxılmışam ali məclislərin siyahısından, qonaq timsalında dəvətlər alacağım məclislərdən, çıxılmışam ləziz-ləziz bol nemətli süfrələrdən. Bilmirəm, ya qəsdən, ya da bilərəkdən və ya təsadüfən, çıxılmışam o yerdən ki, olmalıydım orda. Eləcə məni öldürüb, basdırdılar...

Anacan, mənim nə yaşım var, nə yaşım hələ?! 26 yaş nədir ki, mən yaşadım? Yoldaşlarım əylənərkən mən ailəmizi, gələcək ailəmi düşünür, o həyatı yaşamağa can atırdım. Bir dəfə əyri yola düşmədim, dürüstlüyüm və şərəfimlə yaşadım. Mən belə böyüdüm. Mən çox erkən böyüdüm. Ancaq elə də çox böyüməmişdim. Bir bilirəm ki, özümü idarə edəcək qədər, sizdən uzaqda yaşayacaq qədər, sizsiz qalacaq qədər böyümüşdüm. Bu yaşda mənə dedilər ki, səfərə çıxmaq gərəkdir, özü də ən uzaq səfərə. Mənə belə bir səfərə çıxmaq əmrini verdilər. İşıqlı bir səhərdə məni belə bir səfərə göndərdilər. Bu səfərdə yol çox uzaqdır. Anacan, bəlkə, bu torpaq, bu yer, ya da ölüm çəkdi məni. Mən dönüşü olmayan, sonu gəlməz, sonu olmaz, sonu qaranlıq olan bir yola çıxmışam. Bu yolun nə əvvəli, nə də sonu var. Və mən bu həyat yolunu bu yaşımda başa vurdum. Vaxt qapını kəsmişdi, daha yerdə qala bilməzdim, göylər məni çağırdı, mən də getdim. Bilirəm ki, hər kəs ölümlüdür və hər kəs ölümü dadacaq. Ancaq ölümü dadmaq mənim üçün çox, lap çox erkən oldu. Məndən bu qədər...





Qərib bir durna kimi ailəmizin qatarından ayrı düşdüm, ayrı düşdüm öz qatarımdan, ayrı düşdüm dostlarımdan, yoldaşlarımdan, həmkarlarımdan, həmfikir yoldaşlarımdan, həm də yaşıdlarımdan ayrı düşdüm. Qəfil güllə cüda saldı məni. Mənim bu dünyada gözüm qaldı, ünyetməz, əlçatmaz, şirin xəyallı günlərim qaldı, Anacan. Ülvi məhəbbət əsərim də başlanmamış, yazılmamış və yaşanmamış qaldı. O günlərimiz, demə, indi böyük bir yalan kimidir.

Oğlum, bilmirəm necə olur, necə dilin gəlir ki, deyirsən, Anacan, mənimlə bağlı arzuladığın, inandığın hər şey yalandır. Mən Ana ölmüş bu yalanı necə qəbul eləyim, necə inanım bu yalana? Bilmirəm...

Anacan, həmişə düşünürdüm ki, öz istəyimdən daha çox Sənin – "Anamın arzusundan" dünyada müqəddəs bir iş ola bilməz. Çalışırdım ki, Sənin arzularının dalınca gedim, onlara çatım. Mən Anamın arzularının hökmü ilə hərəkət edirdim. Öz dünyamda bütün işlərimi bu arzulara tabe olmağa çağırırdım, bu arzularla yaşamağa can atırdım. Mən sizin üçün yaşamağı gözə almışdım. Ancaq bu arzulara çata bilmədim. Həyatdan gözlədiyim, istədiyim, arzuladığım hər şey yarımçıq qaldı, butadan açılmadan soldu. Arzularım butada qaldı. Və hər şeydən əl çəkdim. Cahillik eləmədim, xəyallara da aldanmadım. Ölməyə getdim. Boşuna yandım?! Əsla, boşuna deyil! Qazandım, Vətənin işğal altında olan torpaqlarını geri qazandım. Anacan, bir onu bil ki, əzəlim də Sən idin, sonum da Sənsən. Səndən başqa da bir şey düşünmədim.

Anacan, Səni atamı və qardaşlarımı çox sevdim, ancaq sizi xoşbəxt edə bilmədən bu dünyadan getdim. Anacan, bilmirəm, mənim ömür payım niyə belə qısa oldu. Sığa bilmədim, sığışmadım bu dünyaya, getdim. Ancaq hələ Sənə deyiləcək çox

sözüm vardı. Anacan, apardım özümlə öz dünyamı mən, elə onunla da yaşayacağam. Anacan, belə günə qaldığın üçün, Səni Ceyhunsuz qoyduğum üçün utanıram. Anacan, sənə bunları yaşatdığım üçün səndən utanıram, utandıqca utanıram.

– Yox, yox Oğlum, Sən utanma, qoy Səndən qorxub, Sənin ağlından qorxub, Səni bu yola göndərən nadanlar utansın. Sən utanma!

Ay ağıllı Ceyhunum, deyirsənmi, Anacan, desələr, ölmüşəm, sən inanma, bu torpaqda yaşamaq üçün doğulmuşam Mən. Ceyhunum, deyirsənmi, nəsə ürəyimə damıb, bilirəm, bəlkə də, yüz ildən, min ildən sonra, milyon ildən sonra, nə bilmək olar, nə vaxtsa, bu dünyaya bir də qayıtmağım var. Anacan, gözləyin, dünyaya qayıtmağım olacaq. Necə? Qəbrimin üstündə bitən gülləri, çiçəkləri, soyumuş torpağı-daşı, gözümdə, könlümdə, qulaqlarımda uyuyan, yatan dünyamı, yenidən ölüm sükutundan oyatmağım var. Həyatda ən böyük mükafat Mənə elin-obanın, xalqın verdiyi mükafatdır. Bəlkə, qazandığım el sevgisi, el məhəbbəti, elin ürək yanğısı və bəlkə də, sənin səsin, sənin arzuların qaytardı məni. Şirin laylan, bayatı dolu doğma səsin, şeirə dönmüş sözlərin, bir-birimizə sönməyən sevgimiz Məni evimizə, elimizə qaytaracaq. Mən bir evin odu, ocağı olduğum üçün həmişə yanacağam, həmişə çırağım şölələnəcək. Anacan, sənin arzuladığın üçün bu yurda qonaq kimi gələcəyəm. Bu elə, bu yurda həmişə baharla birlikdə elə 26 yaşımda gələcəyəm Mən. Sonra da düşünürəm: bəxtimə taleyin qarası düşüb, gedər-gəlməz olmuşam. Bilirsənmi, Anacan, sözün doğrusu, bu arzularım eləcə arzudur, reallığı yoxdur, olmaz da. Məni elə həsrətlə gözləmə, Anacan!

O, siz tanıyan Ceyhun keçmişdə qaldı. İndi Sizin Ceyhun Şəhid Ceyhundur! Ceyhunum, deyirsənmi, Anacan, bircə dəfə





verilir ömür insana. Gərək biz də ona tapılmış pul kimi baxmayaq. Kişi kimi bu ömrü sona çatdıraq. Mən də kölgə kimi, ilan kimi sürünməyi deyil də, ad almağı, adı dillərdə gəzməyi, göylərə ucalmağı üstün tutdum. Hər insana belə ölüm qismət olmur. Mən – İnsana əbədi yatmaq üçün, heç olmasa, Vətənimdə bir qarış torpaq qismət oldu. Anacan, bu dünyaya qəbri bilinməyən cahangirlər, "dünyanın ağası mənəm!" deyənlər azmı gəlib-gedib? Bu dünya bir pəncərədir, hər gələn baxar gedər. Mən belə həyatları kitablarda oxusam da, dünyaya baxıb getmək haqqında düşünmürdüm. Bəzi insanlar nə isə aparır, bəzi insanlar isə nə isə qoyub gedir. Bilirsənmi, Anacan, insan həyatda yaşadığı müddətcə çoxlu qərarlar alır. Bu aldığımız qərarlardan bəzən peşiman oluruq, bəzən də düzgün qərar olduğuna inanırıq. Mən də aldığım qərardan heç peşiman deyiləm, Anacan. Anacan, bilirsənmi, deyirlər ki, günəşdən isti, insandan isə iz qalır. Yaşayan insanın yer üzündə bir izi qalmalıdı, – deyirdim. – O iz, yəqin ki, uğurlu olmalıydı. – Ər oğul, ya Tanrı əcəli ilə, ya namus üstündə, ya da Vətən, xalq yolunda ölməlidi!" – deyirdim. Ceyhunum, deyirsənmi, Anacan, bir də Mənim bu dünyada qoyduğum izdən daha çox, O dünyada qarşıladığım üz daha dəyərlidir, daha müqəddəsdir; o dünyada çıxdığım zirvə daha ucadır, yüksəkdir, az-az insanların əli çatandır. Mən həyatın mənə verdiyi fürsəti qaçırmaq istəmədim. Mən bu zirvəyə, yaşadığım bu gerçəyin üstünə qorxmadan getdim. Bu yol yaşadığım zaman içində yol alıb getdiyim ən uğurlu yol oldu.

İndi Şəhid Ceyhununuz başqa dünyada yaşayır. Bura apardım özümlə öz dünyamı Mən. Anacan, insan yaşadıqca qədər özü ömür yolumuzu toxuyur, hörür; bu yolu o cızır və bizləri bu yolla addımlamağa məcbur edir. Mən də bu yola rəvan oldum. Anacan, kimin yaşayacağına, kimin öləcəyinə biz qərar verə

bilmirik. Həyatda iki şey bizdən asılı deyil: doğulmaq və ölmək. Dünyada hər şey ölçüyə, nizama tabedir, ölümdən başqa. Hər kəsin ömür payı Allahın yazısıdır, Allahın qədəridir. Buna Allah qərar verir. Bizim elə bir gücümüz yoxdur. Anacan, bu qoca dünyanın, həyatın onun-bunun gücü çatmayan əzəli-əbədi qanunları var. Doğulan – böyüməlidi, cavan – qocalmalıdı, gələn – getməlidi. Mən bu dünyaya gəldim, yaşadım, ancaq qocalmadım. Sən Məni xatirəndə bu gəncliyimlə saxla! Mənim kimi insanlar ölüb gedir, dünya isə dünyalığında qalır.

Anacan, bu gündən Mən ürəklərdə, məzar daşlarında, musiqilərdə, nəğmələrdə, kitablarda yaşayacağam.

Elə həqiqətlər var ki, onlardan qaçmaq heç cür mümkün deyil. Həyatın hökmü iti qılınc kimidir. O qılınc heç zaman vaxtsız-vədəsiz qalxmır. Deyirsənmi, o qılınc Mənim Balam üçün yaman vaxtsız qalxdı. O, göylərdə uçan qiymətli Oğlun qəfildən əsən tufanınmı, küləyinmi təsiri ilə daşa-qayaya dəyib çilik-çilik oldu. Sevinc içində göylərdə uçan Oğlun birdən-birə qanadı qırılmış quş kimi başı üstə yerə gəldi. Onda, qəribədir, torpaq da ayağımın altından qaçdı. Torpaq Məni içinə çəkdi. Mən əcdadlarımızın torpaqdan gəldiyi yerə – torpağa dönüb özümə pəncərəsi, qapısı olmayan, günəş düşməyən, işığı yanmayan kiçik ev tikmişəm. Bura da evimiz kimidir. Sadəcə pəncərəsi və qapısı yoxdur: özüm evə girib qapını ardımca bağlamışam, pəncərə də qoymamışam ki, Məni görməsinlər. Bir də ki, çöldən işıq düşmür buraya, cənnətin nuru işıqlandırır otağımı. Bu ev sizinçün əlçatmazdır. Anacan, burada həyat başqadır. Burada həyat özgədir, orda özgə. Burada yaşamaq şərəflidir, Anacan! Bu həyatı özümdən başqa heç kəs heç vaxt bilməyəcək. Anacan, daş altında yaşasam da, Mənim yerim səninkindən yumşaqdır. Və gün gələr ki, buraya yolun düşər,





görüb inanarsan. Keçmişdə yaşadığım həyat keçmişdə qaldı, Anacan.

Yaxşılıqlarımla, doğrularımla, əgər olubsa, səhvlərimlə, yanlışımla bu Mənim həyatımdır. Bunu qəbul eylə, Anacan! Bu həyatımı qəbul eylə! Anacan, indi Sən Məni çağırsan, eşitmərəm, qışqırsan, səsinə səs verə bilmərəm. Nə qədər ağlasan da, yalvarsan da, gəl desən də, gələ bilmərəm. Məni gözləməyin, Mən bir də gəlmərəm! Mən bir də qayıdan deyiləm, Anacan. Bu yolun dönüşü yoxdur. Geriyə yol görmürəm. Geriyə yol bağlıdır, Mən qayıdan deyiləm...

Anacan, bilirəm, içində qanayan yara açdım. Anacan, dalımca gələn igidlər: məzarının üstündə hər gün bir qara paltarlı Ana ağlayır, – deyirlər. Bilirəm, o Sənsən. Çox yanırsan, odlanırsan, dedilər. Anacan, daha bəsdir, bütün ağlayanlar kiridi, dayandı, Sən də kiri, az ağla. Anacan, get dərdimə yan, ağla, ancaq az ağla! Can Ana, belə çox yanma, üzülmə, ürəyin əzilməsin, rica edirəm! Anacan, Mənim üçün belə çox ağlama. Sən ağlasan Mən burada rahat yata bilmərəm. Sən sakitləş ki, Mən rahat uyuya bilim bu Ana torpaqda. Məni Mənimlə burax. Bilirəm, Mən dalımca ağlayan bir cüt göz – bir gözüyaşlı Ana buraxdım, yolun sonuna gəldim. O yaşlı qoyub gəldiyim gözlərindən öpürəm, Anacan! Bilirəm, bu dərd Səni bitirəcək. Belə olmaz, Anacan. Bir az da Arzunu, Kamalı düşün. Rica edirəm, özünü yox etmə! Sizləri çox sevdim, Ana! Sənə – sizə olan məhəbbətimi belə izhar edə bilərəm: Mən Səni – sizi çox sevdim, Mən Səni – sizi çox sevirəm, Anacan!

Bunu heç unutmayın. Bilirəm, Məni axtaracaqsan: çox da geniş olmayan mənzilimizdə, Mənim otağım adlandırdığınız o kiçik guşəmdə Məni axtaracaqsan; addım səsləri qulağına gələndə, qapı döyüləndə, telefon aramsız səslənəndə Məni ax-

taracaqsan. Pəncərədən boylanıb həyətdə tay-tuşlarımı görəndə Məni axtaracaqsan. Bilirəm: gecələr isti yataqda yata bilməyəndə, səhərlər oyanıb Məni görməyəndə, eyvana çıxıb yoldan ötənlərin üzünə bəzən ümidlə, bəzən məyus-məyus baxıb Məni axtaracaqsan. Məni axtaracaqsan analar "Ceyhun" – deyib öz oğlanlarını çağıranda, "Ceyhun" adını eşidəndə. Anacan, bilirəm, Mənim üçün də, sizə olan sevgim üçün də darıxacaqsan...

Bir gün, bəlkə, həyatdan, keçmişdəki günlərdən bir təsəlli axtaranda gözlərinin qarşısındakı rəsmimə bax, yanında nalə çəkdiyin başdaşıma inan, Anacan! Anacan, darıxanda, küləklər şəhərinin sərin mehi üzünü oxşayanda Məni torpaqdan, daşdan, küləkdən, xəzridən, gilavardan, yağışdan, borandan, qardan soruş! Məni qışla cidala girən baharda axtar! Məni insan arzularıtək uzun və sonsuz olan yollarda axtar, bəzən sakit, bəzən də hayqırtıyla axan dərin, dayaz sularda axtar! Başını qaldır, göylərə bax, durnaların düzdüyü durna qatarında axtar Məni!

Anacan, toylar-düyünlər olacaq: onda Sən ürəyinin kədərinə bax, xatirinə sal Mənim üçün ağlında, xəyalında qurduğun toyumu. De ki, Mən Oğlumun toyunu ürəyimdə yaşamışam. Onda kədərin keçib-gedər. Anacan, Mənim üçün darıxanda, o zaman kompüteri aç, Mənə bax, Məni dinlə! Anacan, lap çox darıxanda şəklimi öp, qucaqla, ağla, ağla ki, sakitləşəsən. Anacan, bir ünvanım da var, onu da demək istəyirəm. Məni kitab həmdəmi yaxşı insanların isti əllərində, hərarətli ürəklərində axtar. Məni oxuduğum kitablarda və ya hələ vərəqləməyə vaxt tapa bilmədiyim vərəqlənməyən kitab səhifələrində axtar. Bilirəm, bütün kitablarımı saxlayırsan, düşünürsən ki, kitablarının ömrü Mənim ömrümdən daha uzun oldu. Bax, əgər kitablarımın ömrü Mənim ömrüm kimi qırılsa, onda axtarma. Bil ki, heç yoxmuşam Mən. Yox, yox, inanma, desələr daha yoxam





Mən! Mənim kimliyimi, ünvanımı, yerimi Vətənimdən soruş. Məni qanım bahasına qazandığım zəfərdən soruş. Ürəyindən soruş Məni, Anacan! Anacan, ömrünə yaz, qəlbinə yaz Məni! Adımı dodaqlarında əmanət saxla! Yenə Səndən bir təvəqqəm var: Məni unutmayın, Anacan! Mən sizin çörəyinizdə-suyunuzdayam və həmişə kürəyinizdə, arxanızda olacağam...

Anacan, Sənə verdiyim sözləri tuta bilmədim, Məni bağışla! Məni çox böyük əziyyətlə boya-başa çatdırdın, Ana! Sən Mənə körpəlikdə başım üstündə layla çalmısan, indi də ağı deyirsən. Mən eşidirəm. Heç kim Səni incitmədi Mənim kimi. Özümə çox acığım tutur, Anamı Mənim dərdim əridir, ancaq buna əncam çəkə bilmirəm. Anam Mənim qaranlıq dünyama ayaq qoya bilmir. Bəlkə, Mən onun dünyasına qayıdam, onun süfrəsinin başında oturam, bişirdiklərindən dadam, qayğılarını bir də yaşayam. Necə edim ki, Anam Məndən inciməsin, hər şey onun istədiyi kimi olsun?! Necə edim ki, Mənim olan dünyam büsbütün Anamın dünyası olsun?!

Kaş bunları özüm deyə biləydim, Mənim Anam. Kaş dodaqlarım bir də açılaydı, üç-dörd kəlmə demək istədiklərimi Sənə deyə biləydim. Bax, bunlara yol tapa bilmirəm. Bax, bunu bacarmayacağam. Qoy atalar inciməsin, Ana öyüdüdür, əzmkarlığıdır, məhəbbətidir bu dünyanı yaşadan. Ana səbridir, Ana mətanətidir, Ana dözümüdür bu dünyanı yaşadan. Mənim mətanətli, arif Anam da yaşayacaq və Məni yaşadacaq. Bilirəm, Anacan, hələ bundan sonra Mənim yaram Səni çox, çox göynədəcək. Həyat vəfasızdı, ölüm-itim var, kim bilir bir də Səni görmək Mənə qismət olacaqmı, Anacan? Olacaqsa, harda olacaq? Çəkdiyin zəhmətlərə, keçirdiyin həyəcanlara görə, göstərdiyin fədakarlıqlara görə sağ ol, Anacan! Çünki bu, yaxşılıq deyil ki, əvəzində Sən də yaxşılıq edib borcdan çıxasan. Bu, hörmət də

deyil ki, əvəzində hörmət edəsən. Bu Ana fədakarlığıdır, qəhrəmanlığıdır. Mən bu borcu heç vaxt qaytara bilməyəcəyəm, Anacan. Və qaytarmaq iqtidarında da deyiləm, qaytarmağa gücüm də yetməz.

Bilirəm, heç kim Səni yandırmadı Mənim kimi, Məni bağışla, Anacan! Belə tez Səndən ayrılmağıma qərar verdiyim üçün, belə tez, gizli və xəbərsiz həyatından getdiyim üçün Məni bağışla! Anacan, Səni Ceyhunsuz buraxdığım üçün Məni bağışla! Sənə övladlıq borcumu qaytara bilmədiyim üçün Məni bağışla, Mənim Anam! Sənə verdiyim sözləri tutmadığım üçün bağışla Məni, Anacan! Xoşbəxt olmağı, xoşbəxt yaşamağı seçmədiyim üçün Məni bağışla! Gözlərindən oxuduğum: – Bəs, Məni kimin ümidinə qoyub gedirsən? – sualına cavab verə bilməyəcəyim üçün Məni bağışla, Anacan! Dəryaya bənzər ürəyində ilişib qalan qiymətli arzuları duyduğum, ancaq üzə çıxarda bilmədiyim üçün, Sənə yaşatmadığım üçün Məni bağışla, arif Anam Mənim! Hər hansı bir gözəlin alın yazısı ola bilmədiyim üçün, ürəyimdən keçən gözələ yar ola bilmədiyim üçün, ömrümü onunla keçirməyi seçmədiyim, onun gözlərinin içinə baxıb demək istədiyim nəvaziş dolu sözləri demədiyim üçün Məni bağışla, Anacan! Sənə istədiyin kimi Oğul ola bilmədiyim üçün üzr istəyirəm, Anacan, bağışla Məni! Düşündüyün, xəyal etdiyin nəvələrinə Ata olmağı seçmədiyim üçün Məni bağışla! Adi insanlardan biri, sadəcə sadə adam olmağı seçmədiyim üçün Məni bağışla! Anacan, Səni belə kədərləndirdiyim, üzdüyüm üçün, Sənə yaşatdığım kədərə, acıya görə bağışla Məni, Anacan! Sənin ürəyinə belə ağır dağ, dərd yüklədiyim üçün bağışla Məni! Səni ağlatdığım üçün Məni bağışla! Anacan, Sənin üzünə baxaraq son nəfəsimi verə bilmədiyim üçün Məni bağışla! Sənsiz öldüyüm üçün Məni bağışla, övlad





yanğısıyla yanan Anam! Məni bağışla, Mənim Oğul dərdində yanan Anam! Anacan, Sənin yanına, evimizə bir də gələcəyimə söz verə bilməyəcəyim üçün, Məni bağışla! Bütün xətalarımla, günahlarımla bağışla Məni, Mənim mətanətli Anam!

İndi Mənə tək bir söz söyləmək qalır: Mən qanunlardan Vətən tərbiyəsi aldım. Vətəni Femida tərəzisinə qoydum və çəkdim. Vətən çəkisi, Ana, həyat çəkisindən çox ağır gəldi. Vətəni seçdim, Vətəni qarşılıqsız sevdim. Vətəni sevdim, seçdim və Vətənin oldum! Mən Analı dünyamı tərk edib Vətənə gəldim. Orda cənnət zəhmətkeş Anamın ayaqları altındaydı, indi Mən cənnətin lap uca zirvəsindəyəm. Anacan, Sənin haqqın ödənilməz, Mənə haqq verməsən də, haqqını halal eylə, ANACAN!

Anacan, Sənə bir sirr açmaq istəyirəm: uşaqlar Analarının qoxusunu duyarlar, tanıyarlar, hiss edərlər, unutmazlar, deyirlər. Bu doğrudur. Bəzən yatdığım isti torpaqdan Sənin ətrin, qoxun gəlir, bəzən Sənin tər nəfəsini yanımda hiss edirəm, Mənim Anam! Bəzən dəniz dalğalanıb ləpələnəndə su quma dəyən kimi Sən altında yatdığım daşa toxunanda əllərimi, saçımı oxşayan əllərinin hərarətini hiss edirəm, Mənim Anam! Hərdən də üzünü başdaşımda olan şəklimə sürtəndə, üzün daş üzümə dəyəndə üzünün isti və ya soyuq olmasını hiss edirəm, Anacan. Bəzən laylaların Mənə şirin yuxular gətirir. Anacan, o ürək yanğısıyla oxuduğun şeirlər, çağırdığın bayatılar, dediyin sözlər Mənə şərbət kimi gəlir. Mən burada o şərbətdən alıram qidamı. Bəzən torpaq yağış istəyən kimi Mən də Səni yanımda istəyirəm, Mənim Anam! Sən torpağın üstündə Məni isidən günəşimsən. Mən bu dünyada belə Sənin kimi Ana görmədim. Gec də olsa, anladım ki, Sən necə Anasan, övladların üçün necə Ana olmusan, sultanım Mənim, Anam Mənim! Anacan, Məni ən sevdiyin halımla xatırla! Sağlıqla qal, ANACAN!

... Bu gün Sənin ad günündür, Ceyhunum! Sənsiz olan ad günün! 26 yaşında qalmısan, ancaq biz Sənsiz Sənin 27 yaşını qeyd edirik. Ceyhunum, Şəhidlik məqamında ilk ad günün, mövludun mübarək! Cənnətdəki ilk doğum günün mübarək! Bu il ad gününü cənnətdə keçirirsən və bundan sonrakı ad günlərinin hamısını cənnətdə qarşılayacaqsan. Oradakı dostlarınla qeyd edəcəksən. Keçən il ad günündə Səndən nə soruşublarsa, "qismət olsa" cavabını vermisən. Belə bədbinlik hardan idi, niyə idi? Anan Sənə qurban, ay Ceyhunum, nə hiss eləmişdin, niyə belə cavab verirdin insanlara? Yoxsa bilirdin həyatın yarımçıq qalacaq, kəndirin yolda qırılacaq?

Bu gün evimiz insanlarla doldu-daşdı. Bu gün bizə çoxlu mötəbər qonaqlar gəldi, bizim tanımadığımız Sənin qonaqların: "Azercell" şirkətinin əməkdaşları, Sənin vaxtının çoxunu onlarla birlikdə keçirtdiyin iş yoldaşların; Bakı Dövlət Universitetinin tələbə-müəllim heyəti; media nümayəndələri: Missiya TV, Xəzər TV, İct Tv, AzTV və Gəncə şəhərindən şair Ramiz Təmkin; dostların, qonşular, Səni sevənlər, Sənin ad gününü bilən hər kəs qonağımızıydı. Missiya TV və Bakı Dövlət Universitetinin birgə lahiyəsi çərçivəsində media nümayəndələri və universitetin əməkdaşları ailəmizi ziyarət etdilər və evimizdə müsahibə alaraq çəkiliş apardılar.

Gələn qonaqlarımız məni bağırlarına basırlar, mənə təsəlli, təskinlik verirlər. Evimizə gələn hər kəs – qonaqlarımız Sənin divardan asılmış rəsmlərinə diqqətlə baxırlar, mənə sarı çevrilib sizə çox oxşayır, Ceyhun, – deyirlər. Yaman oxşayırsan, deyirlər, mənə: qaşların, gözlərin guya tam mənimkidir. Elə bil üzümün rəngi də Sənin üzünə çöküb. Elə bil mənimkidir Səndəki gülüş, elə bil bir almayıq, yarı bölünmüşük, gözümün nuru. Mən deyirəm ki, yox, Oğlumun bir ürəyi, bir də beyni, zəkası, savadı mənim deyil, özünündür, özünün, yalnız özünə məxsusdur. Gələn qonaqlarımıza Sənin təhsil illərində aldığın bilik və qazandığın müvəffəqiyyətlər haqqında danışırdım. Evimizdə Sənin uşaq yaşlarından bu yana, məktəb illərində, IV–VII siniflərdə oxuduğun müddətdə Rusiya Federasiyasının müxtəlif şəhərlərində keçirilən fənn yarışmalarında, olimpiadalarda iştirak etməyini göstərən fəxri fərmanlarını və mükafatlarını qonaqlarımıza göstərirəm. Belə fənn yarışmalarında, fənlər üzrə keçirilən bilik olimpiadalarında elminin, zəkanın, zəhmətinin bəhrəsi kimi diplomlar, fəxri fərmanlar qazandığını deyirəm. Qazandığın diplomları, bütün fəxri fərmanlarını, təltiflərini, mükafatlarını (az bir hissəsini, çünkü onların əksəriyyəti burada deyildi) masanın üstünə düzmüşdüm. Bu, Ceyhunumun başının, biliyinin uğur və nailiyyətləridir. Onun elminin, zəkasının, çəkdiyi zəhmətin bəhrəsidir.

Gördüyünüz çoxlu sayda olan bu fəxri fərmanlar və medallar isə Rusiya Federasiyasının müxtəlif şəhərlərində keçirilən "əlbəyaxa döyüş" idman yarışlarında iştirak etdiyinin göstəriciləri və döyüş meydançalarında qol gücüylə qazandığı qələbələrinin nəticəsidir. Onun uğur və nailiyyətlərinin sayı-hesabı yoxdur.

İnsanlar bunlara baxıb heyrətlənirdilər. Hətta universitetin professoru, Sənin müəllimən belə təəccübləndi. Dedi ki, mən Ceyhunun zəkasının, biliyinin şahidiyəm, ancaq onun bu qədər qabiliyyətli olduğunu, bu qədər nailiyyətləri, qələbələri olduğunu indi aşkarlayıram. Belə az yaş yaşayasan və bu qədər uğur qazanasan! İnsanlar Sənin yaşının azlığına və ömrünün böyüklüyünə təəccüb edirdilər. İnsanlar Sənə heyran olurdular. Qonaqlarımız: "Afərin, Sənə igid Oğlan! Afərin, Sənə Ceyhun!" – deyə, Səni alqışlayırdılar. Sənin ünvanına deyilən bu tərifləri, alqışları Sən eşidirdinmi, Ceyhunum?

Eyni zamanda insanlar köksünün altında vuran o böyük ürəyinin susmağına yanırdılar.

Bu gün də Sən İkinci Qarabağ – Vətən müharibəsində iştirak etdin, qələbə çaldın, indiyə kimi heç bir uğurla bərabər tutulmayan zəfəri qazandın, ancaq evimizə dönmədin...

Bu qələbədən sonra Ceyhun Nüsrət oğlu Şalıyev Azərbaycan Respublikası Prezidentinin müvafiq olaraq 15.12.2020-ci və 25.12.2020-ci il tarixli sərəncamları ilə **"Vətən uğrunda"**, **"Füzulinin azad olunmasına görə"** medalları, həmçinin "Qafqaz Media" İctimai Birliyinin təsis etdiyi **"Cənnət Qoxulu Şəhidim"** döş nişanı ilə təltif edilir (ölümündən sonra). Sənin üçün belə yazdılar...

Bu gün Sən – biz yaşadığın binanın önündə Sənin qara mərmərdən hazırlanmış və blokumuzun divarına vurulmuş barelyefinin açılışı da oldu. Bu qara mərmər üzərində fərqli şəklin olan daşı xalan oğlu Elçin hazırladıb. Dayın, Arzu və dostun Pərviz mediaya müsahibə verdilər. Arzu müsahibəsində dedi ki, mən Ceyhundan böyük olsam da, O mənə də, ailəmizə də böyüklük edərdi, hər bir iş üçün məsləhətlər verərdi. Biz həmişə Ceyhunu dinləyərdik və məsləhət bildiyi kimi hərəkət edirdik, işimiz də uğurlu alınırdı... Şair Ramiz Təmkin Sənə həsr etdiyi şeirini oxudu. Bütün bunları Mən – Ana ölmüş göynəyə-göynəyə izlədim, dinlədim, baxdım. Səni ağladım. Sonra Səni Mən – Anadan soruşdular: ağladım, danışdım, danışdım ağladım.

Oğlum, indi hər gün həyətimizin yanından keçən hər kəs ayaq saxlayıb Sənin divarda qalan şəklinə baxır; kimlərsə hər gün bura təzə-tər çiçəklər gətirir. Qonşu binada toy eləyən olub: musiqi səsini mən eşitməyim, həm də Sənin Şəhidliyinə hörmətsizlik olmasın deyə, bəylə gəlin musiqisiz, sakitcə gəlib





Sənin barelyefinin yanında şəkil çəkdiriblər və təzə-tər qərənfillər qoyub gediblər.

İllər keçəcək, mən yaşa dolub qocalacağam (əgər yaşayacağamsa), Sən həmişə belə cavan qalacaqsan, bu yaşda, 26 yaşında qalacaqsan, Oğlum!

Hə, ikinci bir ad günün də var, Ceyhunum – Zəfər günü – Siz Şəhidlər qazandığınız zəfər günü elə Sizin ad gününüzdür. Bundan sonra biz Sənin ad gününü ildə iki dəfə Sənsiz qeyd edəcəyik: bir doğum günündə, bir də Zəfər günündə. Bu gün həm haqq savaşında, haqq odunda yanan Siz – Şəhidlər doğuldunuz, həm də Qarabağ torpaqları azadlığına qovuşaraq Vətənimiz yenidən doğuldu.

Bir səhər həyətə düşəndə, yenə Sənin yanına gəlirdim, barelyefinin qabağında dayanıb Səninlə salamlaşdım və bura qoyulan şüşə güldanın yanında damadama bir şagird dəftər vərəqi diqqətimi cəlb etdi, əlimə götürdüm, açdım. Məktəbli xətti ilə imzasız yazılmış bir bənd şeir idi. Oxuyuram:

*Qarabağ bizimdir, bizim qalacaq!*
*Şəst ilə söyləyir Şəhid atası.*
*Bu vətən Oğlunu unutmayacaq*
*Başını uca tut, Şəhid anası!*

Bunları görüb və eşitdikdən sonra düşünürəm: bundan sonra Sən hər kəsin evində, şəkil albomunda, kitab rəfində, maşınında, telefonunda yaşayacaqsan. Düşünürəm ki, daima xatırlanan insanlardan biri oldun, Ceyhunum!

Ay ağıllı Ceyhunum, həyətimizdə də Sənin xatirəni əbədiləşdirmək üçün qardaşın Arzu bir bulaq tikdirdi, oradan da, qara mərmərdən şəklin boylanır, üstündə də bu sözləri yazdı-

rıb: "Şəhid Ceyhun Şalıyevin unudulmaz xatirəsinə". Səndən insanlara xatirə-bulaq. Yenə xatirə...

Axşamlar otağıma çəkilib bayaqdan yana-yana qoyduğum işığı söndürüb, çarpayıya uzanıram. Yorğanı başıma çəkirəm, gözümə yuxu gedənə kimi bir neçə dəfə yerin içində çevrilirəm. Bəzən yata bilməyəcəyimi hiss edib çarpayıdan qalxıram, indi Sənin olan otağına keçirəm, işığı yandırıram, şəkillərinin qabağında dururam, darıxıram, pəncərənin ağzına gəlirəm, hər şeyi xatırlayıram: səsin qulağıma gəlir...

Bu gün bayırda elə sakit gözəl hava var ki, gəl görəsən! Bir yay səhəridir, eyvana çıxmışam, eyvanın məhəccərinə söykənib ətrafa baxıram, dərindən nəfəs alıram, ancaq yenə də o havanı ürəyim istəyən kimi ala bilmirəm, duya bilmirəm, hiss etmirəm! Yəqin, Səninlə bağlılığımdandır: Sən heç nə hiss etmədiyin kimi, mən də heç nə hiss etmirəm, Ceyhunum! İndi adət etmişəm: hər səhər yuxudan duran kimi, əgər yata bilmişəmsə, gözlərimdə yaş damcıları eyvana çıxıb, həyətə boylanıb, ilk öncə Səninlə salamlaşıram: – "Sabahın xeyir, Oğlum!" – deyirəm və bir xeyli Səni müşahidə edirəm, həyətimizdə Ceyhunumun unudulmaz xatirəsinə tikilən bulağa baxıram – Sənə baxıram, şəklinə baxıram, gözlərini oxumaq istəyirəm. O gözlər nə demək istəyir mənə, eşitmək istəyirəm, Ceyhunum. Mən də gözümün gözünə demək istədiklərini üzünə deyə bilmirəm. Düşünürəm, fikrə dalıram.

... Bulağın ətrafında çoxlu ağaclar, güllər əkilib. Sənin bulağın bir neçə ildən sonra boy atıb uzanan bu yaşıllıqlar içində qorunacaq. Hər gün buradan keçən analar – qadınlar bu bulaqdan əyilib su içirlər və yaylıqlarının ucu ilə Sənin daşını silirlər, əlləri ilə daşına sığal çəkirlər,Sənin qara daş üzərində olan şəklini öpürlər və "Allah Sənə rəhmət eləsin!", "Nurlar içində





yatasan, Bala! – deyib gedirlər. Hər səhər eyvana çıxanda görürəm ki, binamızın – həyətimizin kişiləri yuxudan durub Sənin yanına – bulağın yanında qoyulan oturacaqlarda oturmağa gəlirlər, yəqin ki, səninlə söhbət edirlər. Oğlum, insanlar səni burada heç tək qoymurlar, Allah onlardan razı olsun! Bütün günü sənə baş çəkənlər olur. Heç kim sənin yanından etinasız ötüb-keçmir, heç olmasa, ayaq saxlayıb Sənə – şəklinə baxırlar. Hər gün eşidirəm: uşaqlar, böyüklər deyirlər ki, "Ceyhun bulağı"ndan su içdim, "Ceyhun bulağı"ndan su gətir, "Ceyhun bulağı"nın yanındadır və s. Bir gün yenə Səndən ötrü yaman darıxmışdım. Gəlib bulağın yanında qoyulan oturacaqların birində, yan tərəfində üzüm Sənə sarı oturub ürəyimdə Səninlə dərdləşirdim. Bir baba iki nəvəsi ilə bulağın yanından keçirdilər. Onlar məni tanımırdılar. Baba nəvələri ilə birlikdə Sənin şəklinin qarşısında dayandılar. Baba: "Bax, şəkildə gördüyünüz bu Oğlan bizim Şəhidimiz qəhrəman Ceyhundur". Böyük nəvəsinə (8-9 yaşlarında olardı) müraciətlə: – "Oğlum, qəhrəmana bir əsgər salamı ver!" – dedi. Uşaq əsgər kimi qarşında ayaqlarını cütləyib, müntəzir dayanıb sağ əlini alnına qaldırıb: "Salam, əsgər! Salam, Ceyhun!" – deyib, Sənə baş əydi. Baba nəvəsinin üzündən öpdü. Şəhidlərimizi unutmayın, – dedi və nəvələri ilə birlikdə bulağın yanından uzaqlaşıb yollarına davam etdilər. Bütün məhəllə uşaqları həmin adla Səndən bir-birilərinə danışırlar və Səni yad adamlara təqdim edirlər. Bilirsənmi, ürəyim cızz eləyir, Oğlum...

Evdəyəm. Darıxıram, həyət tərəfə baxan başqa otağa keçirəm, binanın arası ilə Sənin dərsə, işə gedib-gəldiyin yollara baxıram. Sən gözdən itənədək Kamalla mən Sənin arxanca baxırdıq. Biz hər səhər Səni belə dərsə yola salırdıq. Sən də arxaya çevrilib bizə əl eləyirdin və öpüş göndərirdin. Dərsdən

qayıtma saatını da bilirdik, Sənsiz dilimizə çörək vurmurduq və yenə gəlib pəncərənin qabağında dururduq və Səni gözləyirdik və belə qarşılayırdıq Səni. Səni qarşı binanın tinindən çıxanda görürdük və sevinirdik, əl eləyirdik. Pilləkənləri çox sürətlə qalxırdın, Sən qapıya çatmamış, qapını döyməmiş biz qapını açırdıq. Tövşüyürdün, nəfəsini dərməyə Sənə macal vermirdik, elə dəhlizdəcə boynuna sarılırdıq, Oğlum. Sən də bizimlə qucaqlaşıb, görüşüb düz öz otağına keçirdin. Həyatının ən gözəl, ən xoşbəxt günlərini, ən dəyərli vaxtını bu otaqda keçirirdin. Sevməyi də, sevilməyi də bu otaqda oxuduğun kitablardan öyrəndin. Evdə də vaxtının çoxunu bu otaqda kitablarınla, xəyallarınla birgə yaşayırdın. İndi otağının ən kiçik küncü belə Səni xatırladır. Əl vurduğun əşyalar, divarlar, qapılar belə Səni xatırladır, Ceyhunum! Başqa otaqlara heç keçməzdin, yalnız yemək zamanı mətbəxə gəlirdin, tez bir vaxtda yeməyini yeyib bitirirdin və yenə öz otağına çəkilirdin. Yazı masan bəzən səliqəsiz olardı və mən rəngli qələmlərlə yazılmış vərəqləri toplamaq, səliqəyə salmaq istəyəndə bir dəqiqənin içində hirslənirdin və deyirdin: xahiş edirəm, toxunma mənim yazılarıma, qarışdırma onları. Mən onları belə açıq vəziyyətdə görəndə yazdığım və oxuduğum hər şey yadıma düşür. İndi həmin o yazdığın qələmlərin Səndən küsüb, oxuduğun kitabların kitab rəfində ağzıüstə bağlı qalıbdı. Onları açıb vərəqləyən Ceyhunumu gözləyirlər.

Heç kimlə oturub-durmağa, danışmağa hövsələn, həvəsin olmazdı. Əgər məcburən telefona cavab verməli olurdunsa, lap üzülürdün. Bütün suallara çox qısa "hə", "yox" və ya "bilmirəm" kimi cavablar verərdin. Sonra da insanlarla belə danışdığın üçün mənim danlağımı eşidirdin, susub qulaq asırdın. Deyəsən, onda biz səni anlamırdıq. Anlamırdıq ki, Sənin üçün vaxt hər şeydən qiymətlidir və belə qızıl kimi vaxtını telefonla





söhbət eləməyə sərf etmək istəmirdin, düşünürdün ki, telefonla danışmaqdansa, iki-üç səhifə kitab oxuyaram.

Niyə elə o zaman indiki kimi anlamamışam?! Dəvə yediyini sonradan gövşəyib həzm eləyən kimi, mən də sonralar bunları anlamağa başladım. Boynuma alım ki, mən çox vaxt hissə qapılıram, mənə təsir edən adi bir hadisəni beynimdə dolandırıram, ağla sığmayan xəyallara dalıram, durduğum yerdəcə öz-özümə heyrət edirəm. Ancaq onu da deyim ki, belə hallarda Səninlə bağlı hissim məni aldatmır. Seyrəlmiş uzun kirpiklərimin arasından yaş süzülür. Gəlib dururam Sənin kitab rəfinin qarşısında. Hər dəfə gözüm kitablara sataşanda o kitabların tarixçələrini xatırlayıram: bax, bu kitabı almaq üçün çox israr etmişdin; bu birini Sənə şalvar almaq üçün verdiyim pula almışdın; birini yay imtahanlarını müvəffəqiyyətlə verdiyin üçün almışdın. Hələ nə yadıma düşür: bir kitaba çox pul vermişdin, bahalı və böyük həcmli, həm də çox da maraqlı kitab imiş, metroda oturduğun yerdəcə oxumağa başlamısan və növbəti dayanacaqda yaşlı bir qadın gələndə durub ona yer vermisən. Qadın Sənə təşəkkür edib və kitabın böyük olduğu üçün əlindən alıb saxlayıb. Sən düşəcəyin dayanacaqda metro dayananda düşmüsən, kitabı unutmusan və kitabsız evə gəldin. Evə çatanda birdən kitab yadına düşdü, çox məyus oldun, hətta ağlamaq belə istədin. Mən Səni ovundurmaq istədim, dedin ki, heç oxuyub qurtarmamışdım, kitabın sonu çox maraqlı idi, mütləq oxumalıyam. Mən çarəsiz qalıb, həmin kitabı almaq üçün Sənə pul verdim. Kitab oxumaq Balam üçün nəfəs almaq, yemək, yatmaq kimi ehtiyaca çevrilmişdi. Bütün bunları çox sonralar başa düşdüm. İndi gözüm ömürlük rəflərdə qalan kitablarda, yazı yazdığın vərəqlərdə qalıb, gözlərim rəfdən asılı qalıb...

Bu kitabdan imtahan vermişdin, onu, bəlkə, əzbər bilirdin,

lakin yenə də həmin kitab maraqlandırırdı Səni, ora-burasını oxumağa başlayırdın. Elə kitab oxuya-oxuya da yuxuya gedirdin. Mən çox ehtiyatla, əvvəlcə işığı söndürürdüm, sonra ürəyim döyünə-döyünə, ayaqlarım əsə-əsə barmaqlarımın ucunda lap astaca, qapını açırdım və gəlib Sənin üstünü örtürdüm, heç qımıldanmırdın da. Elə yorğun olurdun ki, heç oyanmırdın. Və bir neçə dəqiqə Sənə baxırdım, Səni müşahidə edirdim. Elə diqqətlə baxırdım ki, Balamın üzünün cizgiləri, üzünün ifadəsi belə bu saat da gözümün qabağındadır. Bəzən yuxunu alandan sonra əhvalın yaxşı olanda, gecələr çarpayının qırağında Səninlə göz-gözə oturub hava işıqlananacan Səninlə söhbət edirdik, Oğlum...

Səhərlər yuxudan oyanmaq Səninçün əziyyət olmurdu. Bəzən yuxudan oyananda gah o böyrü üstə, gah bu böyrü üstə çönüb istədiyin vəziyyətdə uzanırdın və ürəyin istəyənləri uzun-uzadı fikirləşirdin, sonra rahat-rahat gərnəşirdin, barmaqlarını çıqqıldadırdın, ya da əllərini başının altında çarpazlayıb başının üstündəki tavana baxırdın. Bəzən yatağının içində xarici musiqiyə qulaq asardın. Ondan da başqa bir zövq alırdın. Hərdən, bu nadir hallarda olurdu, bazar günləri mən Səni nahara çağıranadək yatağında belə sakitcə qalırdın. İndi bunların hamısını yadırğamışam. İndi evimizdə hər şey dəyişib: Sən də, mən Anan ölmüş də, evin içi də dəyişib tamam ayrı cür olub. Evimizin qayda-qanunları da dəyişib, həyatımız dəyişib. Evimizdə sakitlik hökm sürür. Heç kim dinib-danışmır. Daha şam üçün yemək sifariş verən dilləri, ütülü paltar istəyən səsləri eşitmirəm. Anacan, sabah Kamalla Səni şəhərə gəzməyə aparacağam, – deyən dodaqlardan gələn səsləri eşitmirəm. Hər şey mənasız olub, darıxdırıcı olub. Nə yaxşı ki, Sən var idin, Ceyhunum! Onda mənası vardı gecənin də, gündüzün də. Sən





olduqca yollarımız işıqlanırdı. İndi bunlar hamısı bir xəyala dönübdü. İndi evdə vurnuxa-vurnuxa qalmışam, yata bilmirəm, ayağa durub qaranlıq otaqların içində gəzişirəm, əsəbi halda var-gəl edirəm. Bəzən belə gecələrdə Səndən ötrü elə darıxıram ki, sakitcə gedib Kamalımın saçlarını tumarlayıram, Sənin qoxunu ondan almaq istəyirəm, ancaq o qoxu burnuma gəlmir. O ətrini, qoxunu, sözünü, özünü yaman axtarıram, Ceyhunum. Fikirləşirəm ki, o qoxunu bir də ala biləcəyəmmi?! Gözlərim dolur. Ürəyimin acısı göz yaşlarıma qarışır. Elə heykəl kimi oturduğum yerdə, əllərimi dizimin üstünə qoyub səssiz-səssiz ağlayıram. Bəzən belə gecələrdə gözüm saatın əqrəblərində dəqiqələri saya-saya qalır, səbirsizliklə səhəri gözləyə-gözləyə qalıram. Sənin yanına tələsirəm...

Hanı o Sənli günlərimiz, Ceyhunum?! İndi yenə həmin pəncərədən Sənə baxıram, içimdə acı və göynəyən sancılarla Sənsizliyi yaşayıram. Sənin üçün ölürəm, Oğlum! Fikirləşirəm ki, bu nə oddu düşdüm? Gecə-gündüz əyil-dur, yu, ütülə, təmizlə, sil-süpür, bişir-düşür, yedirt, böyüt, oxut, yorulmadan qulluq elə, sonra da əlindən sal sındır, itir. 26 il çəkdiyin zəhmət bir anın, bir günün içində alt-üst olsun. Hər şeyi, bütün dünyanı parçalamaq istəyirəm, ölümü belə öldürmək istəyirəm, eyvanımıza çıxıb lap yüksək səslə bağırmaq, hayqırmaq istəyirəm. Elə möhkəmdən, var səsimlə, səsim bütün dünyaya yetəcək qədər qışqırmaq istəyirəm ki, bəşəriyyət məni eşitsin. Baxın mənim Ceyhunuma! Görün onun tayı-bərabəri varmı? Görün Onu necə xərclədiniz! Ox, necə deyərdim bu sözü. Bu dəqiqə bu sözü demək üçün bütün dişlərim gicişir, dilim dolaşır, nəfəsim daralır. Sözü deyə bilmirəm, ancaq Oğlum gəlib durur gözümün qabağında. Qarşımda kitabların, dodağımda sözlərin, xəyalımda baxışın, gülüşün, yerişin... İndi hanı mənim Ceyhu-

num? İndi neyləməli?! Bu nə deməkdir, İlahi?! Hər şey, hətta yaşadığımız həyat belə mənasızıymışmı?! İndi düz gördüyüm, anladığım həyat, yaşadığım gerçəklər yalan oldumu?! Hə, deməli, doğrudan da dünyada ölümdən başqa hər şey yalandır. Bunu da öyrəndim...

Sənin əşyalarını qarışdırıram, halbuki Sən buna heç razı olmazdın, heç xoşun gəlməzdi kimsə Sənə məxsus olan nəyəsə əl vursun. Əşyalarının içində gözümə ətir qabında yarımçıq qalmış ətirin dəyir. Özü də yadıma gəlir ki, Sən bu ətiri sifarişlə gətirtmişdin. Əlimə götürüb baxıram, ağzını açıb iyləyirəm, burnuma çəkirəm. Sənin qoxunu tanıyıram. Ətrin iyindən təsirlənirəm, gözlərim dolur. Neçə vaxtdan bəridir ki, bu ətir burnuma dəymirdi. İndi birdən ətrin içində çimən Oğlum durdu qabağımda. Səni qucaqlamaq istədim, əllərim boşda qaldı, ürəyim dağlandı... Paltarların şkafda asılı qalıb, bəzi köynəklərinin heç yarlıkını da qopartmamısan, ayaqqabıların tər-təmiz qutularında qalıb, əl yaylığın ütülü ütü masasının üstündədir, necə tələsmisən ki, əl yaylığını götürməyi unutmusan, Oğlum, kimiydi Səni çağıran?! Hara belə tələsirdin? Ölüməmi?!

Əşyalarının içində üç dənə kiçik cib dəftərçən diqqətimi cəlb edir və əlimə alıb baxıram, vərəqləyirəm. Bu dəftərçələrin sahibi Ceyhunumun xəttinə baxıram, məktəb illərini xatırlayıram. Bəzi hərfləri necə də səliqə ilə yazırdın, bəzilərini yazmaqda çətinlik çəkirdin. Müəllimə evdə həmin hərflərdən bir neçə sətir yazmağı tapşırırdı. Sən də böyük həvəslə yazırdın ki, o hərfləri də yaxşı yazmağı öyrənəsən. İndi elə bil muncuq düzmüsən, Oğlum. Hərbi xidmətdə olanda tutmusan və gündəlik kimi yazmısan. Tam da gündəlik deyil, ancaq bəzi günləri yazmısan, təsvir etmisən, qeydlər aparmısan. Gündəliyi ta Lənkərandan





başlayaraq Ağdamda olduğun müddətdə bitirmisən. Gündəliyi əsasən rus dilində yazmısan. İlk yazmağa başladığın qeydlərin 16.07.2015-ci il tarixində olub. Lap isti-isti yazmısan, xidmətə başladığın ilk günlərdə. Hər üç dəftərçəni açıram: birinin ilk səhifəsində yazdığın bu misraları oxuyuram: Dəftərçənin bir (sol) tərəfində: «И вечный бой, Покой нам только снится!» digər (sağ) tərəfində isə: "Namusunu hifz etməyə, Bayrağını yüksəltməyə Cümlə gənclər müştaqdır" (Lənkəran – 2015) Dövlət Himnimizə aid misraları yazmısan. Həmin qeydlərindən bir neçəsini elə öz yazdığın kimi verirəm, həm də olduğu kimi – rus dilində:

«16.07.2015. Во сне видел однокурсников. Помню, что очень сильно был рад видеть Парвиза. Но в общем плане встреча получилась довольно трогательной».

«24.07.2015. Завтра у многих чавушей кончается срок военной службы. Смотря на них очень трудно не подумать о том, что многим солдатам, как и мне, предстоит исполнить свой долг перед Родиной на протяжении долгих двенадцати месяцев, а некоторым и того больше. Среди офицерского состава ходит много разговоров о том, что скоро предстоит воевать, и тут уже независимо от самого себя думаешь о возможном раннем окончании жизненного пути».

«26.07.2015. Во время утреннего развода трое наших чавушей были демобилизованы. Дай Бог время придёт и на нашу долю выпадет такая же участь. Также идут разговоры о том, что может быть после присяги появится возможность стать внекадровым офицером. Если так будет, я точно пойду, так как для меня это есть возможность осуществить несколько своих желаний. Как гласит пословица: «время покажет, а мы увидим». Время тут идёт очень медленно».

«04.08.2015. Время присяги стало окончательно известно – 16 августа. А это означает, что опять придется париться кучу времени. Вчера ночью никак не мог заснуть. Встал, пошел и искупался, потом сидел до утра.

Bu gün yazdığın qeydlərin sonunda "Qalx ayağa millət boğmasınlar səsimizi, Bir bayraq altında birləşdir bizi!" sözlərini azərbaycan dilində yazmısan.

16 августа, когда я принял присягу на верность Родине, приезжали мама, брат и дядя. 22-го мама и младший брат уезжают в Россию. Привезли две книги моего любимого писателя, народного писателя Чингиза Абдуллаева, сам попросил. Я был рад их увидеть. Я настоял на том, чтобы мои не остались в Баку одни и отправились в Россию к отцу и старшему брату. Дом решено было сдавать в аренду. В итоге я здесь остался один (имею ввиду семью), что меня заметно докучало, но я старался не поддавать ввиду, ходил с довольным видом, выпячивал грудь».

«17.08.2015. (318) Вчера, наконец, присягнули на верность Родине. Было немножко грустно оттого, что судьба не позволила моей семье присутствовать, но в целом, всё прошло довольно легко и гладко. Дядя намного опоздал. До его приезда успел поговорить по скайпу с семьёй (+10 к настроению), затем выложил фотку».

«19.08.2015. Ночью, наконец-то, смог поговорить с родителями по скайпу. Как не это ... видеть и слышать на первый взгляд, не так уж много времени. 36 дней моего положения состоит в том, что время в армии течёт по другому. На первый взгляд дни проходят быстро, но если оглянуться и как следует подумать, создаётся впечатление, что я оставил гражданскую жизнь, месяцы, а то и годы назад.





Это может показаться глупостью только тем людям, которые не отдавали свой долг Родине, и другим... Теперь перейдём к другим новостям жизни.

Вчера началось распределение ребят – увезли ... Может не представится шанс увидеться снова, но я навсегда запомню этого замечательного человека, который зачастую являлся моим противником в спорах о событий религии, власти и истории. Касательно сегодняшних событий, хотелось бы упомянуть про то, что утром были упражнения с автоматом. Мовсумову сказали выбрать двоих для демонстрации талантов в сфере обращения с оружием – ясень пень, что выбор пал на меня и другого паренька. Впоследствии выяснилось, что позвали нас совсем не для этого. Оказывается, нашему капитану поручили показать постоянному составу нашей части как должен двигаться солдат в условиях ведения боевых действий, а меня избрали в качестве подопытного кролика. Итогом того, что я прополз 185 метров с оружием по земле, окопу и под колючкой – стали стертые локти, расцарапанные руки и в крови локти, плюс грязная форма. Чавуш (М) все извинялся, что действительно не предполагал о таком повороте событий, да я на него и не злился.

Оказывается, сегодняшний день ещё не закончился: во-первых, получили зарплату. Не знаю, чем я отличаюсь от остальных сослуживцев, но бурного восторга и криков «деньги» я не выражал. На мой взгляд, это может свидетельствовать о погрешностях в коре головного мозга. Сколько бы я не говорил Д., что деньги являются одним из главных приоритетов в жизни, в глубине души (в тех частях, куда мои грязные мысли ещё не успели пробраться)

я хорошо осознаю тот неоспоримый факт, что собственное достоинство стоит превыше всего; во-вторых, немаловажным событием является распределение Алиханова в другую часть, притом всё это произошло настолько быстро, что мы даже не успели попрощаться. Книга осталась у меня».

«21.08.2015. Новый день не принёс облегчения, в силу того, что до сих пор не предложили стать внекадровым офицером. Г. говорит, что должен прийти запрос в военную часть на рекомендацию солдат, желающих стать дознавателями. Потребность в них есть всегда, но тогда непонятно, почему добрые вести до сих пор не дошли? Конечно, я учитываю и тот вариант, что возможность стать сотрудником военной прокуратуры может появиться и через 7 месяцев, и тогда придётся сделать один из самых тяжёлых выборов в моей жизни. NEVER GIVE UP».

«25.08.2015. Распределение закончилось, и теперь окончательно стало ясно, что защищать Родину на передовых позициях выпало мне (большая честь опять). Хочу уточнить несколько факторов, в силу которых, перспектива находиться на посту меня не очень радует: во-первых, условия жизни – все мы достаточно ясно осознаем, что армия – это далеко не курорт... Спать приходится на земле, покрытой соломой. Воды нет. Во-вторых, – армянская разведка. Оказывается, эти щенята не используют огнестрельное оружие. Они так ловко орудуют ножом, что перед ними ставят задачу не просто истребить живую силу противника, а также снять с них скальп и отрезать одно ухо – символ уничтожения чести и достоинства».

«28.08.2015. Хочу начать с того, что делать заметки и





описывать повседневные события удается не каждый день, поэтому передам события последних нескольких дней.

Самое важное 27-е число прошло, а из Центра обучения так и не пришли. Азимов сказал, что дата их посещения была неизвестна, но вскоре они всё же должны осчастливить нас своим присутствием. Может это и правда, может и нет, наверняка, точно пока никто не может сказать. Возможно, что судьба не предоставит такой возможности, и мне как минимум придётся провести на заставе около шести месяцев.

Я никогда не жаловался на тяжести моей жизни (так и быть, признаюсь, что Д. изливал душу на счёт нехватки ресурсов валютного фонда, но это не считается, так как этот...) промолчу и сейчас, ведь я с детства ненавидел казаться слабым, и в этой неприятной ситуации как никогда уместна моя любимая поговорка: «Чему быть, того не миновать».

Второе немаловажное событие – я опять включил мужика, взял в руки (не то, что вы подумали) телефон и написал глубокомысленный ПРИВЕТ! (ну признайте народ, что для такого робкого парня как я – это смелый поступок). Наконец, пришёл долгожданный ответ – мы довольно долго общались».

«31.08.2015. В воскресенье сплавил телефон, и теперь благодаря его милости я лишен возможности общаться со своими друзьями и знакомыми. Клёво, но терпимо.

Мовсумов обещал научить собирать и разбирать NSAP-52 (или как это круто звучит) – 52 на огнестрельное оружие. Раньше как такового сильного желания изучить военное дело за собой я не замечал, но теперь ними руководство-

вался тем утверждением, что если я это делаю, то должен делать хорошо. Исходя из этого факта могу уверенно заявить, что намерен изучить и SVD, и PK, и RPK, и RPQ, собирать гранаты и в целом хорошо изучить военный устав.

«03.09.2015. Уже третье число, а это означает сокращение длительности моей военной службы, если быть конкретным, то до 5 полных месяцев. Сегодня после обеда всё время построения я стоял бок о бок с Гаджизаде Байрамом, и мы вместе сделали замечание нашему сослуживцу, а в ответ прозвучало со стороны Мовсумова …(тут хочу упомянуть про безграничное уважение к этому человеку – он стал моим кумиром, что я не мог себе представить даже в страшном сне, так как раньше не было ни малейшего шанса становления 19-летнего парнишки в качестве эталона, выместив с пьедестала Воеводу и Скромного).

Итак, несмотря на все вышеперечисленное мне, такое высказывание категорически не понравилось, на что я ответил: «Такие слова никогда не терпел. Ни прежде, ни теперь». Конечно же, это было шутка, но меня в силу сбучек немыслимых законов вселенной это задело. Г. отправил всех спать, а я с Байрамом устроили мини-байкот – мирно отошли и сели на скамейку. Наш поступок не остался незамеченным, и вскоре виновник явился.

– Обиделись старики?

– Зачем обижаться... Всё в порядке, чего категорически невозможно было сказать по выражениям лиц. Как оказалось (он поклялся, хотя это было лишним. Я ему и так доверяю), он просто хотел проверить нашу реакцию на его необоснованный выпад – при дружеских отношениях, намного превышающих военную субординацию командир – солдат. Мы могли закрыть глаза, или же поддержать всё это как шутку и посмеяться, могли, но не стали. Далее пошёл более сердечный разговор – ситуация такова…»

«15.09.2015. Жизнь полна событий, мотивирующих взяться за перо и передать чисто важнейшие моменты. 3-го числа началась мобилизация – учение солдат, прошедших воинскую жизнь. В нашу часть привезли 370 солдат. По собственному желанию был зачислен в охрану территории табора для предотвращения попыток бегства, но знал бы я, что это будет так сложно, то ни за что бы не согласился, так как по общим подсчётам я простоял 35 часов с автоматом (спал всего 3 часа, и то на земле). Конечно, если не учитывать усталость и недосыпание, 3 дня учений прошли довольно кайфово, в силу ненадобности расходов на сигареты и воду. За эти дни я сблизился с двумя Гахрамановыми.

«18.09.2013. Осталось совсем немного до перевода, оставляем молодой табор позади. По общим разговорам можно всего лишь судить, что будет намного труднее и жалеть ни о чем не стоит. Я думаю не брать данный блокнот с собой, в силу того, что не совсем безопасно, ведь логика и воспитание многих солдат не признаёт понятия личного имущества.

Мое решение по-прежнему неизменно, и в силу этого с 17 по 27 января я намерен пребывать в Баку в отпуске. Моя семья в России, что означает отсутствие ограничений в моих действиях и передвижении. Короче ЕКХ. Думаю, увидится с Н.-ом на гражданке – это того стоит.

И под конец отмечу то, чему я научился от Мовсумова:

– Терпимость и к правде, и к ошибке.

– Завоевать уважение легко, но удержать трудно.

İkinci dəftərçənin ilk səhifəsində "Şəhidlər ölməz, Vətən bölünməz", "Bir kərə yüksələn bayraq, bir daha enməz" misralarını yazmısan. İngilis dilində də bəzi qeydlərin var, Ceyhunum.

В гражданской жизни, атрибуты, к которым я стремился, были честь и достоинство. В армии эти качества воплотились в образе вышеупомянутого парня, и я убедился, что это действительно важно, а не только пустые слова на ветер западных классиков».

«24.09.2015. Вот и последняя ночь, которую я провожу в молодом таборе. Хочу я этого или нет, буду скучать по этому месту – по ребятам (не по всем конечно). На гражданке помимо двух родных братьев у меня есть трое друзей, которых я приравниваю к статусу братьев. Появился ещё один человек, приравненный мной к числу близких друзей – Мовсумов Гюндюз. Несмотря на юный возраст, он смог завоевать уважение, а что уже не мало».

«Смерть всегда приносит с собою скорбь, но на свой собственный лад она – самое естественное событие из всех, приключающихся с человеком».

Başqa bir dəftərçədə isə XOCAVƏND 2015-2016 qeydlərin

*«Нам доверено судьбой*
*В горах сберегать покой»*.

«И дольше века длится день» этими словами начинается пролог.

Блокнот писался в течение 67 дней.

С 26 октября вплоть до 10 декабря мы работали каждый день – от завтрака до ужина. Затем меня отправили в училище, где я нахожусь по сей день. (До конца службы осталось 182 дня, прошло 184, то есть примерно нахожусь в золотой серединке. И дольше века длится день)».

«27.10.2015. Прошло больше месяца с тех пор, когда я в последний раз набрасывал заметки о событиях моей повседневной жизни…Я всегда не любил такие моменты, так как считаю, что это говорит о проявлении излишних сентиментальных эмоций (понимаю о примитивность моих мыслей, но горбатого могила исправит). Понимаю то, что следующая встреча с армейскими товарищами состоится в лучшем случае через 9 месяцев (а то и позже) и это никак не скрашивает предстоящую разлуку … Я попрощался со всеми. Под вечер 247 солдат навсегда покинули Ленкорань. Нас посадили на поезд и повезли в Бейлаган.

«26-го числа, уже в №- части Бейлаганского района, произошло новое распределение, и соответственно, скрепя сердцем, мы стали заново прощаться. Итак, вечером того числа я, наконец прибыл в … пункт, где мне выпало продолжить военную службу. Первое впечатление оставляло желать лучшего – длинная одноэтажная постройка, поделенная на 3 казармы и несколько комнат для военного руководства. Нас поселили на первое время в казарме, рассчитанной на 38 солдат – 70 новобранцев, «спали в тесноте, да не в обиде», так как понимали отсутствие смысла поднимать шум и требовать более гуманного обращения.

5-го числа следующего месяца прибывала новая партия солдат, а вместе с ними и новая надежда на возможность увидеть знакомые лица.

Итак, в армии я приобрёл новых друзей. В основном все они были из молодого табора».



ŞƏHİD CEYHUN DASTANI

«Не важно какая дата.

Опишу общие вещи, а также сны, которые запомнились. 2 ноября – видел Ахмедову во сне. Всё было очень странно, но во сне мы не задали себе такие вопросы, как? почему? Помню, шёл по вестибюлю 73-ой школы.

10 декабря. Комбат отправил 4-х солдат, в том числе и меня, на усиление. Наша задача состояла в том, чтобы охранять территорию между двумя постами от вылазки диверсионного отряда противника.

17 декабря. Восьмой день уже как мы на посту. На гражданке смело смогу сказать, что видел окопную жизнь. За это время поговорил с:

14-ого связался с семьей – слава Богу, у них всё хорошо. Отец поменял номер, поэтому звонил брату – сам не знаю, как умудрился запомнить его номер. Младший братик записался на шахматы и футбол. Учится в 73-й школе, где прошли 7 лет моего начального образования. Начал разговаривать по-русски – сказал по телефону «привет, как ты?» Для 6 месяцев, конечно, маловато, но ещё не вечер.

– Поговорил с дядей. Он переживал насчёт места моего пребывания, поэтому пришлось успокаивать, что всё отлично и нет повода для волнения. Полностью поддерживает меня в 29 карьерного поста в военной сфере. Сказал, чтобы во время отпуска сначала я навестил его.

В данный момент мои действия кажутся мне же самому детской забавой. Ведь кроме общения я, по сути, не предпринимал иных… Я думаю, отпуск всё решит».

19.12.2015. Погиб Нурмамедзаде. Осколок снаряда раздробил ему голову. Ранено ещё 2 солдата. Всех троих я лично знал. Помню, говорил, что осталось служить чуть





больше года, где он затем намерен работать и иные планы на дальнейшую жизнь. Но теперь эта жизнь оборвалась и лишь память об этом парне останется после него. Всё это очень трудно и странно осознавать, что товарищ, с которым общался, больше не ходит по этой земле. Allah rəhmət eləsin! И вечная память, И вечная слава!

*Снег шершавый, кромка льда*
*Кому память, кому слава*
*Кому тёмная вода,*
*ни приметы, ни следа*

*(Василий Тёркин)*

(Самый короткий грустный рассказ в мире. – Продаются детские ботинки, некаменные).

Самый страшный рассказ в мире – Последний человек на Земле сидел у себя дома. В дверь постучали)».

«28.12.2015. 3 часа утра – только пришёл с очередного двухчасового караула. После заключения мирного договора в Швейцарии режим огня почти полностью прекратился, лишь снайперам дозволено продолжать свою деятельность.

«Мечты помогают жить, мечтатели одиноки. Раньше считал, что это пустые фразы с отсутствием какого-то смысла, но время и армия показали мне насколько я ошибался. Мир (военный мир) вокруг полон людей, но ты всё равно один, ведь не с кем общаться, в силу отсутствия общих интересов. В такие минуты погружаешься в свои думы и начинаешь мечтать, или же вспоминать былые дни, когда тренировался или ходил с Т. по городу, или искал ма-

териалы для видео с Д., или искал подарки с П., или играл в нарды. Такие воспоминания невольно вызывают грустную улыбку. И опять начинаешь считать дни, спустя, которые снова выпадёт возможность реализовать мечты.

В жизни есть конец всему
Любви, друзьям, страданиям,
Но нет конца лишь одному – воспоминаниям!»

«29.12.2015. Вчера просмотрел сообщения в 7b. Асадов пишет, что переживает и надеется, что я буду поддерживать связь. Я с радостью, но тут уже дней 10 как отсутствует электричество, так что … временно невыполнимо.

Через 3 дня Новый год, поэтому нужно обзвонить всех знакомых и поздравить. Whatsapp отсутствует.

Говорят под Новый год, что не пожелаешь, всё всегда произойдёт, все всегда сбывается!

…Это является одной из многих отрицательных качеств нашего менталитета – народ живёт стереотипами, и лица, действия которых выходят за рамки таковых устоев, подвергаются общественной критике. Встает выбор – жить, так как хочется и самому удобно, или же прогнуться под систему».

*Живи, как будто*
*Умрёшь завтра,*
*Мечтай, как будто*
*Будешь жить всегда!*





«Завтра последний день уходящего года. И теперь самое время подвести итоги. Чего я прожил за этот период?

Благополучно окончил университет, что является само по себе, немаловажным событием. С начала апреля начал работать в Massimo Duti вплоть до 31 мая. 2 месяца в Mall-е прошли незаметно. Я по сей день поддерживаю отношения с коллегами по работе...

7 июля был призван на действительную военную службу, где нахожусь по сей день. 3 месяца в молодом таборе стали причиной моего знакомства с Гюндюз Мовсумовым (мой первый командир), Ровшан Рагимовым, Шюкран Шахбазлы и Гусейн Гахрамановым – со всеми вышеперечисленными людьми намерен поддерживать связь и после армии.

Отмечу события, которые представляются мне довольно странными: В который раз вижу Ахмедову во сне, и каждый раз действия разворачиваются в 73-ой школе. Там прошли мои первые 7 лет образования, но всё равно не понимаю при чём тут …, ведь логичнее, если бы всё это происходило в университете, нет?»

*Найти и почитать на гражданке книги про сны и подсознание.

*Хорошо быть тихоней.

*Мы в ответе за тех, кого приручили*
*Мы любим тех, кто нас не любит,*
*Мы гоним тех, кто в нас влюблён.*
*(А.С. Пушкин. Евгений Онегин)*

***

*Да так бывает,*
*любовь умирает,*
*Но вроде бы манит опять, манит*
*И непонятно куда же ушло все ...*
*Голод в глазах, ветер в словах*
*Страх перед божью от старых потерь*
*Откровенной любви захлопнута дверь*
*И теперь, когда в сердце нет больше огня,*
*Теряется смысл каждого дня.*
*Ложь, поток лживых ветров,*
*Состоящих доверие к теплу нежных слов*
*И голос вроде бы и милый и родной,*
*Почему нет любви, ответ простой.*
*Меня могила не страшит,*
*Там говорят, страданье спит,*
*В холодной, мерзкой тишине,*
*Но с жизнью жаль расстаться мне.*
*(М.Ю. Лермонтов. Мцыри)*

***

*Во тьме земля сады растит*
*Не всяко золото блестит.*
*(Арагорн. Властелин колец)*





*Мы с пацанами сидим*
*На рыхлой чёрной земле*
*И вспоминаем друзей,*
*Павших на этой войне.*
*И думаем лишь об одном:*
*Что у кого-то из нас*
*Будет пуля в виске...*

*Война, бесконечная стрельба над головой*
*И лежит в сырой земле товарищ мой*
*Талисман сжимаю крепко я в руке,*
*Тихо плача при луне.*

«28 февраля, в 8 утра мне приказали опуститься в табор для отправки в отпуск... Отпуск прошел быстро. Встретился с друзьями и хорошими людьми. Отпуск кончился, и вечером я уже был в своем таборе».

«27-го числа пришла долгожданная весть о моей отправке на курсы офицерства. Второпях мы составили нужные документы, после чего, получив последние направления от нашего комбата, цитирую дословно: «Ты парень с высшим образованием и был хорошим солдатом. Не возвращайся обратно. Удачи тебе».

27-го марта, днём меня отправили на офицерские курсы, так как я предварительно добровольно на них записался. Со всей военной части собралось всего 5 человек, решивших пойти моим путём. Сначала мы поехали в Milabad, где располагается военная часть нашего корпуса. Там я встретил наших старых знакомых. Я отправился в путь в Баку. Мы поехали 28-го вечером, так что день я

провёл в 1-ом таборе, который недавно был построен и поэтому обладал хорошими условиями. Сначала мы поехали в корпус, а оттуда, уже в составе 80 солдат на поезде двинулись в столицу.

29-го утром я был уже в Баку. В первый же день успешно прошёл по сдаче документов. Следует так же отметить, что встреча эта довольно приятна. Ночью мы спали в Секретном Центре обучение войск. Это недалеко от города, примерно в 1 часе езды. На следующий день мы отправились в военный госпиталь с целью проверки здоровья для выявления пригодности или же напротив непригодности к офицерской деятельности. По итогам военной комиссии я пригоден. Из 83 солдат около 20 срезались из-за проблем со здоровьем, а 11 добровольно отказались от офицерства».

«1-го апреля в новостях неожиданно передали об обострении отношений на границе. Нас вернули в часть.

…Снова обострение на границе. По официальной версии вражеский танк перешёл в наступление и немедленно был уничтожен нашими войсками. Положение очень не хорошее. На самом деле оказалось не обострение, а конкретная война. Число погибших и раненых все увеличивалось. Противная сторона разбомбила нашу 12-ую роту – много раненых, но к счастью, погибших нет. Госпиталь был переполнен военнослужащими. В эти ужасные дни мои родные и близкие очень переживали, что я нахожусь в центре событий. Это была настоящая война. Четыре дня мы сражались с врагами. В фильмах мы видели такие сцены. В поле сражения лежали тела солдат … Нет, не хочу и не могу описать эти сцены. Вспоминать даже страшно… Положение у нас хуже некуда мысленно я распрощался со всеми, кто этого заслуживает. Тут уже ничего не поделаешь – чёрная полоса в армии преследует меня с молодого табора.

…После этих военных дней, люди, видя нас на улице (мы шагали строем), хлопали, желали здоровья и удачи, и некоторые подходили для рукопожатия со словами, что гордятся нами. По официальным сведениям, мы освободили весь Физули.

«7-го апреля нас посадили на поезд в обратный путь, и теперь осталось мало времени. Количество дней уменьшается и соответственно уменьшается и терпение – и мы должны опять вернуться в Баку. Снова необходимость ехать в Баку, – для сдачи экзаменов по спорту и естественным наукам на офицерство, но так как быть офицером уже не входило в мой план, то пришлось умышленно провалить тесты и нормативы на спорт.

Вопрос офицерства тоже отпал – у меня пропало желание быть военным, ведь свободную жизнь ничто не заменит, даже хорошая зарплата. И в уме соответственно возникает новый вопрос – а чем я буду заниматься и где стану работать после армии?

Итак, лучше всего, на мой взгляд, податься в частный сектор, где требуется отличное знание иностранных языков. Надо готовиться по профессии ELTS и подам документы в Германию или Норвегию. Может это из-за армии или я, наконец, определился, но ещё никогда до сих пор у меня не было такого глубокого желания учиться».

«27-го апреля утром, после приезда, за нами никто не приехал и нас отправили в 057 военную часть (оттуда через … другой. Нас должны были забрать)».

«1 мая. Пошёл 11-й месяц моей службы, то есть осталось служить всего один полный месяц.

Вечером 1-го числа отправили на усиление, но не на пост, а всем отрядом охранять возможные пути танкового наступления. Наутро вернулись обратно.

Уже 14-й день как мы выехали из табора – ничего вокруг – только окопы и травы… Перестрелка идёт каждую ночь. Много раненых и убитых».

«1 июня 2016 года. Закончился срок моей военной службы. Сегодня, дай Бог отпустят, уже буду в Габале».

Oğlum, qeydlərini, təəssüratlarını oxuyuram, düşünürəm, düşünürəm. Nələr yaşamısan, necə həyəcanlı günlər keçirmisən və sonunda Ceyhun olaraq qalmısan, özün olmusan... Həmin gündəlikdən bəzi parçaları oxuyuram və düşünürəm: görəsən Sən bu günləri yaşayacağını hiss edirdinmi? Həyatının belə qısa və qara olacağını bilirdinmi? Sən bilirdinmi ki, bir gün gələcək, Vətən uğrunda çıxdığın yoldan geri gəlməyəcəksən və Vətənlə birgə əbədi yaşayacaqsan, ölməyəcəksən?!

Oğlum, bir də onu etiraf edim ki, mən Sənin bu qədər vətənpərvər olduğunu bilmirdim...

Ceyhunum, dəftərçənin birində əsgərlik yoldaşınmı deyim, dostunmu deyim, sirdaşınmı deyim, gündəliyində tez-tez adını hallandırdığın Şükran Şahbazlının ev telefon nömrəsini tapdım. Öz xəttinlə yazmışdın. 14 aydan sonra cəsarət edib, telefonu əlimə alıb evlərinə zəng vurdum. Səni bir də onun dilindən eşitmək istədim. Şahbazlının anası telefona cavab verdi. Oğlunu soruşdum, evdə olmadığını dedi. Xahiş etdim ki, mənimlə əlaqə saxlasın. Bir neçə saatdan sonra Şahbazlı mənə zəng edib, – Şükrandı danışan, – dedi. Bədənim titrədi, məni tər basdı, telefonun dəstəyini əlimdə güclə saxladım. Çox fərqli səsi





vardı, birdən elə bildim ki, Ceyhunumun səsi gəldi qulağıma. Ondan Ceyhunumu soruşdum. Necə xatırlayırsan? Necə dost olmusunuz? Mən soruşdum, ağladım, dinlədim. Şahbazlı Səndən danışdı: ağlından, savadından, qoçaqlığından, cəsurluğundan danışdı. Şahbazlı Səndən danışdı:

– Mən Ceyhunla əsgərliyimizin ilk günlərində tanış oldum və 40 gün Lənkəranda birlikdə olduq, sonra mən Beyləqana gəldim, Ceyhun isə Xocavəndə getdi. Daha sonra Xocavənddə yenə birlikdə xitmətimizi davam etdirdik, eyni taborda.

Mən də hüquqşünasam. Milli Aviasiya Akademiyasını bitirmişəm. Ceyhunla mən ancaq kitablardan danışırdıq. Corc Martinin fantastik romanlarını və Çingiz Abdullayevin əsərlərini müzakirə edirdik, yadımızda qalan epizodları xatırlayırdıq, obrazları xatırlayırdıq, müzakirə edirdik, mübahisə edirdik. Obrazları tanıdığı kimlərəsə bənzədirdi, əsərlərdəki bəzi monoloqları əzbərdən deyirdi Ceyhun...

Ceyhun başqa aləm idi. İnanmazsınız, bu günə qədər telefonumda əsgər yoldaşlarımdan yalnız Ceyhunun telefon nömrəsi qalıb. Biz bir-birimizə "qardaş" deyə müraciət edirdik. Mənim qardaşım yoxdur. Qardaşım olsaydı, bəlkə də, onu Ceyhun qədər sevməzdim. Qardaşım olsaydı, bu qədər yaxın ola bilməzdim. Biz o qədər bir-birimizlə yaxın olmuşduq ki, səhərdən-axşama kimi bir yerdə olurduq. Səhər yeməyindən başlayaraq, idmanımızı, asudə vaxtımızı, xidməti işlərimizi də birlikdə keçirirdik. Bir siqaret tapanda onu da birlikdə çəkirdik. Üstümüzə bomba yağanda da səngərdə birlikdə olurduq. Soyuqda, şaxtada qalanda nəfəsimizlə bir-birimizi isidirdik. Çarpayılarımızı da çəkib yaxınlaşdırmışdıq, yanaşı yatırdıq. Ceyhun maraqlı həmsöhbət idi. Yuxuya gedənə kimi söhbət edirdik. Bütün dərdlərimizi, sirlərimizi, məhəbbətimizi payla-

şırdıq... Ceyhunla əsgərliyi bitirdikdən sonra da görüşürdük, telefonla əlaqə saxlayırdıq...

Ceyhunun xəbərini eşidəndə bərk sarsıldım. Ceyhunun yoxluğuna bir neçə ay inanmadım. Ceyhun ölməz, – dedim. Həyatımda Ceyhun kimi dostum olmayıb, yəqin ki, belə dostum heç olmayacaq da...

Sənin qəhrəmanın Mövsumovu da tapdıq. Hazırda xaricdə yaşayır. Telefonla danışdıq. Sənin haqqında danışmağını xahiş etdik. Mövsumov danışdı, mən ağladım. Mən Səni soruşdum, Mövsumov danışdı, ağladı. Çox ağırdır, dost, yoldaş olduğun bir insanın yoxluğunu düşünmək.

Sonra o bizə səs göndərdi. "Adım Gündüz, soyadım Mövsumovdur. Mən Ceyhunla 2015-ci ildə Lənkəran şəhərində bir yerdə xidmət etmişəm. O əsgər, mən isə çavuş idim, manqa komandiri – Ceyhunun komandiri idim. Hərbidə köhnə əsgərlərdə belə bir xasiyyət (qayda) var: yeni gələn əsgərləri ora-bura qaçırmaq, iş buyurmaq, əziyyət vermək kimi bir xüsusiyyətlər olur. Şükür Allaha, xidmət elədiyim bölükdə elə şeylər olmurdu və belə işlərə yol verməməyə çalışırdım...

Əsgərlərin şəxsi işi, ailə vəziyyətləri ilə tanış olmaq, əsgərlərin psixologiyasını öyrənmək mənim vəzifə borcum idi. Ceyhun gəldi, onunla da yaxından tanış olduq. Ceyhun məndən yaşca böyük idi. Onun 21, mənim 19 yaşım vardı. Mən ona "prokuror" deyirdim. Günlərin bir günü "yat!" komandasından sonra oturub siqaret çəkirdim, bir az problemlərim vardı. Ceyhun mənə yaxınlaşdı:

– Cənab çavuş, nəsə olub?

– Mənə cənab çavuş deməyə ehtiyac yoxdur. Soyadımı desən, bəsdir.

Elə o gündən bizim daha yaxın tanışlığımız və dostluğumuz başladı. Hər "yat!" komandasından sonra Ceyhunu çağırırdım, oturub söhbət edirdik. Hiss edirdim ki, Ceyhundan öyrənəcəyim çox şey var. Poliqona aparırdım əsgərləri. O gündən bir iş dalınca gedəndə əsgərləri ona tapşırırdım. Deyirdim ki, məndən sonra onların başçısı Sənsən. Atışlara gedəndə ən təmiz silahı Ceyhuna verirdim. Çox nəzakətli və səbirli insan idi. O qədər səbirli insan idi ki, məni özünə cəlb elədi. Ceyhunun fiziki quruluşu da çox gözəl idi. Qarşımda başı dik, şux dururdu. Ceyhun hər şeyi tez qavrayırdı, tez başa düşürdü, bu cəhətdən məni incitmirdi. "Şaqat" vuranda ən qabağa qoyduğum əsgər idi. Heç yadımdan çıxmaz. Bir gün onun səbrini test eləmək fikrinə düşdüm. "Dəmir döyüldü". "Dəmir döyüldü" o deməkdir ki, bölüyün düzülməsi, yəni sıraya düzlənmək lazımdır. Bütün əsgərlər sıraya düzüldü. Ceyhun çox yox, cəmi 30 saniyə sıraya gec gəldi. Sıraya inamlı addımlarla, hərbi salamla gəldi. Ceyhun yaxınlaşıb:

– Olar sıraya durum? – dedi.

– Yox, olmadı.

"Olmadı" demək, təkrarla deməkdir. Və mən 10–15 dəfə həmin hərəkəti təkrarlatdım. Onunla birlikdə başqa əsgər də gecikmişdi. Həmin əsgər bir neçə dəfə hərəkəti təkrarladıqdan sonra onu buraxdım, Ceyhunu buraxmadım. Belə münasibət görən insanın sifətində narazılıq, əsəbilik olmazmı? Ceyhun isə etiraz etmədi, mən "dayan" deyənə qədər həmin hərəkəti davam etdirdi.

O gündən sonra dedim ki, hə, bu mənim şansımdır ki, mən belə əsgərin komandiriyəm, belə insan rastıma çıxıb.

Etiraf edim ki, mən Ceyhuna əmrimdə, tabeliyimdə olan əsgər kimi baxmırdım. Mənim nəzərimdə və gözümdə Ceyhunun fərqli yeri vardı. Ceyhun məni özünə "kumir" bilirdi. Ancaq

tam əksinə, Mən Ceyhunu özüm üçün həyat məktəbi bildim. Mən həyatı Ceyhundan öyrəndim. Mən Ceyhundan həyat dərsi aldım. Ceyhun hər kəs kimi həyata kənardan baxıb, onu seyr edənlərdən deyildi. Ceyhun həyatın içindəydi. Ceyhun özü həyatın əsliydi. Ceyhun həyatın özüydü. Ağlı, zəkası münasibəti ilə, tərbiyəsi ilə, davranışı ilə məni öyrədirdi, özü dillə demirdi, mən ona baxırdım, öyrənirdim...

Yaşca özündən böyük və ya kiçik olmasına baxmayaraq, əsgər yoldaşlarının köməyinə çatırdı, onlara şəfqət göstərirdi. Bəzən çox maraqlı və şirin söhbətlər edirdi, nəsihətamiz fikirləri olurdu. Onun ruhunda sonsuz bir qüvvə, tükənməz bir mənbə qaynaqları vardı. Bir sehr vardı onda. Ceyhunla tanış olan hər kəs ondan aralanmaq, qopmaq istəmirdi. Özü həyatı fərqli dərk edirdi və bu fərqliliyə, şəxsiyyətini bütövləşdirməyə cəhd etməsi təəccüblü deyildi. Axı, Ceyhun özü fərqli insan – fərqli təbiətli, fərqli düşüncəli insan idi. Dediklərim reallıqdır, elə Ceyhun özü reallıqdır. Ona baxıb utanırdım, bəzi hərəkətlərimdən utanırdım. Bəzən hirsli vaxtlarımda özümü cilovlaya bilmirdim, həddimi aşırdım. Belə zamanlarda Ceyhun mənə gizlicə göz vururdu, sakitcə başını aşağı əyirdi. Mən özümdən utanırdım...

Hərbidə işlədiyim müddətdə və bu gün yaşadığım həyatda Ceyhun kimi bir əsgərə, bir oğlana, bir insana rast gəlmədim. Belə əsgərim, tanışım, yoldaşım olmadı. Ceyhun, sözün əsl mənasında, mükəmməl bir insan idi. Düşünməyin ki, Ceyhunu tərifləyirəm. Yox. Əslində, mən heç Ceyhunu olduğu kimi – özü kimi təsvir etmək üçün söz tapmıram. Hər bir xüsusiyyəti, insani keyfiyyətləri ilə nümunə olacaq insan, gördüm-görəli Ceyhun oldu".

Oğlum, Kamal da Sənin xiffətini çəkir, yaman Sənsizləyib.





Gözümün nuru, Kamal Sənin yoxluğunu çox ağır keçirir: nə dinir, nə danışır. Məktəbdə, həyatda kiminləsə ünsiyyətdə olmur, heç kimlə dinib-danışmır. Özünə qapanıb, otağınızdan çıxmır. Çox çətinliklə yemək təklif edə bilirəm. Danışmır, danışanda da mənə deyir ki, Cekam yalançı çıxdı, məni qoyub uzaqlara getdi. Ceka mənim qardaşım idi. Oğlum, mən o qardaşı görmürəm, hardasan?! Bəzən də tam əksi, deyir ki, mənim Cekam xatirə deyil. Niyə Cekanın şəkillərini divardan asırsınız, niyə ağlayırsınız, niyə, niyə... Ceka sağdır, yaşayır, O gələcək. Ana, Ceka gəlib bu şəkilləri görəndə, onunçün ağladığını görəndə Səni danlayacaq, hirslənəcək, bəlkə də, inciyəcək. Onda Sən utanacaqsan. – Kamalım, – deyirəm, – təki Ceyhunum gəlsin, məni danlasın, dalaşsın, məndən küssün, incisin, necə cəza verir-versin (ancaq o, belə hərəkətlər etməz). Hər şeyə razıyam, təki Ceyhunum gəlsin evimizə. Ceyhunum qayıtsın. O günü çox, həm də lap çox həsrətlə gözləyirəm.

Kamal bir də deyir ki, Ana, sən bu qədər çox ağlayırsan, bəlkə, Ceyhun bizi görmək istəyir. Bəlkə, Ceyhun evimizə gəlir, qapıya çatanda Sənin səsini eşidir və içəri girməyə utanır. Ceyhun utanır ki, mən Anamı belə ağlar günə qoymuşam və evə girmir, geri qayıdır. Ana, Sən az ağla, bəlkə, Ceyhun gələr, bəlkə, Ceyhun qapını açıb evimizə girər...

Yaz gəlib, gözümün qabağında ağaclar yarpaqlayır, budaqlar çiçəkləyir, yasəmən, bənövşə, nərgizgülü açır. Bu yazın gəlməsindən Sənin xəbərin yoxdur. Hər səhər, əgər göy üzündə bulud varsa, üfüqə yatmış bulud layının arxasından günəş doğur, şəfəqlərini yer üzünə saçır, həyat işıqlanır, səsli-küylü həyat canlanır. Uşaqlar böyüyür, dəyişirlər, yaşa dolurlar... Hər kəs öz işinə gedir, öz işiylə məşğul olur. Bircə Sən dəyişmirsən,

böyümürsən... Bir Sən görünmürsən, Sən o qaranlıq olan əbədi mənzilində yatmısan. Sən yoxsan bu həyatda...

Günlər hiss olunmadan gəlib keçir. Elə bil günlər at üstündə gedir, harasa tələsir. Bilmirəm hara?! Bax, qırx qara gün də gəlib keçdi. Ad günün də gəlib keçdi. Aylar dolandı, bir il də keçdi o qara xəbər aldığımız gündən. Ancaq Ceyhunum gəlmədi... Sənsiz bir il keçdi. Sənsiz olan bir il! Necə keçdi, bunu mən ölmüş Anandan soruş. Yanımda yoxsan, ancaq ürəyimdə, içimdə varsan və mən oluncaya qədər VAR olacaqsan, Ceyhunum!

Bil ki dünya durduqca Sən də məndə var olacaqsan. Sən mənim qəlbimdə döyünürsən, bunu bil. Biz bir-birimiz üçün var olacağıq, Ceyhunum! Sən mənim varlığımda, mən də Səndə yaşayacağam. Oğlum, üzərimə sərt küləklər qopub, ildırımlar çaxsa da, nə yağmurdan, nə də tufandan qorxuram. Heç nə qorxuda bilməz məni, Sənin yoxluğun qorxutduğu kimi. Səni andıqca nə qəlbimin təpəri azalır, nə odum-alovum soyuyur, ay mənim İşığım! Ceyhunum, Sənin üçün şölə çəkib yanacağam, arabir narın-narın "Balam" deyib həsrətindən, vüsalından ağlasam da, getdiyin yollarına düşəcəyəm, nə solacağam, nə sönəcəyəm. Ceyhunum, bu bir ildə aldığım nəfəsdə, dilimdəki sözümdə, içdiyim suda, yediyim çörəkdə, fikrimdə, xəyalımda və ən çox da gözlərimin yaşında yaşadıram Səni, Oğlum! Ceyhunum, vədəsiz köç elədin, ancaq əfsanəyə dönən ömrün bu gün ruhən bu həyatda bizimlə yaşayır və yaşayacaqdır. Sən varsan və daima var olacaqsan, ay ağıllı Ceyhunum! Kiminsə əzizinin həyatdan getməsi elə də böyük itki deyil, əsl itki, acı itki yaşayarkən ürəyimizdə ölənlərdir. Müdriklərimiz də belə deyib: hamı öləcək – kimilər torpaqda, kimilərsə ürəklərdə yaşayacaq. Bax, başımı qaldırıb görürəm ki, Sən ananın qəlbin-





dən çıxıb milyonların qəlbinə yol almısan, Ceyhunum. Sən o qəlblərdə yaşayacaqsan, Oğlum!

Bir il də keçdi. Sənsiz yaşadığımız bir il! Bizim bəxtimizə düşən taleyə bax. Ölümünü qeyd edirik. Anım gününü qeyd edirik. Məclis qurmuşuq, qonaqlar dəvət etmişik.

Məclisdə kimlər yox idi... Qonaqlarımız çox oldu... Ali təhsil aldığın universitetin hüquq fakultəsinin nümayəndələri, doğma iş yerindən iş yoldaşların və daha kimlər, kimlər. Qonaqlarımızın arasında Sənin çox sevdiyin, fanatı olduğun, kitablarını böyük həvəslə oxuduğun Xalq yazıçısı Çingiz Abdullayev də vardı. O, Səni eşidib çox məyus olub. O, Səni eşidib gəlib. Həyətimizdəki barelyefinin qarşısında başıaşağı vəziyyətdə durdu, sonra Sənə çox diqqətlə, mənalı dolu baxışlarla baxdı. "Belə olmamalıydı. Belə Oğul ölməməliydi", – dedi və qəhərləndi. Sonra Sənin məzarını ziyarət etdi, Sənin haqqında danışdı, atanı təsəlli olacaq sözlərlə ovundurdu. Öz İnstagram səhifəsində də yazı yazıb...

Qonaqlarımız gəldilər də, getdilər də. Getdi qohum-əqrəbalar, getdi dostlar-tanışlar, getdi qonşular. İnsanlar üçün Ceyhun məclisi bitdi, acı yerin qaldı. Qonaqlarımız gəldilər də, getdilər də. Bir həqiqət də var, onu Sən də bilirsən: Sənsiz olan həyat öz axarıynan davam edir, ay Ceyhunum! Bəli, Sənsiz olan həyat davam edir. Hər kəs öz həyatına döndü, öz gündəlik yaşadıqları, qayğılarla bol olan həyata, yalnız ailəmizin – bizim həyatımız dəyişdi. Həyatımız kökündən dəyişdi və dünənimizdən heç bir görüntü qalmadı. Həyatımız baş-ayaq oldu... İnsan yaxın bir əzizini itirəndə elə bilir ki, həyat durur: ancaq bu belə deyil. İnsan yaşamağa, yemək yeməyə, su içməyə davam edir. Atalarımız doğru deyiblər: əziz ölür, ağız ölmür. İnsan əzizini unutmur, onun dərdi ilə birlikdə yaşamağa davam edir. Axı,

həyat davam edir. Mən də yaşamağa, əgər mənim yaşamağımı yaşamaq adlandırmaq olarsa, davam edirəm, Oğlum! Özü də Sənsiz, Sən olmayan dünyada yaşamağa davam edirəm... Hər kəs getdi, yalnız mən – Anan isə kədəriylə, dərdiylə baş-başa qaldım. Ananın Sənli günləri Sənsiz qaldı, ay ağıllı Ceyhunum!

Dünya bir virusun əsarəti altındadır, kiçik virusla müharibə aparır, bu bir yandan; bir yandan da bütün dünyada silahlar susan zaman, İkinci Qarabağ müharibəsinin başlanması – kabus insanları vahiməyə salıb. Sən ağıllısan, ay Ceyhunum! Dünyanı da az-çox başa düşürsən. Heç bildinmi, bu lənətə gəlmiş müharibə nələr elədi? Top dağıtmayan xanimanları uçurtdu, yerlə yeksan elədi. Şəhərlər, kəndlər dağıldı, viran qaldı. Ər oğlanlarımız geri dönməz oldular. Ailələr başsız qaldı. Analar oğlunu, gəlinlər baş yoldaşını, gözəllər sevgililərini, körpə uşaqlar atalarını itirdilər. Müharibənin gözlənilməz tufanı tufan elədi, torpağın altını üstünə çevirdi. Müharibə yağı düşmən tərəfindən Yaponiyanın Naqasaki və Xirosima şəhərləri kimi dağıdılmış, xaraba qoyulmuş, hətta 30 il ərzində o şəhərlərdən daha betər günə salınmış halal torpaqlarımızı geri qaytaran igid oğullarımızın qəhrəmanlığını həzm edə bilmədi və onları canından elədi. Nələr, nələr oldu... Müharibə qurtardı, onun əbədi olaraq qoyub getdiyi yaraların çapıqları isə hələ də göyüm-göyüm göynəyir. Müharibə kabusu hələ də evlərdə, ailələrdə gəzir. Arxada o qədər yada salmalı qara xatirələr qaldı ki... Qabaqda isə...

Hə, azad etdiyiniz torpaqları yenidən dirçəldəcəyik: düşmənin viran qoyduğu torpaqları abadlaşdıracağıq, yeni yollar salacağıq, şəhərləri də, evləri də tikəcəyik, düzəldəcəyik, quracağıq, yenidən yaradacağıq. Yenidən oralarda həyat canlanacaq, həyat öz əvvəlki günlərinə geri dönəcək, həyat öz axarına





düşəcək. Ancaq və ancaq iki şeyi düzəltmək mümkün olmayacaq: bir ölənləri – Şəhidlərimizi öz əzizlərinə geri qaytara bilməyəcəyik, Sən də gəlməz olacaqsan. Bir də dərdinə dərman olmayan Anaların ürəklərinə vurulan yaraları, sinələrə çəkilən çalın-çarpaz dağları sağalda bilməyəcəyik. Günlər, aylar, illər, çox uzun illər keçəcək, amma sinələrin göynərtisi keçməyəcək, oğlu ölmüş anaların göz yaşı qurumayacaq. Sənin Ananın dərdini belə dərdə düşən bir başqa Ana – analar anlar. Oğul xiffətindən ölür belə oğullar itirən analar. Allah heç bir ananın başına gətirməsin övlad dediklərimizin yoxluğunu!

Torpağa səpilən hər toxum cücərir, bitir, böyüyür, həyata qayıdır, bar verir. Min illərdir torpağa İNSAN qoyulur, İNSAN əkilir, ancaq hələ biri də dönüb gəlməyib. Görəsən niyə gedən gəlmir?! Bir səbəbini bilsəydim?! Deyirlər, bu təbiətin qanunudur, gedənlər qayıtmaz, geriyə dönməzlər bir daha! Axı kim dönüb ki, dönəsən Sən də, Oğlum? Oğlum, deyəsən, dünyamıza geri gəlməyəcəyin gerçək oldu, özü də necə gerçəkləşdi... Və belə görürəm ki, deyəsən, Sən də gələsi deyilsən. Yəni Ceyhunum da gəlməz oldu. Sənin bir daha geri gəlməyəcəyin bizim bir daha qovuşmayacağımız anlamına gəlməz. Mən də yaşamayacağam Sən yaşamayan dünyada; mən olmayacağam Sən olmayan dünyada, mən də qalmayacağam Sən qalmayan dünyada. Mən Sənin yanına gəlmək istəyirəm, özü də lap çox istəyirəm. Görəsən, mənim bu arzumdan Sənin xəbərin varmı, Ceyhunum?! Mən baş götürüb gələcəm Sənin dünyana, Oğlum! Mən gələnə, gedənə yalvarıram, deyirəm ki, Ceyhunsuz yaşamağı bacarmıram, mənə Ceyhunumun məzarının ayaq ucunda yer versinlər, mən də buradaca yatıb qalım. Yanında boyum qədər bir məzar olsa, bəsimdir, mənə yetər, başqa bir şey istəmirəm. Ceyhunumsuz yaşamaqdansa, ölmək gözəldir,

mənə ölüm gərəkdir. Öləndə də, möcüzə ola deyirəm, gələm Sənin yanında – məzarındaca yatam. Deyirlər, analar hər yaşda övlada gərək olurlar. Oğlum, aç qapını, yanına gəlim, yanında olum, yanında ölüb qalım. Nə deyirsən, Ceyhunum, yanında Anana da yer varmı?! Allahım, gəl al mənim də canımı! Allahım, mənə verdiyin canımı da al, apar məni Ceyhunumun yanına! Oğlum, məni də apar yanına, məni də apar getdiyin yerə, məni də apar o kiçik qaranlıq mənzilinə, apar məni gedib özünə təzə qurduğun yurda. Ceyhunum, mən Səni qaytara bilmirəm, barı Sən məni yanına apar, Oğlum!

Bu canım bədəndən çıxana qədər – məhşərə qədər Səni gözləyəcəyəm! Səni gözləməkdən, cavan canına, halına ağlamaqdan, acımaqdan, yanmaqdan və yanıb-yaxılmaqdan bezib usanmayacağam, yorulmayacağam, ay ağıllı Ceyhunum! Göz yaşlarım quruyub tükənsə də, o gözlər elə hey ağlayacaq, elə hey hər yerdə, hər kəsin gözlərində, hər kəsin üzündə, hər kəsin səsində Bala axtaracağam – Ceyhunumu axtaracağam. Ceyhunum, Səninlə min canıydım, Sənsiz neçəyəm, bilmirəm, ancaq cansız bir bədən olmuşam. Deyirlər, ürəyin yarası insanın danışığı ilə deyil, susqunluğu ilə qanayır. Mənim yaram heç qaysaqlanmadı ki, qanaya da. Mən nə susuram, nə də Səni gözləməkdən usanıram. Göz yaşlarımı da saxlayacağam Səninlə görüşümüz olan günə. Gəlirəm Sənə doğru. Sənə qovuşduğumuz gün acı ayrılıqla başlayan bu həsrətimiz bitəcək, Anan qurban!

Allah dərd verəndə dərman da verir, – deyirlər. Allah adama dərmansız dərd verməsin, – bir də belə deyirlər. Bəs, onda siz deyin, bu dərdin dərmanı varmı? Ana necə dözsün bu dərdinə, çarə olmayan dərdə?! Bu acı heç keçərmi, heç xəfifləyərmi?! Deyirlər ki, hər dərd, acı zamanla azalır, yaşa gör! Bu dərdin,





bəlanın adı olmaz, heç yoxdur da! Bu dərdin dərmanı Ceyhundur. Bu yara əsla sağalmayacaq! Allahım, açılan yaranın sağalması mümkündürmü?! Ceyhunum gələrsə... Ancaq necə düşünürsən, Ceyhunum? Sənin dərdin Anan üçün azalacaqmı? Əsla! Ananın bu müharibədə qazandığı dərd, yara nə köhnəlməz, nə qaysaq bağlamaz, nə də sağalmaz. Sənin yaranın zoqqultusu kəsməyəcək, o yaradan daima qan sızacaq. Ananın ürəyindəki bu alova necəsə, nəyləsə su tökmək olarsa da, közü oradaca közərə-közərə qalacaq. Deyirlər, bəzən ürəkdəki yara sağalır, ancaq ağrı keçmir. Bir də deyirlər ki, zaman hər yaranın dərmanıdır, amma ürək – can yarasının duzudur. Ceyhunum, Sən mənim ürəyimin duzusan. O duz basılan ürəyimdəki Ceyhun yarası daim deşiləcək, qanayacaq. Bil, Oğlum, Sənin yaran nə sağalacaq, nə ağrısı azalacaq, nə də bu ağrı heç vaxt keçib getməyəcək. Elə mənim ürəyimdə mənimlə bərabər sızıldaya-sızıldaya qalacaq. Bu dərd Ananla birlikdə məzara qədər gedəcək. Bu amansız dünyada mən də Səni nəfəsim bitənə kimi, səsim batana kimi ağlayacağam, Oğlum!

Bəzən də düşünürəm: qoy Ceyhunumdan soruşum: mən Sənin yanına necə yol tapım, ay ağıllı Ceyhunum? Sən söylə! Allahım, bir möcüzə yarat: balamla mənim yatan yerimi dəyişdir, Sənə yalvarıram! Ceyhunum, istəyirəm ki, Allahım içimdəki vuran ürəyimi Sənə versin, ürəyin vursun – Sənin ürəyin vursun, Sən yaşa! Möcüzə ol, yanımda ol, Ceyhunum, qoy əlindən bir öpüm və Sən sağ əlini çək başıma. Sən getdiyin o yol, o məkan qismət olsun mənə də, mən gedim ora. Onsuz da Sənsiz ömrü xar olub Ananın, bu işıqlı dünya Anan üçün, Ananın gözlərində qaranlıq məzar olub, əzəldən yalan olub elə bu dünya. Dağlar, dumanlar, sellər, sular aramızı kəssə də mən Sənin yanına gələcəyəm! Bu yol harada və haçan qurtaracaq bilmirəm.

Bu yoldan çəkinməyəcəyəm, Sənə gələn yolları aşacağam, hər gün Sənə doğru yol gələcəyəm, Sənin yanına gələcəyəm, Ceyhunum! İnanıram ki, nə vaxtsa biz görüşəcəyik, Oğlum! Necə?! Ölüm bir körpüdür: sevdiyini sevəninə qovuşdurur. Söylə, Oğlum, Sənə gəlmək üçün necə və hardan körpü salım yanına? Ancaq onu da bil ki, hara gedirsən, get, gec-tez gəlib Səni tapacağam, ay ağıllı Ceyhunum! Allahdan rica edirəm: Allahım, Xudaya, lütfən, məni Ceyhunuma qovuşdur! Mən Ceyhunsuz neylərəm?! İndi Ceyhunumsuz bu dünyada necə yaşayaram?! Sultan Süleymana qalmayan bu dünya kimsəyə qalmayacaq, hamımız Sənin yanına gələcəyik, Səninlə qarşılaşacağıq, görüşəcəyik, ay Ceyhunum! Səbirlə gözlə bizi! Əlbəttə, bir gün görüşəcəyik. Yaxın zamanda bir-birimizə daha yaxın olacağıq. Sən kəfənimi, növbəmi əlimdən aldın. Oğlum, indi növbə mənimdir, ölüm paltarımı – kəfənimi əynimə geyib gəlirəm yanına. Mən Sənə qovuşmağa tələsirəm. Allahım, Ana da balasından ayrı qalarmı? Sənə yalvarıram, aramızda olan bu məftilləri, bu divarı, bu səddi qır, yıx, uçurt – biz bir-birimizə qovuşaq! Anan Səninlə Sənsiz yaşayır. Anan Səni yaşadacaq və bir gün gözlərini qapayıb Sənin yanına gələcək. Onda Sənə utana-utana olsa da deyəcəyəm: peşmanlıqlarımla, günahlarımla Sənə qovuşmağa gəldim, Oğlum!

Ceyhunum, XXI əsrdə baş tutan İkinci Qarabağ müharibəsində canınla, qanınla yeni Qarabağ tarixi, müasir, ən yeni Azərbaycan tarixi yazdın – Şəhidlik zirvəsinə ucaldın. Bədəni torpaqda, ruhu cənnətdə olan Ceyhunum, qoca dünyada bir zirvə var ki, ora nə ox çatar, nə də güllə. O zirvəyə yalnız və yalnız söz çatar. Sən o zirvəyə qalxdın və qızıl xətlə bir unudulmaz tarix yazdın. Sən özün TARİX oldun. Ömrün TARİX oldu. Ölümünlə ölümü məğlub elədin, qəhrəman Oğlum! Bu qələbənin müəllifi Sən və Sənin timsalında bütün şəhidlərimiz oldunuz. Sən qələminlə yeni Qarabağ tarixini yazası Oğul idin. Sənin əlinə silah heç yaraşmırdı, Oğlum. Sənin əlinə qələm daha çox yaraşırdı. Sənin qələmin silahdan daha güclü və daha iti idi. Onu da bilirəm ki, Sən öldürə bilməzdin. Bilirsən ki, hər şey insandan qorxur, insan da ölümdən. Ölüm insanın, insanlığın, həyatın qənimidir. Öldürmədin, öldürməmək üçün də özün öldün. Sən can ala bilməzdin. Ona görə ki, Sən Allah deyilsən ki, yaradılanı öldürəsən. Sən insansan! Sən iti sözünlə, qələminlə ölümü öldürməliydin. Sən öldürməkdən daha çox yaşatmağa, yeni dünya, yeni insan yaratmağa qadirdin. Bu fürsəti əlindən qaçırtdın. Özün də istəmədən ölümü təmsil edən bir mərminin qurbanı oldun. Sən bu bayram günlərimizi şərbət kimi içməli idin. Yazıq Oğlum! Sənə qara günlərin zəhər piyaləsi qismət oldu. Yazmalıydın... Sən bu ağ günə layiq idin! Sən bu günü istədiyin kimi, arzuladığın kimi yaşamağa layiq idin! Qeyrətdən, hünərdən yoğrulmuş Oğlum, qəlbin Vətənə bağlıydı, Vətənlə döyünürdü ürəyin, Vətənə böyük məhəbbətin vardı. Və elə ona görə də canını, həyatını Vətən torpaqlarının azad olunması uğrunda qoydun. Azadlığa gedən günəş kimi parıldayırdı mənim qanunla yoğrulan, qanun təbiətli Oğlum... Oğlum, Sənin Vətənə, torpağa olan sevgin, sevincin Ana sevgisindən, Ananın sevincindən daha böyük oldu. Bu sevgi Səndə haradan idi, Oğlum? Oxuduğun kitablardanmı öyrənmişdin, əxz eləmişdin, kitabları sevən Oğlum?! Tərəziyə qoyduğun Vətən sevgisi Ana sevgisini üstələdi, tərəzinin bir tayını basıb aşağı saldı. Tərəziyə qoyduğun Vətən sevgisi Ana sevgisindən daha müqəddəsmiş Sənin üçün. Çünki Səni yetişdirən əxlaq bunu öyrətdi Sənə. Sənə müqəddəs olan hər şeyi sıralaması ilə öyrətdi: Vətən, torpaq, bir də Ana! Vətən sevdiklərindən daha müqəd-

dəs oldu Sənin üçün. Hə, deyirsən ki, sevdiklərin olduğu üçün Vətən deyə bir müqəddəs anlayış var. Anan – Səni doğan qadın, ömrünü Sənə həsr eləyən qadın, Səni sevən qadın, Sənə qarşı daima gözəl hisslər bəsləyən qadın, Vətən – hər şeyin: doğulduğun, böyüdüyün, yaşadığın, sevindiyin, qürur duyduğun, fəxr etdiyin məmləkət, uğrunda ölə bildiyin torpaq. Deyirdin ki, bizə Vətən uğrunda ölməyi öyrətdilər, ölümdən qorxub qaçmağı deyil. Ona görə Sən bu yolu seçdin. Bir də deyirlər ki, insanlar arasında dost və düşmən seçilər, Vətənsə ələkdə, xəlbirdə ələnib seçilməz, gözlə görünən o böyük dağ, qaya kiçilər, ancaq Vətən kiçilməz. Keçilməz, alınmaz qaladı Vətən, nə keçilər, nə satılar Vətən. Sən də keçmədin Vətənindən, keçmədin Allah Sənə verdiyi Vətənindən. O böyük ağlınla bu yola düşdün. Vətən özünə çəkdi, torpaq özünə çəkdi, ölüm içinə çəkdi Səni.

Bilirsinizmi, düşündükcə hansı nəticəyə gəlirəm: düz deyiblər; görünür dünyada Vətən iki imiş – biri zalımların kef yuvası, biri məzlumların qəm dünyası, qəm havası, qəm naləsidir. Ancaq hər bir bitişin sonunda bir başlanğıcı da var.

Həyat davam edir. Yadımdadır, hələ uşaq yaşlarımda müharibədən – davadan söz düşəndə ki, filankəs ölüb, bütün kənd, şəhər əhli bir-birinə dəyirdi. Hamı matəm saxlayırdı. Buna fövqəladə hadisə kimi baxırdılar. Ölü sahibi kimi hamı matəmdə olurdu, ölü yiyəsinə təsəlli, kömək üçün onu tək buraxmamağa çalışırdılar. İndi deyəndə ki, filankəs İkinci Qarabağ müharibəsində öldü, heç kəs təəccüb eləmir, ölümə adi bir şey kimi baxırlar. İndi "ölüm" sözü camaatın çox işlətdiyi və eşitdiyi sözlərdən biri olub. Ölüm çox adiləşdi, çox ucuzlaşdı insanlar üçün... Bu müharibədə çox igidlər – cavanlar itirdik, hamısı da bir-birindən əziz, bir-birindən igid, əvəzsiz oğullar. Fikirləşirəm, ürəyim sıxılır. Fikirləşirəm ki, insan qəribə məxluqdur. Dərd öz başına gəlməyincə ha danış, ha öldür özünü, başa sal, lentə çəkib göstər, başa düşməyəcək ki, düşməyəcək. Ürəyin ağrısını, acısını, yanğısını ürəyi yanmayan bilməz. Adamın ki canı ağrımadı, bilməyəcək dünyada nə var, nə yox. Bilməyəcək dərdin ağırlığını, acısını. Allah göstərməsin! Bax, elə Oğul dərdi kimi. Ceyhunumun dərdinin məni necə yandırdığını yalnız özüm bilirəm, bu dərdin içində yalnız özüm yanıram və ölənəcən də yanacağam.





Ancaq Ceyhunum... Ceyhunum gedəndən sonra hamı mənim sarsıldığımı, gündən-günə əridiyimi görüncə, sağ olsunlar, kimlərsə yanımda oldu, amma ümumiyyətlə, bizlərə – Şəhid Analarına, Şəhid Analarının ağ saçlarına, yanan ürəklərinə, göynəyən sinələrinə, ən ümdəsi də cavan Şəhidlərimizin özlərinə, onların ruhuna hörmət eləməyən cavanlara da rast gəlirəm: həyətdə, şəhid büstünün, "Şəhid bulağı"nın yanında maşında musiqiyə güclü səs verib oxudan, qızlarla birlikdə qəhqəhə çəkərək gülən cavanları görəndə dözmürəm, dözə bilmirəm. İstəyirəm deyəm ki, övladımdır O, mənim Balamdır. Gözlərimin qabağına Sən gəlirsən. Səni görmək istəyirəm, axı Sən heç vaxt belə hərəkətlərə yol verməzdin, nə də yanındakılara imkan verməzdin. Belə məqamlarda mərhəmətə, duyğuya ehtiyacım olur. İstəyirəm deyəm ki, siz anlamırsınız: Ceyhunum hara, siz hara?! Axı, o adamların nəyinə gərək Vətən nədir, Vətən üçün ölmək nə deməkdir? Dəs üstünə daş qoymayan insanlar heç vaxt anlamadılar ki, əllərindən nəyi gedib, nəyi qalıb, nə itiriblər. Bir anlasalar... Belələrinə heç söz də deyə bilmirəm. Dayanıram, düşünürəm: bəlkə, bircə adam diqqət yetirə, ayaq saxlayıb dura, o cavanlara – axı niyə belə eləyirsiniz, yaxşı deyil, – deyə. O cavan da sizin yaşıdınızdır. Hörmət edin, dəyər verin Şəhidliyinə! Onu da görmürəm. İnsanların biganəliyinə,

soyuqqanlılığına dözə bilmirəm. Bütün bunlar mənə çox ağır gəlir. Dəli kimi oluram, gözüm dünyanı görmür. İstəyirəm deyəm ki, insan haqqqında, insana diqqət haqqında siz cavanlara sözüm var mənim, yüz il danışsam da qurtarmaz! Ancaq sözlər dilimin ucundan geri qayıdır, boğazımdaca düyünlənib qalır. Bəzən ağlıma elə fikirlər gəlir ki, bu fikir ümmanında boğuluram. Bu cavanların axırı necə olacaq; belə ağılla hara kimi gedə biləcəklər?! Cavanlarımız bu qədərmi hissiz, duyğusuz olublar? Axı, deyəsən, unuduram, belə insanlar insani hisslərdən məhrum olanlardır. Belə insanlar cahil insanlardır. Elə bu məqamda M.Ə.Sabirin sözləri yadıma düşür:

*Daşqəlbli insanları neylərdin, İlahi?*
*Bizdə bu soyuq canları neylərdin, İlahi?*

Belə insanlara deyirəm: sizlərdən yüz dəfə, min dəfə, yox, milyon dəfə artıq olan say-seçmə igid oğlanlara, şəhid cavanlara – qorxmadan ölümün üstünə gedən, canlarını Vətənə, torpağa fəda edən cəsur qəhrəmanların ruhuna hörmət edin, onların analarına hörmət edin. Bu anaların ağ saçlarına, tökdükləri göz yaşına hörmət edin, dəyər verin. Yoxsa...

Bir də düşünürəm ki, bütün insanlar inkubator cücəsi kimi bir-birinə oxşasaydı, eyni olsaydı, onda da ağ ilə qara arasında fərq olmazdı, elə həyat özü də maraqlı olmazdı. Ancaq yenə də, insanların arasında bəziləri var ki, onları görmək, sezmək belə lazım deyil. Beləlari, heç heyvanlar da yeməyən alaq otları kimi hər yerdə bitirlər. Beləlari nə hərəkət edirlərsə, onları yollarından döndərmək mümkün olmur. Onlar cəmiyyətin eybəcərlikləridir. Onları görməmək lazımdır. Onlarsız da olmaz...

Belələrində .... Kim bilir, bilmirəm... Belə vaxtlarda hamıdan uzaqlaşıb Bakıxanovda olan dağın ətəyindəki məzarlığa gəlirəm – Sənin yanına. Görəsən, belə pəjmürdə, məyus əhvalla bu yolu tapıb gedə biləcəyəmmi?! Sənə gələn yol ən çətin və ən uzun yoldur mənim üçün. Gəlirəm xiyabana. Mənim daha heç vaxt üzünü görə bilməyəcəyim Oğlum yatır burada. Yanında otururam, ağlayıram: qovrula-qovrula ağlayıram. Bəzən səssiz-səmirsiz, için-için, bəzən də hıçqıra-hıçqıra, hönkürə-hönkürə ağlayıram, Oğlum. Cavanlıq dünyasını itirən Oğlum üçün ağlayıram. Hələ Sənin ailəmizlə, özünlə bağlı nə qədər arzuların vardı, Sən yaşamalıydın, Oğlum! Ancaq mən Sənin yoxluğuna ağlayıram.

...Və bəzən qışqırmaq istəyirəm: ay insanlar, heç olmasa, bu Şəhidlərimizin ili çıxana qədər dözün, sonra oxuyarsınız, oynayarsınız, gülərsiniz. Siz yaşayırsınız, bu həqiqətdir ki, həyat davam edir. Biz Şəhid Anaları isə odun içində yanırıq, yanırıq, yanırıq... Mənim bu sözlərimə görə mənə hirslənirsənmi, Oğlum? Ancaq mən Sənə daha çox hirslənirəm, acığım tutur. Ona görə deyirəm, görəsən, bu Vətən yalnız canlarını qurban verən Şəhidlərimizindirmi? Mənə deyirlər, ki, Vətən elə bu Şəhidlərin özüdür, bir də onları dünyaya gətirən Analarındır! Elədirsə, bu Vətəndə bəs kefi niyə belə insanlar çəkir, hə? Bəlkə, Sən mənə bir izah edəsən, Oğlum! Bəzən də belə düşünürəm, müşahidə elədiklərimdən belə nəticəyə gəlirəm: bu dünyada yaşadığı müddətdə sevinən, xoşbəxt olan, gülən adamların sayı niyə ağlayan, dərd çəkən, qara gün yaşayan adamların sayından azdır, hə?!

Bu gün – Vətən müharibəsində ən yeni tarixə qızıl xətlə yazılan 10 noyabr 2020-ci il tarixində burada – sizlərin uyuduğunuz Şəhidlər xiyabanında insanlar 30 ildən sonra sizlərin imzası ilə qazanılan qələbə gününü, şanlı zəfər gününü çox bö-

yük coşquyla, təntənəylə qeyd edir. Qələbə böyük itki bahasına başa gəlir, özü də nər Oğulların itkisi bahasına! Amma Qələbə böyük itki bahasına başa gəlsə də, bayramdır. Yağı düşmən məğlub olub! Bütün şəhər sakinləri əllərində üçrəngli bayrağımız küçələrə çıxıb bir-birlərini təbrik edir. Gənclər Şəhidlərin adlarını çəkir və sizləri alqışlayırlar. Və bir səslə: – Qələbə vuruşmasında, qanlı döyüşlərdə ölümlə üz-üzə, göz-gözə qalaraq, canınızı fəda edərək düşmən işğalından geri alınan torpaqlarımız sizin şücaətiniz, igidliyiniz sayəsində olub, bunu unutmayacağıq, – deyirlər. Bu insanlar 44 gün yaşanan ağır günlərin sevincini yaşayırlar. Bu sevincdə ən böyük pay sizindir – siz Şəhidlərindir. Burada olan insan selini təsəvvür belə edə bilməzsən. İnsanların sevinc, fərəh səsləri adamı riqqətə gətirir. Bu səslərlə bahəm Şəhid Oğulların Analarının naləsi ürək göynədir, yaraların gözünü qoparır. İnsanlar bütün məzarların üstünə tər çiçəklər qoyur, dua edir, bəziləri isə hətta yaxınlaşıb başdaşınıza vurulmuş şəklinizdən öpür. Analara yaxınlaşıb: ağlama, Şəhid Anası, deyirlər. Sizin kimi Anaların dünyaya gətirdiyi qəhrəman, qorxmaz, cəsur Oğulların hesabına qazanılıb bu Qələbə. Biz bu Oğullara borcumuzu ödəyə bilmərik. Bu sevinc və kədər elə qaynayıb bir-birinə qovuşmuşdu ki, sızlayan ürəklərdən süzülüb gələn göz yaşlarını sevinən qəlblərin göz yaşlarından ayırmaq olmurdu. İnsanlar bilmirdilər ki, sizlərin qarşısında özlərini necə aparsınlar, necə davransınlar: sevinsinlər, ya kədərlənsinlər, ağlasınlar, yoxsa gülsünlər?

Deyirlər ki, ölülər dirilərə baş ucalığı gətirmirlər. Yox, bu belə deyil! Sən və Sənin timsalında bütün Şəhidlərimiz öz valideynlərinə baş ucalığı gətirdilər. Ucalığın ən yüksək zirvəsinə – qarşılarında baş əyəcək qədər yüksək zirvəyə qaldırdılar. Yalnız valideynləri deyil, onlar bütün xalqı, Vətəni





qürurlandırdılar. Bir də deyirlər ki, elə ölülər var ki, ölü deyil, diridirlər, elə adamlar var ki, öləndən sonra da yaşayırlar. Belələrindən biri də Sənsən, Ceyhunum. Sən və siz Şəhidlərsiniz! Deyirlər, bir insan öləndə kainatın üzü dönür, ölən bədbəxt insanın gözləritək səmada bir ulduz sönür. İnanıram ki, Sənin ulduzun sönməyib, elə oradaca yanır, parıldayır, dünyaya işıq saçır. Kimilər üçün isə yeni başlanğıc – yeni bambaşqa həyatın başlanğıcı. Lap Sənin həyatın kimi, yenidən başlayan, tarixdə yaşanan və tarixə yazılan həyatın kimi, Ceyhunum! Ölümsüzsən, ancaq yanımda yoxsan. Öz səsi, öz nəfəsi, öz sözü olmayan adamın özü də yoxdur. Səsini, nəfəsini, baxışlarını, qoxunu bir əmanət kimi saxlayacağam. Göz yaşlarımdan asılı qalacaqsan, Ceyhunum! Deyirlər, igid Oğlu ölən Ananın göz yaşı müqəddəsdir. Ən çirkin şey diri oğlu üçün ağlayan ananın göz yaşıdır. Bu mənada, Şəhid Analarının göz yaşı müqəddəs olur və müqəddəsdir...

Düşünürəm: qismətə bax, qəsrim, qalam olan Balam, indi ömürlük bir yerdəcə heykəl olub qalıb. Adam inanmır ki, Sən yoxsan, ay ağıllı Ceyhunum! Sənsiz ölmüş Anan da yana-yana kül olur. Sənsiz həyat sönüb, ay ağıllı Ceyhunum! Sənsiz həyat olmaz! Sənsiz olan bu həyat, Sənsiz olan bu dünya bundan sonra nəyimə lazım mənim, hə? Səni Anan üçün kim əvəz edəcək bu dünyada? Varmı belə birisi, beləsi?! Sənin yerini dolduran olmaz, ay ağıllı Ceyhunum! Sınan ürəyimə məlhəm ola bilən olacaqmı, ay ağıllı Ceyhunum? Həyatda insanlar hər şeyə alışır deyirlər, hətta ölümə belə. Bu doğru deyil: Sən mənimçün ölməmisən. Sən hər gün mənimlə yaşayırsan. Analar övladlarının ölümünü qəbul eləmirlər, onların yoxluğuna inanmırlar. Sənin ölümünlə barışmaq olmur. Ölümünlə barışmaq heç olarmı, ay ölümsüz Ceyhunum?! Bir də, deyirlər, ölənlə ölmək olmur, an-

caq yalan deyil. Sənsiz yaşamaq da asan olmayacaq və olmur, ay Ceyhunum! Sənsiz olmur, Ceyhunum!

Heç bilirsənmi, Sən kimsən, nəsən mənim üçün? Hava, su, torpaq! Nə qədər Sən varsan, deməк, varam mən, nə qədər mən varam, demək Sən də varsan və var olacaqsan! Allahım, bu necə acımasız həyatdır! Göy üzü, ağ və qara buludlu səma, ulduzlar, uca-uca dağlar, aşıb-daşan sellər, sular, meşələr, çöllər, bu məzar daşları şahidim olsun ki, Sənin acın, dağdan ağır dərdin, qan axan yaran unudulmayacaq. Oğlum, bilirsənmi, elə yaralar var ki, onu qurdalasan da, qurdalamasan da qanayacaq. Bax, elə Sənin qanayan yaran kimi. Ceyhunum, mənim "Ceyhun" adlı nə acım soyuyar, nə yaram bağlanar. Başdan-ayağa qədər yaralıyam, Ceyhun yarasına sarılmışam. Ceyhun yarasının qanı ürəyimdən içimə axır. Bu olub-bitən acını, dərdi nə gələn anlayır, nə gedən. Bu acım heç zaman dinməz. Bilirsənmi, Oğlum, Sənin yaşamadığın həyatda yaşamaq istəmirəm. Sənin görmədiyin günəşi, göy üzünü, ulduzları görmək istəmirəm... Bilirsənmi, nə istəyirəm: bu dünyadan uzaq olum, təki Sənə yaxın olum, yanında olum. Mən Ceyhunumsuz yaşamaq istəmirəm! Mən doymadım Balamdan, qoy doysun qara torpaq!

Yadımda deyil, hansısa əsərdə oxumuşam ki, döyüşlərin birində Babəki əsir alırlar və onun sağ əlini kəsirlər. O, qanını üz-gözünə yaxır. Soruşurlar ki, niyə belə edirsən? Cavab verir ki, qorxuram qanım axdıqca üzüm sarala və elə bilərlər ki, ölümdən qorxuram... Bu cəsarətliliyi, mərdliyi görən xəlifə deyir: "Babək gördüyü işlərə, elə bu üstünlüyünə görə yaşamağa layiqdir". Oğlum, Sən – siz Babək nəslinin davamçıları ölümdən, ölməkdən qorxmadınız. Ceyhunum, Sən bu ölməzliyə gedən yolda öldün! Kişi kimi, ər kimi öldün. Ölməkdən qorxanlara ölümün dilini öyrətdin. Öyrətdin ki, ölüm necə gələcək, necə





sizi aparacaq, heç xəbəriniz olmayacaq, hiss etməyəcəksiniz və heç zaman ölümün sirrini bilməyəcəksiniz...

Ceyhunum, dünyaya gəlişin də fəqli, dünyadan gedişin də fərqli. Yaradan Sənin canını xəstəlikdə, qəzada və ya başqa səbəbdən deyil də, Vətənə, topağa fəda etmək yolunda aldı. Torpaq hamı üçün qoynunu eyni cür açır, ana öz övladlarının hamısına bir gözlə baxdığı kimi. Ancaq deyirlər ki, məzarlıqda torpaq da onun üçün canını fəda edənləri ələkdən keçirir, seçir, seçmələyir. Sənin və sizin kimi ruhları yaşayan Şəhidlər el, xalq, millət, dövlət, torpaq üçün canlarını fəda edənlərdir. Belə insanlara – Şəhidlərə torpaq daha yumşaq, daha isti yer verir, qucaq açır. Bir də deyirlər ki, dünya işığına gözünü yumandan sonra Allah hər kəsi yaşatmır. Sizlər həyatdan min il bundan əvvəl və sonra köçsəniz də Vətən üçün indi sağsınız, yaşayırsınız. Qismətin Şəhidlik oldu. Belə adamlar ölmür, sadəcə, yerlərini dəyişirlər. Deyirlər, Şəhidlər dünyadan köçəndə onların adları baş daşlarında və Vətən tarixində əbədi qalır.

Bir də deyirlər, kimlərinsə ölməyi lazımdır ki, kimlərsə yaşasın. Siz – Şəhidlər öldünüz ki, Vətən yaşasın! Siz – Vətən üçün ölmək də var! – deyib, xəyal etdiyiniz gələcək günlərinizdən keçərək, əldə haqsızlığa qarşı çevrilən silah tutub qəhrəman kimi irəlidə gedərək mərd-mərdanə hər çətinliyə, məhrumiyyətlərə dözdünüz ki, indiyə qədər heç bir ordu dözə bilməmişdi. İşğalda olan torpaqları sizdən qüvvət istəyən haqqa, imdad uman insanlara qaytardınız. Oğlum, Sən – siz Şəhidlər ölümünüzlə torpaqlarımızın dirilməsinə səbəb oldunuz. Siz ölümünüzlə Vətəni – həyatı təzələdiniz. Siz qırılan ümidlərimizi sağaltdınız, olmayan gümanımızı qaytardınız. İnsanların xəyallarını gerçəyə çevirdiniz, qara ləkə olan keçmişimizi sildiniz, təmizlədiniz, üzümüzü ağartdınız, güclü, qüvvətli, azad insanlar –

xalq olduğumuzu sübut etdiniz. Siz acı və qara günlərimizin röyalarını işıqlandırdınız. Siz gələcək nəsillərin bizə bağışlamayacağı ağır yükü – Qarabağ yükünü çiynimizdən qaldırdınız. Siz insana cəsarət, həyata inam bəxş etdiniz. Xalqın səsi – haqqın səsidir, – deyib haqq səsinizi ucaltdınız, haqq işinizlə haqqı qazandınız. Tanrıdan savayı heç kimə yenilməyən türk övladları, siz QARABAĞI qazandınız. Siz, aslan ürəkli Oğlanlar misli görünməmiş bir müsibətə sinə gərdiniz, qazandınız, ən böyük faciənin şahidi isə biz olduq. Siz 30 ildir ki, yetim qalan, əyyami-qədimdən tarixlər şahidi, gözəlliklər məskəni, musiqi beşiyi, xarıbülbülün Vətəni olan füsunkar təbiətli Qarabağı, hər qarış torpağında, hər qəbir daşında, hər ayaq izində əfsanəyə dönmüş bir həqiqət yaşayan Qarabağı, bu torpaqda Vətən adlı bir Ana yaşayan Qarabağı Azərbaycansız, Azərbaycanı isə buz bulaqlı, sərin havalı, yaşıl çöllü-meşəli, zirvələri ərşə dayanan çənli-dumanlı uca dağlarla əhatə olunan Qarabağsız qoymadınız. Siz yatmış, bəlkə də, oyanacağına şübhə duyduğumuz, bəxtindən küsən qarabəxtli Qarabağı oyatdınız. Siz ömrünüzü Vətən yolunda xərclədiniz, bütöv Vətəni qazandınız.

Ey Şəhidlərimiz, siz elə bir iş gördünüz ki, 30 il ərzində heç kim görməmişdi. Siz 30 ildir dağılmış, viran olmuş yurd yerlərinə, bomboz, baxımsız və cansız qalan torpaqlara nəfəs verdiniz, can verdiniz, həyat verdiniz. Siz özünüz nəfəsinizdən, canınızdan və həyatınızdan oldunuz. Siz ölümünüzlə Vətəni – zəfəri qazandınız. Biz öyünürük. Siz özünüz isə dönmədiniz. “Can da Sən, şan da Sən, hamısı Sənsən! Ey Vətən, ey mübarək Vətən, yaşa!”, – dediniz. Və bu son ucu ölümlü dünyada əzəli və əbədi məskənimiz, ölümüzün və dirimizin yiyəsi olan Vətən torpağına qovuşdunuz. Siz torpağı cövhər, suyu kövsər olan, dünyada tayı-bərabəri, bənzəri olmayan, hüsnü-camalı





qələmlə tərənnümə, təsvirə belə gəlməyən Vətəni yaşatdınız, Vətən Oğulları. Siz Vətəni sonsuza qədər yaşatdınız. Siz Vətəni yaşatdınız və sevdiyiniz, fəda olduğunuz Vətən də Səninlə – sizinlə yaşayacaq. Siz həqiqət ulduzlarısınız. Siz həqiqətin özüsünüz! Zaman keçəcək, dövran keçəcək, nəsillər bir-birini əvəz edəcək, ancaq Sən – siz yaşayacaqsınız!

Sən və Sənin timsalında bütün Şəhidlər ölümünüzlə 30 ildir ki, Vətən ürəyindən axan qanı bağladınız, Vətən ürəyində olan yaranı sağaltdınız, anaların ürəyindəsə əbədi qalan qanlı yara açdınız. Analar yaşadıqca bu yaralardan qanlar axacaq.

Bir də deyirlər ki, Şəhidlər bu dünyadan köç edəndə qocalmırlar, onlar olduqları yaşda qalırlar. Və Şəhidlər ölmürlər! Əsla, Ceyhunum ölməzdir. Belə mənəviyyat ölə bilməz, Ceyhunum! Ölümsüzsən deyirlər, Ceyhunum! Ölümün ilə ölməz oldun. Ceyhunum, ölümünlə ölümsüzlüyə ucaldın və uca bir heykəl qoydun özünə! Böyük Yaradan Sənin taxtını hamıdan uca etdi. Ceyhunum özündən aşağıda qalan insanlara qürurla “əlvida!”, – dedi və yüksəklərə uçdu.

Ceyhunum, sultanların, padşahların taxtından fərqli elə bir taxta çıxmısan ki, oradan Səni heç kim və heç vaxt düşürə bilməz. Sən əbədi olaraq yüksək zirvədə qalacaqsan və ucalacaqsan. Ceyhunum, Sən və Sənin timsalında bütün Şəhidlərimiz – sizsiniz bu qələbənin müəllifi, sizin qanınızla qazanıldı bu Zəfər qələbəsi, sizin qanınızla yazıldı bu yeni tarix. Ömrünüz tarixdə yadigar qaldı, İgidlərimiz! Tarix sizlərdən danışır və danışacaq da. İnanıram ki, siz – Şəhidlərimiz haqqında, sizlərin – Sənin qəhrəmanlığın, şücaətin haqqında qalın-qalın kitablar yazılacaq.

Ceyhunum, daha Sənin geri gəlməyinə heç bir ümidim qalmadı. Ümid etməyi buraxdım. Deməli, biz bir də Səni görməyə-

cəyik. Nə qədər bədəndə bu canım var olacaqsa, Sənsiz qalan Sənli günlərim yandıracaq məni. Sənin acın yandıracaq məni, Oğlum! Ceyhun adlı Balamın həsrətindən ömrümə geyindiyim qəm köynəyimin yarası sağalmayacaq! Həyatda var olduğum müddətdə Ceyhunumdan yazdığım bu hekayəmi bitirməklə də son qoymayacağam: ürəyimdə, könlümdə və xatirələrimdə daima Ceyhunumdan yazacağam. Danışacağım söz-söhbətim, hekayəm Ceyhunum olacaq. Yazacağım yazım, söyləyəcəyim bayatım Ceyhunum olacaq.

Anan Səni yaşadacaq: yazdığım şeirlərimdə, ağlımda, fikrimdə, yaralı ürəyimdə, qəlbimdə, Sənin sevginlə dolu olan könlümdə, gözlərimdə – məhz gözlərimdə, gözlərimdən bulaq kimi axan göz yaşımda saxlayacağam Səni. Zaman bir yerdə durmayıb axdığı kimi, mənim gözlərimdə də yaş durmayacaq, dayanmayacaq, zamanla birlikdə daima axacaq. Yaşayırıq, gəzirik, danışırıq, bir də ağlayırıq, Ceyhunum, yalnız Səninlə birlikdə. Səni tam anlatmaq üçün dediyim sözlərimdə yaşadacağam: oyanacaqsan, duyacaqsan, şəfəq saçan günəş kimi parıldayacaqsan; baxacaqsan. Görəcəksən ki, gələn günlər bənzəmir keçən günlərə. Bir övlada olan Ana məhəbbətini anlamaq, hiss etmək üçün yaşayacaqsan! Ceyhunum, Səni ürəyimin başında, saçlarımın ağında, alnımın qırışlarında, nuru gedən gözlərimin yaşında, əllərimin içində, adını çəkəndə titrəyən dilimin ucunda, hər kimdən və ya hər nədən danışıramsa, ağzımdakı sözümdə yaşadacağam! Oğlum, mənim qəhrəman Balam, mənim cəngavər Balam, Səni son nəfəsimə qədər ürəyimdə yaşadacağam! Səni sözlərimdə, gözlərimdə, baxdığım hər yerdə, gördüyüm hər şeydə yaşadacağam! Son nəfəsim ağzımdan çıxana qədər Sənin yanında olacağam, ay ağıllı Ceyhunum!

Hər gün Sənə ürəyimdə məktublar yazıram, şeirlər yazıram,





göz yaşlarım da şeirlərimlə ürəyimi açdığım ağ kağızların üstünə düşür... Sənin üçün nə qədər desəm də, ağlasam da azdı, azdı, azdı... Sanma ki, göz yaşlarım bitəcək və bitdi. Əsla!

İllər keçəcək, Ceyhunumun taleyi heç vaxt unudulmayacaq – nə ailəsi tərəfindən, nə qohumları, nə dostları, nə də onu tanıyanlar tərəfindən. Biz hər gün Səninlə danışacağıq, ağıllı Ceyhunum! Sən həmişə bizim könlümüzdə, qəlbimizdə, ürəyimizin özəl bir guşəsində yaşayacaqsan, Ceyhunum! Sən uşaqların maraqla və sevərək dinlədikləri hekayə və nağıllarda, hamının heyran qaldığı şeirlərdə, insan həyatını əks etdirən oçerklərdə, qəhrəmanları vəsf edən nəğmələrdə, teatr tamaşalarında, film kadrlarında, qəhrəmanlar haqqında yazılan kitablarda, qəzet, jurnal səhifələrində, Analarımızın ağılarında, bayatılarında, çox sevdiyin şəhərimizin reklam lövhələrində yaşayacaqsan. Sən qeyrətli oğlanlarımızın qan damarında yaşayacaqsan. Bir də Sən insanlığın, vətənpərvər insanlarımızın yaddaşında, könlündə daima yaşayacaqsan! Sən bugünkü zamanda qalacaqsan və yaşayacaqsan!

Deyirlər ki, gözəl bildiyin, anladığın, gördüyün şeylər tez bitir, son verilir. Və bitən hər şeyin yerinə bir başqası, daha gözəli gəlir. Sadəcə, gözləmək lazımdır. Oğlum, Mən də gözləyirdim ki, hər şey Səninlə gözəldir və gözəl olacaq. Mənim həyatım da, hekayəm də bitdi. Daha bu dünyada gözümə gözəl görünəcək bir şey qalmadı. Dərdimə şəfa olacaq heç nə qalmadı, hər şey əlimdən çıxdı, getdi. Ancaq... Ancaq Sən mənim üçün nəfəs alıb-verdiyim müddətdə, yaşadığım müddətdə heç bitməyəcəksən. Ceyhunumun hekayəsi bitmədi. Əksinə, Ceyhunumun hekayəsi davam edir. Bir nağıl başladı evimizdə, ailəmizdə: ürəyimizdə və gözlərimizdə Ceyhun, dilimizdə Ceyhun!

Və indi bu nağıl bütün dünyaya yayılacaq, bütün dünyada

oxunacaq və söylənəcək. Bəlkə də, insanlar Sənin payız düşməmişdən əvvəl solan həyat hekayəni oxuyandan sonra Sənin kimi bir Oğulu tanımadıqlarına təəssüflənəcəklər. Sənə rast gəlmədikləri üçün, bəlkə də, yanlarından keçib getmisən, peşmanlıq duyğularına qapılacaqlar. Səninlə ünsiyyətdə olmadıqlarına görə özlərini qınayacaqlar. Sənin böyüklüyünü görmədikləri üçün, Sənə dəyər vermədikləri üçün, Sənin fərqinə varmadıqları üçün Səndən utanacaqlar. Səni – gerçəyi görmədikləri üçün utanacaqlar. Sənin VAR olacağın zaman gələcək! Və bu zaman gələcək, mütləq gələcək!

İnanıram ki, Sənin həyat hekayənlə tanış olandan sonra, Səni dərk edəndən sonra Sənin haqqında orta məktəb dərsliklərinin səhifələrində oxuyacaq şagirdlərimiz. "Tanıdığınız və ürəyinizdə taxt quran Vətən müharibəsi Şəhidi" haqqında inşa, ifadə yazın, – ev tapşırığına cavab olaraq Sənin həyat hekayəni yazacaq şagirdlərimiz. Sənin şəkillərini məktəb dəhlizindən, sinif otaqlarından asacaqlar, adını sinif otaqlarına, fənn kabinetlərinə (tarixi daha mükəmməl bildiyin üçün, əsasən, tarix kabinetlərinə) verəcəklər, "Ceyhun guşəsi" adlı guşələr yaradacaqlar, "Ceyhun" adlı sinif divar qəzetləri buraxacaqlar, "Şəhidlər xəritəsi" hazırlayacaqlar, baxacaqlar, fəxr edəcəklər. Səni öyrənəcəklər, Səndən öyrənəcəklər Vətənə, torpağa, xalqa olan məhəbbəti. Ləyaqətli balalarımız Səndən ruh alıb bu ruhla böyüyəcəklər. Damarında azərbaycanlı qanı axan hər bir övladımız qeyrətimizin mizan tərəzisində yeri olan Şəhid Ceyhunu özünə ideal seçəcək, Ceyhun ona örnək olacaq.

Dövr, zaman qəhrəman istəyirdi. Elə bir qəhrəman ki, yağı düşməni Qarabağ yurdundan qovsun, döyüşdən qələbə ilə dönsün. Bax, bu müharibədə həmin qoçaq, igid Oğullar – yeni dövrün cəsur, düşmənə meydan oxuyan qəhrəmanları doğuldu. Cəsarətlə deyə bilərəm ki, Ceyhun Şalıyev – canını yurduna, torpağına fəda edərək qürur, qəhrəmanlıq duyğuları aşılayan, nəsillərə nümunə olan bu qəhrəman Oğul dövrün qəhrəmanı oldu. 30 il idi ki, işğal olunan torpaqlarda başsız başlar, onların himayədarları kimi itlər və tulalar da bu torpaqların sahibi kimi qalib havasında hürürdülər. Bizim qibtə olunacaq, yenilməz qəhrəmanlarımız onların hamısının səsini birdən, birdəfəlik və qiyamətə kimi kəsdilər. Tale bu müharibədə cavan igidlərin üzünə gülməsə də, Azərbaycanın üzünə güldü. Və eyni cəsarətlə deyə bilərəm: qəhrəman Ceyhun haqqında yazılan bu kiçik hekayə-nağılı oxuyaraq, Ceyhunun həyatı ilə tanış olandan sonra belə qənaətə gəlmək olar ki, Ceyhuna canı qədər sevdiyi doğma Bakıda çox yaxın zamanda əbədi bir abidə ucaldılacaqdır.

Ceyhunum haqqında yazacağam, yazacaqlar – qələm yazmaqdan, dil deməkdən yorulmayacaq. Bu hekayə-nağıla burada nöqtə qoysam da, Ceyhunumun hekayəsi bitməyib. Nə qədər Azərbaycan var, nə qədər Azərbaycan xalqı var yaşayır Ceyhunum. Ceyhunumun hekayəsi də yaşayır və yaşayacaqdır. Əlimizdə olanda dəyərini bilmədiyimiz bir igid idi, tapıntıydı Ceyhunum. Möcüzə Oğlum, nağıl Oğlum, nağıllaşdı O. Arzuları, xəyalları da özütək bir nağıl oldu, nağıllaşdı. Dərdin də özün kimi bir nağıl oldu. Nağıl Oğlum var indi də. Dərdi də mənimlə birlikdədir. Bu ölümlü dünyada ölümsüz olan Oğlum, var indi də. Ceyhunum, Səninlə bağlı olan, yaşanan hər şeyi unutmaq məcburiyyətində deyilik. Əsla! Sən bizə unuda bilməyəcəyimiz bir acı yaşatdın. Gözümün yaşı dayanmayacaq, ürəyimin yanğısı sönməyəcək. Mən içimdə saxlaya bilmədiyim göz yaşlarımı Sənin üçün tökməkdən usanmayacağam. Səni unutmaq məcburiyyətində qalmayacağam. Səni unutmayacağam, ağıllı

Ceyhunum mənim! Mən Səni unuda bilmirəm. Unutsam, gör nələri unutmalıyam, heç bilirsənmi, ay xatirələrimdə yaşayan XATİRƏM mənim, Ceyhunum mənim! Göy üzü, ulduzlar, bu məzar daşları şahidim olsun ki, Sənin acın, yaran unudulmayacaq. Həyatım boyunca unutmayacağım, xatırlayacağım ilk də, son da Sən olacaqsan, Ceyhunum! Səni unutmamaq üçün daima xatırlayacağıq, anacağıq. Sən yaşayırsan, Ceyhunum! Başqa-başqa dünyalarda yaşasaq da, ürəyim həmişə Səninlədir, qəhrəmanım mənim, Ceyhunum mənim! Allahım, Sən Ceyhunumu cənnətdə qoru!

Deyirlər ki, insan bir dəfə bilməlidir ki, nə edirsə etsin, istər Fərhad olub dağları çapsın, istər Məcnun olub boz, susuz çöllərə düşsün, bu dünyadan köçəndən sonra adına kiçik məzar daşından və balaca bir təpəcikdən savayı heç bir şey qalmayacaq. Ancaq insan elə bir məxluqdur ki, onun həyatı qurtarandan sonra da nöqtə qoymaq olmur. Bəzi insanlar torpağa gedəndən sonra da onun əməlləri yaşayır. Necə nöqtə qoyasan? Ceyhunum, Sən də bu yaşda həyatına nöqtə qoydun, ancaq yaşayırsan...

Əbədiyaşar, mənən həmişə bizimlə olan, bü günümüzdə, gələcəyimizdə yaşayan Ceyhunum. Fəsillər dəyişəcək, illər ötəcək, dövran dönəcək, Sən isə elə həmişə 26 yaşında qalacaqsan. Səni yalnız keçmişinlə xatırlayacağam. Gələcəyin haqqında heç nə düşünə bilmirəm. Bu qədər...

Qəhrəmanım mənim, Səndən geriyə bir boşluq qaldı, bir heç qaldı. Ceyhunum mənim, Səndən geriyə bir qaranlıq və qara gün qaldı mənim üçün. Ceyhunum, Səndən geriyə yorulmadan baxacağım bir şey qaldı: nur, məsumluq yağan üzün, məğrur baxışların, üzündəki uşaqlıq cizgiləri ifadəsi, bir də hələ də dönə-dönə baxdığım şəkillərin. Səndən mənə qalan şəkillərinə baxıb Səni düşünürəm. Bir də Ceyhun ömründən geriyə bir ad





qaldı – ölməz adın, Şəhid adın. Adı, soyadı tarixdə qaldı Ceyhunumun. Ömründən geriyə bir bu sətirlər, bir ömrünün tərcümanı olan epizodlar, çəkilən videolar, yazılan şeirlər, bir də məktəblərin sinif otaqlarındakı şəkillər qaldı. Bir də, bir də möcüzə Ceyhunumdan kitaba sığmayan, dillərdə dastana çevrilən nağıl kimi həyatı, üzüntü dolu bir hekayə qaldı. Düşünən, yaradan, böyük arzuları, xəyalları olan Ceyhunumdan bu dünyada torpaqdan iki qarış hündürə qalxan, daşda qara şəkli olan kiçik bir məzar daşı da qaldı. Bir də, bir də son şey – son nəfəsimədək Ceyhunumun arxasınca Mən – Ananın tökəcəyi göz yaşı qaldı. Bir də bilirsənmi, Ceyhunum, sinəmdə Sənsiz qalan, qan ağlayan peşman ürəyim qaldı...

Adı çəkiləndə, xatırlananda, yad ediləndə – ağlı, zəkası və müsbət keyfiyyətləri hüdudsuz olan bu insan, Şəhidlik zirvəsinə ucalan hüquqşünas, ömrünün iyirmi altıncı payızında solan, adını millətimizin tarix salnaməsinə yazdıran Ceyhunumun tariximizin yaddaşında qalacağı və əbədi yaşayacağı ünvan – İkinci Qarabağ müharibəsi, Füzuli cəbhəsi. Yurd saldığı, əbədi uyuduğu məkan da hər kəsə bəllidir – Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanı: – məzarlığın darvazasından içəri girəndə soldan saat əqrəbi istiqamətində birinci cərgədə üçüncü yer.

Sənə səslənirəm, seçdiyin bu yeni və əbədi olan həyat – Şəhidlik məqamın mübarək olsun, Ceyhunum! Allah Sənə qəni-qəni rəhmət eləsin, ay tərifi olmayan, təriflərə sığmaz olan, ağıllı Ceyhunum!

Cənnət qoxulu Oğlum, nurlar içində yatasan! Amin!

Məzarı nurla dolsun Şəhidlərimizin! Amin!

Allah bütün Şəhidlərimizə rəhmət və mərhəmətini bəxş etsin!

***

Şəhidlər ölməz, Vətən bölünməz!

Şəhidlərimizin adı daim dilinizdə zikr olunsun!



# EPİLOQ

İnsanlığı nüvə, bomba, silahla qorxudanlar, müharibə etmək həvəsi ilə yaşayanlar, insanları yerindən, yurdundan perik salanlar, aclığa, susuzluğa məruz qoyanlar, bəzi azlıqların, millətlərin kökünü Yer üzündən kəsmək istəyənlər nə qazandınız bu müharibədə?!

Bu qədər – çoxlu sayda ölümlər kimə nə qazandırdı?!

Deyəsən, əstəğfürullah, Allahı unutmuşuq axı. Dar məqamda, çətin anda pənah yerimiz, güman yerimiz, üz tutub söz deyəcək yerimiz isə Allahdır! Hər dəqiqə, hər an Allahı çağırırıq ki, səsimizi eşitsin, Allaha yalvarırıq ki bizə – insanlığa kömək etsin, qara buludu üstümüzdən uzaqlaşdırsın. Allaha dua edirik ki, şəfasını, köməyini bizdən əsirgəməsin!

Qoy bunun adına kim nə deyir desin, gec də olsa anladım: insanıq biz. İçimizdə yaxşı insan da var, pis insan da. Hansı birimiz yalnız ağdan və ya qaradan ibarətik? İnsan çiy süd əmib, gündə bir sifətə düşür. Ona görə adamlara tamamilə inanmaqdansa, tamamilə inanmamaq yaxşıdır. İnsanları tamamilə bir gözdə görmək olmaz. İnsana diqqət, qayğı gərəkdir! İnsana duyan ürək, başa düşən, anlayan ürək gərəkdir! İnsana ürəyin odu lazımdır. İnsana məhəbbət lazımdır. İnsana insan gərəkdir!

İnsanın insana gərək olması həyatın hər üzündə – qaranlıqda və işıqda, xeyirdə və şərdə, sağlıqda və xəstəlikdə gərəkdir... Həyatda bir insanlıq qalacaq. Əlbəttə, insana insanlıq qalacaq. Necə düşünürsünüz? Nə deyirsiniz? Yoxsa, insanlıq öldümü deyirsiniz, mən bilmirəm, inanmıram və buna heç inanmaq da istəmirəm!

Həyat yaxşı insanlardan xali deyil. Dünya yaxşıların üzərində qərar tutur. Yaxşı insanları görmək, onları qiymətləndirmək və onlardan öyrənmək lazımdır. Həyat və cəmiyyət öz töhfəsini belə insanlardan əsirgəməməlidir. Yanımızda olan, ətrafımızda yaşayan ağıllı insanların qarşısında baş əyməyə dəyər. Bu insanları sevməyə, qiymətləndirməyə gecikməyək gəlin. Bəzən bu insanlar: "Sən mənim qədrimi biləsən deyə, bu cavan yaşımda ölümmü indi?!", – deyə sual edirlər. Və bir də axı hər şeyin baş-ayaq çevrildiyi, "yaxşı nədir, pis nədir?" sorğusuna cavab ölçülərinin itdiyi bir dünyada yaxşıları görmək elə də asan deyil. Sizə elə gəlmirmi?!

Həyat ayrı şeydir: onun öz qanunları, öz hökmləri var.

...Ey dünya, qatilləri bağışlama, onda tarix üzümüzə bir daha baxmaz. De ki, ey böyüklük, ucalıq qəsbkarları, şöhrət uman səriştəsiz "qəhrəmanlar", Oğul xiffətindən ölür Analar. Verin, qaytarın oğulları! Analar onları doğmaz bir daha! Gedənlər qayıtmaz. Görəsən, bu gəlimli-gedimli, bir ucu ölümlü dünyada torpağın altında yatanlar bizləri bağışlayarmı? Görəsən, torpağın altında yatanların sayı, torpağın üstündə at çapanların sayından çoxdurmu? Bu, doğurdan da, belədirmi?

Mən də bu məzarlıqda lal-mat qalıb baxıram sağıma, baxıram soluma, qəbirlər yamanca çoxalıb, şəhidlərimizin sayı nə qədər artıb, qəbiristan gör hara baş alıb gedir, Allah! Və düşünürəm, ölülər dünyanı tutarmı bir gün? Ölülər çoxalıb dünyanı udarmı bir gün? Ölülər dirilərdən çox olarmı bir gün? Xiyabandakı Şəhidlərimizə baxıram: mənim kimi bütün Şəhid Anaları eyni dərdə düçar olub. Bütün Analar kimi ürəyim sıxılır, ürəyimin bir yanı boşalıb gedir. Ancaq hər kəsin acısı, ağrısı, Balası eyni deyil. Ey gidi dünya, gör sən nələr edirsən, gör sən nələrə qadirsən! Bütün bunlar insanların qarğışındandırmı, ya fələyin gərdişindəndirmi? Sən söylə, dünya!

Allahım, bu bəlanın səbəbkarlarına bəsdir, dayanın, durun de! Ey insanlar, Məndən qorxun, de! De ki, Sənin varlığından, böyüklüyündən, mərhəmətindən agah olsunlar! De ki, nankorları, nadanları, ağlını itirənləri, zəhməti, əməyi yerə vuranları cəzalandıra biləcəyindən qorxsunlar!

Yaxşıları öldürən dünya, sən yamanlarınsanmış!

Ədalətin budurmu, dünya?!

Dünyanın ədaləti yoxdur ki...

Niyə ədalətin yoxdur, dünya?

Bilirəm ki, bu dünyada tək ədalət var: bir gün hamının öləcək olması.

Dünya, dəli cəsarətli biri varmı, səni sorğulaya? Səndəki insanların insanlığı, məhəbbəti, mərhəməti bitdimi, dünya? Dünya, Səndə vəfa axtarmıram. Dünya, Sənin vəfan belə vəfasızlıqdır. Vəfasız, etibarsız insanların nə çoxdur, Sənin! İnsanların əlində oyuncaq olan dünya, niyə durmursan? Dünya, niyə qaralıb qalıbsan? Niyə qaraların ağdan çoxdur? Niyə ay-ulduzlu qaranlıq gecələrin işıqlı, nurlu gündüzlərindən uzundur? Yəni, niyə səndə zülmət işıqdan çoxdur, hə? Niyə birdən belə gümansız oldun? Niyə belə yazıq-yazıq baxırsan, dünya? Niyə belə kədərlisən, qəmlisən, dünya? Cavanların – Şəhidlərin ölümünə görə, yoxsa insanlığın insafsızlığına görə, ya da öz bəxtinə görə? Ürəyimi, səsimi eşit, dünya, özün cavab ver! Yəqin ki,

öz taleyinə, öz qanrəngli, qanlı taleyinə baxırsan və ağlayırsan, dünya. Niyə belə ağlar qaldın, dünya? Dünya, elə elə ki, Səndə ağlayan gözlər az olsun – qəbahətin az olsun. Elə davran ki, səndə yaşamaq şirin olsun, səndəki həyat şirin olsun! Elə elə ki, bu qoca dünyaya insanlar elə gəlib-getsinlər ki, torpağın üstündə yaxşı izləri, yaxşı sözləri qalsın!

...Biz insanlar da hər gün özümüzə sual verməliyik: Şəhidlərimiz üçün nə etmişik? Və nə etməliyik ki, onları yaşadaq? Gəlin Şəhidlərimizə qarşı biganə olmayaq. Şəhidlərimizi yaşatmaq bizim ən ümdə və müqəddəs vəfa borcumuzdur. Gəlin hamılıqla vəfa borcumuzu ödəməyə çalışaq! Müharibə vəfanı da tərgitdirmədi ki?! Müharibə Şəhidlərimizin ailələrinə diqqət, qayğı göstərməyimizi də əlimizdən almadı ki?! Müharibə insanlarımıza qan yaddaşımızı xatırlamağı da qadağan etmədi ki?! Müharibə insanların səhvidir, müharibənin də səhvini insanlar düzəltməlidirlər. Düzəldə bildikmi?

Başıbəlalı Ceyhunumun qismətinə müharibəni yaşadığımız ağır, dolaşıq bir dövran düşdü. Balamın yaşından tez böyüməsi, bizi düşündürən mənalı həyatı kimi ölümü də təsadüfi ölüm olmadı...

Ceyhunum yaşasaydı...

Yaşasaydı nələr, nələr etməzdi...

Yaşasaydı, bu ilin mayında 27 yaşı olacaqdı.

26 illik ömrünə gör nələr sığışdırmışdı və yaşasaydı nələr yaşayacaqdı... Ömrünün çiçəkləndiyi bir vaxt idi. Böyük həyat eşqi ilə yaşayırdı. Yaşasaydı, həyatı davam edəcəkdi. Gələcəyi parlaq olacaqdı, ülvi arzuları həyata keçəcəkdi, ümidləri pərvazlanacaqdı Ceyhunumun. Yaşasaydı, həmyaşıdları kimi o da xoşbəxt olacaqdı. Uzun bir ömür yaşasaydı, özünü dağa-daşa vurub oxuduğu sənəti üzrə işləyəcəkdi. Heç kimdən umacağı





yox idi. Özü istirahət etmədən, gecə-gündüz çalışırdı. Yaşasaydı, arzuladığı şirkəti quracaqdı və söz verdiyi insanları işlə təmin edəcəkdi, sözünə sadiq qalacaqdı. Hamı gözləyirdi Ceyhunumu...

Yaşasaydı, arzuladığı, düşündüyü kimi kiçik, həm də isti bir yuva quracaqdı. Nişan üzüyünü özü alacaqdı. Hər şeyi danışmışdıq, hər şey adət-ənənəyə uyğun olacaqdı: elçiliyə kim və necə gedəcəkdik, nişan, toy xonçalarını kim hazırlayacaqdı, toya kimlər dəvət alacaqdı (toy gününü ürəyində təyin etmişdi). Yaşasaydı, özü seçdiyi, sevildiyi və sevdiyi gözəllə bu ilin payızında evlənəcəkdi, ata olacaqdı, özü kimi yaraşıqlı və gözəl, atalarına layiq savadlı, istedadlı, yüksək mənəviyyatlı övladları dünyaya gələcəkdi. Ancaq bu ilin payızında Oğluma ailə qurmaq yox, Şəhid olmaq qismət oldu. Ceyhunum ömrünün bu yaşında qocalmadan həyata əlvida dedi.

Yaşasaydı, hakim və ya vəkil olacaqdı: ədalətli, təmiz vicdanlı və məsuliyyətli, insanların taleyini düşünən qanun işçisi. Yaşasaydı, Azərbaycana, dövlətə lazımlı şəxs olacaqdı. Azərbaycan üçün görəcək işləri vardı: elmini, biliyini, bacarığını Azərbaycana sərf edəcəkdi Ceyhunum. Ən yeni Azərbaycan tarixini qırmızı qələmiylə yazacaqdı. Vətənini, xalqını hər yerdə layiqincə, böyük cəsarətlə, həm də məntiqli və zəngin dili, kəsərli qələmiylə təmsil edəcəkdi.

Yaşasaydı, Kamala iş quracaqdı, Kamala arxa-dayaq olacaqdı, ayaqları üstə möhkəm durmasına yardım edəcəkdi...

Ceyhunum "ölüm" adlı yuxudan qorxmadı, yaşamağı ölümüylə sevdi, sevgisini ölümüylə yaşadı. Və bahar ətirli arzularını, xəyallarını, təzə-təzə çiçək açan bahar ətirli ömrünü bu ömrün payızında Azərbaycana, torpağa qurban verdi, Ceyhunum!

...Bu dərdi qucaqlayan, Oğul dərdinin içində itib-batan, göz yaşları selə dönən Şəhid Anasının yanına getsəm, ona təsəlli vermək üçün nə deyərdim, nələr söyləyərdim? – Mən də, mənim kimi insanların əksəriyyəti də sizin kimiyik, söyləməyə söz tapmırıq, söyləyəcək sözümüz yoxdur, – deyərdim. Nə deyim, nə söyləyim ki, sən ağlamayasan, Şəhid Anası! Desəm ki, kəsmə ümidini, səbirlə gözlə, Ceyhununu Sənə gətirəcəyəm, onda bu Ana böyük ümidlə hər yanına gələnin gözlərinə baxar və hər gələndən dilinə gətirə bilmədiyi bu suallara bir cavab gözləyər: "Bu gələn niyə gəlib? Mənə Oğlumdan nə xəbər gətirib? Ceyhunumdan nə deyəcək? Balam hanı?"

İşlə bağlı səfərdə olan övladlarının yolunu gözləyən analar kimi gözlə desəm, bu da doğru olmaz. Bu mümkün deyil, inanma. Bir söz qalır bu Anaya deməyə: Ana, ağlama, Sən ağlasan bütün aləm ağlar, Sən ağlasan, bütün cahan ağlar, Sən ağlasan, insanlıq ağlar. Sən ağlama! Sən ağlasan, bütün Analar ağlar. Əgər Analar ağlasa, onda Yer üzü Anaların göz yaşında boğular. Onda dünya məhv olar. Sən ağlama, Şəhid Anası!

ŞƏHİD ANASI, SƏN AĞLAMA!

Ömrün sonu gəldiyi kimi, ayrılığın da sonu gəldi, Ceyhun!

Sözün bitdiyi yerdi, Ceyhun!

Söylə, Sən hansı əsrdənsən, Ceyhun?

Qoy Səndən indi tarix danışsın, Ceyhun!

Qoy indi tarix danışsın səndən, adını tarixə yazan Oğlan! Qoy indi tarix danışsın səndən, sənin dastanlaşmış ömründən! Qoy indi tarixi yazanlar, tarixi kağıza, daşa və yaddaşlara yazanlar, tarixi tarixləşdirənlər danışsın Səndən, yazsın Səndən – tarixin səhifələrində mətin addımlarla başı dik, alnı açıq, üzü ağ, qürurla gəzən igid Oğlandan!

Qoy indi tarix özü yazsın Səndən, qanıyla təzə tarix, ən yeni tarix yazan qəhrəman Oğlan! Qoy indi tarix özü yazsın Səndən, özü tarix olan Oğlan!

Belə İgidin yoxluğu ancaq sükut yarada bilər. Belə çiçəyi burnunda solan ölümün acısı ancaq sükut yarada bilər. Belə ölümə ancaq sükut cavab verə bilər. Sükutun dilini isə hər kəs düşündüyü kimi anlar!

Qoy indi ANA və OĞUL sussun, SÜKUT danışsın!!!

Sükut sətir-sətir kağıza səpələnən tonlarla kəlmənin anlada bilmədiyindən daha çox şey anladır. Nəhayət, zənnimcə, sükut duyğuların ən güclü ifadəsidir, desəm, yanılmaram.

Kəlmələrim tükəndi....

Sükutla sükuta səcdə edərək sükutu dinləyin!

Sükutu dinləyin!

Sükut danışır...

Göz yaşları içində bitən qəmli SON!

CEYHUN unudulmamaq üçün daim xatırlanacaq, anılacaq. Bu hekayə-dastanı oxuyun. Oxuyun ki, xatırlayasınız.

Və xatırlayın CEYHUNU!

Xatırlayın ki, unutmayasınız Qəhrəman Ceyhunu!

Xatırlayın ki, unudulmasın Şəhid Ceyhun Şalıyev!

Sizə müraciət edirəm – həyatı, Vətəni sevən insanlar!

Atalar, analar – sizə müraciət edirəm!

Babalar, dədələr, nənələr, nəvələr – sizə müraciət edirəm!

Mənim yaşıdlarım, tay-tuşlarım, mənim kiçik bacı-qardaşlarım – sizə müraciət edirəm!

Sözüm sizədir, İnsanlıq!

Heç kimi və heç nəyi unutmayın!

II Qarabağ hərbinin dəhşətlərini yaddan çıxarmayın!

II Qarabağ Zəfərinin qəhrəman, igid Şəhidlərini unutmayın!

**Çingiz ABDULLAYEV**
*Azərbaycan Yazıçılar Birliyinin katibi,*
*Xalq yazıçısı*

dedektiv.az@gmail.ru

## Səninlə qürur duyuruq, Şəhid CEYHUN ŞALIYEV!

Allahın nazil etdiyi müqəddəs "Qurani-Kərim"də buyurulur: "Şəhidlərə ölü deməyin, onlar diridirlər və Allahın nemətləri ilə faydalanırlar, ancaq siz bunu bilmirsiniz". Şəhidlik zirvəsi ən ali, müqəddəs bir zirvədir. Çünki şəhidlər Allahın, Vətənin, xalqın yolunda canlarını qurban edən insanlardır. Belə insanlar yüksək mənəviyyat sahibləri olmaqla bərabər, ürəklərində Allaha, Vətənə, xalqa sonsuz sevgiləri olduğu üçün Allahın rizası ilə mükafatlanaraq şəhadət zirvəsinə ucalırlar.

Şəhidlik zirvəsi bütün yüksəkliklərdən ucadadır. Bu zirvəni fəth etmək hər kəsə nəsib olmur. Müqəddəs torpaqlarımız uğrunda canlarını fəda edən igidlərimiz, əslində, ölməyiblər, onlar ölümləri ilə əbədilik qazanıblar.

Doğma Vətənimizin, Qarabağımızın hər qarış torpağı üçün canından keçən qeyrətli igidlərimiz şəhidlik zirvəsinə ucalmaqla xalqımızın başını uca etdilər.

Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində, 44 günlük Vətən müharibəsində minlərlə cəsur oğullarımız öz qanları ilə tarix yazdılar. 44 gün davam edən döyüşlər zamanı Ali Baş Komandanımızın uzaqgörən siyasəti və rəşadətli ordumuzun güclü döyüş taktikası Azərbaycanın güclü dövlət olduğunu bir daha bütün dünyaya bəyan elədi. Azərbaycan xalqı Prezident





İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarı altında dəmir yumruq kimi birləşərək ordumuzun haqq savaşına mənəvi dəstək oldu. Mənfur düşmənin tapdağı altında qalan torpaqlarımız azad edildi, üçrəngli bayrağımız Qarabağ torpağında dalğalandı. Bu qələbə zəfəri bizləri sevindirdiyi qədər də qəlblərimizdə iz qoydu – xalqımızın igid oğulları müqəddəs şəhidlik zirvəsinə ucaldılar, öz qanları, canları ilə tarix yazdılar.

Şəhid Ceyhun Şalıyevin Anası – Sədaqət Şalıyevanın naləsini, ürək yanğısını dinləyib, şəhid haqqında materialları toplayıb qələmə alan Rəna Əlyar "Şəhid Ceyhun dastanı" adlı kitabında hüquqşünas Ceyhunun qərarəngli həyat hekayəsini qələmə alıb. Şəhid anasının, bacısının dağdan ağır dərdini, acılardan acı olan acısını yüngülləşdirməyə, ovutmağa çalışan müəllif Ceyhunun nakam qalmış dünyasına səyahət etmək üçün bir yola çıxıb. Rəna xanım İkinci Qarabağ müharibəsində şəhadətə qovuşan 2783 nəfər şəhiddən biri – 26 yaşlı hüquqşünas Ceyhun Şalıyevin talelərə bənzəməyən taleyindən, dillərdə nağıla, dastana çevrilən, qızıl xətlə yazılan həyat hekayəsindən söz açır.

Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini hər zaman yaşadacaq, böyük minnətdarlıq duyğusu ilə yada salacaq. Azərbaycan xalqı şəhidlərimizi unutmayacaq.

Şəhidlik ünvanı əbədiyyət olan bir zirvədir!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**İlyas HƏMİDOV**
*Bakı Slavyan Universitetinin*
*Müasir rus dili kafedrasının müdiri,*
*filologiya elmləri doktoru, professor*
i.h.hemidov@gmail.com

## NAGIL KİMİ BİR ÖMÜR YAŞAYAN OĞUL

*Adını eşidib, üzünü görmədiyim*
*İgid Oğlan!*

CEYHUN ŞALIYEV... Bəşər tarixində, bəşər yaddaşında özünə heç də əbədi yanan məşəl kimi yer tutub, silinməz bir fenomen olmadı bu ad... Kiçik bir dövlətin adi vətəndaşı – Ceyhun Şalıyev. Ancaq öz Vətəninin, xalqının, qohum-əqrəbasının, istəklilərinin ürəyində, onların yaddaşında əbədiyyətə qovuşdu, onların təfəkküründə müqəddəslik zirvəsinə ucaldı...

Vətən müharibəsinin ilk günlərində Füzuli cəbhəsində şəhid oldu Ceyhun... «Qəhrəmancasına həlak oldu» – bu sözləri yazdılar onun tale kitabının son səhifəsində. Axırda da nöqtə qoydular. Təkcə bir nöqtə. Bir nöqtəyə sıgarmı Ceyhun dünyası, onun yaşadıgı və yaşayacagı, daha dogrusu, yaşamaq arzusuna bələdiyi bərli-bəzəkli gələcək dünyası?! Ceyhunun dunyasını (inanıram ki, o belə bir dünyanı könlündə yaratmışdı) ömür tərəzisinin bir gözünə, o dediyim nöqtəni də o biri gözünə qoydu TALE.

Bu idi ədalətsiz hökm. Budur onu tanıyanların və əzizlərinin, istəklilərinin faciəsi. Budur gül kimi boy-buxunlu anasını yumaga döndərən yenilməz-bitməz iztirabın alovlu nidası, atasının belini bükmüş OGUL həsrətinin cavabsız sualı.

Bu VƏTƏN OGLU barədə odlu-alovlu sözlər yazmaq istəyirəm. Bilirəm ki, onun portretini adi sözlərlə vəsf eləmək özü də bir ədalətsizlikdir. Amma onu da hiss eləyirəm ki, bu OGULDAN yana içimin göynərtisini, ürəyimin tufanını əks eləməkdə dilim gücsüz, qələmim acizdir. Axı sözləri sakitcə necə ipə-sapa düzüm, bir halda ki, mən Ceyhundan yazıram?! Düşündüklərimi bir fikir yatagına (çay yatagını tanıyan kimi) necə salım? Axı mən Vətənin, millətin böyük və işıqlı OGLU Ceyhundan yazıram!

O Ceyhundan ki, yaşıdlarının bir çoxu həyat deyilən kateqorial varlıqdan gecə barlarında, restoranlarda, daha nə bilim haralarda keyfli-damaqlı «intiqam alan» bir zamanda, o, Vətən düşmənlərindən, ana torpagı tapdalayan yagılardan intiqam almaq arzusu ilə sinəsini yagı düşmənin gülləsinə sipər etdi! Vallah, odlu-alovlu kəlmələr, Ceyhun haqqında layiqli sözlər yazmaq istəyirəm. Amma söz dünyasında özümü heç vaxt belə gücsüz, miskin hiss eləməmişəm. İçimdəki fəryadı qələmlə yazıla bilinməyən sözə köçürməyə qabiliyyətim, bacarıgım çatmır...

Təkcə gücüm çatır onu deyəm ki, Ceyhunu mənim aləmimdə (başqalarının fikrinə şərik çıxmaq asandır) müqəddəslik zirvəsinə qaldıran, onu mənim anlamımda (Allaha xoş getməsə də, deməliyəm) imamzadə bir Vətən övladı taxtında oturdan heç də o deyil ki, o – Ceyhun Şalıyev həyatda özünü özü yaratmışdı heç kəsin köməyi olmadan, heç kimdən heç bir kömək ummadan, öz əli-öz başı ilə: hüquq fakültəsinə öz gücü ilə daxil olmaq, oranı fərqlənmə diplomu ilə başa vurmaq, idmançı kimi özünü təsdiq etmək, hüquqşünaslığa aid olmayan elmlərdən də hali olmaq, ədəbiyyatımızı, incəsənətimizi dərindən bilmək, in-

formasiya texnologiyaları ilə yaxından dil tapmaq, özünü əsl intellektual və ziyalı kimi tanıtmaq və sair və ilaxır.. Ceyhunu mənim aləmimdə müqəddəs bir varlığa çevirən onun daxili aləminin, bəlkə də, çoxlarının görə bilmədiyi dialektik bir qanunauygunluğudur: bəlkə də, səhv edirəm, amma düşünürəm ki, bir telefon zəngi ilə səfərbərlik meydanına getməkdə, bir komandir əmri ilə düşmənlə üz-üzə səngərə atılmaqda onun məqsədi, arzusu taleyin hökmü ilə zaman – məkan kəsiyində ona bəxş olunmuş fani həyata fiziki – cismani deyil, müqəddəs ruh zirvəsindən baxmaq idi. Ceyhun o zirvəyə qalxmalı idi – ruh zirvəsinə! O zirvəyə ancaq müqəddəs vücudlar qalxa bilir – Allah-taalanın hökmü ilə! Ceyhun Böyük yaradanın seçimi oldu!

O zirvəyə qalxa bilməyən biz – adi cismani insanlar bu mistik (bizim anlamımızda) halı başa düşməkdə acizik. Və ona görə də gücümüzü ancaq heyifsilənməyə yönəldirik.

Mən də eləcə, "Hayıf səndən, ay OGUL", – deyirəm. Neyləyim, əlim bir yana çatırmı?! Təkcə onu özümə təsəlli tapıram ki, qəti qərarımı özümə dirək edərək öz-özümə pıçıldayım: "TALEYİN GÖZÜ DƏYDİ SƏNƏ, AY OGUL".

Allah sənə rəhmət eləsin, Vətən Oğlu!





**Nizami TAĞISOY**
*ədəbiyyatşünas-tənqidçi,*
*filologiya elmləri doktoru, professor,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
nizami.mamedov@mail.ru

## ŞƏHİD DAĞI, ANA FƏRYADI

(Rəna Əlyarın "Şəhid Ceyhun dastanı" essesində)

Rəna Əlyarın (Rəna Əlyar qızı Məmmədovanın) elmi-pedaqoji fəaliyyəti neçə illərdir ki, gözlərim qarşısında inkişaf edib, formalaşıb, özünəməxsus bir mərtəbəyə çatmışdır. Müasir Azərbaycan və rus dili qrammatikasının, leksikologiyanın, leksikoqrafiyanın, frazeologiyanın çeşidli problemlərini əsaslı şəkildə izah etməyi bacaran və bu sahədə qələm işlədən məsuliyyətli bir pedaqoq kimi Rəna xanım özünə reputasiya qazanmış dilçi mütəxəssislərdəndir. Buna görə də onun bu sahədəki səriştəsi bizdə daim rəğbət hissi yaratmışdır. Lakin Rəna xanım bu dəfə özünü qarşımızda tamamilə fərqli ampluada təsdiqləməyə çalışmışdır. O, bir gün mənə zəng vurub deyəndə ki, Nizami müəllim, İkinci Qarabağ müharibəsində şəhid olmuş bacım oğlu, Vətənini canından artıq sevən Ceyhunla bağlı bir əsər yazmışam, fikrinizi bilmək istərdim, düzü belə təklifə bir az şübhəli yanaşsam da, söhbət şəhid adından getdiyindən, birmənalı olaraq, "baş üstə" deyib, ondan kitabın mənə çatdırılmasını xahiş etdim.

Beləliklə, Rəna Əlyarın "Şəhid Ceyhun dastanı" essesini götürüb, onunla operativ tanış olmağa basladım. Elə buradaca onu da etiraf edim ki, əsərin elə ilk səhifələri ilə tanış olduqda

yanıldığımı hiss etdim. Ona görə ki, Rəna xanım bu dəfə bizdə dilşünas alim, leksikoloq və frazeoloq kimi yox, sözün doğru mənasında, bədii əsər müəllifi təsiri bağışladı.

Əlbəttə, belə qənaətə gəlməyimizin səbəbi isə, ilk növbədə, aşağıdakılarla bağlı idi:

1. Məlum olduğu kimi, bədii əsər yazmaq üçün, ilk növbədə, qələmə aldığın mövzunun uğurlu maketini – süjet xəttini, fabulasını, kompozisiyasını bədii baxımdan yarada, qura bilmək bacarığına malik olmalısan;

2. Əsərin bədiiliyini təmin etmək üçün rəvan dil imkanlarından gərəyincə yararlanmalısan;

3. Bədii əsər mövzusuna çevirdiyin materialda obrazın əksər tərəflərinin ortaya qoyulmasına nail olmalısan;

4. Əsərdə yer almış aparıcı bədii obraza, baş qəhrəmana bu və ya digər cəhətdən bağlı olan personajların uğurla yerləşdirilməsini təmin edə bilməlisən;

5. Nəhayət, əsərin dolğunluğuna yetişmək üçün obrazlı bədii ifadə vasitələrindən yerli-yerində istifadə etməyə kifayət qədər müvəffəq olmalısan və s. və i.a.

Rəna Əlyarın "Şəhid Ceyhun dastanı" essesində İkinci Qarabağ müharibəsinin cəngavər döyüşçülərindən olan Ceyhunun olduqca görümlü, oxucu diqqətini cəlb edən obrazı, həyat və döyüş yolu ən incə detalları ilə işıqlandırılıb, onun Vətəni özündən, anasından, qardaşından, qohum-əqrəbasından öndə görən bir qəhrəman olması çox təsirli lövhələrlə təsvir edilib.

Rəna xanımın əsərinin iki baş qəhrəmanı var: onlardan biri ömrü nakam qırılmış, Vətən yolunda canından keçmiş cəngavər ürəkli Ceyhun Şalıyevdirsə, digəri şəhid Anası Sədaqət xanımdır. Ceyhunun usaqlığı, orta məktəb dövrü Rusiyanın Voronej şəhərində keçsə də, Qarabağ balasını dərk etdiyi dövrlərdən daim fikri, düşüncəsi Vətənlə bağlı olmuşdur. Müəllimlərinin sevimlisi olsa da, Ceyhunun orta məktəbi orada bitirməyə səbri də çatmamış, bütün varlığı ilə Azərbaycana can atmışdır. Paytaxt Bakıda orta məktəbi bitirib, Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub, prestijli ixtisasa yiyələnmişdir. Böyük həvəslə hərbi xidmətə yollanmış, özünü yalnız müsbət tərəflərdən göstərmiş, xidmətini başa vurub adi həyat ritminə qayıtmışdır. Müxtəlif yerlərdə işləyib, ləyaqətli Vətənoğlu kimi formalaşmışdır. Qeyrəti ilə, fəaliyyəti ilə Vətən və xalq təəssübü çəkən vətəndaş kimi yaşamışdır.

2020-ci ilin sentyabrında Ermənistan hərbi birləşmələrinin yenidən Azərbaycana hücum etməsi ilə əlaqədar təlimlərə qoşulub, erməni dığalarının burnunu əzmək, onlara qan uddurub, iti qovan kimi Vətəndən qovmaq haqqında düşünmüşdür.

Essedə Ceyhunun bütün həyatı oğul itirmiş Ananın dili ilə təsirli naxışlarla təsvir olunur. Əsərdə mükəmməl Ana və Vətənini hər şeydən uca tutan qəhrəman Ceyhunun obrazı bütün tərəfləri və keyfiyyətləri ilə təsvir obyektinə çevrilmişdir. Müəllifin, yeri gəldikcə, bayatılardan, ağılardan, ibarəli ifadələrdən uğurlu istifadəsi essenin estetik təsir gücünü artırmaqdadır. Ananın Şəhidlik zirvəsinə ucalmış oğlu ilə mükalimələri, Voronejdə, Azərbaycanda, əsgərlikdə, təlimlərdə, şəhid olduğu məqamlarda, məzarıstanlıqda, şəhərdə, evdə yatanda, duranda, həyatla bağlı düşüncələrə dalanda, xəyalən Gəncədə olanda, barelyefinə və xatirə-bulaq kompleksinə baxanda, pandemiya dövründə oğlunu ziyarət etməkçün piyada Şəhidlər xiyabanına üz tutanda, Ceyhunun əsgərlik gündəliyini "vərəqləyəndə", oradakı yuxugörmələri dilə gətirəndə, Ceyhunun Puşkindən, Lermontovdan bəhs edən gündəliyindəki sətirləri yanğı ilə oxuyanda, cənnətdəki 26 yaşını "təbrik edəndə", oğlunun yat-

dığı, üz qoyduğu soyuq torpaqdan qoxusunu alanda, Ceyhun həyatı tərk etsə də, Ananın daim onun nəfəsini yanında hiss etdiyi məqamlarda və s. Ana və Oğul obrazı bütün tərəfləri ilə oxucunu dərindən məşğul etməkdədir.

Rəna Əlyarın əsərin bəzi yerlərində yaddaqalan, məsələn, "həsrətin səndən vəfalıymış" və s. kimi ibarələrdən istifadə etməsi, yazılanların birnəfəsə oxunulması ilə yanaşı, həm də oxucuda yetərincə ovunmayan acı, faciə ilə bağlı müsibət effekti təəssüratı yaranmaqdadır.

Rəna Əlyarın adını çəkdiyimiz əsərinin bədii-sənədli məziyyətləri ilə bağlı çoxlu fikirlər dilə gətirmək olar. Eyni zamanda essenin gənclərimizin, gələcək nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında roluna da inanmaqdayıq. Rəna xanımın bu əsəri İkinci Qarabağ müharibəsi qəhrəmanlarına həsr olunmuş uğurlu bir nümunə kimi öz bədii-estetik təsir gücü ilə seçilməkdədir. Əsərdən gələn ən başlıca fikir belədir: "Şəhidlər ölməz, Vətən bölünməz!"

Şəhid balamız, qəhrəman Ceyhun Şalıyevə və müsibət içində yanan Sədaqət Anaya həsr olunmuş bu əsərə görə Rəna Əlyara təşəkkür bildirir, ona bu təşəbbüsünə görə minnətdarlıq edirik.





**Hacı Azadə-Taleh Abbas qızı**
*Qafqaz Media İctimai Birliyinin sədri,*
*Prezident təqaüdçüsü*

talehqizi@inbox.ru

**Şəhid CEYHUN Nüsrət oğlu ŞALIYEVƏ**

*Bir ömür yaşadın, şərəfli ömür,*
*Qorudun Vətəni sən həvəs ilə.*
*Bir ömür yaşadın, şərəfli ömür,*
*Bənzərin olmadı heç bir kəs ilə.*
*Hər zaman vətəni, elini sevdin*
*Yaşa Vətən, deyə sən odlanırdın.*
*Vətəni hər zaman sən canın bildin,*
*Vətənin yolunda sən canın verdin.*
*O qara gözlərlə iti baxışlar*
*Bu gündən sabaha yollar açacaq.*
*Müqəddəs əməlin, ey ŞƏHİD CEYHUN,*
*Gələcək günlərə işıq saçacaq.*

21.12.2021

**Tahir HƏSƏNLİ**
*Azərbaycan Yazıçılar Birliyinin*
*Gəncə bölməsinin üzvü, şair*

thasanli7416@gmail.com

## ŞƏHİD CEYHUN

(Azərbaycanın qəhrəman oğlu
Ceyhun Şalıyevin əziz xatirəsinə)

*Arzuları yarı yolda qırılan*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Hakim taxtı o dünyada qurulan*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Bu dünyada heç kim olmaz Sənə tay!*

*Bəs deyirdin, Sənsən sirrim, sirdaşım,*
*Həm müəllimim, həm də sinif yoldaşım.*
*Həm Anamsan, həm də ki, qız qardaşım,*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Bu dünyada heç kim olmaz Sənə tay!*

*Alışıram, son laylamı çalmadım,*
*Halallaşıb qol boynuna salmadım.*
*Nə ağrını, nə qadanı almadım,*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Bu dünyada heç kim olmaz Sənə tay!*





*"Vətən" deyib yad ölkəyə getmədin,*
*Çoxlarıtək fərarilik etmədin.*
*İstəyinə, muradına yetmədin,*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Bu dünyada heç kim olmaz Sənə tay!*

*Toxunmayın, yarası var balamın,*
*Alınmamış qalası var balamın –*
*Dərdi böyük Anası var balamın,*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Bu dünyada heç kim olmaz Sənə tay!*

*Bilirsənmi, gör kimlərin gəlibdir;*
*Müəllimlərin, hakimlərin gəlibdir;*
*Şairlərin, tel-simlərin gəlibdir,*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Bu dünyada heç kim olmaz Sənə tay!*

*Odlanıram, sənsizlikdən ölürəm,*
*Bizdən ötrü darıxırsan, bilirəm.*
*Gözlə məni, mən yanına gəlirəm,*
*Ceyhun adlı şəhidim vay, oğlum vay!*
*Bu dünyada heç kim olmaz Sənə tay!*

20.05.2021

**Cavid BƏDƏLOV**
*gənc şair*
bedelov_c@mail.ru

## NURLU QƏHRƏMAN
(Şəhid Şalıyev Ceyhunun əziz xatirəsinə)

*Şəhidlik adını tutdun zirvədə,*
*Bu nurlu qəlbində vətən eşqi var.*
*Döyüşdün hünərlə qanlı gecədə*
*Möhkəm bir döyüşdə vermisən qərar.*

*Düşməndən almısan böyük intiqam,*
*Sən Ölməz ruhunu cənnətlik etdin.*
*Özünü göstərdin bu döyüşdə tam,*
*Bu döyüş yolunu şərəfli etdin.*

*Payız leysanıtək ağlayıram mən,*
*Leysana dönübdür mənim göz yaşım.*
*Qəlbimə dolubdur həm kədər, həm qəm,*
*Qoy ruhun şad olsun, əziz qardaşım!*

Hər zaman qəlbimizdəsən!

09.05.2021





**Cavid BƏDƏLOV**

## GÖZÜMÜZÜN YAŞI
(Şəhid Şalıyev Ceyhunun əziz xatirəsinə)

*Əbədi xatirən silinməz qalar,*
*Anan layla deyir ruhuna, Ceyhun.*
*Həsrətin qəlblərdə bölünməz qalar,*
*Anan həsrət qalıb qoxuna, Ceyhun.*

*Ölümdən ağırmış bir övlad dərdi,*
*Bu gözlər qan oldu məzarın üstə.*
*Dünyada itirdik Səninték mərdi,*
*Qoyduq məzarına gül dəstə-dəstə.*

*Atanın, ananın ağarıb saçı,*
*Təsəlli tapırlar şəkillərinlə.*
*Əfsus ki, ölümün yoxdur əlacı,*
*Köçdün bu dünyadan fəsillərinlə.*

Sənsizliyin bir ili tamam oldu. Bu gün Şəhidlər xiyabanında Anan Sənin haqqında necə sözlər dedisə, necə göz yaşları tökdüsə, xiyabanda olan insanlar göz yaşlarına hakim ola bilmədilər.

Şəhadətin mübarək, igid qardaşım!

Ruhun şad, məkanın cənnət olsun! Amin!

01.10.2021

## Mündəricat

**Almaz Ülvi**
Şəhid Ceyhun dastanına göz yaşım ........ 3

**Şəhid Ceyhun dastanı** ........ 7

**Çingiz Abdullayev**
Səninlə qürur duyuruq, Şəhid Ceyhun Şalıyev! ........ 212

**İlyas Həmidov**
Nagıl kimi bir ömür yaşayan OĞUL ........ 214

**Nizami Tağısoy**
Şəhid dağı, Ana fəryadı ........ 217

**Hacı Azadə-Taleh Abbas qızı**
Şəhid CEYHUN Nüsrət oğlu ŞALIYEVƏ ........ 221

**Tahir Həsənli**
Şəhid Ceyhun ........ 222

**Cavid Bədəlov**
Nurlu qəhrəman ........ 224

**Cavid Bədəlov**
Gözümüzün yaşı ........ 225

# 26 yaşında Ceyhun ömründən şəkillərdə geriyə qalan CEYHUN







Ceyhun Nüsrət oğlu Şalıyev 20 may 1994-cü ildə Gəncə şəhərində anadan olub.









Ceyhun Şalıyevlər ailəsində böyüyüb, boya-başa çatıb.




Uşaqlığı Rusiya Federasiyasının Voronej şəhərində keçib.



Ceyhun 100 saylı Voronej şəhər uşaq bağçasının müdiri ilə



Ceyhun 4 yaşında bütün uşaqlar kimi bağçaya gedib.



Ceyhun 4 yaşında ad gününü uşaq bağçasında qeyd edir.



Ceyhun ad gününü evdə qardaşı Arzu ilə birlikdə qeyd edir.



*Ceyhun məktəb yeməkxanasında*



*Ceyhun altı yaşında bütün uşaqlar kimi məktəbə gedir. Bütün uşaqlar kimi I sinifə deyil, nadir uşaqlar kimi birbaşa II sinifə qəbul olunur*



*II sinif. İlk dərs günü 2002-ci il*






istiqanli bala hardan
bilerdik boyuyub sehid
olacaasa bu gunlerin
olaydi





Ceyhun asudə vaxtını mütaliə etməklə keçirir.





Ceyhun məşq zamanı



*Ceyhun qazandığı qələbədən sonra mükafatlandırılır.*





*Ceyhun vurğunu olduğu Bakıda*



*Ceyhun qardaşı Arzu ilə*



*Ceyhun, Arzu və İlqar Gəncə şəhərində*





*Dənizi sevən Ceyhun Xəzərdə*








132-134 saylı məktəb-təhsil kompleksi. 7-ci sinif şagirdi Ceyhun sinif yoldaşları ilə



*Şalıyev qardaşları*



*Ceyhunun xoş günlərindən bir an*



*Ceyhun xalası ilə Şəkidəki Xan Sarayında*



*Ceyhun dərin düşüncələr içində*





*Bakı Dövlət Universiteti. Ceyhun hüquq fakültəsində dərs zamanı*



*Ceyhunun universitet həyatı – qrup yoldaşları ilə*



*Ceyhun 2015-ci ildə universiteti bitirir*



*Xalça ilmələrində yaşayan Ceyhun*



*Romantik Ceyhun*



*Ceyhun məharətlə at çapır*



*Ceyhun – unudulmayan sima*



*Ceyhun 2015-ci ildə həqiqi hərbi xidmətə gedir.*



*Dayısı Gəray Ceyhuna baş çəkməyə gedib.*



*Əsgər Ceyhun xidmətilə qürur duyur.*





*Ceyhunun əsgərlik həyatından məqamlar*




*Ceyhun 44 gün davam edən İkinci Vətən müharibəsində Füzulu cəbhəsində gedən ağır döyüşlərdə müharibənin 4-cü günü, səhər saat 4-də Şəhid olub.*






*Ceyhunun nəşi izdihamla qarşılanır.*



*Ceyhun Şalıyev Sabunçu rayonu, Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib.*







*Ana övlad dağı ilə yanır.*




*Ata boynubükük qalıb.*



*Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayev Şəhid Ceyhun Şalıyevin məzarını ziyarət edir.*







*Şəhid Ceyhuna aid xatirə lövhəsi Gəncə—Daşkəsən yolunda*



*Qanundan yaranan Ceyhun qanunla danışır.*



*Ana Oğlunun şəkilləri ilə baş-başa*




*26 il 4 ay 10 gün 4 saat ömür yaşayan Ceyhun ömrünün son 6 gününü çağırışçılarla birlikdə burada yaşayıb və ondan sonra xatirə olaraq bir bu lövhə, bir də adına əkilən bir həmişəyaşıl ağac qalıb.*







*Gəncə qəhrəmanları – gəncəlilərin qürur yeri*




*Ceyhun yaşadığı mənzilin həyət–giriş qapısında sakinlərin keşiyində*





*Yaşadığı binada Ceyhunun xatirə barelyefi*



*Ceyhun çox sevdiyi Sabunçu dağında*










*Xeyirxah insanlar Şəhidlərimizi belə yaşadırlar.*



*Uşaqlıqdan Şəhidliyə gedən həyat yolunun üçrəngli bayrağa bükülmüş CEYHUN" buketi*



*Ceyhunun Şəhidliyinin ildönümü*

# II Qarabağ müharibəsi qəhrəmanı









"Qafqaz Media"
İctimai Birliyinin
təsis etdiyi
**"Cənnət Qoxulu Şəhidim"**
döş nişanı ilə
(ölümündən sonra)
təltif edilir



**Vəsiqə №923**

Ad: Ceyhun
Soyad:
Ata adı:

"Qafqaz-Media" İctimai Birliyinin Sədri:
Prezident Təqaüdçüsü, AYB-nın üzvü, şairə
Hacı Azadə - Taleh Abbas Qızı

*Ceyhun 44 günlük müharibədə bir Zəfər qazandı, bir də bu medalları*




ŞƏRQ-QƏRB

www.eastwest.az
facebook.com/sharqqarb
info@eastwest.az

Kitab təqdim edilmiş hazır fayl əsasında çap edilib.
Çapa imzalanmışdır: 12.05.2022. Format: 64x90 1/16
Ofset çapı vərəqi 17,5. Sifariş 682. Tiraj 1000

ŞƏRQ-QƏRB

AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 75 62, 374 83 43



**RƏNA ƏLYAR**
**(MƏMMƏDOVA)**
rena.alyarqizi@gmail.com

Dilçi alim, filologiya üzrə fəlsəfə doktoru, dosent, rus-azərbaycan dilləri frazeologiyası üzrə mütəxəssis, 2 metodiki vəsait, 1 ali məktəb üçün dərs vəsaiti, 5 proqram, 35 elmi məqalə, 1 irihəcmli "Azərbaycan dilinin frazeologiya lüğəti" 1 cilddə (1560 səhifə), "Azərbaycan dilinin frazeologiya lüğəti" 2 cilddə (əlavələr və dəyişikliklərlə, hər biri 1300 səhifə) və 1 ikidilli «Русско-азербайджанский лингвокультурологический словарь» lüğətlərinin müəllifidir.

Rəna Əlyar qızı Məmmədova 11 dekabr 1961-ci ildə Daşkəsən şəhərində anadan olmuşdur. İlk təhsilini Daşkəsən rayonu Alunitdağ qəsəbə 8 illik məktəbində almışdır. 1980-ci ildə Daşkəsən şəhəri S.Vurğun adına 4 saylı orta məktəbi, 1983–1988-ci illərdə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1988–1996-cı illərdə təyinatı üzrə Qəbələ rayonu Zarağan kənd 1 saylı orta məktəbində rus dili müəllimi, 1991–1994-cü illərdə həmin məktəbdə dərs hissə müdiri vəzifəsində işləmişdir. 1996–2001-ci illərdə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutu Rus dilinin qrammatikası kafedrasında laborant və baş laborant işləmişdir. 2002-ci ildə "Фразеологические единицы предикативной структуры в русском языке" adlı namizədlik dissertasiyasını müdafiə etmiş, 2009-cu ildə dosent elmi adını almışdır. 2001–2009-cu illərdə Bakı Slavyan Universitetinin Müasir rus dili kafedrasında müəllim, 2013-cü ildə Bakı Slavyan Universiteti Lüğət mərkəzi elmi-tədqiqat laboratoriyasında baş elmi işçi vəzifələrində işləmişdir. 2015-ci ildən hazırkı dövrə kimi Bakı Slavyan Universiteti filologiya və xarici dil müəllimliyi fakültəsinin Müasir rus dili kafedrasında dosent vəzifəsində çalışır.